ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

# "ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR"

## Elmi-praktiki jurnal

№ 2 (06)

BAKI - 2016

**BAŞ REDAKTOR:**
**Hüseyn Qaraşov,** *sosiologiya üzrə elmlər doktoru, professor*

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Mobil Məcidov,** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**MƏSUL KATİB:**
**Zeynəddin Şabanov,** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
**REDAKSİYA HEYƏTİ:**

i.ü.e.d., professor Səttar Mehbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.ü.e.d., professor Hüseyn Qaraşov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.ü.e.d., professor Ramiz İsgəndərov - Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri

i.ü.e.d., professor Tərbiz Əliyev - AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsinin baş elmi işçisi

i.ü.e.d., professor Sadıq Salahov - AMEA Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun direktoru

fəl.ü.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə İnstitutunun direktoru

ped.ü.e.d., professor Fərahim Sadıqov - Bakı Elm-Təhsil Mərkəzinin direktoru

tarix ü.e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin "Azərbaycan tarixi" kafedrasının müəllimi

biol.ü.f.d., dos. Sirac Məmmədov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris işləri üzrə prorektoru

i.ü.f.d., dos. Mobil Məcidov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dos. Əsgər Əliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat" fakültəsinin dekanı

i.ü.f.d. Hicran Mirzəyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə" fakültəsinin dekanı

fəl.ü.f.d., dos. Zeynəddin Şabanov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Sosial tərəfdaşlıq, Həmkarlar ittifaqı hərəkatı və humanitar fənlər" kafedrasının müdiri, məsul katib

i.ü.f.d. Raziyyə Maniyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması" şöbəsinin müdiri

i.ü.f.d., dos. Gülnarə Hacıyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə və mühasibat uçotu" kafedrasının müdiri

i.ü.f.d. Şövqi Quliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri

*Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr.181, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Tel.: 563-01-32; e-mail: jurnal@aesma.edu.az; aesma.elmi-jurnal@mail.ru.*
*Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi Şurasının qərarı ilə çap olunur. (protokol № 4, 26.12.2016)*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014*

# MÜNDƏRİCAT

**MÜNDƏRİCAT**…………………………………………………………………......3

**HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ**

**Hüseyn Qaraşov**
Cəmiyyətin demokratikləşməsində sosial tərəfdaşlığın rolu.................................5

**HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ**

**Nizami Süleymanov**
Azərbaycan Səfəvi dövlətinin ticarət siyasəti............................................................12

**Hidayət Cəfərov**
Xocalı nekropolunun IV qrup abidələri: “Daş qutu” qəbirləri...................................18

**Afaq Məmmədova**
Romantizmin fəlsəfi səpgidə tədqiqinin aktuallığına dair............................................26

**Söhrab Məhərrəmov**
Postsənaye dövründə informasiya cəmiyyəti və bilik................................................31

**Təranə Vəliyeva**
Tədris prosesində informasiya texnologiyalarının tətbiqi..........................................41

**Назиля Мамедова**
Культура как система ценностей..........................................................................46

**Kamal Hacıyev**
Bələdiyyə orqanlarının vəzifəli şəxslərinin ictimaiyyət qarşısındakı məsuliyyətində ictimai rəyin siyasi səciyyəsi............................................................................52

**Aydın Şirinov**
Dərketmə prosesi, onun strukturu və səviyyələri.......................................................58

**Шарафеддин Шарифов**
Пределы правового регулирования общественных отношений и правовой нигилизм как разновидность деформации правосознания....................................65

**Sədaqət Məmmədova**
Azərbaycanda təhsilin gender problemləri..............................................................71

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

**Şövqi Quliyev, Azər İbrahimov**
Tibbi sığortanın həyata keçirilməsində beynəlxalq təcrübə.......................................77

**Kifayət Xudaverdiyeva**
Azərbaycan iqtisadiyyatının inkişafında vergi daxilolmaları, vergi uçotu və vergi siyasətinin rolu..........................................................................................................85

**Kutais Sarıyev**
Azərbaycanda sahibkarlığın inkişafının prioritet istiqamətləri..................................93

**Nurəngiz Mikayılova**
Karbohidrogen ixracının ölkənin sosial-iqtisadi inkişafına təsiri...............................97

**Инна Дедкова, Вадим Дедков, Татьяна Ильина**
Экономическая безопасность как необходимое условие социально-экономического развития региона.........................................................................104

**Алиева Джамиля**
Место и роль рынка акций в фондовом рынке (на рынке ценных бумаг).........108

**Vilayət İsmayılov**
Daşımada nəqliyyat aqreqatının ən qısa marşrutunun təyin edilməsinin şəbəkə modeli.........................................................................................................................114

**Mobil Məcidov**
Təhsil müəssisələrində səriştəyə və fəaliyyətin nəticələrinə əsaslanan əməyin ödənişi sisteminin mexanizminin qurulması...........................................................................120

## HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ

**UOT – 316.33**

**Hüseyn Qaraşov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, sos.ü.e.d., professor**

# CƏMİYYƏTİN DEMOKRATİKLƏŞMƏSİNDƏ SOSİAL TƏRƏFDAŞLIĞIN ROLU

*Məqalədə cəmiyyətin yeniləşməsində və demokratik dəyərlərin bərqərar olmasında yeni ideologiya və metodların, əməkdaşlıq və birliklərin rolu təhlil edilir. Cəmiyyətdə sosial sülhə nail olmaq və sosial əmək münasibətlərinin tənzimlənməsini həyata keçirmək üçün işçilər, işəgötürənlər və dövlət arasındakı əməkdaşlıq forması olan sosial tərəfdaşlıq, onun mahiyyəti, yaranması və inkişafına müəllif mövqeyi bildirilir. Avropa ölkələrində, o cümlədən Rusiyada sosial əmək münasibətlərinin tənzimlənməsində sosial tərəfdaşlığın prinsiplərinə əməl olunması və bunun pozitiv nəticələri araşdırılır. Müəllif sosial tərəfdaşlığın ayrı-ayrı məqamlarına öz münasibətini yeni aspektdə təqdim edir.*

Cəmiyyətin demokratikləşdirilməsi və eləcə də mövcud bazar iqtisadiyyatı sosial tərəfdaşlığın əsas subyektləri olan işəgötürənlər, muzdlu işçilər və dövlət arasında təzahür edən sosial-əmək münasibətlərinin xarakterini əhəmiyyətli şəkildə dəyişdirir. Bu zaman qarşıdurma, konfrontasiya və mübarizə sosial dialoqun təşkili zəruriyyətinin dərk edilməsi və həmçinin münasibətlərinin tərəflər arasında mövcud olan maraqların balansına əsasən yaradılması ilə əvəz olunur. Sosial təcrübə münasibətlərinin yeni tipini – inzibati sərəncamvericilikdən tədricən ictimai prosesin müqavilə ilə idarə edilməsini nəzərdə tutan sosial tərəfdaşlığı yaradır [6, s.278].

Sosial tərəfdaşlığın formalaşmış sistemində həmkarlar ittifaqı maraqlı tərəf kimi çıxış edir [3], belə ki, məhz bu orqan hərəkətli və eyni zamanda daha həssas olan işçi qrupun, yəni muzdlu işçilərin marağını ifadə edir. Həmkarlar ittifaqının sosial-əmək münasibətlərinin mühüm subyektləri ilə münasibətinin təşəkkül tapması, sosial tərəfdaşlığa dair bütün təsisatların inkişaf etdirilməsi və daha da təkmilləşdirilməsindən asılıdır [6, s.284].

Sosial tərəfdaşlığı sosial əmək münasibətlərinin cəmiyyətdə sosial razılığın əldə edilməsinə yönəldilmiş muzdlu işçilər, sahibkarlar və dövlətin maraqlarının tarazlaşdırılması vasitəsilə tənzimlənməsinin xüsusi tipi kimi müəyyən etmək mümkündür.

Sosial tərəfdaşlığın ideologiyasının əsası həm milli, həm də beynəlxalq hüquqi sənədlərdə təsbit olunmuş mühüm prinsiplərdən təşkil edilmişdir.

Hər bir səviyyədə əməkdaşlığın həyata keçirilməsinin öz formaları vardır: saziş layihəsi və kollektiv müqavilələrin, eləcə də onların yekun nəticələrinin hazırlanmasına dair kollektiv razılaşmalar; sosial-əmək münasibətlərinin tənzimlənməsi məsələlərinə dair qarşılıqlı məsləhətləşmələr; işçilər və onların nümayəndələrinin təşkilatın idarə olunması sistemində iştirakı; fəhlələrin nümayəndələri və sahibkarların əmək mübahisələrinin məhkəməyə qədər həllində iştirak etməsi [6, s.163].

Danışıqların aparılması, müqavilə və sazişlərin hazırlanması və yekunlaşdırılmasının təmin edilməsi məqsədilə sosial tərəfdaşlıq sistemində müvafiq orqanlar fəaliyyət göstərirlər: sosial-əmək münasibətlərinin tərəfdaşlığın respublika və ərazi səviyyəsinə uyğun olaraq tənzimlənməsini həyata keçirən üçtərəfli komissiyalar. Saziş bütün səviyyələrin büdcədən tam və ya qismən müəyyənləşdirilməsini əhatə etdikdə, bu növ sazişlər dövlətin icra hakimiyyətinin müvafiq orqanlarının və eləcə

də tərəfdaşlığın tərəfi kimi çıxış edən yerli özünüidarəetmə orqanlarının nümayəndələrinin mütləq iştirakı ilə imzalanır.

Bu və ya digər tərəfdaş öz marağını nümayəndələri vasitəsi ilə ifadə edir. İşçilərin nümayəndəsi bir qayda olaraq həmkarlar ittifaqıdır, lakin zərurət yarandıqda digər səlahiyyətli orqanlar da işçilərin nümayəndələri kimi çıxış edə bilərlər (məsələn: müəssisədə həmkarlar ittifaqı təşkilatının olmaması şəraitində). Sahibkarların nümayəndəsi təşkilatın rəhbəri və ya sahibkarların həmkarlar ittifaqı, dövlət hakimiyyəti orqanları və ya yerli özünüidarəetmə orqanları ilə dialoq aparan sahibkarlar birliyinin marağını əks etdirən könüllü qeyri-kommersiya təşkilatından səlahiyyətli şəxs olur [6, s.135].

Dövlətin nümayəndəsi isə özünün sosial tərəfdaşları ilə lazımi və müqavilə imzalamaq səlahiyyətinə malik olan qanunverici və icraedici hakimiyyət orqanlarıdır.

Sosial tərəfdaşlıq sistemi həmçinin özündə aşağıdakıları əks etdirir: tərəfdaşlığın (saziş, müqavilə) məqsədinin həyatakeçirilmə mexanizmi, danışıq prosesinin qayda və prosedurasını, saziş və müqavilənin yerinə yetirilməsinə nəzarət, sosial tərəfdaşlığın tərəflərinin məsuliyyəti.

Məlum olduğu kimi, sosial tərəfdaşlıq münasibət və əlaqələr, rəsmi və qeyri-rəsmi qayda və prosedurların kifayət qədər mürəkkəb strukturlu elementlər olan sistemini ifadə edir. Qeyd etmək lazımdır ki, biz bu gün artıq cəmiyyətdə sosial qaydanın qorunub saxlanılmasına yönəldilmiş mühüm tənzimlətici funksiyaları yerinə yetirən təsisatları görürük [7, s.264].

Sosial tərəfdaşlığı dəyişən reallıqlara cavab verən sosial idarəetmənin yeni forması kimi də nəzərdən keçirmək mümkündür. Məsələn əvvəllər (Qərb ölkələrində erkən kapitalizm dövründə və ya Sovet İttifaqında “inkişaf etmiş sosializm” mərhələsi dövründə) muzdlu işçi idarəetmənin təsir obyekti kimi tanınırdı və onu müvafiq şərtlərin yerinə yetirilməsinə məcbur etmək mümkün hesab edilirdi. Sahibkar, ağa və mülkiyyətçi isə subyekt kimi çıxış edirdisə, sosial tərəfdaşlıq sistemində dəyişiklik aydın şəkildə özünü birüzə verir. Eyni zamanda həm obyekt, həm də subyekt olduğu kimi təzahür etməyə başlayır. Qeyd edilən amil həm işçilərə, həm də dövlət və biznesə şamil olunur. Bu zaman dövlət nəinki öz şərtlərini irəli sürür, həmçinin onun özünə müvafiq tələblər tətbiq edilir. Biznes sahəsində də bu vəziyyətlə rastlaşmaq mümkündür.

Sosial tərəfdaşlığa eyni zamanda cəmiyyətin özünütəşkilinin yeni elementi kimi baxmaq olar. Real sosial təcrübədə baş vermiş öz-özünə əmələ gələn proseslərin nizama salınmasını güc ilə deyil, məlumat-ünsiyyət vasitəsilə sosial tərəfdaşlıq təsisatları təmin edir.

Sosial tərəfdaşlığın inkişafı və formalaşması bir sıra məntiqi mərhələlərdən ibarətdir. Burada üç mərhələ xüsusilə nəzərə çarpır:

1. Həmkarlar ittifaqlarının yaradılması, onların təşkili və inkişaf etdirilməsi;
2. Sahibkarlar birliyinin formalaşdırılması və onlar tərəfindən həmkarlar ittifaqının yaradılmasının zəruriliyinin dərk edilməsi;
3. Dövlətin sosiallaşdırılması [7, s.229].

Son nəticədə söhbət sosial-əmək münsibətlərinin yeni növünə hazır olan subyektlərin formalaşmasından və bu münasibətlərin normativ-hüquqi tənzimlənməsindən gedir. Qeyd olunmuş mərhələləri daha ətraflı şəkildə nəzərdən keçirək.

1. Ən başlıcası odur ki, sosial tərəfdaşlığın gələcək perspektivi muzdlu işçilərin təşkilatı kimi həmkarlar ittifaqlarının yaranması olmuşdur.

“Əmək-kapital” cütlüyündə əmək hərəkətli element olmaqla bərabər, eyni zamanda həm də zəifdir. Muzdlu işçi pul kimi güclü resursa malik olan sahibkara qarşı çıxmaq üçün kifayət qədər gücə malik olmur.

Cəmiyyətin Sənaye İnqilabı və kapitalın ilkin şəkildə toplanması mərhələsində tarixi cəhətdən inkişafının vektorunu əhəmiyyətli dərəcədə müəyyən edən əmək ilə kapital arasında mövcud olan

münasibətlər muzdlu işçi qüvvəsinin özünün və şəxsi maraqlarının müdafiə zəruriliyinin yaranmasına təkan vermişdir.

K.Marksın fikrincə, əmək ilə kapital arasında mövcud olan ziddiyyət və çoxlu sayda etiraz aksiyaları kimi təzahür edən “partizan müharibəsi” ciddi və uzunmüddətli müsbət nəticələrin əldə edilməsinə səbəb olmadı [4, s.143].

Bunun üçün işçilərin birliyinin formalaşması və onların həmrəy fəaliyyətinin təkmilləşməsi tələb olunurdu.

Həmrəyliyin ilk və təbii əlaməti peşə xüsusiyyətinə görə təşkil edilmişdir. XVIII əsrin sonlarından etibarən Qərbi Avropa ölkələrində XIX əsrin əvvəllərindən Amerikada və XX əsrin əvvəllərindən etibarən Rusiyada peşəkar birliklər yaradılmağa başlanmışdır. Qeyd etmək maraqlıdır ki, bu birliklər fəhlə sinfinin siyasi partiyalarından əvvəl yaranmışdır [5, s.254].

Bu birliklər inkişafın ilkin mərhələsində qarşılıqlı yardım cəmiyyətinin xarakterini (Rusiyada qarşılıqlı yardım kassaları) əks etdirir və özlərinin şəxsi iqtisadi problemlərinin həlli çərçivəsindən kənara çıxmırdılar. Daha sonra peşəkar ittifaqlar özlərinin geniş olmayan dəstələrinin maraqlarını daha geniş olan əmək birliyinin maraqları ilə uzlaşdıraraq, tətil mübarizəsinə qoşuldular.

İlk həmkarlar ittifaqları - əməyin təşkilinin köhnə sex formasını əks etdirən lokal birlikləri ifadə edirlər. Onlar adətən sənətkar olan ixtisaslı fəhlələri - göncü, dərzi və s. öz tərkibində cəmləşdirirdilər. Peşəkar ittifaqların təşkilinin sex üzrə olan əlaməti nəinki onların tərkibini məhdudlaşdırır, həm də işçi qüvvəsinin daha əlverişli şərtlərlə satılmasına və eləcə də ittifaqlara daxil olan ayrı-ayrı işçi qrupunun üstünlüyə malik olmasına görə mübarizə aparan tred-yunionizm XIX əsrin ortalarında həmkarlar ittifaqının fəaliyyətinin xarakter və məqsədlərini müəyyən edən fəhlə sinfinin elit təbəqəsi olan “fəhlə aristokratiyası”nın formalaşması dövründə Böyük Britaniyada geniş şəkildə yayılmağa başlamışdır [5, s.184].

Hökumət və sahibkarlar peşəkar ittifaqların yaradılmasına qarşı çıxış edirdilər, hətta əksər ölkələrdə bu ittifaqların yaradılması qanunvericilikdə qadağan olunmuş və onlar gizli şəkildə fəaliyyət göstərirdilər.

Həmkarlar ittifaqının inkişafına dair məntiqi ideya sex və ya cüzi peşəkarlıq əlaməti üzrə formalaşmış və sayına görə azlıq təşkil edən ittifaqdan iri milli və beynəlxalq ittifaqlarda tədricən birləşməsinə əsaslanmışdır.

İlk ittifaqlar fəhlə sinfinin imtiyazlı hissəsi olan ixtisaslı fəhlələrin xüsusi maraqlarının dəstəklənməsi məqsədi ilə yaradılmışdısa, həmkarlar ittifaqı üzvləri tədricən natamam ixtisası olmayan sənaye işçilərini özünə cəmləşdirməyə başladı.

İxtisası olmayan fəhlələr “fəhlə aristokratiyasının” sex üzrə olan həmkarlar ittifaqının tərkibinə daxil olmadıqları üçün istehsalat münasibətlərinə əsaslanmış “şəxsi” həmkarlar ittifaqlarını təsis etməyə başladılar [6, s.285].

Həmkarlar ittifaqı ququculuğunun siyasi, tarixi və iqtisadi şərtlərə oxşar olan təzahürlərinə bütün ölkələrdə təsdüf etmək mümkündür. Hər yerdə həmkarlar ittifaqları birləşir, möhkəmlənir, qanunla təsbit edilir və cəmiyyətin strukturları və eləcə də ictimai münasibətlər sistemində öz yerlərini tutaraq, şəxsi ideologiyalarını, bu ideologiyaya nail olmanın məqsəd və üsullarını, həmçinin özlərinin oyun qaydalarını təkmilləşdirirdilər.

Həmkarlar ittifaqlarının yaranması və təsisatlanması ilə əlaqədar olaraq, muzdlu işçilər biznes və dövlət ilə bərabərhüquqlu sosial dialoqun aparılmasına şərait yaradan, öz tələblərini əmək bazarında irəli sürən və onların icra edilməsinə nail olmağa təkan verən əlavə qüvvəni (əmək həmrəyliyi, ideologiya, təşkilati, maliyyə və maliyyə imkanlarının gücü) əldə etmişdilər. Bu qüvvənin nümayiş olunması əksər hallarda ünsiyyətcil olmayan tərəfdaşın müqavimətini sındırmaq üçün kifayət edir. Məhz muzdlu əməyin nümayəndəsi kimi çıxış edən həmkarlar ittifaqının fəaliyyəti sahəsində dünyanın inkişaf etmiş ölkələrində əmək haqqının əhəmiyyətli dərəcədə artırılmasına (məsələn,

ABŞ-da həmkarlar İttifaqı üzvlərinin əmək haqqı həmkarlar ittifaqları üzvü olmayanların əmək haqqından xeyli yüksəkdir və bununla həmkarlar ittifaqları fəxr edirlər), əmək şəraitinin yaxşılaşdırılmasına və eləcə də zəruri olan sosial zəmanətlərin təmin edilməsinə nail olmuşdur [4, s.174].

2. Sosial tərəfdaşlıq sisteminin yaradılması sosial-əmək münasibətlərinin digər subyektinin – işəgötürənin (mülkiyyətçi kimi çıxış edən sahibkarlar, biznesmenlər, dövlət, bələdiyyə orqanları və özünüidarəetmə orqanları da əvəz edə bilər) dövlət qeydiyyatına alınmadan və onun sosial oriyentasiyası dəyişilmədən, o cümlədən həmkarlar ittifaqının zəruriliyini dərk etmədən mümkün deyil.

Uzun illər ərzində sahibkarlar, işçilər və onları təmsil edən həmkarlar ittifaqları arasında mövcud olan münasibətlər “bir qapıya oynanılan oyunu” xatırlatmışdır. Sahibkar işçi ilə onun üçün əlverişli olan dərəcədə hesablaşırdı. Həmkarlar ittifaqında da vəziyyət eyni şəkildə idi. Kapitalın sahibi və sahibkar həmkarlar ittifaqını məhv edilməsi zəruri hesab edilən düşmən kimi qiymətləndirirdilər. Bu növ mübarizələr həmkarlar ittifaqının tarixində qeyd olunduğu kimi daha sərt şərtlərlə həyata keçirilirdi. Buna nümunə olaraq, Çikaqo şəhərində I Dünya Müharibəsi dövründə fəaliyyət göstərən həmkarlar ittifaqı təşkilatının 16 rəhbər üzvünün 20 il müddətinə həbsə alınması, digərlərinə isə 1 ildən 10 ilə qədər həbs cəzası tətbiq edilməsini göstərmək olar. Kapitalistlər və sahibkarlar hər hansı bir həmkarlar ittifaqını məhv etmək üçün böyük qüvvəyə malik idilər.

Lakin iqtisadi həyatın inkişaf etməsi ilə əlaqədar olaraq, mülkiyyətçilər və sahibkarları təmsil edən menecerlər arasında həmkarlar ittifaqının nəinki destruktiv, həm də konstruktiv qüvvə kimi çıxış etməsinə dair ideyaları dərk etməyə başladılar. Məhz həmkarlar ittifaqına əsaslanmaqla, əmək münaqişələrini daha keyfiyyətli şəkildə tənzimləmək, eləcə də “xoşagəlməz” güzəştlərə yol verən zaman (məsələn, əmək haqqının yüksəldilməsi, iş saatının azaldılması və s.) uzunmüddətli strateji qələbəyə nail olmaq mümkündür.

Biznes ilə həmkarlar ittifaqı arasındakı münasibət eyni ilə əmək və kapital arasındakı ziddiyyətin aradan qalxmadığı kimi aydın deyildi, ona görə bəzi ölkələrdə həmkarlar ittifaqını qəbul etməməyə, hətta qanunla qadağan etməyə çalışırdılar. Onlar tədricən sivilizasiyalı yol tutaraq, açıq-aşkar mübarizəyə deyil, tənzimləyici təsisatlara, kompromisslərə, sazişlərə, müqavilələrə və razılaşmalara üstünlük verməyə başladılar [6, s.287].

Əlbəttə, həmkarlar ittifaqının formalaşması və sosial tərəfdaşlığın subyektinə çevrilməsində əsas ağırlıq öz maraqlarını müdafiə edən fəhlə sinfinin, həmkarlar ittifaqları liderləri və fəallarının üzərinə düşmüşdü. Amma “anlayan” digər tərəfin iştirakı və güzəşti olmadan bu proses daha mürəkkəb vəziyyətə düşərdi.

Sahibkarlar və onları təmsil edən inzibatçıların öz maraqları və məqsədləri olur. Onlar sosial cəhətdən nə qədər humanist olsalar da öz fəaliyyətlərində ilk növbədə iqtisadi-istehsalat meyarlarına əsaslanmağa məcbur olurlar. Onların məqsədli funksiyaları maksimal gəlirin əldə edilməsi, maksimal cəhətdən mümkün hesab edilən effektivliyə nail olma, rəqabət qabilliyətinə malik olma və öz biznes fəaliyyətini yaşatmaqdan ibarətdir. Sosial proqramlar bu funksiyaların qurbanlarına çevrilir.

Burada söhbət sahibkarların, menecerlərin “pis” təbiətindən və sosial cəhətdən qeyri-həssas olmasından deyil, onların vəziyyəti və öhdəliklərinin obyektiv olaraq müəyyən edilməsindən gedir. İnsanların ehtiyaclarına qarşı həddindən artıq həssas olan sahibkar müflisləşə, menecer isə öz vəzifəsindən məhrum ola bilər.

Lakin sosial vəzifələri könüllü şəkildə yerinə yetirmək “hüququna malik olmayan” sahibkarlar bu vəzifələri bəraətverici amil hesab etdikləri təzyiq altında icra etməyə razı olurlar. İqtisadi cəhətdən kifayət qədər səmərəli olmayan qərarların qəbul edilməsini də məhz bu amil (təzyiq) ilə izah edirlər. Sahibkarlara təzyiq funksiyaları muzdlu işçilərin maraqlarını müdafiə və ifadə edən həmkarlar ittifaqları tərəfindən tətbiq olunur.

Sahibkarlığın sosial səriştəliyinin yüksəlməsi onun nəinki öz şərtlərini diktə etmək, hətta danışıq prosesini aparmağa hazır olan digər tərəfin arqumentlərini dinləmək və bu arqumentləri dərk etmək bacarığına malik olmasını xüsusi qeyd etmək lazımdır.

Sahibkarlar digər tərəf olan muzdlu işçilər kimi öz maraqlarını həmişə təklikdə müdafiə etmək imkanına malik olmurlar, məhz buna görə də onlar respublika və ərazi üzrə birləşməyə məcbur olurlar. Nəticədə bu sistemdə nümayəndəli orqan kimi çıxış edən müxtəlif assosiasiyalar və sahibkarlar birliyi yaradılır [3, s.128].

Sahibkarlar birliyi həmkarlar ittifaqlarının əsas sosial tərəfdaşları hesab edilirlər, onlar arasında aparılan dialoqlar zamanı sosial-əmək münasibətlərinin tənzimlənməsinə dair mühüm məsələr, eləcə də muzdlu işçilərin hüquq və maraqlarının müdafiəsinə dair məsələlər həll edilir.

3. Dövlət yalnız sosiallaşdıqda, yəni, təkcə rəhbər sinfin maraqlarını deyil, həm də bütün cəmiyyətin, xüsusilə də ən zəif təbəqələrin maraqlarını müdafiə və ifadə etdikdə, sosial tərəfdaşlığın tərəfinə çevrilir. Sovet dövlətində sosial tərəfdaşlıq öz təyinatına görə fəaliyyət göstərə bilməzdi, burada dövlət bütün funksiyaları yerinə yetirirdi: həm qanunverici, həm sahibkar, həm də sosial müdafiə vəzifəsini. Sahibkarlar təbəqəsi sadəcə olaraq mövcud deyildi, həmkarlar ittifaqları isə partiya-dövlət strukturunu ifadə edir və onların sosial sahə üzrə sifarişini yerinə yetirirdilər.

Dövlətin sosiallaşması, onun bütün üzvlərinin ehtiyac və tələbatlarına yaxınlaşdırılması, onun “insanlaşdırılması”, eləcə də ictimai bərabərlik və şəxsi sərbəstliyə dair şərtlərin yaradılması prosesini ifadə edir. Bu prosesin həyata keçirilməsinin nəticəsi isə sosial dialoqun aparılmasına hazır olan və bacarığa malik olan sosial dövlətin yaradılmasına əsaslanır [2, s.45-46].

İkinci Dünya müharibəsindən sonra əksər ölkələrdə sosial dövlətin formalaşdırılması konstitusiya prinsipi kimi həyata keçirilmişdir. İlk dəfə sosial dövlət Almaniya Federativ Respublikasının 1949-cu ildə qəbul olunmuş və Almaniyanı “demokratik və sosial federativ dövlət” bəyan edən konstitusiyasında öz əksini tapmışdır. Sosial dövlət haqqında olan müddəalar həmçinin Fransa, İtaliya, İspaniya, Portuqaliya, İsveç, və Şərqi Avropa ölkələrinin konstitusiyaları ilə möhkəmlənmişdir.

1993-cü ildə Rusiyanın həmkarlar ittifaqları Rusiya Federasiyası Konstitusiyasına sosial dövlət haqqında müddəa daxil edilməsi barəsində təşəbbüslə çıxış etmişdi. Uzun və gərgin disskusiyalardan sonra bu müddəa referendumda konstitusiya norması kimi qəbul olundu. Rusiya Federasiyası Konstitusiyasının 7-ci maddəsində deyilir: “Rusiya Federasiyası – sosial dövlətdir, siyasəti insanın layiqli yaşaması və sərbəst inkişaf etməsinə şərait yaratmaqdır”.

Konstitusiyaya əsasən sosial dövlətdə:

- insanların əməyi və sağlamlığı mühafizə olunur;
- əmək haqqının minimum həddinin təminatı müəyyən etdirilir;
- ailə, analıq, atalıq və uşaqlıq eləcə də əlil yaşlı insanlar dövlət yardımı ilə təmin olunur;
- sosial xidmət sistemi inkişaf etdirilir;
- dövlət pensiyası, müavinəti və digər sosial müdafiəyə təminat müəyyən edilir [7, s.147].

Azərbaycan Konstitusiyanın 16-cı maddəsində (sosial inkişaf və dövlət) deyilir: “Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır” [1].

Mərkəzi Avropa və Skandinaviya ölkələrində sosial dövlətin yaradılmasında əhəmiyyətli rol həmkarlar ittifaqlarına məxsusdur. Həmkarlar ittifaqları parlamentlərdə və hökumət tərəfindən keçirilən müxtəlif sosial proqramlarda (iqtisadiyyata sosial xarakterin verilməsi üzrə olan proqramlarda) inadla lobbist kimi çıxış edirlər.

Sosial məqsədlərin digər məqsədlər üzərində üstünlük təşkil etməsi və dövlətin düzgün şəkildə aparılan sosial siyasəti bütün sosial təsisatların meyillərini ifadə edərək, daimi ictimai nəzarət altında olur.

Son nəticədə sosial dövlət növbəti məqsədlərə aid hüquqi dairəni yaradır, davranış qaydalarını, aşağıdakı qaydaların həyata keçirilməsi və nazarət mexanizmlərini müəyyən edir:

- ölkənin iqtisadi təhlükəsizliyini təmin edən sosial bazar təsərrüfatının inkişafı və sabit fəaliyyəti;
- vətəndaşların istehsalat, xidmət sahələri, dövlətin və ictimai həyatın idarə olunmasında real iştirakı;
- sahibkar və işçinin maraqlarına uyğun olaraq tarif siyasətinin həyata keçirilməsi;
- sosial sahələrin – təhsil, elm, səhiyyə, mədəniyyət, eləcə də sərbəst yaşamalarını təmin edə bilməyənlərin maraqlarını müdafiə etmək, sosial ədalət prinsipi əsasında vətəndaşın bərabər və layiqli yaşamasına, həmrəylik, vətəndaş razılığı, faydalı sosial əlaqələr qurulmasına şərait yaratmaq;
- vətəndaşların sosial həmrəyliyi və onların gəlirinin ədalətli şəkildə bölüşdürülməsi siyasətinin həyata keçirilməsi;
- insanın layiqli yaşayış və onun sərbəst şəkildə inkişaf etməsinin təmin olunmasına yönəldilmiş sosial siyasət və fəal əməkdaşlığın təsdiqlənməsi [8, s.245].

Sosial dövlət prinsip və məqsədlərinin konstitusiya ilə təsdiqi təkcə əlavə hüquqi imkanlar yaratmır, həm də sosial tərəfdaşlıq sisteminin yaradılmasını və funksiyalarını güclü şəkildə fəallaşdırır. İndi dövlət insanlar və təsisatlar üzərində hökmranlıq edən qüvvə kimi izah olunmur, onun digər sosial subyektlərlə hüquqlarının bərabərliyi, bunlar arasında ədalət və humanizmə əsaslanan böyük əlaqələr qurmağa şərait yaradır.

Nəzəri təhlil və praktiki təcrübədən məlum olduğu kimi, sosial tərəfdaşlıq sisteminin müxtəlif ölkələrdə yaradılması və bu sistemin fəaliyyət göstərməsinə dair yekun müddəaları ümumiləşdirməklə, belə qənaətə gəlmək olar ki, bu sistem qeyd olunmuş dövlətlərin siyasi və iqtisadi şərtlərinə uyğun olaraq, onun tarixi və mədəni ənənələrini əks etdirir.

On milyonlarla insanın maraq və hüquqlarının müdafiəçisi kimi birinci növbədə həmkarlar ittifaqları tərəfdaş olaraq sosial tərəfdaşlıq sisteminin inkişafına görə məsuliyyəti öz üzərinə götürməlidir. Həmkarlar ittifaqlarının hüquqi statusu rəsmi olaraq sosial-əmək münasibətlərinin tənzimlənməsində dövlət və işəgötürənlə bərabər hüquqla iştirak etməyi təmin edir. Lakin bir çox obyektiv və subyektiv səbəblərə görə onlar hələ ki, tərəflərlə tam bərabər hüquqa malik deyillər. Ona görə də onlar iqtisadi və siyasi vəziyyətdən asılı olaraq dövlət ilə biznes arasında manevr edərək müxtəlif alyanslarda çıxış etməyə məcbur olurlar [9, s.37].

Həmkarlar ittifaqları sosial tərəfdaşlıq təsisatlarının inkişaf etdirilməsi məqsədilə özünün dövlət və işəgötürənlər ilə olan münasibətlərindəki mövqeyini daha aydın şəkildə müəyyən etməli və bu zaman bürokratiya maraqlarına deyil, təmsil etdikləri muzdlu işçilərin maraqlarına əsaslanmalıdırlar. Həmkarlar ittifaqlarına olan etimadın möhkəmlənməsi onların fəaliyyətinin konkret şərtlərindən, nüfuzunun artması və cəmiyyətdə olan təsirindən, eləcə də bir sıra təşkilat və liderlərinin əlverişli hesab edilən imicinin təşkilindən asılı olur.

Azərbaycan Respublikasının Əmək Məcəlləsi də sosial-əmək münasibətlərinin tənzimlənməsi istiqamətində sosial tərəfdaşlıq sistemində həmkarlar ittifaqlarının hüquq və səlahiyyətlərini möhkəmləndirir.

**Açar sözlər:** sosial tərəfdaşlıq, həmkarlar ittifaqları, dövlət, işçi, sahibkar, kollektiv müqavilə

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2016, 68 s.
2. Dayıyev R.H. Əhalinin sosial müdafiəsinin təşkilində qeyri-dövlət təşkilatlarının rolu // Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Bakı: 2000
3. “Həmkarlar ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 24 fevral 1994-cü il, № 792.

4. Həsənov V.S. Azərbaycan həmkarlar ittifaqları inzibati amirlik rejimi dövründə. (XX əsrin 20-30-cu illəri). Bakı: Elm, 2004, 376 s.
5. Həsənov V.S., Mehdiyev Ə.B. Azərbaycan həmkarlar ittifaqlarının tarixi. Bakı: Azər SC, 2005, 451 s.
6. Qaraşov H.T. Həmkarlar ittifaqları hərəkatının əsasları. Bakı: Avropa, 2015, 448 s.
7. Гриценко Н.Н. Профсоюзное движение в России: исторический опыт и современность. М.: 2010
8. Киселев В.Н. Социальное партнерство в России. М.: Луч, 2012, 98 с.
9. Маниева Р.С. Основы профсоюзного движения. Баку: Авропа, 2012, 244 с.

**Гусейн Гарашов**

**РОЛЬ СОЦИАЛЬНОГО ПАРТНЕРСТВА В ДЕМОКРАТИЗАЦИИ ОБЩЕСТВА**

**Резюме**

В статье анализируется роль объединений и сотрудничеств, новой идеологии и методов, при обновлении общества, установлении демократических ценностей. В статье автор выразил свою позицию о создании и развитии социального партнерства, для достижения социального мира и осуществления регулирования социально-трудовых отношений между работниками, работодателями и государством. В Европейских странах, в частности, в России исследуются принципы социального партнерства в регулировании социально-трудовых отношений и их положительные результаты. Автор представляет собственный подход к некоторым моментам социального партнерства в новом аспекте.

**Ключевые слова:** социальное партнерство, профсоюзы, государство, работник, предприниматель, коллективный договор

**Husseyn Qarashov**

**THE ROLE OF SOCIAL PARTNERSHIP IN DEMOCRATIZATION OF THE SOCIETY**

**Summary**

The role of associations and partnerships, new ideologies and methods in the creation of democratic values and renewal of society is analyzed in the article. The author expresses his position on the establishment and development of social partnership to achieve social peace in society and to regulate social and labour relations among the workers, employers and the state. In European countries including in Russia the principles of social partnership in the regulation of social and labour relations and their positive results are explored. The author presents his own approach to some moments of social partnership in a new aspect.

**Keywords:** social partnership, trade union, state, worker, employee, collective agreement

**HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ**

**UOT – 930**

**Nizami Süleymanov**
**Azərbaycan Dövlət İqtisad Universiteti, tarix ü.e.d., dosent**
**e-mail: nizamisuleymanov@mail.ru**

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN TİCARƏT SİYASƏTİ

*Məqalədə Səfəvilər dövründə ölkə iqtisadiyyatının çox mühüm və gəlirli sahələrindən biri kimi ticarətin inkişafına dövlət qayğısı, I Şah İsmayılın bir sıra fərmanları ilə ticarətin inkişafına mane olan vergilərin aradan qaldırılması, I Şah Təhmasibin dövründə karvan yolları, keçidləri və şəhər bazarlarında tacirlərdən alınan tamğa vergisinin aradan götürülməsi, I Şah Abbasın vergi siyasətinin daxili və xarici iqtisadi əlaqələrə göstərdiyi müsbət təsiri, həmçinin karvan yollarının, karvansaraların normal fəaliyyət göstərməsi və təhlükəsizliyinin təmin edilməsi sahəsində həyata keçirdiyi tədbirləri, I Şah Səfinin daxili bazarlarda ticarətin tənzimlənməsi ilə əlaqədar verdiyi qanunları, ipək ticarəti üzərində qoyulmuş inhisar hüququnu ləğv etməsi, II Şah Abbasın dövründə ticarətin inkişaf etdirilməsi sahəsində dövlətin yeritdiyi düzgün siyasət dövrün mənbələri və mövcud ədəbiyyatlar əsasında təhlil edilmişdir.*

Səfəvilər dövründə ticarət ölkə iqtisadiyyatının çox mühüm və gəlirli sahələrindən biri olduğundan, dövlət daxili ticarət məsələlərinə və xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirirdi. Səfəvilər elə hakimiyyətlərinin ilk çağlarından Azərbaycanın iqtisadi inkişafı yolunda əngələ çevrilən bir sıra maneələrlə üzləşmişdilər. Hələ XIII yüzilliyin ortalarında monqollar tərəfindən tətbiq edilən və bazara satış üçün çıxarılan məhsullara görə tacirlərdən alınan tamğa vergisinin [1, s.216-233] XV yüzilliyin II yarısında Uzun Həsən tərəfindən yarıbayarı azaldılması [2, s.321] ehtimal olunsa da, dövlət xəzinəsinə böyük gəlir gətirən bu vergi XVI yüzilliyin 60-cı illərinin ortalarına qədər qalmaqda davam etmişdi. Tamğa vergisi ilə yanaşı iqtisadiyyatın bir çox gəlir sahəsinin monqol çağından tətbiq edilən iltizama verilmə sistemi də sənətkarlıq və ticarətin inkişafınıləngidirdi.

Naməlum Venesiya tacirinin qeydlərinə görə, I Şah İsmayıl hakimiyyətinin (1501-1524) ilk illərində Təbrizdəki şəhər bazarında dükan sahibi olan hər tacirdən alqı-satqıya görə bir dükat, yaxud altı aspiri, sənətkarlardan isə vəziyyətlərinə görə vergi alırdılar. Bundan başqa, Təbrizə satış üçün mal gətirən xristian tacirlərindən mallarının dəyərinin 10/100-u qədər, müsəlman tacirlərindən isə mallarının dəyərinin 5/100-i qədər gömrük rüsumu alınırdı. Təbrizdən başqa şəhərə keçib gedən tacirlər mallarını bu şəhərdə çəkdirərdilərsə, malın dəyəri və çəkisinə görə gömrük ödəyirdilər. Şəhərdən keçib getmək istəyən tacirin malı qiymətli olardısa, habelə mallarının ümumi dəyəri 40-45 dükata çatardısa, daha az gömrük alınırdı [3, s.386-387]. Tacirin yazdığına görə, şəhərdə toplanan vergilər müqatiəyə (iltizama) də verilirdi. Məsələn, Təbrizdə vergilərin yığılmasını müqatiəyə götürən Qənbərəli hər il 60 min dükat mənfəət əldə edirdi [3, s.388-387].

Qeyd etmək lazımdır ki, iltizam sistemi və bir çox başqa amillərin daxili bazarın inkişafına və xarici ticarət əlaqələrinin genişlənməsinə mane olması dövlətin iqtisadi maraqlarına qətiyyən uyğun gəlmirdi. Elə buna görə də I Şah İsmayıl ölkənin paytaxtı olan Təbriz şəhərində ticarətin canlanmasına və inkişafına mane olan səbəblərlə ciddi maraqlanmış, onların bəzilərinin aradan qaldırılması ilə bağlı fərmanlar vermişdi. I Şah İsmayılın 5 oktyabr 1509-cu il fərmanından aydın olur ki, Hü-

seyn bəy Lələnin maaş müqabilində rəsm-ül-himayə adı ilə Təbriz tacirlərindən aldığı vergi şahın tacirlərə sədəqəsi olaraq ləğv edilmişdi. Həmin fərmanda deyilirdi: “Bundan sonra məzkur camaatdan bir dinar da tələb edilməsin” [4, s.311]. I Şah İsmayılın 1514-cü il yanvarın 12-də Təbrizin Qeysəriyyəsinə (örtülübazar) dair fərmanında isə göstərilir ki, Xacə Şahəlivə Xacəxan Bəzzazın dükanlarında qayda əsasında “ixracaatadı ilə gündə 30 Təbriz dinarı alsınlar və bunun azlığına-çoxluğuna baxmadan onlara artıq zəhmət verməsinlər” [4, s.312].

Göründüyü kimi, keçmişdən qalan bir sıra vergi və mükəlləfiyyətlər XVI yüzillikdə də daxili bazarların formalaşması prosesinə və fəaliyyətinə ciddi mane olurdu. Ancaq I Şah İsmayıl məhdud miqyaslı fərmanları ilə ticarətin inkişafına mənfi təsir göstərən bu maneələri tamamilə aradan qaldıra bilmədi.

XVI yüzilliyin 30-50-ci illərində Osmanlı-Səfəvi savaşlarının ölkə iqtisadiyyatına vurduğu ziyan və tamğanın mövcudluğu nəticəsində ticarətin, sənətkarlığın getdikcə çökməsi dövlətin iqtisadi maraqları ilə uzlaşmır və xəzinə tədricən əsas gəlir qaynaqlarından məhrum olaraq boşalırdı. I Şah Təhmasib (1524-1576) yeni iqtisadi siyasət xəttinə uyğun olaraq ticarəti inkişaf etdirməklə, xəzinənin gəlir qaynaqlarını formalaşdırmaq üçün ilk növbədə tamğa vergisinin ləğvini zəruri hesab etmiş və 1565-ci il martın 16-da bu barədə fərman vermişdi. Fərmana əsasən karvan yolları, keçidləri və şəhər bazarlarında tacirlərdən alınan tamğa vergisi aradan götürülürdü. Təbrizin cümə məscidinin divarına həkk olunmuş həmin fərmanda göstərilirdi ki, şah yuxusunda Sahibi-Əzzamanı (on ikinci imamı) görmüş və o, şaha bildirmişdir ki, çox yaxşı iş görüb bu tamğanı bağışlamısan və qalanını da bağışla. Və şah Sahibi-Əzzamanın əmri ilə fərman verdi. Və bu fərmanda deyilir ki, Məmaliki Məhrusənin (dövlət və ya şah tərəfindən qorunan ölkələrin – N.S.) bir çox yerlərində, o cümlədən Azərbaycan, İraq, Fars, Xorasan, Şiraz və Gilanda qızıl və gümüş zərb edilən zərbxanalardan alınan tamğaları 14 Məsum həzrətlərinə hədiyyə etdim və bundan sonra bütün Təbriz darüssəltənəsi, Ərzurum və İraq yollarından toplanılmalı olan və əvvəlki illərdən qalan 3885 dinarın alınmasını qadağan etdim.

Qeyd etmək lazımdır ki, ləğv edilən verginin miqdarı haqqında mənbələrdə müxtəlif rəqəmlər verilmişdir. Belə ki, dövrün bir çox tarixçilərinə görə ləğv olunan tamğa vergisi 30 min tümən, İsgəndərbəy Münşiyə görə isə min tümən məbləğində idi. Qazi Əhməd Qumidə Məmaliki-Məhrusə ərazisində I Şah Təhmasibin imamlara və başqa müqəddəs adamlara ehsan olaraq 30 min tümən məbləğində tamğanı əhaliyə bağışladığını bildirmişdir. O göstərir ki, “bu barədə qanunnamə (pərvanəçə) də yazılmış və ölkənin hər tərəfinə göndərilmişdir. Və əmrə görə fərman daş üzərinə həkk edilmişdir. Dünyanın sultan və xaqanlarının heç biri camaata bu cür mərhəmət göstərməmişdir” [5, c.1, s.449-450]. Qazi Əhməd Qumi hicri 994-cü (1585-1586) ildə də fərmanın qüvvədə olduğunu və ona əməl edildiyini qeyd etmişdir. Müəllif həmin fərman əsasında yoxsulların xəzinəyə borclarından azad olunduğunu, əksər şəhərlərin əsnaf və sənətkarlarından alınan vergilərin ləğv edildiyini, şəriətə uyğun olaraq qumarxana və şərabxanaların bağlanaraq, onlardan nağd pul alınmasına son qoyulduğunu göstərmişdir [5, c.1, s.449-450].

Səfəvi dövləti tarixinin əsas tədqiqatçılarından olan O.Ə.Əfəndiyev tamğanın şəhər əhalisi və tacirlərlə yanaşı sənətkarlıq müəssisələrindən də pulla toplanılan vergi olduğunu göstərmişdir [6, s.45-46]. S.M.Onullahi isə bir sıra qaynaq materiallarına əsaslanaraq, tamğanın sənətkarlara deyil, tacirlərə və ticarət müəssisələrinə aid olduğunu qeyd etmişdir [7, s.147]. Tamğanın bilavasitə ticarətlə bağlı olmasını Xurşah ibn Qubadəl-Hüseyni və İsgəndərbəy Münşinin verdiyi məlumatlar da bir daha təsdiq edir. Hər iki müəllif I Şah Təhmasibin 1565-ci ildə tacirlərdən alınan “yollar və şəhərlər tamğasını” (“yol pulunu”) onlara bağışladığını, yollarda tacirlər və müsafirlərin bu vergi ilə qoruyucular (karvan yollarını mühafizə edən əsgərlər – N.S.) tərəfindən incidilməsi hallarının aradan götürüldüyünü bildirmişlər. İsgəndərbəy Münşi bu barədə daha ətraflı məlumat verərək yazırdı

ki, I Şah Təhmasib keçmiş şahlar dövründə qüvvədə olan yollar tamğasını ləğv etdi. Əvvəllər yollarda hərəkət edən tacirlərdən, gəlib-gedənlərdən hər il İraq pulu ilə min tümən alınırdı. I Şah Təhmasib həzrət Sahib Əzzamanı (on ikinci imamı) hicri 972-ci ildə yuxuda gördüyü üçün qeyd olunan yol pulunu tacirlərə, gedib-gələnlərə bağışladı. Qeyd etmək lazımdır ki, I Şah Təhmasibin bu fərmanının icrası ölkə iqtisadiyyatının bərpa imkanlarını artırmış, ticarət canlanmış və dövlət xəzinəsi yeni gəlir mənbələri qazanmışdı.

Ölkə miqyasında ticarətin inkişafı bir sıra daxili və xarici amillərlə bağlı idi. Daxili ticarətin inkişafı, ilk növbədə ictimai əmək bölgüsünün meydana gəlməsindən, əmtəə istehsalının yaranması və genişlənməsindən asılı idi. XVI yüzillikdə ölkə miqyasında başlanan iqtisadi təkamüllə bağlı olaraq ictimai əmək bölgüsü və əmtəə istehsalının meydana çıxması şəhərlərdə daxili bazarların inkişafına təkan verirdi. Daxili tələbatın artmasına uyğun olaraq dövlət səviyyəsində həyata keçirilən tədbirlərlə müşayiət olunan sabit daxili siyasət kursu da daxili bazarların yaranması və ticarət əlaqələrinin genişlənməsində az rol oynamırdı. Bu baxımdan, sözsüz ki, 1565-ci ildə I Şah Təhmasib tərəfindən tamğa vergisinin ləğv edilməsi ölkə daxilində iqtisadi inkişafa və ticarətin genişlənməsinə nəzərə çarpacaq dərəcədə təsir göstərə bilmişdi. Daxili bazarların yaranması və inkişafı eyni zamanda Səfəvi dövlətinin beynəlxalq qarşılıqlı iqtisadi əlaqələrinin genişlənməsindən və yeni tranzit ticarətindən asılı idi. Bir sıra xarici iqtisadi amillərdə ticarətə əhəmiyyətli şəkildə təsir göstərirdi və qeyd etmək lazımdır ki, belə təsirlər heç də həmişə müsbət olmurdu. Məsələn, 1534-1555-ci, 1578-1590-cı və 1603-1639-cu illər Osmanlı-Səfəvi qarşıdurmaları həm daxili, həm də tranzit ticarətə böyük ziyan vurmuşdu.

S.M.Onullahi I Şah Abbasın (1587-1629) vergi siyasətinin daxili və xarici iqtisadi əlaqələrə göstərdiyi təsir haqqında ətraflı məlumat verərək göstərir ki, 1611-ci ildə Təbriz əhalisi iki il müddətində malcəhət, divan vergilərindən, bir qədər sonra, 1615-ci ildə Məmaliki-Məhrusə əhalisi malxərac vergisindən azad olundu. Bundan başqa, dərğalıq və dövlət hesabına alınan ehdas vergisi də ləğv olunur. Müəllif qeyd edir ki, vergi siyasəti ilə yanaşı, karvan yollarının təhlükəsizliyi ilə bağlı tədbirlərin həyata keçirilməsi də ölkənin xarici iqtisadi əlaqələrini xeyli genişləndirmişdi [7, s.150]. Bu da öz növbəsində ölkənin iqtisadi dirçəlişi və daxili ticarətin inkişafı üçün əlverişli imkan yaradırdı.

Avropa ölkələri ilə mal mübadiləsini və ticarət əlaqələrini genişləndirməyə çalışan I Şah Abbas 1599-cu ildə ingilis Antoni Şerli ilə Qərbin bir sıra dövlət başçılarına xüsusi fərman göndərmişdi. Fərmanda göstərilirdi ki, xristian dininin bütün məzhəblərindən olan tacirlərə Səfəvi ölkəsində sərbəst ticarət etmək hüququ verilir və yerli məmurların onların işlərinə qarışmasına və onları incitməsinə yol verilməyəcəkdir. Fərmanda eyni zamanda xristian tacirlərinin idxal etdikləri mallardan gömrük alınmayacağı, tacir vəfat etdikdə malının onun ortağına, xidmətçisinə, yoldaşına veriləcəyi və bu məsələlər üzrə yerli məmurların məsuliyyət daşıyacağı da qeyd olunurdu [8, s.103,103-104]. Fərmanın sonluğunda göstərilirdi: “...Bizim əyalət və vilayətlərimiz onların üzünə açıqdır. Ölkəmizdə icazənamələrin yeniləşdirilməsi barədə vahid bir qayda olmasına baxmayaraq, heç kim onlardan gəliş və gedişlərinin səbəblərini soruşa bilməz...” [8, s.103-104].

Sabit daxili iqtisadi siyasət kursunu müəyyən edən I Şah Abbas yerli tacirləri dövlət himayəsi altına alaraq ticarəti genişləndirib, onu xəzinənin əsas gəlir qaynaqlarından birinə çevirə bilmişdi. I Şah Abbasın ticarət və sənətkarlığın inkişafına himayədarlıq siyasəti karvan yollarının təhlükəsizliyinin təmin edilməsinin təşkili və yolların abadlaşdırılması işinə qayğı göstərməsi, karvansaralar tikdirməsi, quldurlara qarşı amansız mübarizə aparması və yeni yollar çəkdirməsi ilə ifadə olunurdu. O, Xəzər dənizi sahili boyunca Mazandarana qədər 270 km uzanan çınqıl və sal daşlar döşənmiş yollar çəkdirmişdi. Bununla bağlı İsgəndər bəy Münşi yazırdı ki, ölkənin yollarında gediş-gəliş olduqca çətin idi. Şah Abbas hakimiyyətə gəldiyi ilk gündən bu çətinliklərlə maraqlanmağa başladı.

O, əvvəlcə yol kəsənlərin kimliyini müəyyən etdi. Sonra onların başçılarını tutdurdu, bəzilərini tərbiyə edərək bağışladı, bəzilərini isə cəzalandırdı. Məmaliki-Məhrusədə yolların təhlükəsizliyini təmin etdi [9, c.2, s.1104].

Bu dövrdə ölkə daxili iqtisadi əlaqələr karvan yolları və yol kənarı karvansaraların qorunub saxlanması və normal fəaliyyət göstərməsindən daha çox asılı idi. Bunun üçün isə kifayət qədər vəsait tələb olunurdu. Fransa səyyahı və elçisi Jan Batist Tavernye yazır ki, Naxçıvan yaxınlığında Araz çayı üzərində körpü var idi. Bu körpüyə şəhərin maliyyə idarəsinin mübaşiri nəzarət edir və oradan keçən karvanlardan rəhdari (gömrük rüsumu – N.S.) toplayırdı. Körpüdən keçib şəhərə daxil olmayan karvanın hər dəvə yükündən 10 abbası alırdılar. Bu pul yolların təhlükəsizliyi və qorunmasına sərf edilirdi. Ölkənin bütün bölgələrində açılıb baxılmadan karvan yüklərindən eyni qaydada rəhdari alınırdı. Hər bir əyalətin hakimi mövcud qanunlara görə öz ərazisindən keçən ticarət karvanları üçün məsuliyyət daşıyırdı. Əyalət hakimi oğurlanmış malın dəyərini ödəməli idi. Buna görə də ölkə miqyasında karvan yolları təhlükəsiz idi.

Ticarət yolları ilə da istənilən yerə təkbaşına sərbəst mal aparmaq mümkün idi.

Bütün bunlar daxili və xarici ticarətə dövlət qayğısının nəticəsi idi. Dövlət ölkənin iqtisadi bölgələrini daha sıx əlaqələndirmək üçün bir sıra tədbirlər görürdü. Məsələn, yolların keçdiyi çaylar üzərində körpülər salınmış, İsfahan və bir çox başqa şəhərlərdə örtülü bazarlar tikilmişdi. I Şah Səfi (1629-1642) ölkənin daxili bazarlarında ticarətin tənzimlənməsi ilə əlaqədar xüsusi qanun vermişdi. Həmin qanun türk səyyahı Evliya Çələbinin diqqətindən yayınmamış və bu qanunu ölkənin ən yaxşı xüsusiyyətlərindən biri kimi qiymətləndirmişdi. E.Çələbi yazırdı: "Şeyx Səfi (Şah Səfi) qanunu üzrə bütün bazarlarda alqı-satqı bisti, abbasi, gümüş və altun ilə aparılır. Bu ölkədə əcnəbi pulları tədavüldə yoxdur... Tədavüldəki sikkələrin üzərində, ölçü vahidlərinin uclarında, gilələrin üzərində, satış parçalarının uclarında "la ilahə illəllah" sözləri yazılmışdır... Bazar və dükanlarda, meydan bazarlarında sarı tuncdan hazırlanmış asma tərəzilər vardır... Hər cür malı düzgün tərəzilərdə çəkib satırlar. Buğda, düyü və başqa dənli bitkilər gilə ilə çəkilib satılmır. Onlar tərəzidə çəkilir. Parça və başqa arşın mallar Məkkə qulacı ilə ölçülüb satılır. Mal-qara isə qanuna müvafiq şəxsin təyin etdiyi qiymətlərə uyğun satılır" [10, s.33].

Qeyd etmək lazımdır ki, Elxani hökmdarı Qazan xanın (1295-1304) vaxtilə keçirdiyi islahatlara görə ölkənin çəki, uzunluq və ölçü vahidləri Təbriz ölçü vahidi əsasında qəbul edilmişdi. Qazanxan dövründə dənli bitkilərin (buğda, arpa, düyü, güncüt, noxud, mərci və s.) hər biri üçün taxtadan gilə adlanan ölçü qabları hazırlanmış, onları satıcı dəyişdirə bilməsin deyə üzərinə möhür vurulmuşdu. Ancaq E.Çələbinin yazdığına görə, XVII əsrin 40-cı illərində "buğda, düyü və başqa dənli bitkilərin məhsullarını tərəzi ilə satırdılar. Qumaş parça, xalı-xalça isə Məkkəzirəsi (qulacı)" ilə satılırdı. Mal-qara isə, qeyd olunduğu kimi, hər başa görə təyin olunan qiymətlə satılırdı. Və səyyah belə qeyd edirdi: "Şahın qanunu budur" [11, c.2, s.261].

Evliya Çələbi Səfəvi məmləkətinə 1654-cü ildəki səfərində bir daha bazar və dükanlarda malların satışı ilə maraqlanaraq yazırdı: "Hakimlərin Şeyx Səfinırxı (yəni qiymət məzənnəsi – N.S.) deyə zəbt və rəbt etmələrinə, təmizliyinə eşq olsun! (yəni hakimlər tərəfindən Şah Səfinin hökm və sərəncamlarının düzgün yerinə yetirmələrinə, belə qayda-qanuna eşq olsun! – N.S.)" abbası və bistilərinin üzərində "La ilahə illəllah Məhəmməd Rəsulullah Əli vəliyullah" yazırlar. Sikkə üzərində qəlp, xilaf iş görəni, qəlp pul kəsən adamı aman vermədən qətlə yetirirlər. Bütün bazarlarda yeyəcək və içəcək Əli tərəzisi ilə satılır, hətta buğda, yumurta, bişmiş toyuq, ağ çörək və bütün ərzaqlar tərəzi ilə satılır. Heç kim Səfi nırxını pozmur. Çünki hiyləgərlərin (saxtakarlıq və möhtəkirlik edənlərin – N.S.) dərhal gözlərinə mil çəkir, başına tas keçirirlər. "Möhkəm bir Əli inzibati qaydası hökm sürür.." [12, s.36].

Məlum olduğu kimi, I Şah Səfi 1629-cu il yanvarın 8-də tacqoyma günü rəiyyət və sənətkarların hamısının borclarını, dövlətin I Şah Abbas dövründə ipək ticarəti üzərinə qoyduğu inhisar hüququnu ləğv etmişdi. Hərbi qulluqçuların məvacibləri də ödənilmişdi. Şahın fərmanı ilə əhali üzərinə qoyulmuş vergilər də azaldılmışdı. Belə bir iqtisadi siyasət daxili və xarici ticarətin, iqtisadi əlaqələrin və bütövlükdə məhsuldar qüvvələrin inkişafına əlverişli şərait yaratmışdı. Osmanlı dövləti ilə bağlanmış 1639-cu il sülh müqaviləsi ölkədə dinc quruculuq işləri aparılmasına imkan vermişdi.

Bazarlarda məhsulun satış qiymətinə nəzarət sisteminin tətbiq edilməsi və məhsul satışının dövlət səviyyəsində tənzimlənməsi də iqtisadi inkişaf prosesinə müsbət təsir göstərirdi. Dövlətin göstərişləri ilə məmurlar gündəlik tələbat mallarının alqı-satqısına ciddi nəzarət edir, qiyməti pozanlar cəzalandırılırdılar. Bütün bunlar türk səyyahı Evliya Çələbinin nəzərindən yayınmadığına görə “Şeyx Səfinırxı-deyə zəbt və rəbt edənlərə eşq olsun” demişdir. Göründüyü kimi, I Şah Səfinin 1629-cu ildə verdiyi hökmlər yerli hakimlər tərəfindən yerinə yetirilir, bazarlarda qiymət məzənnəsi düzgün nizamlanır, qayda-qanuna ciddi əməl olunurdu [13, s.153-154].

I Şah Səfinin iqtisadi siyasəti böyük əraziyə malik vilayətlərin mərkəzi olan iri şəhərlər arasında ticarət əlaqələrini gücləndirməklə daxili bazarların inkişafına müsbət təsir göstərmişdi. Qeyd etmək lazımdır ki, Səfəvi dövlətində daxili iqtisadi əlaqələr mövcud gömrük sistemi ilə tənzim edilirdi. Şah Səfi dövründə Səfəvi ölkəsində olmuş, buradakı mövcud iqtisadi sistemi proteksionizm (himayəçilik) siyasətinin hökm sürdüyü Rusiyadakı sistemlə müqayisə edən alman alimi və səyyahı A.Oleari yazırdı: “İran (Səfəvi – N.S.) Rusiya kimi bağlı (qapalı) yox, açıq ölkədir. Yerli əhali və yad xalqlar dövlətə tələb olunan gömrüyü ödəmək şərti ilə istədikləri kimi ölkəyə gəlib-gedə, ticarət və sənaye ilə məşğul ola bilərlər” [14, s.791].

Şah Səfi verdiyi qanunlar və gömrük siyasəti ilə daxili ticarəti və ölkənin xarici iqtisadi əlaqələrini nizamlamaqla yanaşı bu sahələr üzərində dövlət nəzarəti yaradırdı. Bu dövrdə tacirlərdən və adi satıcılardan yollarda gömrük nəzarətçiləri (rəhdarlar) tərəfindən “rəhdari” adlı yol gömrüyü (rüsum), şəhərlərin giriş darvazaları və bazarlarda isə bac (ticarət rüsumu) alınırdı. Adam Oleari Şah Səfi dövründə ticarət yollarında gömrük məntəqələrinin artırıldığını bildirərək yazırdı: “Şah Təhmasib vaxtında bir çox gömrükxanalar aradan götürülmüşdü. Şah Abbas onları yenidən bərpa etdirdi. Şah Səfi isə onların sayını daha da artırdı, nəinki sərhədlərdə, hətta ölkə daxilindəki əsas ticarət mərkəzləri olan şəhərlərdə, xüsusilə çoxlu keçidləri və körpüləri olan yerlərdə gömrükxanalar yaradılmışdı. Yerli və əcnəbi olmalarından asılı olmayaraq, buradan keçən bütün tacirlər məlum gömrüyü ödəməli idilər” [14, s.839].

Belə bir faktı da qeyd etməyi lazım bilirik ki, I Şah Abbasın (1587-1629), I Şah Səfinin (1629-1642) və II Şah Abbasın (1642-1666) hakimiyyətləri dövründə dövlətin yeritdiyi düzgün iqtisadi, ticarət və gömrük siyasəti ölkənin daxili və xarici ticarətinin inkişafını təmin edə bilirdi. Şah Süleymanın hakimiyyətinin (1666-1694) ilk illərindən başlamış və Şah Hüseynin hakimiyyəti dövründə (1694-1722) dərinləşmiş iqtisadi tənəzzül və böhran şəraitində dövlətin əsas gəlir sahələrindən biri olan daxili və xarici ticarət zəifləyərək tənəzzülə uğramışdı.

**Açar sözlər**: Səfəvilər, ticarət, iqtisadiyyat, vergi, bazar, tacir

**İstifadə edilmiş ədəbiyyat**

1. Али-заде А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку: Изд-во Академии Наук Азербайджанской ССР, 1956, 419 с.
2. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. tarix ü.e.d., professor S.Əliyarlının redaktəsi ilə. Bakı: Azərbaycan nəşriyyatı, 1996, 872 s.

3. Səfərnameha-ye venesiyan dər İran (şeş səfərname), tərcome-ye doktor Mənucöhr Əmiri, şerkət Sehami, Enteşarate Xarəzmi, h.1348, 450 s.
4. Fekete L.E. Einführung in die persische palaographie 101 persische dokumente. Budapeşt: Akademia Kiado, 1977, 594 s.
5. Qazi Əhməd Qumi. Xelasət ət-tavarix. Cild 1-2. Tehran: Enteşarate və cape Daneşgah, h.1363.
6. Эфендиев О.А. Образование Азербайджанское государство Сефевидов в XVI веке. Баку: Изд. Элм, 1981, 307 с.
7. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı: “Elm” nəşriyyatı, 1982, 278 s.
8. Əhməd Tacbəxş. İrandər zəmane Səfəviyye. Təbriz: capxane-ye Şəfəq, h.1340, 406 s.
9. İsgəndər bəy Münşi. Tarix-i aləm aray-i Abbasi. Cild 1-2, Tehran: cape Qolşen, h.1350, s. 1-607, 607-1235.
10. Evliya Çələbi. Səyahətnamə. Türk dilindən işləyəni və şərhlərin müəllifi tarix elmləri doktoru, professor Seyidağa Onullahi, Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1997, 87 s.
11. Evliya Çelebi. Seyahatnamasi. İkinci cild, İstanbul: Kardeş matbaası, 1314, 466 s.
12. Evliya Çelebi. Seyahatnamesi. Yeddinci kitab, İstanbul: 1970, 335 s.
13. Bayramlı Z.H. Əzizli B. Azərbaycan Evliya Çələbinin 1654-cü il “Səyahətnamə”sində. Bakı: Azərbaycan nəşriyyatı, 2000, 174 s.
14. Адам Олеарий. Подробное описание путешествия Голштинского посольства в Московию и Персию в 1633, 1636 и 1639 годах. Пер. с немец. П.Барсова, Москва: Университетская типография, 1870, 1033 с.

**Низами Сулейманов**

## ТОРГОВАЯ ПОЛИТИКА СЕФЕВИДОВ

В статье в период правления Сефевидов исследуется один из самых прибыльных сфер экономики – торговля, налоговая политика, которая положително повлияла на внутреннюю и внешнюю экономическую политику государства.

**Ключевые слова**: Сефевиды, торговля, экономика, налог, рынок, ремесленник

**Nizami Suleymanov**

## TRADE POLICY OF SAFAVI STATE

### Summary

During the Safavid period trade and tax policy of the most profitable sectors of the economy influencing on the internal and external economic policy of the state are analyzed in the article.

**Keywords**: Safavid, trade, economics, tax, market, craftsman

**UOT – 930.94**

**Hidayət Cəfərov**
**Azərbaycan Dövlət İqtisad Universiteti, tarix ü.e.d., professor**
**e-mail: hidayet-jafar@mail.ru**

# XOCALI NEKROPOLUNUN IV QRUP ABİDƏLƏRİ: “DAŞ QUTU” QƏBİRLƏRİ

*Qafqazın elmi baxımdan diqqəti cəlb edən abidələri sırasında Xocalı nekropolu kompleksi aparıcı yer tutur. XIX əsrin 80-ci illərində aşkar olunan Xocalı kompleksində sonrakı illərdə müxtəlif nəsil arxeoloqlar tərəfindən arxeoloji qazıntılar aparılmışdır. Burada axırıncı arxeoloji tədqiqatlar 1984-cü ildə Hidayət Cəfərov tərəfindən həyata keçirilmişdir. Təqdim olunan məqalədə həm həmin qazıntıların, həm də başqalarının (E.Resler, A.İvanovski, İ.Meşşaninov) IV qrup altında cəmləşən “daş qutular” da apardığı tədqiqatlarının nəticələri işıqlandırılır.*

Xocalı abidələri kompleksinə həsr olunmuş silsilə məqalələrdən dördüncüsü olan bu yazıda Xocalının daş qutulardan ibarət qəbirləri haqqında yığcam məlumat verilir. Bu tip abidələrə Xocalı kompleksinin İ.Meşşaninovun ifadəsincə adlanan “daşlı çöl” sahəsində daha çox rast gəlinmişdir. Maraqlıdır ki, burada daş qutular həm daş örtüklü kurqanların altında, həm də ayrıca kameralar halında qurulmuşdur. Doğrudur, daş örtüklər altındakı daş konstruksiyalı qəbirlər daha böyük ölçülü olmuşdur.

“Daşlı çöl” sahəsindən başqa bu tip qəbir kameraları məşhur “Haça təpə” və labirint rayonu ətrafında, İlisu çayının sol sahilində, Xocalı və Əsgəranı bir-birindən ayıran “Boz dağın” ətəyində də mövcud olmuşdur (tablo 1, 2, 3). Bu abidələr Xocalı kompleksinin e.ə. XII-XI əsrlərə aid xronoloji çərçivəsində qərarlaşması ilə yanaşı e.ə. VIII-VII əsrlərə qədər yerli tayfaların dəfn adətlərində yetərli yer tutmuşdur. Daş qutular bəzi hallarda Xocalı nekropolunun birinci qrupunu təşkil etmiş kiçik torpaq kurqanların səthində də salınmışdır. Digər halda böyük ölçülü (II qrup) torpaq kurqanların ətəyində yerləşmişdir.

**Daş qutu**larda A.İvanovski (1896-cı il), E.Resler (1895-1897-ci illər), İ.Meşşaninov (1926-cı il) və H.F. Cəfərov (1984-cü il) arxeoloji tədqiqatlar aparmışlar.

**A.A.İvanovskinin qazıntıları**

1896-cı ildə Rusiya Coğrafiya Cəmiyyəti tərəfindən ezam olunmuş A.A.İvanovski Dəmqolu-Gülyataq, Qarabulaqla yanaşı Xocalıda da arxeoloji qazıntılar aparmışdır. A.İvanovskinin Xocalı nekropolunda tədqiq etdiyi dörd daş qutu (83, 84, 85, 86 saylı) “daşlı çöldə” yerləşmişdir. Qəbirlərin sıralanması A.İvanovskiyə məxsusdur.

**83 saylı daş qutu qəbri** [1, s.150, III tablo, 12; XIV tablo, 1] (1,9x1,0x1,15 m) şimal-şərq cənub-qərb istiqamətində olub divarı qismən yonulmuş sal daşlardan hörülmüşdür. Qəbirdə oturmuş vəziyyətdə tək adam dəfn olunmuşdur. Tapıntılar müxtəlif saxsı qab nümunələrindən, şəbəkəli başlıqlı dəstəyi tiyədən ayrı tökülmüş, ağac dəstəyə keçirmək üçün çıxıntılı - dilçəkli tunc xəncərdən, tunc qolbaq və üzükdən, əqiq, habelə “Cardium” tipli balıqqulaqlarından (qarnıyarıqlardan) düzəldilmiş muncuqlardan ibarətdir. Bütöv qalmış saxsı qab geniş ağızlı, enli yastı oturacaqlıdır. Səthi ağız kənarında biri digərinin içərisində olan ziqzaqvari xətlərdən, gövdəsi isə stilizə edilmiş heyvan fiqurlarından ibarət naxışla bəzədilmişdir. Qazılma üsulu ilə çəkilmiş naxışların səthi ağ maddə ilə inkrustasiya edilmişdir. Bu qab həm forması, həm də naxışlama texnologiyası ilə A.İvanovskinin qazdığı Dəmqolu və Gülyatağın ağ maddə ilə inkrustasiya edilmiş keramikası ilə bir tiplidir. Belə qabların geniş çeşiddə nümunələri Gəncəçay hövzəsi üçün daha çox xarakterikdir. Xatırladaq ki, bu qrup abidələr e.ə. XII-XI əsrlərə aid edilir.

**84 saylı daş qutu qəbri** [1, s.150, III tablo, 4; VIII tablo, 12-13; V tablo, 5, 12] (2,4x1,1x1,2 m) böyük ölçülü daşlardan qurulmuşdur. Oturdulmuş halda dəfn izinə (üzü 83 saylı qəbirdə olduğu kimi kameranın cənub-qərbində) təsadüf olunmuşdur. Qəbrin içərisi çoxsaylı, müxtəlif ölçülü daşla

dolmuşdur. Arxeoloji materiallar saxsı parçaları (forması və tipi haqqında məlumat yoxdur), dəstəyi keçirmək üçün dilçəkli, tiyəsində ağac dəstəyə bərkitmək üçün sağanaq olan şəbəkəli başlıqlı tunc xəncər; tuncdan üzüklər (2 ədəd); arxasında körpüvari ilgəyi olan tunc düymələr (8 ədəd); küpü borulu olan yarpaqvari tiyəli dəmir nizə ucluğundan ibarətdir (tablo 2, 24-26). Burada tapılmış həm tunc xəncər, həm dəmir nizə ucluğu, həm də keramikasının səthində inkrustasiya ilə stilizəli heyvan rəsmi olan Xocalıdan bir qədər aralıda yerləşən, elə A.İvanovskinin qazdığı 81 nömrəli Gülyataq kurqanı materialları ilə bir tiplidir.

A. İvanovskinin növbəti qazıntı apardığı **85 saylı daş qutu qəbri** (2,9x1,36x1,4 m) elə qədim dövrdə oğrular tərəfindən talan olunmuşdur. Bir neçə saxsı qab sınıqlarından və skelet qalıqlarından savayı, başqa avadanlığa təsadüf edilməmişdir.

A.İvanovskinin Xocalı nekropolunda axırıncı qazıntı apardığı **86 saylı daş qutu qəbri** [1, s. 150, III tablo, 10, 29; VII tablo, 11-14; IX tablo, 7] (2,2x1,2x1,3 m) cənub-qərb şimal-şərq istiqamətli olub yonulmamış böyük ölçülü sal daşlardan qurulmuşdur. Qəbirdə aşkar olunmuş ölü oturdulmuş vəziyyətdə, üzü şimal-şərqə doğru dəfn olunmuşdur. Qəbir kamerasının döşəməsi xırda ölçülü yastı daşlarla döşənmişdir. Burada qab parçaları (forması haqqında məlumat yoxdur), şəbəkəli başlığı, ağac dəstəyi olmuş dilçəkli tunc xəncər, tiyəsi əyri olan yastı tunc bıçaq, dörd tilli tunc biz, dəvəgözü daşından arxası oymalı badamvari ox ucluqları (6 ədəd), 50-yə qədər müxtəlif ölçülü, şarşəkilli, uzunsov, girdə, kəsmə və s. şəkilli əqiq muncuq tapılmışdır. Tunc xəncər A.İvanovskinin qazdığı 83 saylı Xocalı daş qutusunda aşkar olunmuş xəncərlə bir tipli və çox oxşardır. Qəbir avadanlığı e.ə. XII-XI əsr materialları ilə yaxın olub, bütövlükdə son tunc və ilk dəmir dövrü materialları içərisində geniş analogiyaya malikdir.

**E.Reslerin qazıntıları** [2, s.450-453, 7, list. 117-118]

Qarabağın, habelə Gəncəçay hövzəsinin arxeoloji abidələrinin qazılıb nəşr edilməsində xeyli zəhməti olan E.Resler öz dövrünün başqa həmkarları kimi varlı, zəngin qəbir abidələrinə daha çox diqqət yetirmiş, kasıb abidələrə etinasız yanaşmışdır. Yəni, təəssüf ki, E.Resler öz dövrünün ənənələrinə sadiq qalaraq yalnız daha varlı qəbir abidələri haqqında ətraflı məlumat vermiş, daş qutularla bağlı ötəri qeydlərlə kifayətlənmişdir. Arxeoloji materialların rəsmi, daş qutuların planı dərc olunmamışdır. E.Resler tərəfindən qazılmış üç daş qutu qəbri (22, 23, 24 saylı) Qarqarçayın sol sahilindəki “daşlı çöl” nekropolunda yerləşmişdir. Həmin daş qutuların ölçüləri müvafiq olaraq 3,4x2,2x 1,0; 2,0x1,0x1,0 m; 9,5 m x 93 sm x 90 sm olmuşdur.

A.İvanovskinin tədqiq etdiyi daş qutular kimi burada da qəbrin üst örtüyü olmamışdır. Döşəmədə daş layı yoxdur, torpaqdır. Arxeoloji materiallar formasız keramika parçaları, müxtəlif ölçü və quruluşlu əqiq muncuqlardan ibarət olmuşdur. Görünür, bu qəbirlər vaxtilə qarət olunmuşdur.

**İ.İ.Meşşaninovun qazıntıları** [3, s.226-227]

1926-cı ildə İ.Meşşaninovun rəhbərliyi ilə Xocalıda fəaliyyət göstərmiş arxeoloji ekspedisiya torpaq və daş örtüklü kurqanla yanaşı, burada, “daşlı çöldə” 3 daş qutu qəbri də açıb tədqiq etmişdir. (Qazıntılarda A.Ələkbərov, İ.Cəfərzadə, T.Passek, B.Latının də iştirak etmişlər. Sonralar onlar görkəmli tədqiqatçı-alimlər olmuşlar).

Daş qutular yonulmamış sal daşlardan qurulmuşdur. Onlardan ikisi kiçik torpaq kurqanın üstündə aşkar olunmuşdur. Bu fakt daş qutunun dövr etibarilə həmin tip kurqanlardan sonrakı dövrlərə aid olmasını bir daha sübut edir. Bu daş qutuların üzəri böyük ölçülü sal daşlarla örtülmüşdür.

Birinci iki daş qutudan fərqli olaraq İ.Meşşaninovun briqadasının tədqiq etdiyi üçüncü daş qutu üst örtüyə malik olmamışdır. Təəssüf ki, bu qəbrin dəfn adəti ilə bağlı məlumat yoxdur.

Qəbirlərdə qara cilalı saxsı qab qırıqlarına, tunc üzük parçalarına və tuncdan muncuqlara təsadüf edilmişdir. Tuncdan başqa, burada dəvəgözü və çaxmaqdaşından arxası oymalı badamvarı quruluşlu ox ucluqlarına, səthində basma dairədən naxışı olan sümük lövhəyə, pasta və əqiq muncuqlara rast gəlinmişdir. Arxeoloji materiallara görə bu qəbirlər də A.İvanovskinin qazdığı Xocalı daş qutu qəbirləri ilə eyni dövrlərə aiddir.

Uzun illərin (30 ildən artıq) fasiləsindən sonra 1984-cü ildə Azərbaycan SSR EA Tarix İnstitutunun Arxeologiya və Etnoqrafiya sektorunun rəhbərliyi Qarabağla bağlı tədqiqatlarla əlaqədar Xocalıya yeni arxeoloji ekspedisiya göndərdi.

**H.F.Cəfərovun** [4] **1984-cü ildə tədqiq etdiyi daş qutular (tablolar 3, 4).** Həmin abidələr bu sətirlərin müəllifi tərəfindən Qarqarçayın sol sahilində, İlisu çayının sol sahilindəki eyni adlı və ya "Çınqıllıq" adlı nekropolda, köhnə Xocalı kəndinin şimalında, "Boz dağ" nekropolunda tədqiq edilmişdir. Onların demək olar ki, hamısı vaxtilə qarət edilmişdir. Hətta bir halda qəbrin yan daşları çıxarılmışdır. Bu qəbir (3 saylı) yeni tikilmiş yaşayış binasının inşası zamanı tamamilə dağıdılmışdır. Bütövlükdə tədqiq olunmuş qəbirlərin böyük əksəriyyətində üst daşı olmamış, bəzilərində örtük daşının bir hissəsi qalmışdır. Döşəməsi bir qayda olaraq torpaq olmuşdur.

**"Daşlı çöl"ündəki daş qutular.** Buradakı abidələr müasir yaşayış binalarının inşası, habelə Xankəndinə dəmir yolu çəkilərkən çox dağıntıya məruz qalmışdır. Vaxtilə İ.Meşşaninovun "daşlı çöl" adlandırdığı geniş ərazini əhatə etmiş nekropoldan çox az əlamət qalmışdır. Bu fakt 1984-cü ilə aiddir. Sonrakı illərdə də (1984-1990-cı illərdə) dağıntılar artmışdır. Xocalının 1992-ci işğalından sonra həmin abidələrin taleyi böyük sual altında qalıb. Erməni vandalları, görünür, qalan abidələri də sistematik dağıtmaqda davam etmişlər. Əslində, bizim yenidən Xocalı tematikasına qayıtmağımız da elmi ictimaiyyətin diqqətini bir daha Xocalıya yönəltməklə bağlıdır.

**1 saylı daş qutu** (3,0x1,7x1,0 m). Dəmiryolu xəttinin sağında, nekropolun şimal-şərqində yerləşmişdir. Döşəməsi torpaqdır, üstü yoxdur. Şimal-şərq cənub-qərb istiqamətli olmuşdur. Qəbir çoxdan qarət edilib. Döşəməsində insan sümükləri (dişləri, lülə sümükləri və s.) saxsı qab sınıqları, pasta muncuqları daş və torpaqla bir-birinə qarışmışdır. Keramika qara, boz və sarımtıl rəngli qablara məxsus parçalardan ibarətdir. Bəzilərinin üzəri batıq və relyefli, nöqtəvari və şüyrəli xətlərlə naxışlanmışdır.

**2 saylı daş qutu** (3,5x1,2x1.2 m) şərq-qərb istiqamətində olub, üst daşının bir hissəsi qəbirə düşmüşdür. Qəbir talan olunub. Skeletin qalmış vəziyyətinə əsasən onun sağ yanı üstə, bükülü vəziyyətdə, başı qərbə dəfn olunması müəyyən edilmişdi. Qəbir avadanlığı saxsı qab qırıqlarından və muncuqlardan ibarətdir. Keramika nümunələrinin bəziləri nazik divarlı, mil düzündə tədqiq edilmiş Kiçik kurqanın materialları [5, s.26, rəsm 6, 1, 3-8] və Şamxor nekropolunun [6, s.8, rəsm 7] kubokvari qabları ilə bir tiplidir. Başqa nümunələri cam və xeyrələrə aiddir. Bəzi qab parçalarının səthində relyefli xətlər və cızma üçbucaqlardan naxış vardır. Qulplar nazik çubuqvari və enli lentvaridir. Muncuqlar əqiq (diskvari, şarşəkilli, yastı-uzunsov), göy və yaşıl rəngli pastdan (silindrik, diskşəkilli, şarvari və s.) hazırlanmışdır.

**3 saylı qəbir** yaşayış binası tikilərkən tamam dağıdılmışdır. Burada çürümüş insan sümüklərinə və üzərində tilləri aşağı, içərisi nöqtələrlə doldurulmuş cızma üçbucaqlarla naxışlanmış qara cilalı qaba təsadüf edilmişdir.

**4 saylı daş qutu** (2,4x1,2x1,6 m) şimal-qərb cənub-şərq istiqamətində olmuşdur. Üst örtüyü yox idi. Döşəməsi torpaqdır. Qarət olunmuşdur. Qəbirdə qara, boz və sarımtıl qablara məxsus bir neçə formasız keramika fraqmentlər tapılmışdır.

**5 saylı daş qutu** (2,0x0,8x1,2 m) şərq-qərb istiqamətində olub səliqə ilə yonulmuş daşlardan qurulmuşdur. Üst daşı yox idi. Qarət olunub. Torpaq döşəmədə qəbrin müxtəlif hissələrində kubokvari qablar, cam və küpəyə məxsus parçalar, əqiq muncuqlar tapılmışdır (3 ədəd). Küpə parçalarında şaquli relyefli naxış var.

**"Boz dağ" nekropolu.** Nekropol 20 hektardan artıq sahəni əhatə edir. Şimalda Xocalı və Əsgaranı ayıran "Boz dağ", şərqdə Ağdam-Xankəndi şosse yolu ilə sərhədlənir. Qərb və cənubda Xocalı vadisi uzanır. "Boz dağ" nekropolunun xarakterik xüsusiyyəti buradakı daş qutuların tək-tək deyil, 4-5-dən 10-12-ə qədər kompakt halda cəmləşməsidir. Daş qutuların arasındakı boşluq çapma qaya parçaları ilə doldurulmuşdur. Boz dağ nekropolunda bir qrup daş qutu qazılmışdır (№ 6, 7, 10, 11, 12, 13, 14, 16-19).

**6 saylı daş qutu.** Nekropolun cənub qərb qurtaracağında yerləşmiş qrupa daxil olmuşdur. Qəbir (2,4m x 80 sm x 1,3 m) şərq qərb istiqamətində olub, üst daşının bir hissəsi yox idi. Qarət olunub. Torpaq döşəmədə, daş, xırda çınqıl və torpaq qatı içərisində insan sümüklərindən hissələrə

(dişlər, onurğa və lülə sümükləri), habelə müxtəlif tip qablara (əsasən 2 və 3 saylı qəbir materialları ilə bir tipli olan küpə və camlara) məxsus fraqmentlərə təsadüf edilmişdir. burada həmçinin iri buynuzlu heyvan və quş sümükləri də tapılmışdır. Muncuqlar ağ və göy rəngli pasta (çələkvari, uzunsov – oval, rombşəkilli) və əqiqdən (silindrik, şar və diskşəkilli, arpavari və s.) hazırlanmışdır. Tunc əşyalar iki ədəd üzükdən ibarətdir. Onlardan biri spiralvaridir.

**7 saylı daş qutu qəbri** (2,4x1,0x1,4 m) şərq-qərb istiqamətli olub, üst daşı kənara atılmışdır. Qarət olunub. İnsan (diş və lülə sümükləri) və heyvan sümükləri, saxsı qab qırıqları qarışıq vəziyyətdə qalmışdır. Burada həmçinin tuncdan eynək şəkilli asma, kvadrat formalı üzük, habelə, əqiq və pasta muncuq tapılmışdır. Keramika parçaları hündür, dar boğazlı, tək qulp bardaqlara, cam və küpələrə məxsus olmuşdur. Bəziləri çərtmə, cızma və relyefli naxışa malikdir.

**10 saylı daş qutu** (2,0x1,2x1,4 m). "Boz dağ" nekropolunun mərkəzi hissəsində kompakt yerləşmiş dörd daş qutunun biridir. Üst daşı yoxdur. Qarət olunub. İnsan sümükləri (dişlər və lülə sümükləri) saxsı qab sınıqlarına, dəvəgözü daşından qəlpələrə və əqiq muncuqlara qarışmışdır.

**11 saylı daş qutu qəbri**nin (2,5x1,0x1,4 m) yan daşlarından biri (qərb divarı) və üst daşı yox idi. Qarət olunub. Qəbirdə çürümüş insan skeleti izləri və formasız qab fraqmentləri tapılmışdır.

**12 saylı daş qutu qəbri** "Boz dağ" nekropolunun şimal hissəsində kompakt yerləşmiş daş qutular (8 ədəd) qrupuna daxildir. Burada 3 qəbir (12, 13, 14 saylı) öyrənilmişdir. Şərq-qərb istiqamətli qəbirin üst daşının bir tərəfi talançılar tərəfindən sındırılıb kənara atılmışdır. Dəfn qaydası və avadanlığın düzülüş qaydası pozulmuşdur. Qəbrin müxtəlif hissələrində insan sümüklərinə 1 və 2 saylı daş qutuların keramika nümunələri ilə oxşar gil qab parçalarına, əqiq, pasta və şüşə muncuqlara, habelə dördtilli tunc bizə təsadüf edilmişdir.

**13 saylı daş qutu qəbri** (2,0x1,0x1,3 m). Şərq-qərb istiqamətli olub, üst daşı yox idi. Qarət olunduğu üçün dəfn qaydası pozulmuşdur. Torpaq döşəmədə çox pis qalmış insan sümükləri (diş və lülə sümükləri), əvvəlki keramika nümunələri ilə oxşar fraqmentlər, əqiq və pasta muncuqlar, nazik tunc məftildən üzük tapılmışdır.

**14 saylı daş qutu qəbri** (2,4x1,2x1,4 m) şərq-qərb istiqamətlidir. Üst daşının bir hissəsi və qərb divarının daşı sındırılmış, qəbir qarət olunmuşdur. Qəbir avadanlığından formasız qab fraqmentləri, dəvəgözü daşından qəlpə və qeyri-müəyyən formalı dəmir əşyanın parması qalmışdır. İnsan sümükləri çürümüşdür.

**16 saylı daş qutu qəbri** (2,2x1,0x1,4 m). "Boz dağ"nekropolunun cənub-şərq hissəsində kompakt yerləşmiş qəbirlər qrupuna (10 ədəd) daxil olmuşdur. Burada iki qəbir (16,17 saylı) öyrənilmişdir. 16 saylı qəbirin divarları səliqəli yonulmuş sal daşlardan qurulmuşdur, üst daşı yoxdur. Qarət olunub, döşəmə torpaqdır. Qəbrin müxtəlif hissələrində pis qalmış insan sümükləri, geniş ağızlı, şarşəkilli gövdəsi olan küpə sınıqları (birində relyefli xətt və torvari naxışlar var), spiralvari tunc üzük tapılmışdır.

**17 saylı daş qutu** qəbrinin (2,4x0,8x1,2 m) üst daşı sındırılıb kənara atılmışdır. Qarət olunub. Pis qalmış insan sümükləri, səthi üçbucaq və paralel cızma xətlərdən naxışı olan keramika sınıqları bir-birinə qarışmış halda tapılmışdır. Əqiq muncuqlar çox azdır. Burada öyrənilmiş axırıncı iki daş qutu qəbri (18, 19 saylı) Boz dağ nekropolunun mərkəzində kompakt halda yerləşmiş qəbirlər (9 qəbir) qrupuna daxil olmuşdur.

**18 saylı daş qutu qəbri** səliqəli yonulmuş daşlardan qurulmuşdur. Üst daşı yoxdur. Qarət olunmuşdur. Pis qalmış insan skeleti qalıqları (dişlər və lülə sümükləri) boz, qırmızı və qonur rəngli, səthi bəzən relyefli şaquli xətlərdən naxışlı keramika fraqmentləri, silindrik və şarşəkilli əqiq, habelə pasta muncuqlar, dəvəgözü daşı qəlpələri tapılmışdır.

**19 saylı daş qutu** "Boz dağ" nekropolunda öyrənilmiş axırıncı qəbirdir. Şərq-qərb istiqamətli qəbir (2,4x1,0x1,3 m) qarət olunmuşdur. Burada pis qalmış və nizamsız səpələnmiş insan cəsədi qalıqları, qara və bozumtul-qonur rəngli qab sınıqları, dəmir qolbağın sınığı, çoxsaylı əqiq, habelə pasta muncuqları əldə olunmuşdur. Üzəri şirlə örtülmüş pasta muncuqlardan biri böyük ölçüsü ilə seçilir.

**"İli-su" nekropolu.** Bir hektardan çox sahəni əhatə edən "İli-su" nekropolu köhnə Xocalı kəndinin şimal kənarında, İli-su çayının sol sahilində, onun Xocalı çayına töküldüyü ara sahədə yer-

ləşmişdir. Daş qutuların qrup halında yerləşməsi və qəbirlərin konstruksiyası ilə, habelə qalmış avadanlığın tipoloji xüsusiyyətlərinə görə “Boz dağ” nekropolunu xatırladır. Burada üç daş qutu qəbri öyrənilmişdir.

**8 saylı daş qutu qəbri** nekropolun şimal hissəsindəki bir qrup daş qutulara daxil olmuşdur. Qərb-şərq istiqamətli qəbrin (2,4x0,8x1,2 m) üst daşı, habelə cənub divarının bir hissəsi qarətçilər tərəfindən dağıdılmışdır. Qəbirdə çox pis qalmış insan sümükləri, əqiq və pasta muncuqlara təsadüf edilmişdir.

**9 saylı daş qutu** qəbri (2,2x1,0x1,5 m) daş qutulardan ibarət qrupa daxil olmuşdur. Qərb-şərq istiqamətlidir, üst daşı olmamışdır. Qəbirdə əvvəlki anatomik quruluşu dağılmış insan skeleti qalıqları (lülə sümükləri, alt çənə sümüyünün parçası), cam, kubokvari qab, küpə sınıqları (səthində cızma xətlərdən naxış var), dəmirdən küpü borulu, yarpaqşəkilli tiyəsi, qabırğalı olan dəmir nizə ucluğu tapılmışdır.

**15 saylı daş qutu** qəbri (2,05x1,3x1,6 m) nekropolun şərqində yerləşmişdir. Divarları qismən yonulmuş sal daşlarından hörülmüş, üzəri bir böyük və bir neçə orta həcmli daşlardan örtülmüşdür. Şərq divarının hörülüşü müəyyən qədər fərqlənir: burada daşlar çətirvari düzülmüşdür. Qəbrin şərqində sağ yanı üstə, bükülü vəziyyətdə dəfn olunmuş insan skeleti təmizlənmişdir. Qəbir avadanlığı qırmızı vazaya oxşar qab, başqa keramika fraqmentləri, kiçik ölçülü, ensiz, səthi qabırğalı, dilçəkli xəncər, nazik tunc iynə, şarşəkilli, romb, çəllək və diskvari əqiq və pasta muncuqlardan ibarət olmuşdur. 15 saylı daş qutu “daşlı çölü”, Boz dağ və İlisu nekropolunda dağılmamış yeganə qəbir abidəsidir.

1984-cü il tədqiqatlarının nəticələrini yekunlaşdıraraq bəzi mülahizələr söyləmək olar. Bizə görə daş qutular, əsasən, tayfanın aşağı təbəqələri üçün nəzərdə tutulmuş qəbir forması olmuşdur. Əks halda, bu qəbirlərin üstündə hökmən kurqan örtüyü olmalı idi. İkincisi, daş qutular, əsasən, Xocalı abidələrinin üçüncü tipi ilə (daş kurqanlarla) bir vaxtda daha geniş yayılmağa başlayır. Hərçənd ki, daş qutuların e.ə. XII-XI əsrlərdə mövcud olması faktı da məlumdur (A.İvanovskinin qazıntıları).

Bizim tədqiq etdiyimiz daş qutular, görünür, Xocalı abidələri kompleksinin axırıncı xronoloji çərçivəsinə bağlayır. Doğrudur, bizim tədqiq etdiyimiz daş qutular elə talan olunmuşdur ki, dəfn adəti, avadanlığının yerləşməsi və tipoloji tərkibi haqqında qəti fikir söyləmək çətindir. Lakin bununla belə əldə olunmuş fraqmentlər, qəbirlərin təmizlənməsi gedişində aparılan müşahidələr bəzi nəticələrə gəlməyə kömək edir. Görünür, ölülər yanı üstə, bükülü vəziyyətdə, inqumasiya yolu ilə dəfn olunmuşlar. Bu baxımdan bizim daş qutular böyük torpaq (II tip) və daş (III tip) kurqanlardan (həmin kurqanlarda, bildiyimiz kimi, kremasiya adətinin varlığı müşahidə edilmişdir) fərqlənir.

Qəbir avadanlığı haqqında da təxmini mülahizə yürütmək mümkündür. Belə ki, keramika nümunələri fraqmentlər halında olduğu üçün onları qəti olaraq bu və ya digər qab tipinə aid etmək çətin olur. Bununla yanaşı, nisbətən yaxşı qalmış fraqmentlərə əsasən buradakı parçaların cam, kuzə, xüsusilə də, tək qulp kubokvari və vazaşəkilli qablara məxsus olmasını söyləmək mümkündür. Axırıncıların bizim tədqiq etdiyimiz daş qutuların əksəriyyətində tapılması, bu qəbirlərin xronoloji çərçivəsinin e.ə.VIII-VII əsrlər arasında olmasını müəyyən etməyə imkan verir. Məlum olduğu kimi, bu keramika Mil düzündəki Kiçik kurqan və Şamxor nekropolunun (Qələndər Aslanovun qazıntıları) əksər sinxron qəbirlərində geniş çeşidli təmsil olunmuşdur [5, s.26, rəsm 6, 1,3-8; 6, s.8, rəsm 7].

Xocalıda 1984-cü ildə aparılmış qazıntılar göstərdi ki, e.ə. VII əsrdən sonra qədim əhali hansı səbəb üzündənsə ölülərini burada dəfn etməmişlər. Doğrudur, güman etmək olar ki, həmin vaxtdan sonra dəfn mərasimi üçün başqa qəbir tipi dəbdə olmuşdur, məsələn, yerüstü əlaməti olmayan torpaq və ya küp qəbiri. Lakin bu tip abidələrə indiyə qədər təsadüf edilməmişdir. 1984-cü il Xocalıda arxeoloji qazıntıların axırıncı mövsümü olmuşdur. Dağılmış, talan olunmuş evlərin 1992-ci ilin 26 fevralında vəhşi genosidə məruz qalmış sakinləri kimi qədim əcdadlarımızın tarixi abidələri də əsil sahiblərinin öz doğma yurdlarına qayıtmasını gözləyir. Biz əminik ki, Azərbaycan xalqının haqq işi qalib gələcək, müzəffər Azərbaycan əsgəri doğma torpaqlarımızı azad edəcək, erməni vandalları ərazimizdən qovulacaq. O gün uzaqda deyil. Biz bütün varlığımızla buna əminik.

**Açar sözlər:** Xocalı nekropolu, “daş qutular”, keramika, xəncər


в Даш-Булаг
с Ходжалы
Рис. 2. Схема расположения памятников в районе


TABLO 2

**TABLO 3**



**TABLO 4**



**İstifadə edilmiş ədəbiyyat**

1. Ивановский А.А. По Закавказью. МАК, вып.VI, Москва, 1911, с. 143-149.
2. ZE VBGAEU, Berlin, 1898, p.416-454.
3. Мещанинов И.И. Краткие сведения о работах археологической экспедиции в Нагорный Карабах и Нахичеванский край, снаряженной в 1926 г. Обществом Изучения Азербайджана. Сообщения ГАИМК. Ленинград: 1926, с.217-247.
4. Cəfərov H.F. 1984-cü ildə Xocalıda aparılmış arxeoloji qazıntıların hesabatı. AMEA AE İnstitutunun elmi arxivi.
5. Иессен А.А. Из исторического прошлого Мильско-Карабахской степи. ТААЭ, т. II, МИА СССР, №.125, М.-Л.: Наука, 1965, с. 10-35.
6. Асланов Г.Г. Шамхорский некропол. Баку: Элм, 1986, с.3-11
7. Дело АК № 48/1897 г.

**Гидаят Джафаров**

## ПАМЯТНИКИ IV ГРУППЫ ХОДЖАЛИНСКОГО НЕКРОПОЛЯ: ПОГРЕБЕНИЯ В «КАМЕННЫХ ЯЩИКАХ»

**Резюме**

Одним из наиболее ярких памятников Кавказа является Ходжалинский могильный комплекс. Выявленные еще в 80-х годах XIX века, Ходжалинский комплекс неоднократно привлекал внимание целого ряда исследователей. Последние археологические раскопки здесь проводились в 1984 г. Г.Джафаровым. В представленной статье освешаются как результаты этих раскопок, так и раскопки проведенные другими исследователями (Э.Реслер, А.Ивановский, И.Мещанинов) в так называемых каменных ящиках.

**Ключевые слова:** Ходжалинский некрополь, “kаменные ящики”, керамика, кинжалы

**Hidayat Jafarov**

## THE 4$^{th}$ GROUP MONUMENTS OF KHOJALY NECROPOLIS: “STONE BOX” GRAVES

**Summary**

Khojaly necropolis complex occupies a leading position among the attractive monuments of Caucasus. Archaeological excavations were carried out by archaeologists in Khojaly complex discovered in the 80s of the XIX century. The latest archaeological researches were carried out in 1984 by Hidayat Jafarov. The results of excavations and researches carried out under the fourth group by others (E.Resler, A.İvanovski, İ.Meshshaninov) were illuminated in the presented article.

**Keywords:** Khojaly necropolis, “Stone boxes”, ceramics, dagger

**UOT – 091**

**Afaq Məmmədova**
**Azərbaycan Dövlət İqtisad Universiteti, fəl.ü.f.d.**

# ROMANTİZMİN FƏLSƏFİ SƏPGİDƏ TƏDQİQİNİN AKTUALLIĞINA DAİR

*Məqalədə romantizm cərəyanının mahiyyəti açıqlanır və fəlsəfi səpgidə onun tədqiqi məsələləri araşdırılır. Bildirilir ki, maarifçilik cərəyanının böhranından sonra neoklassik Avropa fəlsəfəsinin fundamental əsaslarını ilk olaraq açıqlayan və müəyyən qədər gerçəkləşdirməyə nail olan Romantizm cərəyanının universal sosio-mədəni cərəyan olmaq etibarilə müasir qlobal mədəni məkanda və fəlsəfi fikir tarixində mühüm mərhələ kimi ətraflı tədqiq olunmağa başlandı. XVIII əsrin ortalarından etibarən qlobal mədəni məkanda universal fenomen kimi Romantizmin son iki yüzillikdə mənəvi mədəniyyətin müxtəlif sahələrində aparıcı mədəni-tarixi hərəkatlardan biri kimi çıxış etdiyi qeyd olunur.*

XXI əsrin başlanğıcında müasir fəlsəfi vəziyyətin özünəməxsusluğu yeni fəlsəfənin özündən əvvəlki fəlsəfi-mədəni irsə münasibətinin dərk edilməsilə səciyyələnir. XX əsr klassik Avropa fəlsəfəsində rasionallığın klassik idealları ilə yanaşı Maarifçilik fəlsəfəsinin fundamental əsasları da böhrana uğramışdır. Belə bir şəraitdə, neoklassik Avropa fəlsəfəsinin fundamental əsaslarını ilk olaraq açıqlayan və müəyyən qədər gerçəkləşdirməyə nail olan Romantizm cərəyanının universal sosio-mədəni cərəyan olmaq etibarilə müasir qlobal mədəni məkanda və fəlsəfi fikir tarixində mühüm mərhələ kimi tədqiqinə cəhd etmək tamamilə təbiidir və xüsusi aktuallıq kəsb edir, eləcə də, özünün dəyərləndirilməsinə haqq qazandırır.

XVIII əsrin ortalarından etibarən qlobal mədəni məkanda universal fenomen kimi Romantizm son iki yüzillikdə mənəvi mədəniyyətin müxtəlif sahələrində aparıcı mədəni-tarixi hərəkatlardan biri kimi çıxış etmişdir. Beləliklə, sosio-mədəni universal cərəyan kimi Romantizmin fəlsəfi səpgidə tədqiqini aktuallaşdıran amilləri aşağıdakı mülahizələrlə ümumiləşdirmək olar.

Əvvəla, dünya ictimai-fəlsəfi fikrinin inkişafında varislik prinsipinin tələblərinə əməl edilməsi zərurəti baxımından Romantizm cərəyanının ictimai-fəlsəfi fikir tarixində rolunun və nəhayət, Romantizmin dünya ictimai-fəlsəfi və bədii fikrinin sonrakı inkişafına təsirinin öyrənilməsi xüsusi önəm kəsb edir.

Digər tərəfdən, Romantizm cərəyanının tədqiqi onun mövcud olduğu qlobal mədəni məkanda ölkənin ictimai-mədəni həyatında milli intibahın ayrılmaz tərkib hissəsi kimi ideoloji səpgidə təsir istiqaməti və gücü, siyasi həyata təsiri, görkəmli nümayəndələrini yetişdirən mənəvi zəmin, o zamankı gerçəkliyin doğurduğu problemlərə onların adekvat, yaxud qeyri- adekvat münasibəti öyrənilmədiyindən xüsusi aktuallıq kəsb edir [4, s.173].

Tədqiqatın aktuallığı yalnız “daxili fəlsəfi” situasiya ilə deyil, həmçinin ictimai həyatda baş verən dərin ideoloji və praktiki xarakterli proseslərlə şərtlənir. Müasir cəmiyyətlərdə ictimai quruluşun rasional, nizamlanmış perspektivlərinə müəyyən inamsızlıq, sosial optimizmin yoxluğu və rasional səviyyədə əsaslandırılmış ictimai ideallara qarşı laqeydliyin mövcudluğu aydın şəkildə nəzərə çarpır. Bütün öncəki humanist dəyərlərin yüksək qiymətləndirilməsi proqramı artıq faktiki olaraq həyata keçmiş praktika kimi çıxış edir. Hazırda cəmiyyətin rasional əsaslar üzərində radikal surətdə yenidən təşkilinin

əvvəllər əsaslandırılmış variantları, o cümlədən maarifçilik, marksist və pozitivist-siyentik baxışlar utopik istiqamətlər kimi artıq “öz vaxtını” keçirmişdir. Bu reallıq isə, romantik dünyagörüşün canlanması, və o cümlədən romantik utopiyaların müxtəlif variantlarda bərpası üçün əlverişli şərait və zəmin yaradır [5, s.67].

Fəlsəfi fikir tarixində Maarifçilikdən sonrakı mərhələ kimi səciyyələnən Romantizm öz mövcudluğu ərzində cəmiyyətin mənəvi həyatının bir çox sferalarına - bədii ədəbiyyata, fəlsəfəyə, musiqiyə, təsviri sənətə, teatra və habelə sosiologiya, tarixşünaslıq, tibb, təbiətşünaslıq və digər elm sahələrinə təsir etmişdir. O, gerçəkliyi bədii obrazlarla, rasional və irrasional mənimsəyən fəlsəfi, təbii, elmi, sosial, siyasi, estetik, etik biliklərlə birbaşa bağlı olmuşdur. Lakin istər Azərbaycan, istərsə də postsovet məkanında Romantizm ictimai inkişafın müəyyən mərhələsində çoxistiqamətli fikir cərəyanı, qanunauyğun proses kimi öyrənilməmiş, mənəvi mədəniyyətin bir çox ənənələrinin üzərindən sükutla keçilmişdir.

Qeyd etmək lazımdır ki, əksər tədqiqatçılar Romantizmin sosio-mədəni hərəkat kimi inkişafını yalnız Qərbə müncər etmişdilər. Şərqdə Romantizmin görkəmli nümayəndələrinin dünyagörüşü fəlsəfi araşdırmanın tədqiqat obyektindən kənarda qalmışdır [3, s.211].

Müxtəlif ölkələrdə təzahür edən Romantizm yerli həyat və düşüncə tərzini, dünyanın qavranılması və mənimsənilməsi üsullarını, xalqın tarixi inkişaf yollarını, adət və ənənələrini, milli mənşəyini, dil və mədəniyyətini özündə əks etdirməklə spesifiklik kəsb etmişdir. XIX əsrin ikinci yarısında formalaşan Şərq romantizminin bir qədər əvvəl yaranmış Avropa romantizmindən fərqini də, fikrimizcə, bu yöndə axtarmaq vacibdir. Gerçəklik və onun inikası paralelini apararaq aydın görmək mümkündür ki, Şərq romantizmi göstərdiyimiz dövrdəki Şərq gerçəkliyinin zəruri tələbləri, xalqın düşdüyü ağır müstəmləkə vəziyyətindən çıxış yollarının axtarılması zərurəti və milli mənlik şüurunun təşəkkülünün nəticəsi olaraq yaranmışdır. Lakin həm Qərbdə, həm də Şərqdə Romantizm cərəyanı Maarifçilik cərəyanı ilə bağlı olan ümidlərin puç olmasına reaksiya kimi meydana gəlmişdir. Gözlədikləri nəticəni gerçəklikdə görə bilməyən filosof və ədiblər cəmiyyətin dəyişdirilməsinin yeni yollarını axtarmağa başlayırlar. Bu baxımdan harada yaranmasından asılı olmayaraq Romantizm bütöv və tam bir cərəyandır. Xırda çalarlardan, bir sıra ziddiyyətli məqamlardan sərfnəzər etsək, söyləyə bilərik ki, Romantizm cərəyanı Şərqdə rasionalizmin böhranına cavab olaraq meydana gəlmişdir. Qərbdə olduğu kimi, Şərq romantikləri də dünyanın, insanın və cəmiyyətin dərk olunmasında üstün yeri irrasional momentlərə – təxəyyülə, dini vəhyə, intuisiyaya və s. verirlər. Lakin elə buradaca onu qeyd etməliyik ki, Şərq romantizmində Qərbə nisbətən maarifçilik elementləri və sosial siyasi utopizm özünü daha bariz göstərir [6, s.152], qeyd etmək lazımdır ki, irrasional idrak vasitələrini önə çəkmələrinə baxmayaraq, Şərq romantikləri özlərinin xəyali cəmiyyətlərinin qurulmasında aparıcı rol oynayacaq mükəmməl şəxsiyyət tipinin yaradılmasında elm, təhsil və maarifin mühüm əhəmiyyətə malik olduğunu müntəzəm surətdə qeyd etmişlər. Burada sanki mütəfəkkirlərin gördükləri və qavradıqları gerçəklik hadisələri və prosesləri ilə onların daxili aləminin məhsulu olan romantik gerçəklik arasındakı ziddiyyət təzahür edir.

Yeni minilliyin başlanğıcında postindustrializm və informasiya cəmiyyətinin qərarlaşması, planetarlaşma və inteqrasiyanın geniş vüsət alması təməl olaraq tarixi mənəvi mədəniyyətə söykənir. Mədəni dəyərlər və mənəvi sərvətlər sistemini aydın və əhatəli dərk etmədən, mənimsəmədən milli mədəniyyətlərin perspektivini və sosial inkişafın gələcək taleyini müəyyənləşdirmək mümkün olmazdı. Bu baxımdan milli mədəniyyətlərin mahiyyətini və inkişaf meyillərinin tam mənzərəsini formalaşdırmaq üçün ictimai və fəlsəfi fikrin bütün mərhələlərinin, eləcə də sosio-mədəni universal cərəyan olmaq etibarilə Romantizmin dərin tədqiqinə xüsusi ehtiyac duyulur.

XXI əsrdə geniş vüsət almış qloballaşma proseslərində mədəniyyətlərin dialoqunun milli və fərdi özünüdərkə, mənəvi dəyərlərə və mentalitetə söykənməsinin araşdırılması, tarixi yaddaşla müasirliyin, varisliklə ənənəviliyin əlaqələndirilməsi baxımından millətlərin fərdi və milli mənlik şüurunun formalaşmasının yönümü, üsul və vasitələrinin düzgün müəyyənləşdirilməsi, xalqların sosial və mənəvi yaddaşının obyektiv, qərəzsiz, düzgün nəzəri və metodoloji əsaslarla öyrənmək hazırda aktual məsələlərdən biridir. Bu baxımdan dünya mədəniyyətinin təkamülünə Romantizmin sosial, fəlsəfi və ideoloji təsirinin tədqiqi, bu istiqamətdə onun rolu və yerinin müəyyənləşdirilməsi tədqiqatımızı aktuallaşdıran amillərdəndir.

Romantizm cərəyanı mövcud tədqiqatlarda təkcə ədəbiyyatşünaslıq və incəsənət sahəsi çərçivəsində öyrənildiyindən onun qlobal sosial-mədəni məkanda universal hərəkat, fəlsəfi fikir tarixinin müəyyən mərhələsi kimi yeri müəyyən edilməmişdir. Tədqiqatçılar romantik siyasi iqtisad, romantik tarixşünaslıq, romantik dilçilik, ədəbiyyatşünaslıq və s. epitetlərindən yeri gəldikcə istifadə etmiş, romantizmin incəsənət, əxlaqi və siyasi ideologiyadakı təzahürlərinə qismən, ötəri də olsa, toxunsalar da, bütövlükdə sosio-mədəni universal cərəyan kimi Romantizmin bilik sahələrinə sirayəti, ideoloji-siyasi sferaya təsir gücünü müəyyən etməyə cəhd göstərməmişlər.

Qeyd etmək lazımdır ki, hər bir romantik – Romantizm cərəyanının nümayəndəsi mənəvi mədəniyyətin müxtəlif sferasına nüfuz edən universal yaradıcılıq imkanına malik idi. Məsələn, Novalis ədəbi-bədii yaradıcılıqla yanaşı naturfəlsəfə, təbabət, riyaziyyatla məşğul olurdu. Tik şair, dramaturq və ədəbiyyat tənqidçisi idi, Şellinq fəlsəfə ilə poeziyanı vəhdətə gətirməyə cəhd edirdi. Ritter fizik olmaqla yanaşı gözəl şair idi. Avqust və Fridrix Şlegel qardaşları filologiya, sənətşünaslıq və estetika məsələləri ilə məşğul olurdular. Şleyermaher təkcə teologiya ilə deyil, həmçinin əxlaq problemləri ilə ciddi maraqlanırdı. Bu baxış bucağından Romantizm fəlsəfəsi sanki müxtəlif biliklərin inteqrativ əlaqələndiricisinə çevrilmişdir.

İctimai fikir tarixində fəlsəfi problematikaya yeni tip yanaşmanın əsasını qoyan romantiklər bədii fəlsəfi yaradıcılıqda və ədəbiyyatşünaslıqda bir çox metodoloji üsul və vasitələrin yaranmasına səbəb olmuşdular [7, s.38]. Romantizm fəlsəfəsinin nəzəri-estetik prinsipləri, yaradıcılıq üsulları digər cərəyanların nümayəndələri tərəfindən əxz olunurdu. Bədii-ədəbi yaradıcılığın fəlsəfi-estetik cəhətdən ümumiləşdirilməsi, sənətin fəlsəfi mahiyyət baxımından dəyərləndirilməsini əsaslandıran filosof-romantiklərin nəzəri-estetik prinsipləri uzun müddət aktuallığını qorudu. Bu nöqteyi-nəzərdən, demək olar ki, Romantizm cərəyanı nümayəndələri metodologiya sahəsində bir çox nailiyyətlər əldə etmiş və bu sahənin müstəqil elm kimi müəyyənləşdirilməsinə təsir göstərmişdilər.

Qeyd etmək lazımdır ki, bəzi tədqiqatçıların romantiklərin “heç bir qanun və üsluba sığmadıqlarını” (Kazımoğlu), hər hansı metodun çərçivəsi, hüdudları ilə qənaətlənmədiyini (Tik, Vakenroder) iddia etmələrinə baxmayaraq, müasir dövrdə humanitar sahədə tətbiq olunan bədii, fəlsəfi və elmi metodların bir çoxu romantik təfəkkürün məhsulu olaraq yaranmışdır. Romantizm cərəyanı nümayəndələri tərəfindən sistemləşdirilən tarixilik, millilik, universallıq prinsipləri (A.Şlegel), tarixiliklə müasirliyin əlaqələndirilməsi (J.de Stal və Şatobrian), müqayisəli-mifoloji (Şellinq, Qrim qardaşları), subyektiv-idealist, bədii bioqrafik, estopsixoloji-tənqidi metodlar, habelə sonradan ayrıca cərəyana çevrilmiş hermenevtika [1, s.67] və impressionizm cərəyanları bu qəbildəndir. Bütün bunlara baxmayaraq, Romantizmin bu səpgidə öyrənilməsi, demək olar ki, yox dərəcəsindədir.

Romantizm cərəyanı Azərbaycan filosofları və ədibləri tərəfindən heç öyrənilməmişdir desək, yanlışlığa yol verərik. Lakin bir cəhəti xüsusi qeyd etməliyik ki, sovet quruluşu illərində hər şeyə, bütün fəaliyyət növlərinə hakim kəsilmiş metodoloji, nəzəri və ideoloji doqmatizm bütün elm sahələri ki-

mi fəlsəfənin də başı üstündən “Domokl qılıncı“ kimi asılmışdı. Tədqiqatçı ustalığından və intellektual səviyyəsindən asılı olmayaraq “müəyyən edilmiş“ nəzəri, ideoloji və metodoloji stereotiplərdən kənara çıxa bilməzdi. Romantizmin tədqiqatçıları da həmin “sosial mərəzdən“ xali deyildilər. Məhz ona görə də Romantizm cərəyanı da qeyri-obyektiv yanaşma tərzinə məruz qalmış və sovet ideologiyası çərçivəsində “saf-çürük” edilmişdir.

Müasir dövrdəki tədqiqat əsərlərində nəzərə çarpacaq irəliləyişlər, obyektiv yanaşmalar müşahidə olunur. Təəssüf ki, bu problemə həsr edilmiş əsərlərin əksəriyyətində Romantizm bədii yaradıcılıq metodu və ya ədəbi cərəyan “həddi” ilə məhdudlaşdırılır. Sosio-mədəni universal cərəyan kimi səciyyələnən Romantizmin inkişaf xüsusiyyətləri, onun nümayəndələrinin yaradıcılığı bu və ya digər ölkədə tədqiqat obyektinə çevrilsə də, o bütövlükdə qlobal mədəni məkanın və fəlsəfi fikir tarixinin xüsusi əhəmiyyət daşıyan mərhələsi kimi tədqiq edilməmişdir. Belə səciyyəli tədqiqatın zəruriliyi tədqiqatçıların əksəriyyəti [3, s.47] tərəfindən vurğulansa da, Romantizmin fəlsəfi fikir tarixində mühüm və növbəti mərhələ kimi öyrənilməsi, demək olar ki, yox dərəcəsindədir.

Romantizm cərəyanına hərtərəfli baxış belə bir nəticəyə gəlməyə əsas verir ki, bu cərəyan nümayəndələrinin irsinə “ya-ya” prinsipilə yanaşaraq teist-ateist, mütərəqqi-mürtəce, inqilabçı-mühafizəkar, aktiv-passiv, xalqçı-fərdiyyətçi, millətçi-kosmopolit və s. kimi epitetlər qarşıdurması şablonu ilə dəyərləndirmək əsla yolverilməzdir. Onların yaradıcılığı son dərəcə ziddiyyətlidir. Gerçəklik hadisələrini qiymətləndirmə meyarlarında romantiklər konkret vəziyyətdən çıxış edərək mühafizəkar və ya inqilabçı mövqe tuta, ictimai hadisələrin gedişatından asılı olaraq passiv müşahidəçi, xəyali məkan “sakini” və ya proseslərə fəal münasibət göstərən iştirakçı ola bilərlər. Bu ciddi nöqsanı aradan qaldırmaq üçün araşdırılan problemə yanaşmada nəzəri, ideoloji, metodoloji plüralizm prinsipinə söykənməklə adekvat tədqiqat aparması son dərəcə aktual bir vəzifədir.

Aydındır ki, romantiklərin yaradıcılığında fəlsəfi təfəkkür tərzi ilə bədii təfəkkür tərzinin birləşdirilməsinə cəhd edilir. Məhz bunun nəticəsidir ki, Romantizmdən yazan bütün müəlliflərin əsərlərində eyni məsələlərə dair fərqli, bir çox hallarda isə zidd fikirlərə rast gəlirik. Bunlara yol verməmək üçün romantiklərin yaradıcılığını “vahid konseptual karkas” əsasında yox, plüralizm prinsipi zəminində tədqiq etmək zəruridir.

Fəlsəfə və ictimai fikir tarixində Romantizmin təsiri və ənənələrindən bir çox fəlsəfi məktəb və filosoflar bəhrələnmişdilər. Xüsusilə, fəlsəfi Romantizm ənənələrini modernizm, ekzistensializm, “Həyat fəlsəfəsi” cərəyanları, Şopenhauer, Helderlin, Kerqeqor, Vaqner, Nitsşe, Kamyu kimi filosoflar davam etdirmişdilər [2, s.153]. XIX-XX əsrlərdə bir sıra filosof və yazarların dünyagörüşündə qabarıq təzahür edən romantik tendensiyalar bizə bu mütəfəkkirləri fəlsəfi romantizmin davamçısı kimi səciyyələndirməyə imkan verir. Geniş oxucu auditoriyası üçün, xüsusilə də keçmiş sovet məkanı hüdudlarında naməlum qalan belə mütəfəkkirlərin - O.Şpann, Q.Kayzerlinq, X.C.Çemberlen, A.Vensilin yaradıcılıqlarının tədqiqinə ehtiyac vardır.

Yuxarıda deyilənləri ümumiləşdirərək, bir daha vurğulamaq istərdik ki, ictimai-fəlsəfi fikrin inkişafında varislik prinsipinin tələbləri baxımından Romantizm cərəyanının ictimai-fəlsəfi fikir tarixində yeri, rolu, spesifik əhəmiyyətinin xüsusi tədqiqat obyektinə çevrilməsi, onun dünya ictimai-fəlsəfi və bədii fikrinin sonrakı inkişafına təsirinin öyrənilməsi nəinki aktuallıq kəsb edir, həm də mənəvi- mədəni inkişaf prosesinin obyektiv qanunauyğunluğu və məntiqi tələbidir.

**Açar sözlər:** romantizm, romantizm fəlsəfəsi, romantizmin yaradıcılıq stili və metodları, hermenevtika, dünyanın irrasional mənimsənilməsi

**İstifadə edilmiş ədəbiyyat**
1. Hacıyeva A.Ə. Mədəni-tarixi irsin tədqiqində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti. Bakı: Adiloğlu, 2004, 168 s.
2. Kompridis N. Philosophical romanticism. Routledge, 2006, 304 p.
3. Кулизаде З.А. Из истории азербайджанской философии VII-XVI в.Баку: Азернешр,1992,237 с
4. Кулизаде З.А. Концептуальные проблемы исследования социокультурного развития (конец XX – начало XXI в.), в 2-х ч. Баку: Текнур, 2009, ч. I, 396 с.
5. Manfred F. The philosophical foundations of early German romanticism. SUNY Press, 2004, 286 p.
6. Məmmədova A.S. XX əsr Azərbaycan romantizminin fəlsəfəsi (Məhəmməd Hadi irsinin tədqiqi əsasında). Bakı: Bakı Universiteti, 2003, s.160-166.
7. Paşayev M.C. Azərbaycanda ədəbi məktəblər. Bakı: Ziya-Nurlan, 2004, 391 s.

**Афаг Мамедова**

## РАССУЖДЕНИЯ ОБ АКТУАЛЬНОСТИ ИССЛЕДОВАНИЯ РОМАНТИЗМА В ФИЛОСОФСКОМ АСПЕКТЕ

**Резюме**

В статье анализируется место романтизма как универсального социокультурного течения в истории общественной и философской мысли. Подчеркивается, что после кризиса в движении просветления, началось всестороннее исследование романтизма раскрывщий фундаментальные неоклассические Европейские философские основы, как универсального социокультурного течения, как важного этапа в современном глобально-культурном пространстве и философском сознании. Отмечается, что с середины XVIII века глобально-культурном пространстве романтизм, как универсльный феномен последние две тысячилетия выступает как ведущее культурно-историческое движение в различных сферах нравственной культуры.

**Ключевые слова:** романтизм, философия романтизма, творческий стиль и методы романтизма, герменевтика, иррациональное освоение мира

**Afag Mammadova**

## ACTUALITY OF ROMANTISM RESEARCH IN THE PHILOSOPHICAL ASPECT

**Summary**

The article analyzes the place of romanticism as universal social-cultural currents in the history of social and philosophical thought. İt is noted that after the crisis of enlightenment movement, romanticism explaining the fundamental grounds of neoclassical European philosophy, as universal social-cultural trend, as a main stage in the contemporary global-cultural space and in the history of philosophical thought is studied in detail in the article. Since the middle of XVIII century Romanticism as a universal phenomenon in the global cultural space, in the last two centuries serves as one of leading cultural and historical movements in different areas of spiritual culture.

**Keywords: r**omanticism, the philosophy of romanticism, creative style and methods of romanticism, hermeneutics, irrational development of the world

**UOT – 101.2**

**Söhrab Məhərrəmov**
**AMEA Fəlsəfə İnstitutu, fəl.ü.f.d.**

## POSTSƏNAYE DÖVRÜNDƏ İNFORMASİYA CƏMİYYƏTİ VƏ BİLİK

*İnformasiya cəmiyyətindən danışarkən, onu hərfi mənada başa düşmək yox, müasir cəmiyyətdə oriyentir, dəyişmə tendensiyası kimi qəbul etmək lazımdır. Məqalədə informasiya cəmiyyətinin sivilizasiyanın inkişafında yeni mərhələ olduğu göstərilir, burada istehsalın əsas məhsulu kimi informasiya və bilik olduğu qeyd edilir. Hamı üçün lazım olan informasiyaya çıxış azadlığının olması, cəmiyyətin həyat fəaliyyəti üçün zəruri olanı istehsal etmək bacarığı, həmçinin bütün vətəndaşlara bu informasiyadan istifadə etməyi təmin etməsi informasiya cəmiyyətinin fərqləndirici əlamətləri hesab edilir.*

İnformasiya cəmiyyəti (latın dilində informatio – izah, şərh) sənayeyə qədərki cəmiyyət, postsənaye cəmiyyəti kimi kateqoriyalar sırasına aid termindir. Postsənaye cəmiyyəti informasiyalıdır, çünki informasiya texnologiyaları sahəsində baş verən inqilab əsasında və informasiyanın tətbiqi əsasında yaranır.

İnformasiya cəmiyyəti haqda çox sayda məqalələr yazılmasına rəğmən, onun əksəriyyət tərəfindən qəbul edilən tərifi hələ yoxdur. Dəfələrlə qeyd edilmişdir ki, "informasiyadan kənar" cəmiyyətlər olmur, çünki cəmiyyətlərin hamısı kommunikasiyanı özündə ehtiva edir. Müasir cəmiyyətdən danışanda tədqiqatçıların fikirləri haçalanır. Bəziləri bu cəmiyyəti "elektron", "rəqəmsal" və ya "informasiya-kommunikasiya" cəmiyyəti adlandırır. Bu zaman tam aydın olmur ki, burada söhbət bəzi ölkələrdə artıq qurulmuş cəmiyyətin real vəziyyətindən, yoxsa gələcəkdə olacaq cəmiyyətin obrazından gedir. Y.Habermas, E.Qiddens, Q.Şiller və digər filosoflar və alimlər informasiya cəmiyyəti nəzəriyyəsini tənqid edirlər. Britaniyalı sosioloq F.Uebster hesab edir ki, informasiya-texnologiyalar inqilabı cəmiyyətin informasiyalaşmasını sürətləndirdi, onu prinsipcə dəyişmədi. F. Uebster yazır: "Mən sizin diqqətinizi kapitalizmin yeni əlamətlərinə cəlb etmək istəyirəm. Mənə elə gəlir ki, onun əsas prinsiplərinin əvvəlki kimi qaldığını, onların möhkəmləndiyini və daha geniş istifadə edildiyini qeyd etmək vacibdir. Bugünkü qlobal iqtisadiyyat əvvəllər mövcud olan metodların – bazar mexanizmləri, məhsulların və xidmətlərin ictimai strukturlarda deyil, özəl strukturlar vasitəsi ilə istehsalı, əsas hərəkətverici qüvvə kimi gəlirlərin əldə edilməsi, xidmətlərdə və malların istehsalında muzdlu əməkdən istifadə edilməsinin nəticəsidir. Qısaca desək, bizim bu gün düçar olduğumuz qlobal şəbəkə cəmiyyəti kapitalizm cəmiyyətinin yaxşı məlum olan prinsiplərinin daha tam həyata keçirilməsi, daha doğrusu, transmutasiyasıdır" [6, s.369-370].

Bütün bunlara rəğmən, 80-ci illərin sonundan başlayaraq informasiya cəmiyyəti haqqında fikirlər elmi mühitin hüdudlarından kənara çıxdı və tezliklə dünya siyasətinin mühüm amilinə çevrildi. Artıq bu gün dünyanın bütün ölkələri qlobal informasiya cəmiyyəti quruculuğunda iştirak edir. Rus tədqiqatçısı Y.Y.Çernı hesab edir ki, "informasiya cəmiyyəti" termini elmi xarakterdən çox ideoloji, hətta mif yaradıcı xarakter daşıyır. Y.Y.Çernıya görə bu termin texnoloji tərəqqi pilləkənində "sənaye cəmiyyəti" adlandırılan sosial qurum ilə gələcəkdə yaranacaq şərti olaraq "bilik cəmiyyəti" adlandırılan qurum arasında pillə rolunu oynayır. Tədqiqatçı güman edir ki, "bilik cəmiyyəti" özü gələcəkdə adı hələ məlum olmayan yeni mərhələ ilə əvəz olunacaq.

İnformasiya cəmiyyəti ilə bağlı bir çox hadisələrin və proseslərin mahiyyəti rus filosofu V.S. Stepinin təklif etdiyi sivilizasiya inkişafının iki tipi konsepsiyasında daha aydın olur. V.S.Stepin hesab edir ki, sivilizasiyaların bir çox çeşidliliyi içərisində prinsipcə fərqli sivilizasiya inkişafının iki tipi – ənənəvi və texnogen tipi fərqləndirilməlidir. Ənənəvi sivilizasiya üçün mövcud həyat fəaliyyətinin yenidən istehsalı xarakterikdir. Texnogen sivilizasiyalarda isə təkcə istehsal deyil, həm də sosial sahədə də yeni texnologiyaların daim axtarışı və tətbiqi başlıca rol oynayır.

Texnogen sivilizasiya üçün insanın təbiəti dəyişdirən və onu özünə tabe edən varlıq olması haqda təsəvvürlər xarakterikdir. Bu zaman təbiət elmi idraka və texnoloji dəyişikliklərə qanunauyğun şəkildə məruz qalan obyektlərin sahəsi kimi başa düşülür. İnsan bilikləri sistemində dominant rolunu elmi rasionallıq oynayır. Texnogen sivilizasiyada fərqli sosial birliklərə daxil ola bilən, digərləri ilə bərabər hüquqa malik azad fərd idealı prioritet hesab edilir. Kültürdə orijinal fəaliyyət nümunələri formalaşdıran innovasiyalar ali dəyər sayılır. Texnogen cəmiyyətlərdə hakimiyyət insanlar üzərində deyil, əsasən obyektlər üzərində hakimiyyət kimi nəzərdən keçirilir. Texnogen cəmiyyətlərin yaranması ənənəvi tip cəmiyyətlərə ciddi təsir edərək onları dəyişməyə məcbur etdi.

XX əsrin II yarısında postsənaye inkişaf fazasına qədəm qoyan texnogen sivilizasiya qloballaşma şüarı altında planetin fərqli ölkələrinə və regionlarına daxil olmanın yeni dövrünü başladı. Burada əsas ekspansiya İKT inkişafı ilə bağlı olan texnika - texnologiya ekspansiyasıdır. Bu ekspansiyanın mexanizmi iki fazadan ibarətdir: 1) texnogen sivilizasiyanın nüvəsini təşkil edən ölkələr arasındakı konkurent mübarizəsində texnoloji üstünlük qazanması; 2) Qazanılmış üstünlüyün qlobal səviyyədə beynəlxalq siyasi institutların köməyi ilə həyata keçirilməsi [6, s.345].

YUNESKO-nun İnformasiya cəmiyyətinin məsələlərinə həsr edilmiş Ümumdünya sammitinə müraciətində olan tezislərdən birində deyilirdi ki, “texnoloji informasiyalar” ideyası ilə bağlı olan “informasiya cəmiyyəti” konsepsiyası insanın inkişafına yönəlik “bilik cəmiyyətinin” ancaq bazası rolunu oynayır. YUNESKO-nun Baş katibinin kommunikasiya və informasiya üzrə müavini Abdul Vahid Xan hesab edir ki, “bilik cəmiyyəti” anlayışı daha üstündür, çünki o, dəyişikliklərin sosial, kültür, iqtisadi, siyasi və iqtisadi-hüquqi aspektlərini özündə ehtiva edir, həmçinin inkişafla bağlı daha plürüalistdir, gələcəyə baxışı əhatə edir [1].

YUNESKO-nun mövqeyi beynəlxalq birlik tərəfindən bəyənildi. Bu öz əksini 2003-cü ilin dekabr ayının 12-də qəbul edilən Cenevrə Bəyannaməsinin 67-ci bəndində tapdı: “Biz möhkəm əminik ki, hamımız bir yerdə nəhəng imkanlar dövrünə - informasiya cəmiyyəti və insan ünsiyyəti sahələrinin genişləndiyi dövrə qədəm qoyuruq. Bu yeni yaranan cəmiyyətdə informasiyanı və biliyi yenidən istehsal etmək, mübadilə etmək, birlikdə istifadə etmək və dünyanın bütün şəbəkələrinə ötürmək mümkün olacaq. Əgər biz lazım olan hərəkətləri yerinə yetirsək, tezliklə bütün insanlar biliklərdən birgə istifadəyə nail olacaq, qlobal həmrəyliyin bazasında xalqların və ölkələrin arasında tam qarşılıqlı anlaşmaya əsaslanan yeni informasiya cəmiyyəti quracağıq. Biz inanırıq ki, bu işlər, həqiqətən, biliklərə əsaslanan cəmiyyətin sonrakı inkişafına yol açacaqdır” [1].

BMT Baş Assambleyası 2006-cı ilin mart ayının 27-də informasiya cəmiyyətinin məsələlərinə həsr edilmiş Beynəlxalq Sammitin nəticələrinə aid qərarı ilə may ayının 17-ni Ümumdünya informasiya günü elan etdi.

Yeni texnoloji uklad hüdudlarında nano-bio-informasiya-koqnitiv texnologiyaların konvergensiyası aparıcı rol oynayacaq. Təxmin edilir ki, XXI əsrin ortalarında insanın təbiətinin, o cümlədən şüurun fəaliyyəti texnologiyasına sahib olmaq mümkün olacaq. Süni intellekt təbii intellektin səviyyəsinə çatacaq, bəzi sahələrdə isə ötüb keçəcək. Maşın-insan hibridləri bioloji əsasda yaradılan kiborqlar və öz xarakteristikalarına görə kiborqlara yaxınlaşan insanabənzər robot-androidlər getdikcə daha çox yayılacaq.

“Konvergensiya edən texnologiyalar” termini 2002-ci ildə amerikalı nanotexnoloq M.Roko və sosioloq U.Beynbridj tərəfindən “İnsan təbiətini yaxşılaşdırmaq üçün konvergensiya edən texnologiyalar. Nanotexnologiya, biotexnologiya, informasiya texnologiyası və koqnitiv elm” adlı məruzələrində işlədilmişdir.

Qlobal informasiya cəmiyyətinin inkişaf perspektivləri haqda onu demək mümkündür ki, dünyanın ayrı-ayrı ölkələri və regionları səviyyəsində bütün Yer kürəsi miqyasında praktiki olaraq qeyri-məhdud kommunikasiya imkanları olan informasiya infrastrukturlarının formalaşmasının getdikcə sürətlənəcəyini gözləmək lazımdır. Ancaq bu infrastruktur özü texnoloji inqilabın yeni etapının əsası, bazası rolunu oynayacaq. Hadisələrin inkişafından asılı olaraq “informasiya cəmiyyəti” konsepsiyası öz tarixi rolunu oynayıb qurtardıqdan sonra keçmişə çevriləcək və öz yerini nano-bio-informasiya-koqnitiv texnologiyalara əsaslanan “bilik cəmiyyəti” konsepsiyasına verəcək [3, s.267].

İnformasiyanın yayılması və əlçatan olması sabit iqtisadi, siyasi, kommunal və sosial inkişafın əsas amilləridir. İnformasiya siyasəti hər birimizə təsir edir, çünki informasiya olmadan biz nə fərd kimi, nə də cəmiyyət kimi mövcud ola bilmərik. İnformasiya cəmiyyəti qurulmasının məqsədi, beynəlxalq səviyyədə informasiya və kommunikasiya texnologiyalarından yaradıcı və səmərəli istifadə edilməklə konkurentlikdə üstünlük qazanmaqdır. Qloballaşma deyəndə müasir sosial həyatı xarakterizə edən, sürətlə inkişaf edən və daim sıxlaşan qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq şəbəkəsi başa düşülür. Kommunikasiyanın müasir metodları müxtəlif ölkələrə və kültürlərə bir-biriləri ilə tez və asan qarşılıqlı fəaliyyət göstərməyə imkan verir. “İnformasiya inqilabına” rəğmən bugünkü reallıq cəmiyyətin informasiya ilə zəngin və kasıb sektorları arasında fərqin artmasını göstərir.

XX əsrin 60-cı illərindən başlayaraq bu günlərədək “İnformasiya cəmiyyəti nədir?” sualına bir çox izahlar verilmişdir. Verilən aksentlərdən bu və ya digər texnoloji, ekonomik və sosial proseslərə edilən diqqətin dərəcəsinin çox olmasına rəğmən, informasiya cəmiyyəti aşağıda qeyd edilən xarakteristikalara malik əsas konsepsiya çərçivəsində nəzərdən keçirilir. Hər şeydən qabaq, bu kompüter texnologiyasının inkişafının, informasiya və telekommunikasiya texnologiyalarının yüksək səviyyəsidir, güclü informasiya infrastrukturunun olmasıdır. Buradan da informasiya cəmiyyətinin getdikcə daha çox insanın informasiyaya çıxış imkanının artması, çoxalması kimi mühüm əlaməti qaynaqlanır. Nəhayət, informasiya cəmiyyətinin inkişafının bütün konsepsiyaları və proqramları informasiya epoxasında cəmiyyətin strateji resursu kimi – təbiət, insan və maliyyə resursları ilə müqayisə ediləcək informasiya və bilik çıxış edir.

Artıq 70-ci illərdə informasiya cəmiyyəti ideologiyası çərçivəsində cəmiyyətdə informasiya və onun ötürülməsi, saxlanması və emalının texniki-texnoloji vasitələri ilə cəmiyyətdə mövcud olan münasibətlərin bu və ya digər tərəflərinə diqqəti yönəldən, mümkün ola biləcək müxtəlif sosial, arzu edilən və ya neqativ perspektivlərini araşdıran müxtəlif istiqamətlər və tendensiyalar yaranmağa başladı.

Postsənaye cəmiyyəti konsepsiyasının müəllifi, məşhur Amerikalı sosioloq D.Bell 1980-ci ildə çap etdirdiyi “İnformasiya cəmiyyətinin sosial hüdudları” əsərində postsənaye və informasiya cəmiyyəti ideyalarının konvergensiyasının variantını təklif etdi. D.Bellin işlətdiyi “informasiya cəmiyyəti” ifadəsi postsənaye cəmiyyəti üçün yeni ad kimi ictimai inkişafın pillələrində sənaye cəmiyyətindən sonrakı mərhələ kimi yerini göstərmir, onun sosial strukturunun əsasının – informasiya olmasını müəyyən edir. D.Bellin “Gələcək postsənaye cəmiyyəti” adlı kitabında olduğu kimi burada da elmi biliyin və onun sayəsində əldə edilən biliyin fəaliyyətinə daxil olan informasiyaya birinci dərəcəli əhəmiyyət verilir. D.Bellin izahında informasiya cəmiyyəti postsənaye cəmiyyətinin bütün əsas xüsusiyyətlərinə (ekonomika xidməti, nəzəri biliyin mərkəzi rolu, gələcəyə istiqamətlənən və bununla şərtlənən texnologiyaların idarə edilməsi, yeni intellektual texnologiyaların inkişafı) malikdir. Ancaq əgər “Gələcək postsənaye cəmiyyətində” elektron hesablama texnikası elmtutumlu sahələrdən və mürəkkəb vəzifələrin sistemli təhlili və onun nəzəriyyəsinin tətbiq edilməsi ilə həlli üçün zəruri vasitələrdən biri kimi nəzərdən keçirilirdisə, “İnformasiya cəmiyyətinin sosial hüdudları” əsərində elektron hesablama texnikası ilə rabitə vasitələri texnikasının konvergensiyasına böyük əhəmiyyət verilir. D.Bell hesab edir ki, “Qarşıdan gələn yüzillikdə iqtisadi və sosial həyatda biliyin istehsal üsullarında, həmçinin insanın əmək fəaliyyətinin xarakterində telekommunikasiyalara söykənən, ondan törəyən yeni sosial uklad həlledici əhəmiyyət qazanır”.

XX əsrin 70-ci illərində Yaponiyada çap olunmuş “İnformasiya cəmiyyətinin planı” kitabının müəlliflərindən biri olan İ.Masudanın kitabının nəşrindən sonra informasiya cəmiyyətinin yaponlar tərəfindən irəli sürülmüş ilkin izahı, tərifi dünya elmi ictimaiyyətinin diqqət mərkəzinə çevrildi. “İnformasiya cəmiyyəti” termininin kəşf edilməsi Tokio Texnoloji institutunun professoru Y.Hayaşinin adı ilə bağlıdır. İnformasiya cəmiyyətinin konturları keçən əsrin 60-cı illərinin sonu – 70-ci illərinin əvvəllərində yapon hökumətinə təqdim edilmiş - “Yapon informasiya cəmiyyəti: mövzular və yanaşmalar” (1969); “İnformasiya cəmiyyətinin planı” (1971); “Yapon cəmiyyətinin informasiyalaşmasına kömək siyasətinin konturları” (1969) məruzələrində öz əksini tapmışdır [3].

İnformasiya cəmiyyəti burada kompüterləşmə, insanlara etibarlı informasiya mənbələrinə çıxış imkanı verən bir proses kimi xarakterizə edilir, onları faydasız işdən azad edir, istehsalın avtomatlaşmasının yüksək səviyyəsini təmin edir. Həm də bu zaman istehsalın özü dəyişir, onun məhsulu daha çox “informasiya tutumlu” olur, bu isə onun qiymətində innovasiyanın, layihə konstruktor işlərinin və marketinqin payının artmasına səbəb olur, cəmiyyətin yaranmasının və inkişafının hərəkətverici qüvvəsi rolunu maddi məhsul deyil, informasiya məhsulu oynayır [6, s.248].

Qeyd etmək lazımdır ki, hələ XX əsrin 40-cı illərində avstraliyalı ekonomist A.Klark informasiya və xidmət cəmiyyətinin perspektivindən yazırdı, 50-ci illərdə isə amerikalı ekonomist F.Maklup öz əsərlərində informasiya ekonomikasının hücumundan danışırdı.

İnformasiya cəmiyyəti konsepsiyasının yapon variantı, əsasən, Yaponiyanın inkişafının ekonomik vəzifələrinin həlli məqsədi ilə işlədilirdi. Bu şərtlər, müəyyən mənada, onun məhdud və tətbiqi xarakterini müəyyən edirdi. Ancaq 70-ci illərdə informasiya cəmiyyəti ideyası ABŞ-da və Qərbi Avropa ölkələrində məşhurlaşdı və universalist ideologiya əlamətləri qazandı [5, s.129].

S.Nor və A.Minkin “Cəmiyyətin kompüterləşməsi. Fransa prezidentinə məktub” adlı kitabında informasiya cəmiyyəti və mədəniyyətində ciddi problemlər yaranan cəmiyyət kimi xarakterizə edilir. Müəlliflər əmindirlər ki, bu problemləri Bellin postsənaye yanaşması ilə başa düşmək, həll etmək mümkün deyil. Onlar hesab edirlər ki, belə yanaşmaya görə gələcəkdəki cəmiyyəti zənginlik və həyat standartlarının yaxınlığı səbəbindən milləti nəhəng kültür homogen orta sinif ətrafında birləşməyə və sosial ziddiyyətləri aradan qaldırmağa imkan verən “trankvilizion” postsənaye cəmiyyəti kimi təsəvvür etmək olar. Postsənaye yanaşması, söhbət istehsalçı və istehlakçının davranışını idarə edən informasiyadan gedəndə sərfəlidir, kommersiya fəaliyyəti sahəsindən kənara çıxan və mədəniyyət modelindən asılı olan problemlərin toqquşması zamanı bu yanaşma lazımsız olur. Təsadüfi deyil ki, S.Nor və A.Minkin adı çəkilən kitabının bir bölməsi belə adlanır: “Kompüterləşmiş cəmiyyət mədəni konfliktlərin cəmiyyəti olacaqmı?”. İnformasiya cəmiyyətinin sənaye cəmiyyətinə nisbətən sosial strukturlaşma baxımından az dəqiq və daha çox polimorf olacağını təsəvvür edən müəlliflər proqnozlaşdırırlar ki, polimorfizmin amillərindən biri müxtəlif qrupların dilin sadələşməsi, məlumat bazasının ekonomikliyi və müxtəlif elektron-vasitəçi kommunikasiya ilə az bağlı olmayan tendensiyası olacaq. Onlar iddia edirdilər ki, informasiya cəmiyyəti müxtəlif qruplar arasında dil üstündə mübarizə cəmiyyəti olacaq.

İnformasiya cəmiyyəti ideologiyasının formalaşmasının başlanğıc mərhələsində irəli sürülən nüfuzlu sosioloji konsepsiyalar elmi-nəzəri bilik və ya həqiqi, doğru, dürüst informasiyanın dəyərini qeyd edirdilər. Kompüter və telekommunikasion texnologiyaların inkişafı ilə birlikdə onların cəmiyyətdə rolunun yüksələcəyini proqnozlaşdırırdılar. Qeyri-elmi informasiyanın əhəmiyyəti və nəticədə informasiya cəmiyyətinin formalaşmasının “elmi diskursla onun imtiyazlı statusu” arasında olan perspektivləri arasındakı bağlılıq tendensiyası güclənir [3, s.277].

Burada fransız strukturalist və poststrukturalist intellektual gələnəyinin ardıcılı olan amerikalı sosioloq M.Posterin mövqeyi maraq doğurur. Onun fikrincə, elektron-vasitəçi kommunikasiyanın adekvat sosiologiyası o halda mümkündür ki, elm digər diskurs növləri ilə bərabərhüquqlu hesab edilsin. M.Poster informasiyanı ekonomik mahiyyət kimi şərh etməyi doğru saymır və nəzəri bazanı əmtəə (mal) münasibətlərinin yayılmasını informasiya sahəsinə aid edir. M.Poster qeyd edir ki, surətçıxarmanın və informasiyanın yayılmasının asanlığı maddi şeylər üzərində xüsusi mülkiyyətin müdafiəsi üçün yaradılmış hüquqi sistemin dayaqlarını dağıdır. O, iddia edirdi ki, hesablama texnikası və rabitə vasitələri texnikasının konvergensiyası dövründə, kommunikasiya təcrübəsinin strukturunda olan dəyişiklikləri nəzərə almadan sosial münasibətləri adekvat başa düşmək, anlamaq mümkün deyil. XX əsrin 80-ci illərində, hələ internetin milyonlarla insanın gündəlik işinə çevrilməsindən öncə, Posterin “özü-özünü modelləşdirmə” kimi informasiya modelləşdirmə imkanları barədə yazması diqqəti cəlb edir. 90-cı illərdə və sonrakı onillikdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafının yaratdığı yeni kültür fenomenləri bir çox müəlliflərin diqqət mərkəzində idi.

Müasir informasiya-kommersiya texnologiyalarının yaratdığı imkanlardan insanların xeyrinə istifadə etmək müxtəlif ölkələrin hökumətləri, regionlarda dövlətlərarası birliklərin, idarəetmə orqanları tərəfindən qəbul edilən informasiya cəmiyyətinin rəsmi strategiyasının və proqramının əsas pafosu idi. 2000-ci ildə “səkkizlərin” dövlət başçıları tərəfindən qəbul edilmiş qlobal informasiya cəmiyyətinin Okinava xartiyasında deyilir: “Bizim təsəvvürümüzdəki informasiya cəmiyyəti insanlara öz potensialını istifadə etməyə və özlərinin can atdıqları işləri reallaşdırmağa imkan verir. Bunun üçün biz elə etməliyik ki, İKT (İnformasiya-kommunikasiya texnologiyaları) stabil iqtisadi inkişafın təmin edilməsinə kömək edən və qarşılıqlı şəkildə bir-birini tamamlayan məqsədlərə çatmağa, ictimai rifahın yüksəlməsinə, sosial razılığı stimullaşdırmağa və demoktatiyanın güclənməsi sahəsində onların potensialından tam istifadə edilməsinə, reallaşmasına, beynəlxalq sülhün və stabilliyin transparent və məsuliyyətli idarə edilməsinə xidmət etsin. Bu məqsədlərin əldə edilməsi və yaranan problemlərin həlli səmərəli milli və beynəlxalq strategiyanın hazırlanmasını tələb edir”. “İnformasiya cəmiyyəti” anlayışının Yapon versiyası 1961-ci ildə Küse Kurokava ilə Tadao Umesao arasında söhbət zamanı işlənmişdir. Sonralar bu termin Yaponiyada və ABŞ-da eyni vaxtda T. Umesao və F.Maxlupanın əsərlərində işlədilməyə başlandı. “İnformasiya cəmiyyəti” termini M.Porat, Y.Masud, T.Stouner, R.Kars və digər tanınmış müəlliflər tərəfindən inkişaf etdirilmişdir [4, s.39]. Bu nəzəriyyə əsas diqqətini informasiya texnologiyalarının inkişafına deyil, texnoloji və ya texnetren cəmiyyətlərin formalaşmasına yönəldən tədqiqatçılar tərəfindən dəstək almışdı. Hazırda müasir cəmiyyətin tək-tək əlamətlərini göstərmək üçün istifadə edilən onlarla anlayışlar mövcuddur.

1992-ci ildən başlayaraq bu termini Qərb ölkələri də işlətməyə başladılar. Misal üçün “milli qlobal informasiya strukturu” termini ABŞ-da Milli Elmi fondun məşhur konfransından və B.Klinton, A.Qorun məşhur məruzəsindən sonra işlədilməyə başlandı. “İnformasiya cəmiyyəti” termini Martin Banqemanın rəhbərliyi altında informasiya cəmiyyəti haqda proqramların Avropa komissiyasının ekspert qruplarının işlərində istifadə edilməyə başlandı [1].

XX əsrin sonlarında “informasiya cəmiyyəti” və “informasiyalaşma” terminləri təkcə informasiya sahəsinin mütəxəssislərinin leksikonunda deyil, həm də siyasi xadimlərin, iqtisadçıların, müəllimlərin və alimlərin leksikonunda öz yerini möhkəm tutdular. Əksər hallarda bu terminlər vətəndaş cəmiyyəti (və ya ən azı onun prinsiplərinin elan edildiyi cəmiyyət) platformasında yeni evolyusiya, təkamül sıçrayışı həyata keçirməyə və növbəti, XXI əsrə informasiya cəmiyyəti olaraq və ya onun başlanğıc mərhələsi kimi daxil olmağa imkan verən informasiya texnologiyaları və telekommunikasiya vasitələrinin inkişafı ilə assosiasiya edilir.

Kompüterləşmə və informasiyalaşmanın ictimai həyatın və iqtisadi fəaliyyətin müxtəlif sahələrində texnoloji və sosial nəticələrin dərinliyini və ölçülərini nəzərə alaraq, onları çox vaxt kompüter və ya informasiya inqilabları adlandırırlar. Hətta qərbin ictimai-siyasi fikri “informasiya cəmiyyəti” adlandırılan konsepsiyanın fərqli variantlarını irəli sürmüşdü. Bu variantların məqsədi elmi-texniki tərəqqinin, kompüter və informasiya inqilablarının yeni mərhələsinin yaratdığı ən yeni hadisələrin izah edilməsi idi. Qərbdə bu konsepsiyanın əhəmiyyəti və artan populyarlığının çoxalmasına bu mövzuda olan məqalələrin getdikcə artması sübut ola bilər. Qərb ictimai-siyasi fikrində müasir dövrdə bu ideya keçən əsrin 70-ci illərində postsənaye cəmiyyətinin tutduğu yeri tutur [3, s.278].

Bəzi politoloqlar və iqtisadçılar informasiya cəmiyyəti ilə postsənaye cəmiyyəti arasında dəqiq sərhəd qoymağa cəhd edirlər. Hər halda informasiya cəmiyyəti postsənaye cəmiyyəti nəzəriyyəsini əvəz etməli olsa da, onun tərəfdarları texnokratizmin və ənənəvi futurologiyanın bir sıra mühüm normalarını təkrar edir və inkişaf etdirirlər.

İnformasiyanın işlənməsi sahəsində böyük dəyişikliklərə görə ictimai münasibətlərin dəyişməsi - sivilizasiya inkişafı tarixində bir necə informasiya inqilabı baş vermişdir. Belə dəyişikliklərin nəticəsi olaraq insan cəmiyyəti yeni keyfiyyət qazanmışdı. Bu inqilabların tarixinə ötəri nəzər salmaq dediklərimizin nə dərəcədə doğru olduğunu əyani şəkildə göstərir.

Birinci inqilab tarixin ilk çağlarında yazının kəşfi bilikləri saxlamaq və gələcək nəsillərə ötürmək ilə bağlı olan böyük keyfiyyət və kəmiyyət sıçrayışına səbəb oldu.

İkinci inqilab (XVI əsrin ortası) kitab çapının kəşfi ilə bağlı idi. Bu inqilab nəticəsində informasiyanın saxlanılmasının tamamilə yeni bir üsulu yarandı. Bəşər övladı informasiyanı saxlamaq, sistemləşdirmək və yaymaq üçün yeni bir vasitə əldə etdi. Bu vasitə mənəvi və kültür dəyərlərini daha geniş kütlələrə çatdırmağa imkan verdi, cəmiyyətin, kültürün, fəaliyyətin təşkilini radikal şəkildə dəyişdi.

Üçüncü inqilab (XIX əsrin sonu) elektrikin kəşfi ilə şərtlənir, bunun sayəsində istənilən həcmdə informasiyanı operativ şəkildə istənilən həcmdə və yüksək sürətlə ötürməyə və qəbul edib saxlamağa imkan yarandı. Teleqraf, telefon, radio kəşf edildi. İnformasiya-kommunikasiya vasitələri yarandı.

Dördüncü inqilab (XX əsrin 70-ci illəri) mikroprosessor texnologiyası ixtira olundu və fərdi kompüterlər meydana çıxdı. İnformasiyanın elektrik və mexaniki vasitələri keçmişdə qaldı. Onları elektron vasitələr əvəz etdi. Bu vasitələr maşın və cihazları daha kiçik ölçüdə istehsal etməyə və proqramla idarə olunan qurğular yaratmağa imkan verdi. Dördüncü informasiya inqilabı bəşəriyyətin sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçməsinə təkan verdi. Bu bir vaxt bəşəriyyətin aqrar cəmiyyətdən sənaye cəmiyyətinə keçidinə bənzəyirdi. Dördüncü inqilabın baş verməsinin əsas səbəbi ötən əsrin 40-cı illərində Elektron Hesablama Maşınlarının (EHM) yaranması oldu [1, s.170].

Bütövlükdə informasiya inqilabı adlandırdığımız bu dövrü üç əsas kəşf xarakterizə edir:

- informasiyanın dəyişilməsinin mexaniki və elektrik vasitələrindən elektrona keçid;
- bütün cihazların və maşınların miniatürləşməsi;
- proqramla – idarə olunan cihazların və proseslərin yaradılması [1].

Bu dövr haqda daha dəqiq təsəvvürün yaranması üçün elektron-hesablama maşınların nəsil dəyişməsi ilə tanış olmaq məqsədə uyğundur və bu məlumatları informasiyanın emalı və ötürülməsi mərhələsi ilə müqayisə etmək lazımdır.

1-ci nəsil (50-ci illərin əvvəli). Element bazası – elektron lampalardır. EHM ölçülərinin böyüklüyü, böyük həcmdə elektrik istifadə etməsi, sürətli hərəkətin azlığı, etibarlılığın aşağı olması, kodlarla proqramlaşdırma ilə fərqlənirdi.

2-ci nəsil (50-ci illərin sonları). Element bazası – yarımkeçirici elementlərdir. EHM-nın əvvəlki nəsli ilə müqayisədə bütün texniki göstəricilər (xarakteristikaları) yaxşılaşdı. Proqramlaşdırmada alqoritmik dildən istifadə edilir.

3-cü nəsil (60-cı illərin əvvəli). Element bazası – inteqral sxemlər, çoxtəbəqəli çap montajıdır. EHM ölçülərinin kəskin kiçildilməsi, etibarlılığın yüksəldilməsi, məhsuldarlığın çoxalması baş verir. Kənar terminallardan çıxış mümkün olur.

4-cü nəsil (70-ci illərin ortaları). Element bazası – mikroprosessorlar, böyük inteqral sxemlərdir. Texniki göstəricilər yaxşılaşır. Fərdi kompüterlərin kütləvi istehsalı başlayır. İnkişafın istiqaməti: yüksək məhsuldarlıqlı güclü mikroprosessorlu hesablama sistemləri, ucuz mikro EHM-nin yaradılması.

5-ci nəsil (80-cı illərin optalarından). Hələ tam təkmil olmayan intellektual kompüterlərin istifadəsinə başlandı. Burada kompüter şəbəkəsinin fəaliyyətin bütün sahələrinə tətbiq edilməsi, məlumatların ayrılmış təhlilinin istifadəsi, kompüter informasiya texnologiyalarının hər yerdə tətbiqi baş verdi [1, s.272].

Sonuncu informasiya inqilabı nəticəsində ilk plana yeni sahə - texniki vasitələrlə, metodlarla, yeni biliklər əldə edilməsi (istehsalı) üçün texnologiya ilə bağlı olan informasiya sənayesi çıxdı. İnformasiya sənayesinin mühüm tərkib hissəsi olaraq informasiya texnologiyasının, xüsusilə, telekommunikasiyanın bütün növləri çıxış edir. Müasir informasiya texnologiyası kompüter texnologiyası (texnikası) və rabitə vasitələrinin uğurlarına əsaslanır.

Sənaye istehsalında sosial-iqtisadi və siyasi həyatın mürəkkəbləşməsi, insan fəaliyyətinin bütün sahələrindəki proseslərin dinamikasındakı dəyişilmələr bir tərəfdən biliklərə tələbatın artmasına, digər tərəfdən bu tələbatın yerinə yetirilməsi üçün yeni vasitə və üsulların yaradılmasına səbəb oldu [4, s.192].

Kompüter texnikasının və informasiya texnologiyasının sürətli inkişafı müxtəlif informasiyadan istifadə bazasında inkişaf edən və informasiya cəmiyyəti adlanan cəmiyyətin inkişafında təkan rolunu oynadı.

Yapon alimləri hesab edirlər ki, informasiya cəmiyyətində kompüterləşmə prosesi insanlara etibarlı informasiya mənbələrinə çıxışı təmin edəcək, onları faydasız işdən azad edəcək, istehsal və sosial sahələrdə informasiyanın təhlilinin yüksək səviyyədə avtomatlaşmasını təmin edəcək. Cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi maddi məhsulların deyil, informasiyanın istehsalı təşkil etməlidir. Maddi məhsul informasiya baxımından daha kiçik (yığcam) olacaq, bu isə onun qiymətində yeniliklərin, dizaynın və marketinqin payının artmasına səbəb olur [3, s.129].

İnformasiya cəmiyyətinin maddi və texnoloji bazası rolunu kompüter texnikası və kompüter şəbəkəsi, informasiya texnologiyası, telekommunikasiya rabitəsinin oynadığı müxtəlif sistemlər oynayır.

İnformasiya cəmiyyətində işləyənlərin əksəriyyəti informasiyanın, xüsusilə də, onun ali forması olan biliyin istehsalı, qorunması (saxlanması), təhlili və reallaşması ilə məşğul olur. İnsanların işi başlıca olaraq informasiyanın təhlilində (emalında) cəmləşir, maddi istehsal və enerji istehsalı isə maşınlara həvalə edilir.

İnformasiya cəmiyyətinə keçid dövründə informasiyanı kompüter və telekommunikasiya informasiya texnologiyaları bazasında təhlil edən yeni sənaye yaranır.

Y.Martin hesab edir ki, informasiya cəmiyyəti adı altında ilk əvvəl Qərbdə yaranan “inkişaf etmiş postsənaye cəmiyyəti” başa düşülür. O, hesab edir ki, informasiya cəmiyyətini XX əsrin 60-70-ci illərində postsənaye cəmiyyətinin formalaşdığı ölkələrdə - Yaponiya, ABŞ və Qərbi Avropada öz təsdiqini tapması təsadüfi deyil. Y.Martin informasiya cəmiyyətinin əsas xarakteristikası kimi aşağıdakı kriteriyaları göstərir:

- Texnoloji sahədə: əsas amil – istehsalda, idarələrdə, təhsil sistemində və məişətdə geniş şəkildə informasiya texnologiyaları tətbiq edilir;
- Sosial sahədə: informasiya həyatın keyfiyyətinin dəyişməsinin vacib stimulyatoru rolunda çıxış edir, “informasiya şüuru” informasiyaya geniş çıxış olanda formalaşır və möhkəmlənir;
- İqtisadi sahədə: informasiya iqtisadiyyatda resursun, xidmətin, əlavə dəyərin və məşğulluğun mənbəyi kimi çıxış edir;
- Siyasi sahədə: informasiya azadlığı, əhalinin fərqli sinifləri və təbəqələri arasında konsensusun və iştirakın artması ilə xarakterizə olunan siyasi proseslərə səbəb olur;
- Mədəniyyət sahəsində: informasiyanın mədəni dəyərlərinin ayrıca fərdin və bütöv cəmiyyətin maraqlarında informasiya dəyərlərinin təsdiqinə kömək vasitəsi kimi qəbul edilməsi baş verir [2, s.118].

Bu zaman Martin kommunikasiyanın “informasiya cəmiyyətinin əsas elementi” olması haqda fikri xüsusi qeyd edir. Y.Martin qeyd edir ki, informasiya cəmiyyətindən danışarkən, onu hərfi mənada başa düşmək yox, müasir qərb cəmiyyətində oriyentir, dəyişmə tendensiyası kimi qəbul etmək, nəzərdə tutmaq lazımdır. Onun sözlərinə görə bu model gələcəyə istiqamətlənib, amma artıq indi bəzi inkişaf etmiş ölkələrdə informasiya texnologiyalarının səbəb olduğu və informasiya cəmiyyətinin konsepsiyasını təsdiq edən dəyişiklikərin adını çəkmək olar [2, s.117].

Y.Martin informasiya cəmiyyətləri ilə bağlı aşağıdakı dəyişiklikləri sadalayır:

- iqtisadiyyatda, xüsusilə də işçi qüvvəsinin paylanması sahəsində olan struktur dəyişiklikləri; informasiyanın və informasiya texnologiyalarının vacibliyinin güclənməsi;
- kompüter savadlılığının zəruriliyinin başa düşülməsinin çoxalması;
- kompüterlərin və informasiya texnologiyalarının geniş yayılması;
- cəmiyyətin və təhsilin kompüterləşməsinin və informasiyalaşmasının inkişafı;
- kompüter mikroelektron texnologiyaların və telekommunikasiyaların inkişafının hökumət tərəfindən dəstəklənməsi;
- kompüter viruslarının və zərərli proqramların bütün dünyada geniş yayılması.

Y.Martin hesab edir ki, bu dəyişilmələrin işığında “informasiya cəmiyyətini həyatın keyfiyyəti, həmçinin sosial dəyişilmələrin və ekonomik inkişafın perspektivlərinin informasiyadan və onun istifadəsindən artan dərəcədə asılı olan cəmiyyət kimi qeyd etmək olar”. Belə cəmiyyətlərdə həyat standartları, əmək və istirahət formaları, təhsil sistemi və bazar informasiya və bazar sahəsindəki uğurlardan əhəmiyyətli dərəcədə asılı olur” [2, s.116].

İnformasiya cəmiyyəti haqda geniş və detallı konsepsiyanı yuxarıda informasiya cəmiyyəti haqda fikirləri ilə tanış olduğumuz Amerikalı tədqiqatçı D.Bell (onun 60-70-ci illərdə hazırladığı postsənaye cəmiyyəti haqqındakı nəzəriyyə bütövlükdə bura daxildir) təklif edir. D.Bell iddia edir ki, “yeni yüzillikdə iqtisadi və sosial həyat üçün, biliyin istehsal üsulları üçün, həmçinin insanın əmək fəaliyyətinin xarakteri üçün telekommunikasiyaya əsaslanan yeni ukladın yaranması həlledici əhəmiyyət qazanır. Kompüterin mərkəzi rol oynadığı informasiya və biliyin təşkili və təhlilindəki inqilab postsənaye cəmiyyətinin formalaşması ilə eyni vaxtda baş verir”. D.Bell eyni zamanda qeyd edir ki, bu inqilabı başa düşmək üçün postsənaye cəmiyyətinin üç aspektini bilmək olduqca vacibdir. Burada sənaye cəmiyyətindən xidmət cəmiyyətinə keçid, texnoloji yeniliklərin və yeni “texniki texnologiyaların” sistemli analizin həlledici vasitəsinə çevrilməsini reallaşdırmaq, kodlaşdırılmış elmi biliyin müəyyənedici əhəmiyyəti və qərar qəbul edilməsi nəzəriyyəsi nəzərdə tutulur.

Yüz minlərlə və hətta milyonlarla insanın fəaliyyətinin koordinasiya edilməsinin tələb edildiyi böyük təşkilatlar kompleksinin və istehsal sistemlərinin idarə edilməsinin mümkün olması keyfiyyətcə yeni hal oldu.

Hazırda ayrı-ayrı insanların, qrupların, kollektivlərin və təşkilatların fəaliyyəti onların informasiyalı olmaları və malik olduqları informasiyadan səmərəli istifadə qabiliyyətindən getdikcə daha çox asılı olmağa başlayıb. İndi hər hansı işi görməzdən qabaq informasiya toplamaq və təhlil etmək, onu başa düşmək və analiz etmək üçün böyük iş görmək lazım gəlir. İstənilən sahədə rasional qərarlar qəbul etmək üçün böyük həcmdə informasiyanı təhlil etmək tələb olunur, bu isə çox vaxt xüsusi texniki vasitələr cəlb etmədən mümkün olmur [1, s.163].

İnformasiyanın həcminin artması XX əsrin ortalarında, xüsusilə, aydın görünməyə başladı. Sel kimi gələn informasiya axını insanın üzərinə tökülərək, bu informasiyanı tam şəkildə qəbul etməyə imkan vermirdi. Hər gün gələn informasiya axınında baş çıxarmaq getdikcə çətinləşirdi. Çox vaxt əvvəl olan informasiyanı tapmaq o qədər çətin olur ki, yeni maddi və ya intellektual məhsul yaratmaq ondan asan olur. Bunun nəticəsində informasiya böhranı yaranır [3, s.125].

Dünyada nəhəng informasiya potensialı yaranıb, toplanıb, amma insanlar öz imkanlarının məhdudluğu səbəbindən ondan tam həcmdə istifadə edə bilmirdilər. İnformasiya böhranı cəmiyyət qarşısında yaranmış vəziyyətdən çıxış yolları axtarmaq zərurəti qoydu. Fəaliyyətin müxtəlif sahələrinə EHM-nın, informasiyanın təhlilinin (emalının) və ötürülməsinin müasir vasitələrinin tətbiqi sənaye inkişafı mərhələsində olan bəşər cəmiyyətinin inkişafında informasiyalaşma adlanan yeni təkamül prosesinin başlanmasına səbəb oldu.

Cəmiyyətin informasiyalaşması – vətəndaşların, dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının, təşkilatların, ictimai birliklərin informasiyaya olan tələblərinin ödənilməsi və hüdudlarının reallaşması üçün optimal şəraitin yaradılmasının sosial-iqtisadi və elmi-texniki prosesinin informasiya resurslarının formalaşması və istifadəsi əsasında təşkil edilməsidir.

Müasir maddi istehsal və digər fəaliyyət sahələrinin getdikcə daha çox informasiya dəstəyinə, nəhəng miqdarda informasiyanın təhlil edilməsinə ehtiyacı var. İstənilən informasiyanın təhlili üçün universal texniki vasitə kompüterdir. Kompüter insanın və bütövlükdə cəmiyyətin intellektual imkanlarını gücləndirmək rolunu oynayır, kompüterlərdən istifadə edən kommunikasiya vasitələri isə rabitəyə və informasiyanı ötürməyə xidmət edir. Kompüterin kəşfi və inkişaf etməsi cəmiyyətin informasiyalaşması prosesinin tərkib hissəsidir [4, s.190].

Cəmiyyətin kompüterləşməsində informasiyanın təhlilinin nəticələrinin operativ şəkildə əldə edilməsini və onun yığılmasında əsas diqqət kompüterin texniki bazasının inkişafına və tətbiq edilməsinə verilir.

Cəmiyyətin informasiyalaşmasında əsas diqqət insan fəaliyyətinin bütün sahələrində həqiqi, tam (hər şeyi əhatə edən) və öz müasiri olan biliyin hərtərəfli istifadəsini təmin edən kompleks tədbirlərə (işlərə) yetirilir.

Beləliklə, dediklərimizdən aydın olur ki, "cəmiyyətin informasiyalaşması" anlayışı "cəmiyyətin kompüterləşməsi" anlayışına nisbətən daha genişdir və öz tələblərinin təmin edilməsi üçün informasiyaya malik olmağa yönəlib. "Cəmiyyətin informasiyalaşması" anlayışında əsas aksent texniki vasitələrə deyil, mahiyyətə və sosial-texniki tərəqqinin məqsədlərinə verilməlidir. Bununla da kompüterin cəmiyyətin informasiyalaşması prosesinin əsas texniki tərkib hissəsi olması öz təsdiqini tapır.

Hazırda dünyanın bütün ölkələri bu və ya digər dərəcədə informasiyalaşmanı həyata keçirir. İnformasiyalaşma proqramının uğurla reallaşması üçün bütün dünya birliyi üçün aşağıda göstərdiyimiz vahid prinsiplərə əməl etmək arzu edilir:

- ilk olaraq ölkənin ancaq iqtisadi inkişafını prioritet olaraq təmin etməkdən imtina edilməsi;
- ağır sənayeyə əsaslanan iqtisadi strukturun elmtutumlu sahələrə əsaslanan struktur ilə əvəz edilməsi;
- informasiya sektorunun prioritet xarakter olmasının, uğurlu iqtisadi inkişafın əsasının milli iqtisadiyyat olmasının qəbul edilməsi;
- informasiyalaşmaya istər dövlət, istərsə də özəl maliyyə vasitələrinin cəlb edilməsi;
- kommunikasiya və informasiyanın təhlili şərtlərinin yüngülləşməsi (sadələşməsi) hesabına ölkənin və onun vətəndaşlarının rifah halının inkişafının yüksəlməsinin informasiyalaşmanın başlıca məqsədi olduğunun elan edilməsi [1].

İnformasiyalaşma prosesinin nəticəsi maddi obyektlərlə deyil, simvollarla, ideyalarla, obrazlarla, intellektlə, biliklə manipulyasiya edilən informasiya cəmiyyətinin yaranmasıdır.

İnformasiya cəmiyyətinin formalaşmasına təsir edən amillərdən biri dünya (internet) şəbəkəsidir. Belə ki, yüksək informasiyaya əsaslanan müasir cəmiyyətdə şəxsiyyət hansı coğrafi məkanda yaşamasından asılı olmayaraq internet vasitəsilə istənilən dövlətdən qısa müddət ərzində dolğun və səhih informasiya ala bilər.

İnternet bu gün təkcə informasiya mübadiləsi məkanı deyil, həmçinin dövlət idarəçiliyi, təhsil, səhiyyə, biznes, bank və digər sahələri əhatə edən, yeni dəyərlər yaradan mühitdir.

İnsan azadlıqlarının qorunması müasir internet şəbəkəsinin vacib fəaliyyət istiqamətlərindən biridir. İnternet mediasının inkişafı, internetdə fikir və söz azadlığı, sosial şəbəkələrin genişlənməsi, hökumətin açıq və şəffaf fəaliyyətinin təmin olunması, vətəndaşların idarəçilik proseslərinə cəlb edilməsi qlobal şəbəkənin insanlara verdiyi yeni imkanlardır.

Azərbaycanda həm İKT-nin, həm də internetin inkişafına xüsusi diqqət yetirilir, ölkəmizdə internet, radio və internet-televiziya proqramları, elektron qəzet və jurnallar, xarici və daxili sosial şəbəkələr geniş yayılıb. Bu gün Azərbaycanda internetin yayılması 65% təşkil edir. Bunun 30% geniş zolaqlıdır.

Bütövlükdə bəşəriyyətə diqqət yetirsək, hazırda bəşəriyyət sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid dövrünü yaşayır. Hər bir ölkə üçün inkişafın sənaye dövründən informasiya dövrünə bu keçidin hərəkət sürəti cəmiyyətin informasiyalaşma dərəcəsi ilə müəyyən edilir.

İnformasiya cəmiyyəti qurulmasına ən yaxın olan ölkələr içərisində inkişaf etmiş informasiya sənayesi olan ölkələr, məsələn, ABŞ, Yaponiya, İngiltərə, Almaniya və digər Qərbi Avropa ölkələrini aid etmək olar. Bu ölkələrdə artıq xeyli vaxtdır ki, dövlət siyasətinin informasiya sənayesində informasiyalara investisiya və kömək etmə, kompüter sistemlərinin və telekommunikasiyaların inkişafına kömək etmə istiqaməti mövcuddur.

**Açar sözlər:** informasiya cəmiyyəti, kompüter, informasiyalaşma, bilik cəmiyyəti, postsənaye cəmiyyəti

**İstifadə edilmiş ədəbiyyat**

1. Декларация принсипов. Построение информационного общества – глобальная задача в новом тысячелетии. Женева: 2013. http://www.Ifapcom.ru/ru/news/387.
2. Мартин У.Дж. Информационное общество // Теория и практика общественно-научной информации. Ежеквартальник / АН СССР. ИНИОН. М.: 1990, №3, с. 115-123.
3. Masuda Y. The information Society as Post-indusrtial Society. Tokio: 1981, p. 146-154.
4. Naisbitt F. Megatrends: The New Directions Transfoming Our Lives. N.Y.: 1982
5. Toffler A. Power Shift: Knowledge. Wealth and Violence at the Edge of the 21 st Century. N.Y.: Bantam Books, 1990, 7 p.
6. Уэбстер Ф. Теории информационного общества. Перевод с англ. М.В.Аранова, Н.В.Малыхиной. М.: Аспект Пресс, 2004, 400 с.

**Зохраб Магеррамов**

## ИНФОРМАЦИОННОЕ ОБЩЕСТВО И ЗНАНИЕ В ПОСТИНДУСТРИАЛЬНЫЙ ПЕРИОД

### Резюме

Говоря об информационном обществе, необходимо осознать это не в буквальном смысле, а как направление, тенденция изменений в современном обществе. В статье показывается, что информационное общество является новым этапом в развитии цивилизации, где информация и знание является основным продуктом. Отличительным чертами информационного общества является свободный доступ к источникам информации, способность производить для необходимой жизнедеятельности общества, а также обеспечение использования этих информаций гражданами.

**Ключевые слова**: информационное общество, компьютер, информатизация, общество знания, постиндустриальное общество

**Sohrab Maharramov**

## INFORMATION SOCIETY AND KNOWLEDGE IN THE POSTINDUSTRIAL PERIOD

### Summary

Speaking about the information society, it is necessary to understand it not in the literal sense, but as the direction and the trend of changes in modern society. The article shows that the information society is a new stage in the development of civilization, where the information and knowledge are the main product of the production. Distinctive features of the information society are a free access to the sources of information, the ability to produce everything necessary for the life and ensuring the use of information by citizens.

**Keywords:** information society, computer, informatization, knowledge society, postindustrial society

**UOT – 004**

**Təranə Vəliyeva**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

# TƏDRİS PROSESİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARNIN TƏTBİQİ

*Məqalədə dərslərin kompüterdə quraşdırılmış xüsusi proqramlar vasitəsilə keçirilməsi, tədris prosesində tətbiq olunan texnologiyaların iş prinsipi göstərilir. Qeyd edilir ki, elmi və texnoloji inkişaf təhsil sistemində tətbiq olunmaqla bu sahəyə yeni imkanlar açmışdır. Azərbaycanda təhsil müəssisələri informasiya texnologiyalarından kifayət qədər istifadə edir. Bunun nəticəsində tədris prosesi xeyli canlanmış, təhsilin və biliyin səviyyəsi yüksəlmiş, təhsildə idarəetmənin effektivliyi və şəffaflığı artmış, müəllim, şagird və valideyn arasında rahat ünsiyyət forması yaranmışdır.*

Sivil cəmiyyətdə hər sahənin mütəxəssislərinin informasiya və kommunikasiya texnologiyaları (İKT) ilə işləmək, onlardan düzgün istifadə etmək bacarığına çox böyük diqqət yetirilir. İKT sahəsinin öyrənilməsinin əsas istiqaməti günbəgün yenilənən mikroelektron texnologiyasının iş funksiyasına yiyələnmək və bütün sahələrə innovasiya etdirməyi bacarmaqdır. Bizi əhatə edən informasiya cəmiyyətində informasiyadan düzgün istifadə üçün ən gözəl vasitə - elektron qurğu olan kompüterdən və İnternetin imkanlarından istifadədir. Elektron vasitəçi rolunu oynayan kompüter tədris prosesini intensivləşdirir, informasiya mühitinin yaranmasına kömək edir [5].

Təhsil sisteminin də İKT əsasında təkmilləşdirilməsi tədris prosesini xeyli sadələşdirir, dinamik və çevik edir. Belə ki, təhsil alanların informasiyanı sərbəst əldə etməsi, tədris prosesinin canlanması, təhsilin və biliyin səviyyəsinin artırılması, böyük həcmdə informasiyanın dəqiq çatdırılması, dərs vaxtına qənaət edilməsi, müxtəlif texniki təlim vasitələrindən eyni zamanda istifadə edilməsi, dərsin daha maraqlı aparılması, tələbələrin sərbəst işləmə vərdişlərinə yiyələndirilməsi, idarəetmə sisteminin effektivlik və şəffaflığının artırılması, vahid informasiya məkanının yaranması, müəllim və valideyn arasında rahat ünsiyyət formasının qurulması və bu kimi proseslər İKT-nin tətbiqi sayəsində əldə edilir. İKT-nin tətbiqi üzrə bu sahədə aşağıdakı istiqamətlərdə də planlı işlər həyata keçirilir:

- təhsil müəssisələrinin informasiya-kommunikasiya üzrə maddi-texniki bazasının təkmilləşdirilməsi;
- təhsil müəssisələrində İKT avadanlığına texniki nəzarət və dəstək sisteminin yaxşılaşdırılması;
- təhsil müəssisələrində internet şəbəkəsinə çıxışın və internet xidmətlərinin təmin olunması və s [8].

Təhsilin inkişafı əhalinin rifahının yaxşılaşması, həyatının daha yüksək səviyyədə qurulması, insanlara müasir texnologiyaların çevik mənimsədilməsi, əmək bazarında layiqli yer tutması, sağlam həyat tərzinin seçilməsi və ətraf mühitə münasibətdə düzgün mövqe tutması üçün zəmin yaradır. Təhsil hər bir təhsilalanın bilik və bacarıqlara yiyələnməsi, etik-əxlaqi norma və dəyərlər əldə etməsi, nümunəvi vətəndaşa çevrilməsində böyük rol oynayır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması və Avropa standartlarına uyğunlaşdırılması üçün təhsilin idarəetmə sistemini yenidən qurmaq, bu sahədə insan resurslarını inkişaf etdirmək və müəllim peşəsinin nüfuzunu artırmaq lazımdır. Yaşadığımız informasiya dövründə yeni faktlar və bilgilər həyatımıza daxil olaraq, dünyagörüşümüzü kökündən dəyişdirir, yeni biliklər meydana çıxır və bu biliklər insanın imkanlarını genişləndirir, ye-

ni bilgilərin axtarışı - ixtiralar və innovasiyalar fəaliyyətin mühüm bir sahəsinə çevrilir. Yüksək təhsilli insanlar elmi bilikləri gənc nəsillərə ötürür, cəmiyyətin və dövlətin intellektual potensialı güclənir [6].

Artıq ənənəvi təhsil sisteminin dövrünü başa vuraraq, öz yerini yeni təhsil sisteminə verməsi mexanizmi reallaşmışdır. Bu mexanizmə görə təhsilalanlara müstəqil və yaradıcı fəaliyyət göstərmək qabiliyyəti olan, şüurlu, inkişaf edən bir şəxsiyyət kimi yanaşılır, onların maraqları nəzərə alınır, dərsdə fərdiləşdirilmiş təlim texnologiyalarına üstünlük verilir. Yeni təhsil sistemində dərsdə psixoloji, pedaqoji xidmətlər inkişaf etdirilir, təhsilalanlar arasında dialoq rejimində münasibətlərə üstünlük verilir, sağlamlığı qoruyan mühit yaradılır, çoxlu sayda informasiya mənimsədilir, dərslərdə informasiyaların yadda saxlanılması deyil, başa düşülməsi nəzərə alınır, pedaqoji kadrlar müasir tələblərə cavab verən səviyyədə formalaşdırılır. Bu da pedaqoji fəaliyyətdə bacarıqlı müəllimlərə tələbatın artırılmasını, dərslərdə rəqabətin genişlənməsini, motivasiyanı - fərziyyələrin irəli sürülməsini yüksəldir, interaktiv təlim metodlarından istifadəni təmin edir [9].

Təhsil sisteminin informasiyalaşdırılması, bütövlükdə təhsilin müasir səviyyədə qurulmasının əsas istiqamətlərindən biridir. İnformasiyalaşma müasir təlim prosesinin əsas prinsipidir. Bu prinsip informatika, informasiya və İKT texnologiyalarının nailiyyətlərindən idarəetmədə və pedaqoji tədqiqatlarda geniş istifadəni nəzərdə tutur, müxtəlif informasiyaların kompüter vasitəsilə yaddaşa alınması, saxlanılması, təhlili və təqdimatına əsaslanır.

Ən mühüm pedaqoji tədqiqatlar aşağıdakılardır:

- kompüterdə testləşdirmə əməliyyatlarının aparılması;
- dərsin müxtəlif məzmunlu yeni texnologiyalara dair məlumatlarla təmin edilməsi;
- tədris materialının əyaniliyini nümayiş etdirən kompüter multimedia sistemlərindən istifadə edilməsi [8].

İKT-dən istifadə etməklə qurulan müasir təhsil modeli pedaqoji heyət qarşısında yeni tələblər və vəzifələr qoyur. Müəllim tək öz ixtisası üzrə fundamental biliklər, pedaqogika və psixologiya sahəsində deyil, həm də informasiya sahəsində də təlim alır. Bu təlim onun qarşısında öyrətdiyi fənnin struktur məzmununa və məqsədinə uyğun texnologiyaları seçib tədrisdə tətbiq etmək tələbini qoyur [9].

2012-ci il dekabrın 29-da Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında ölkənin, təhsilin inkişafında böyük rolu olan, gələcəkdə dünyanın qabaqcıl ölkələri ilə ayaqlaşa bilən və yeniləşən texnologiyaları inkişaf etdirmək üçün müasir həyat tempinin tələb etdiyi “Müasir təhsil sisteminin formalaşdırılması” haqqında qərar qəbul edilmişdir. Qərara görə, 2013-2020-ci illərdə Azərbaycanda təhsil sahəsinə ayrılan vəsaitlərin ümumi həcmi artırılaraq inkişaf etmiş ölkələrin müvafiq göstəricisi səviyyəsinə çatdırılması, təhsildə keyfiyyətin yüksəldilməsi üçün stimullaşdırıcı mexanizmlərin yaradılması, tətbiqi tədqiqatların və idarəetmənin təkmilləşdirilməsinin davam etdirilməsi, təhsil ocaqlarına ictimaiyyətin cəlb olunması istiqamətlərində islahatyönlü tədbirlər keçirilməsi nəzərdə tutulur. Bu məqsədlə 2013-2020-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılmasına dair Dövlət Proqramı qəbul edilmişdir. Dövlət Proqramı çərçivəsində Azərbaycanın bütün təhsil müəssisələri (o cümlədən ucqar bölgələrdə yerləşən məktəblər) internet əlaqəsi ilə təmin olunmuş, ümumtəhsil məktəblərində sinif otaqları noutbuk, proyektor və elektron lövhə ilə, təhsil alan şagirdlər 1 şagird – 1 kompüter layihəsində netbuk və ya planşetlərlə təmin edilmiş, elektron təhsil texnologiyalarının tətbiqi daha da genişləndirilərək, müəllim və şagirdlər üçün virtual öyrənmə mühiti formalaşdırıl-

mışdır. Tədris modelinə kompüterin əlavə edilməsi tədris prosesini individual proqram üzrə təşkil etməyə, maraq və istəyi stimullaşdırmağa imkan verir. Kompüterlə aparılan dərslər cəlbedici və yaddaqalan olur. Yəni, multimedia vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompüter tədris proqramları, animasiya qrafikası, rəngarəng illüstrasiyalar idrak aktivliyinə müsbət təsir göstərir. Bu məqsədlə də bütün fənlər üzrə elektron tədris və metodik resursların yaradılması, etibarlı saxlanılması və onlara asan çıxışın təmin olunması üçün yeni texnologiyalar tətbiq olunur. Məsələn, tədris prosesində interaktiv lövhədən istifadə edilməsi dərsin əyaniliyini təmin edir. Elektron lövhənin sensoruna - hissiyyatlı səthinə xüsusi qələmlə və ya barmaqla toxunaraq onun üzərində mümkün olan bütün əməliyyatlar interaktiv rejimdə aparılır. Bu lövhə, həmçinin kompüterə qoşulan mikroskop, skaner, rəqəmli fotoaparat, videokamera və s. qurğulardan alınan təsvirləri proyektor vasitəsilə qəbul edə bilir. Bu da öz növbəsində virtual auditoriyaların təşkilində mühüm əhəmiyyətə malikdir. Belə ki, təhsilalanlar istənilən proseslərin izahını və videogörüntülərini, müxtəlif cihazların, qurğuların, texniki vasitələrin işləmə prinsiplərini ekranda izləmək imkanı əldə edir, nəzəri-metodoloji biliklər, praktiki bacarıq və təcrübələr qazanırlar. Bununla da tədris canlanaraq onlarda yaradıcı yanaşma, düşünmə, təşəbbüskarlıq, tədris materialını dərindən dərketmə qabiliyyəti formalaşır [1].

Təhsil sahəsində əsas yeniliklər sırasında *“Bulud texnologiyaları”*ndan istifadə mühüm yer tutur. Bu texnologiya birbaşa tədris ocaqları ilə əlaqəni təmin edir.

Bulud texnologiyaları servis provayderlərinə müraciət etməklə kompüter resurslarını şəbəkə vasitəsi ilə əldə etməyə imkan verən konstruksiyadır. Bu konstruksiyada məlumatlar xidmətin serverlərində etibarlı şəkildə saxlanılır, bütün növ informasiyanı ötürmək qabiliyyətinə malik olur, hər yerdən çatma imkanı yaradılır. Bulud sistemi “ön” və “arxa” kateqoriyalardan ibarət olmaqla bir-biri ilə İnternet şəbəkəsi vasitəsi ilə bağlanırlar. Ön tərəf kompüter istifadəçisi olub, burada şəbəkəyə daxil olmaq üçün lazım olan proqramlar olur. Arxa tərəf isə müxtəlif bazalar və ötürücülər sistemlərindən ibarət olur. Baza və ötürücü sistemlər resursların istifadəçilərə servislər menyusu şəklində təqdim olunmasını tənzimləyir və təhlükəsizlik, zəmanət, möhkəmlik, layihələr üçün maksimal iş qabiliyyəti, infrastruktura ilə veb interfeysindən istifadə, rahat işləmə imkanı, ideal əməkdaşlıq, yüksək icraetmə kimi üstünlüklər yaradır [7].

İKT *distant təhsilin* də icrasını təmin etmək üçün istifadə olunan vasitədir. Distant təhsil müəyyən məsafədən keçirilən təlim sistemi olduğundan öyrədən və öyrənən arasında ünsiyyət üz-üzə deyil, virtual olaraq telekommunikasiya və kompüter şəbəkələri vasitəsi ilə operativ, müntəzəm dialoq, əlaqə yaradılır və təhsilalanın ixtisası artırılır. Bu təhsildə müxtəlif təhsil proqramları, texnologiyalar və tədris forması birləşərək təlimlər televiziya kanalları, multimedia diskləri, internet şəbəkəsinin imkanları vasitəsi və proqram paketləri ilə həyata keçirilir. Bu təhsil formasından istifadə də analoji təhsil kurslarından xeyli ucuz olmaqla təhsil müəssisələrinin icarə haqqına, elektrik enerjisinə və bahalı texnikaya qənaət edilməsinə (ayrıca otaqlar və kompüterlər tələb olunmur), müəllimlərin eyni zamanda daha çox tələbəni öyrədə bilmələrinə, hamı üçün əlçatan olmasına, hər hansı şəxsin işini itirmədən və işdən ayrılmadan ixtisasının artırmasına və ya yeni biliklər əldə etmək imkanını əldə etməsinə şərait yaradır [3].

İKT-nin tədrisdə tətbiq olunan digər vasitəsi də *öyrədici kompüter proqramlarından* səmərəli istifadə edilməsidir. Bu proqramlar nəzəri fənlərin öyrədilməsinin ənənəvi metodlarının dəyişdirilməsi istiqamətində iş apararaq onları elektron variantda təqdim edir. Yəni, mətn, qrafik, düstur və şəkillərdən ibarət ənənəvi tədris vəsaitlərinin analoqu olan videofilmlər praktiki işlərin məzmununu kompüterdə modelləşdirməyə imkan verir, müasir dövrdə zəruri olan mürəkkəb qurğularla işləmək

vərdişləri yaradır. Bu proqramlar disketlərdə və lazer kompakt disklərində (CD) yerlərə çatdırıla bilir. Köməkçi proqramlar mühazirələrin və kitabların da elektron versiyalarıdır. Onlardan istifadə edilməsi üçün proqramlaşdırma üzrə xüsusi biliklər, o cümlədən Hypertext Markup Language (HTML) və ya JAVA kimi dilləri bilmək tələb olunmur. Sadəcə, zəruri materiallar istənilən mətn redaktorundan HTML formatına çevrilir. Dünyanın bir sıra ölkələrinin ali məktəblərində öyrədici kompüter proqramlarından səmərəli istifadə edilir [8].

Hazırda təhsil müəssisələrində *keys texnologiyasının* tətbiqi geniş yayılmışdır. Bu texnologiya İnternetə çıxış imkanı, müəllimlərlə tələbələr arasında tam dəyərli, ikitərəfli əlaqəni təmin edən tədris-metodik və təhsil-inzibati informasiyanı əks etdirən məxsusi WEB-saytıdır. WEB-sayt URL və xidmət provayderinin sənədlər paketi ilə təsdiqlənir. Məsələn, təhsil müəssisəsinin WEB-saytında bu müəssisəyə daxil olmaq qaydaları, sənədlərin rəsmiləşdirilməsi, təhsil haqqının ödənilməsi qaydaları, təhsil prosesinin təşkil edilməsi formaları və s. haqqında sualları cavablandıran informasiya olur. Bu keysdə əsasən hər bir ixtisas üzrə tədris planı, təhsilalanın hər semestr üçün fərdi iş planı dövlət təhsil standartlarının tələblərinə müvafiq olaraq bütün fənlər üzrə tədris proqramları, mühazirələrin elektron versiyaları, iş dəftərləri, laboratoriya praktikumları üzrə vəsaitlər, tələbənin interaktiv rejimdə müstəqil işinin idarə olunmasını təmin etməyə imkan verən metodik tövsiyələr, testlər və çalışmalar, elektron kitabxana və s. əks olunur. Bu da WEB-saytda yerləşdirilmiş İnternet resurslarından qeyri-məhdud istifadəni təmin etmək üçün müraciət olunan müasir texnologiyadır [4, s.221].

Ölkəmizdə də beynəlxalq standartlara cavab verən, keyfiyyətcə yeni təhsil modelinin qurulmasını, vahid elektron təhsil məkanının yaradılmasını və təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya etdirilməsini həyata keçirən texnologiyaların tətbiqi daim diqqət mərkəzində durur. Əhalinin yeni təhsilə tələbatı, beynəlxalq əlaqələrin, o cümlədən təhsil sahəsində əlaqələrin genişlənməsi, təhsil prosesinin iştirakçıları arasında informasiya mübadiləsinin intensiv inkişafı, təhsil xidmətləri üzrə dünya bazarlarında rəqabətin güclənməsi, təhsildə beynəlxalq inteqrasiyanın artması, dünya miqyaslı vahid təhsil məkanının formalaşması, bu texnologiyaların üstünlüklərinin aşkarlanması Azərbaycanın təhsil sistemi üçün də xüsusi aktuallıq kəsb edir [2].

**Açar sözlər:** İnformasiya Texnologiyaları, kompüter, internet, interaktiv təlim metodu, elektron tədris, elektron lövhə, "Bulud" texnologiyası

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı şəhəri, 29 noyabr 2011-ci il.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı şəhəri, 24 oktyabr 2013-cü il.
3. Əhmədov H. Distant təhsilin müasir vəziyyəti və onun inkişaf yolları. Bakı: 2013 http://www.almazhasret.com/?p=3575
4. Əfəniyev Q., Gündüz O., Rüstəmov N. Kompüter informasiya texnologiyalarının əsasları. Dərs vəsaiti. Bakı: Multimedia, 2006, 304 s.
5. İbrahimova A. İKT-nin təhsildəki üstünlükləri. Bakı: 2015 http://www.reytinqinfo.az/kivdf/1114-ikt-nin-təhsildəki-üstünlükləri.html
6. Mehrabov A. Təhsildə texnoloji yanaşmaların mahiyyəti və əsas xüsusiyyətləri // Azərbaycan məktəbi jurnalı, 2006, №3, s. 3-11.

7. Mustafayev N. “Microsoft Azərbaycan” şirkəti təhsillə bağlı layihələrini bundan sonra da davam etdirəcək. Azərbaycan müəllimi qəz., Bakı, 1 noyabr 2013, №42.
8. Təhsildə İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqi üzrə Konsepsiya. 13.10.2007
9. Təlim prosesində yeni pedaqoji və İKT texnologiyalardan istifadənin elmi əsasları və təlimin keyfiyyətinə onların təsiri. Hesabat. Azərbaycan Respublikası Təhsil Nazirliyi Təhsil Problemləri İnstitutu, 2012

**Тарана Велиева**

## ПРИМЕНЕНИЕ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В УЧЕБНОМ ПРОЦЕССЕ

### Резюме

В статье рассматриваются принципы применения технологий в учебном процессе, проведение занятий с помошью спецпрограмм, используя компьютерную технологию. Отмечается, что применение научно-технологического развития открывает новые возможности в системе образования. Образовательные предприятия в Азербайджане эффективно используют информационные технологии. В результате в учебном процессе наблюдается оживление, рост уровня образования и знания, рост прозрачности и эффективности управления, формировалась удобная форма общения между педагогом, учеником и родителями.

**Ключевые слова:** Информационные Технологии, компьютер, интернет, интерактивные методы, электронное обучение, электронная доска, технология «Булуд»

**Tarana Veliyeva**

## APPLICATION OF INFORMATION TECHNOLOGIES IN TEACHING PROCESS

### Summary

The principles of application of technologies in teaching process, conducting lessons with the help of special proqrams have been shown in the article. İt is noted that application of scientific and technological development has opened new opportunities in the education system. Higher education institutions in Azerbaijan have effectively used the information technologies. As a result of this the educational process has considerably revived, the level of education and knowledge, the effectiveness and transparancy of management in education system have increased, a convenient form of communication among teachers, students and parents has formed.

**Keywords:** Information Technologies, computer, internet, interactive teaching methods, electronic training, electronic board, technology “Bulud”

**УДК – 008**

**Назиля Мамедова**
**Азербайджанский Государственный Экономический Университет, д.ф.филос.**

# КУЛЬТУРА КАК СИСТЕМА ЦЕННОСТЕЙ

*В статье анализируется культура народов, как достижения в истории человечества, как результат взаимодействий. Говоря о важности межкультурного диалога, автор указывает на пользу этого диалога, на развитие общества. Подчеркивается, что каждая национальная культура своеобразна и уникальна и ядро каждого народа составляет идеал его собственного народа. В статье сохранение этнокультурного разнообразия представляется как показатель ожидаемого высокого уровня культурной толерантности в любом обществе. Отмечены также национальные и духовные ценности азербайджанского народа и важность поддержания их перед негативными влияниями.*

Определяя культуру как способ, технологию деятельности, можно выделить культурную сторону разнообразных явлений общественной жизни: культуру труда, быта, мышления, производства социальных отношений. Содержанием культуры является духовный мир человека, воплощенный в различных формах практической деятельности. Процесс воспитания сегодня все чаще рассматривается как полноценное включение личности в широкий диалог с духовными ценностям, в ходе которого формируется и развивается способность человека к адекватному восприятию и переживанию, его профессиональные навыки, способность к творчеству [1].

Культура имеет собственный язык, являющийся носителем культурных смыслов. Средства культурной коммуникации включают в себя не только язык межличностного общения, но и языки науки, политики, пропаганды, управления, религии.

Культура – это система ценностей, жизненных представлений и образцов. Таким образом, культура рассматривается как форма самореализации человека. Понятие культуры принадлежит к категориям общеисторическим и общефилософским, имеющим значимость для всех времен. В науке ни один из терминов не имеет столь множественных определений, как термин «культура», который объединяет все: и материальную и духовную составляющую.

Каждый элемент культуры является носителем смысла, а в культуре в целом запечатлены знания и заблуждения, печали и радости многих поколений людей. Этим объясняется значимость культуры для общества, утрата ценностей которой прерывает связь поколений, отбрасывает общество назад [2, с.340].

Реализация богатств культуры предполагает их освоение, т.е. превращение в духовное и практическое достояние личности и общества. Взаимообмен знаниями, опытом, оценками − необходимое условие бытия культуры. Бытие культуры возможно лишь в диалоге тех, кто создал, и тех, кто воспринимает явление культуры. Диалог культур является формой взаимодействия, понимания и оценки культурной предметности и находится в центре культурного процесса. Понятие диалога в культурном процессе имеет широкий смысл.

Это диалог создателя и потребителя культурных ценностей, это и диалог поколений, и диалог культур как формы взаимодействия и взаимопонимания народов.

Культурные различия - это закономерное следствие неповторимой истории народов мира, источник многообразия исторического процесса. По мере развития добрососедства, миграции населения, экономической интеграции взаимодействие культур неизбежно расширяется [3, с.345]. Например, миграционные процессы на протяжении XIX-XX вв. привели к появ-

лению и формированию европейских общин в Азербайджане, которые, занимаясь определенной формой хозяйственной деятельности, сохраняли при этом свои национально-культурные ценности и мирно проживали в мультикультуральном пространстве нашей страны. И после восстановления независимости, в республике сформировалась государственная поддержка усилению традиций мультикультурализма, являющегося общечеловеческой ценностью. Поэтому, мультикультурализм и атмосферу толерантности в Азербайджане ныне следует воспринимать, как продолжение традиции оставшейся от исторического прошлого азербайджанского народа [4].

Мультикультурализм рассматривается, как политика сохранения культурного разнообразия, развития межкультурного диалога, как концепция демократического государства, направленная на толерантность, мирное сосуществование, взаимодействие различных культур в едином обществе. Необходимо подчеркнуть, что этот процесс в Азербайджане ныне переживает период расцвета.

Взаимодействие культур служит источником их взаимообогащения и развития. Существенное значение при этом имеет форма взаимодействия культур и его направленность. Наиболее продуктивным и безболезненным является взаимодействие культур существующих в рамках общей для них цивилизаций. Цивилизация создает общие предпосылки культурного процесса, это явление глобального масштаба, охватывающее огромные регионы и континенты. Культура предстает, как конкретное воплощение этих предпосылок, она индивидуализирована, уникальна, имеет ярко выраженный этнический характер.

Как выражение индивидуального начала каждого социума культура обусловливает различия между народами, принадлежащими к одной цивилизации. Она отражает в нормах поведения, привычках, духовной жизни то, что специфично для данного народа, что составляет его этносоциальную индивидуальность, язык, историческую судьбу, религию, контакты с другими народами.

Одна и та же цивилизация создает множество культур. Так европейская цивилизация включает французскую, немецкую, английскую и другие культуры. В отличие от цивилизации культура представляет сферу ценностей, созданных народом [3, с.350]. Все, что создано в рамках данной цивилизации, принадлежит ей, является ее достоянием. Как совокупность норм, правил, запретов, предписаний цивилизация подчиняет себе, регламентирует деятельность людей. Культура является носителем социальной динамики, она формирует и одновременно формируется творческим меньшинством личностей. Однако, следует отметить, что не всякое нормативно одобряемое действие культурно

Необходимо отказаться от представления, будто европейская цивилизация призвана быть стандартом для мирового культурного процесса, и черты иных культур, не укладывающиеся в европейскую модель, является ложными или случайными. Но не должна абсолютизироваться и специфика различных культур.

Сохраняя свое культурное ядро, каждая культура постоянно подвергается внешним влияниям, по-разному их адаптируя. Развитие институтов образования и культуры, интенсивный культурный обмен - все это является свидетельством сближения различных культур.

Любое явление культуры осмысливается людьми в контексте современного состояния общества, который может сильно изменить его смысл. Возможность бесконечного развития духовного богатства реализуется деятельностью человека, способного обогащать и развивать свой интеллектуальный потенциал. Вся жизнедеятельность человека осуществляется в культурной форме.

Взаимодействие культур, их диалог - наиболее благоприятная основа для развития межэтнических, межнациональных отношений. Азербайджан не стоит в стороне от процес-

сов движения к информационному, коммуникативному обществу, а наоборот активно в нем участвует. Нашей республике необходимо сконцентрировать усилия на активизации использования своего интеллектуального и культурного потенциала для того, чтобы занять достойное место в общемировом информационном пространстве. Ресурсы республики должны стать главным фактором технологической модернизации страны, обеспечивая тем самым ее достойное участие в культурных процессах, происходящих в мире.

Азербайджан одновременно является членом Совета Европы и Организации Исламского Сотрудничества, что возлагает на него определенную ответственность. Это - мост между различными цивилизациями, культурами, традициями, религиями. Прогнозируя возможные механизмы взаимодействия западных стереотипов с нашими национально-этическими принципами, необходимо отметить, что взгляды на жизнь, культурные ценности и образ жизни на Западе и в Азербайджане сильно отличаются. Принимая во внимание историко-культурное развитие азербайджанского народа, нашу культуру нельзя назвать в полной мере ни западной, ни восточной. Азербайджанская культура уникальным образом совмещает в себе достоинства этих культур и в этом проявляется ее преимущество над западной. В условиях интеграции важнейшей задачей для Азербайджана является внедрение и приспособление к национальным особенностям элементов западной экономики и политики, наряду с сохранением и защитой национально культурного достояния народа. Сохранение этой самобытности и содействует последовательному, прогрессивному развитию нашей Республики.

Одной из основных характеристик азербайджанской культуры является взаимодействие светских и религиозных ценностей. Взаимодействие светской и религиозной культур - это особый вид межкультурной коммуникации, выделяющийся специфическими особенностями.

Первая из них – это сосуществование их в едином социально-культурном пространстве. Несмотря на то, что типы религиозной и светской культуры принципиально различны и в известном смысле противоположны друг другу, они существуют бок о бок в одних и тех же обществах, чаще всего связаны традицией культурно-исторической преемственности.

Вторая особенность − активное взаимодействие, инициируемое религиозной культурой. Процесс секуляризации сегодня имеет ярко выраженную контртенденцию в так называемом религиозном возрождении.

Такое возрождение в последние годы имеет место и в нашей стране. Оно сопровождается осознанием религиозной идентичности, являющейся частью национально-культурной самобытности.

Религиозная идентичность выступает как чрезвычайно концентрирование выражение мироощущения человека, наиболее насущных вопросов его жизненного мира, определяемого его культурной состоятельностью и ценностной устремленностью.

Из-за того обстоятельства, что национальные особенности азербайджанского народа основаны на исламских духовно-нравственных ценностях, наша культура менее подвержена влиянию негативных западных веяний, что способствует направленному развитию общества. Для обеспечения такого развития необходимо четко определить пределы либерализации политической и культурной жизни общества. Азербайджан, находясь на стыке цивилизаций, религий и культур, сыграл особую роль в создании атмосферы взаимовлияния и сближения народов, формирования высокого уровня толерантности, что особенно ценно сегодня.

Необходимо ныне не просто сохранить накопленный научно-культурный потенциал, а сделать культуру главным инструментом диалога с внешним миром, ведь именно она является мерилом нашей национальной идентичности. Нашему государству это удалось сделать, вопреки всем трудностям переходного периода.

Через философию общечеловеческое проникает в диалог культур, создавая шанс каждой культуре делегировать свои лучшие достижения в общечеловеческий фонд. Культура – достояние всего человечества, как исторический результат взаимодействия народов. Диалог является истинной формой межнационального общения, предполагающий как взаимообогащение национальных культур, так и сохранение их самобытности. Общечеловеческая культура - это как бы дерево со многими ветками. Культура народа может процветать лишь тогда, когда процветает общечеловеческая культура. Поэтому, заботясь о национальной, этнической культуре, следует очень беспокоиться и об уровне общечеловеческой культуры, которая едина и многообразна. Едина − в смысле включения в себя многообразия исторических и национальных культур. Каждая национальная культура своеобразна и единственна. Её вклад в общечеловеческий культурный фонд уникален и неповторим. Ядро каждой культуры составляет свой идеал. Исторический процесс формирования и развития культуры не может быть правильно понят, не учитывая взаимодействие, взаимовлияние, взаимообогащение культур [5].

Формирование культуры диалога - это один из реальных путей преодоления глубинных противоречий современной культуры и обязательное условие полноценного общения цивилизованных людей, ибо диалог представляет собой основу бытия и мировоззрения, развития полноценной и мыслительной активности человека.

Известно, что политика и практика мультикультурализма возникла в западных странах, в которых миграционные процессы привели к притоку большого количества различных этноконфессиональных групп, решительно отличающихся своей культурной идентификацией от коренного населения. В Азербайджане даже с учетом нефтяной стратегии такого наплыва эмигрантов нет, а все иностранные специалисты находятся в нашей стране временно и, естественно, не собираются интегрироваться в азербайджанское общество. Таким образом, мультикультурализм в Азербайджане должен касаться различных этнических групп, народов, традиционно проживающих в стране. При таком подходе (если использовать «мультикультурализм», а не пытаться найти другой термин) политика мультикультурализации направлена на консолидацию всех этнических групп Азербайджана в единое общество, имеющее общие ценности и идеалы и признающее права этих групп на культурную и этно-конфессиональную автономию. Нашим политикам и ученым еще предстоит определиться по проблеме специфики национального мультикультурализма, а потому есть смысл вкратце рассмотреть историю его первоначального развития и трансформации, значительно изменившей сложившиеся представления.

Миграционные процессы в мире происходили постоянно, однако особой масштабности они достигли после второй мировой войны, когда для восстановления европейских стран возникла необходимость в притоке иностранных рабочих, и, с другой стороны, когда миграционная политика США, Канады, Австралии и ряда других государств мира создала непрекращающийся поток эмиграции. Для последних трех стран, общества которых всецело состоит из эмигрантов разных поколений, адаптация вновь прибывающих первоначально не представляла особой проблемы, поскольку они исходили из практики «плавильного котла», в котором возникала новая гражданская идентичность при сохранении или утрате этно-конфессиональных черт эмигрантов [6, с.27].

В Конституции Азербайджанской Республики, автором которой является общенациональный лидер нашего народа Гейдар Алиев, вопросы защиты прав человека приближены к нормам международного права, они регулируются отношения между государством и религией, проводятся значимые мероприятия по контролю над исполнению законодательных актов, связанных со свободой религиозного исповедания, по укреплению традиций противостояния между конфессиями, по направлению восстановления и охраны религиозных памятников,

что в итоге привело к формированию совершенных системы традиций взаимоотношений между государством и религией. Выступая на съезде мусульман Кавказа Гейдар Алиев, в частности отмечал: Общеизвестно, что воспитываясь 70 лет под влиянием коммунистической идеологии, мы были лишены нашей религиии и ментальных нравственных ценностей. Одной из наиболее страшных трагедий, совершённых коммунистическим режимом является антирелигиозная пропаганда, в особенности запрещение и преследование вероисповедания. Но в то же время история показывает, что религия, в том числе исламская религия, которая является неотъемлемой частью нашей жизни, обладает такой силой влияния и действия, что никакая идеология, никакое влияние и строй не смогут отнять её у нашего народа, даже 70-летняя история не смогла этого сделать [7, с.35-36].

То, что Азербайджан является толерантной страной, где усилиями первых лиц государства планомерно проводится политика мультикультурализма, не требует доказательств. Об этом говорят все известные специалисты, знакомые с нашей страной, которая в последние годы проводила множество крупных форумов по межкультурному диалогу, и где люди разных этнических групп и вероисповеданий уже столетиями живут в обстановке дружбы, сотрудничества и согласия. Возникает закономерный вопрос – за счет чего достигается высокий уровень мирного сосуществования разных культур в Азербайджане? Скорее всего, за счет того, что в Азербайджане доминантный этнос не ведет себя по отношению к национальным меньшинствам высокомерно, враждебно, а наоборот, относится к ним уважительно, стараясь не отличить их от себя. Возможно поэтому в Азербайджане отсутствуют такие негативные явления как ксенофобия и расизм. Здесь реально действуют, наравне с мечетями, синагоги и церкви, т.е. не только мусульманские, но также христианские, еврейские и иные религиозные центры. Планомерно проводимая Президентом Азербайджана И.Алиевым политика мультикультурализма дает свои положительные результаты именно потому, что сами граждане Республики толерантны по отношению друг к другу. По нашему мнению, политика мультикультурализма эффективна лишь в том случае, когда усилия «верхов» подкрепляются стараниями «низов», т.е. простых граждан. Как показывает пример Азербайджана, для этого следует добиться воплощения одного важного принципа – доминантный этнос, который составляет основу общества, должен уважительно относиться к культуре малочисленного этноса-аборигена, а также мигранта, по той или иной причине живущего в этой стране. Понятно, что европейцу, исходящему из великого и славного прошлого своей истории, добиться этого не так-то просто. Ведь следует уважать не только права, но и культурные особенности мигрантов, которые в плане цивилизованности подчас существенно уступают аборигенам. По нашему мнению, для достижения интеграции в поликультурном обществе необходимо избегать двух крайностей: 1. Нельзя проводить политику чрезмерной заботы (как бы в ущерб интересам доминантной культуры) национальных меньшинств; 2. Нельзя допускать, чтобы представители миноритарной культуры чувствовали себя людьми «второго сорта», ощущали себя чужими в обществе. А для этого необходимо относиться к другим культурам толерантно, воспринимать их такими, какие они есть [8, с.225].

Межкультурный диалог между цивилизациями – это начало нового пути к будущему. Этот диалог обуславливает устранение непонимания, сближает позиции и создает почву для обеспечения благоприятного развития провинций и государств путем установления равноправия и мира на международной арене.

Особую актуальность сегодня приобретает распространение культурных стандартов посредством развития контактов и диалога, сохранения при этом этнокультурное многообразие и самобытные традиции народов.

**Ключевые слова:** цивилизация, диалог, культура, мультикультурализм, информация, общество

**Использованная литература**

1. Ускова Н.Г. Формирование культуры диалога специалиста социально-культурной сферы в процессе среднего профессионального образования: Дис. ...канд. пед. наук: 13.00.08: Москва, 2003, 256 с.
2. Бучило Н.Ф., Чумаков А.Н. Философия. 2-е изд., перераб. и доп. М.: ПЕР СЭ, 2001, 447 с.
3. Бучило Н.Ф., Чумаков А.Н. Философия. 4-е изд., перераб. и доп. СПр.: Питер, 2004, 428 с.
4.http://azertag.az/ru/xeber/Prezident_Ilham_Aliev_Multikulturalizm_obraz_zhizni_v_Azerbaidzhane-918990. Мультикультурализм – образ жизни в Азербайджане. 15.01.2016
5.http://portalus.ru/modules/philosophy/rus_readme.php?subaction. Взаимодействие культур:диалог культур. 05.02.2005
6. Абасов А. Мультикультурализм и мультиперспективность / Multikulturalizmin Azərbaycan modeli: fəlsəfi, sosioloji və hüquqi baxış mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı: 2016
7. Конституция Азербайджанской Республики. Баку: 2016, 68 с.
8. Гаджиев Р. Проблема соотношения мультикультурализма и интеграции в обществе / Multikulturalizmin Azərbaycan modeli: fəlsəfi, sosioloji və hüquqi baxış mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı: 2016

**Nazilə Məmmədova**

## MƏDƏNİYYƏT DƏYƏRLƏR SİSTEMİ KİMİ

### Xülasə

Məqalədə mədəniyyət bəşəriyyətin nailiyyəti olaraq xalqların qarşılıqlı təsirinin tarixi nəticəsi kimi təhlil olunur. Mədəniyyətlərarası dialoqa münasibətini bildirən müəllif, onun cəmiyyətin inkişafında zəruriliyini əsaslandırır. Qeyd edilir ki, hər bir milli mədəniyyət özünəməxsusdur, unikaldır və hər mədəniyyətin nüvəsini onun öz idealı təşkil edir. Məqalədə etnomədəni müxtəlifliyin qorunması, tolerantlığın gözlənilməsi hər bir cəmiyyətin yüksək mədəni göstəricisi kimi təqdim olunur, Azərbaycan xalqının milli-mənəvi dəyərləri və onun neqativ təsirlərdən qorunmasının vacibliyi göstərilir.

**Acar sözlər:** sivilizasiya, dialoq, mədəniyyət, multikulturalizm, informasiya, cəmiyyət

**Nazila Mammadova**

## CULTURE AS A SYSTEM OF VALUES

### Summary

The culture as the result of the interaction of peoples in the achievement of mankind is analyzed in the article. Expressing his position on the intercultural dialogue the author shows its importance on the development of society. It is noted that each national culture is unique and the core of every civilization is its ideal. The protection of ethno-cultural diversity, an expectation of tolerance as a high cultural indicator of society are presented, the national-spiritual values of Azerbaijan people and the importance of protection of its negative impacts are emphazised in the article.

**Keywords:** civilization, dialogue, culture, multiculturalism, information, society

**UOT – 332.1**

**Kamal Hacıyev**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

# BƏLƏDİYYƏ ORQANLARININ VƏZİFƏLİ ŞƏXSLƏRİNİN İCTİMAİYYƏT QARŞISINDAKI MƏSULİYYƏTİNDƏ İCTİMAİ RƏYİN SİYASİ SƏCİYYƏSİ

*Məqalədə bələdiyyələrin idarə olunmasında vəzifəli şəxslərin idarəetmə fəaliyyətinə ictimai rəyin siyasi səciyyəsi təhlil olunur. Bələdiyyə orqanlarının vəzifəli şəxslərinin fəaliyyətinə ictimai rəyin nəzərə alınması, onların rəyinə müvafiq işlərin görülməsi, bu işlər üzrə ictimaiyyətin məlumatlandırılması, məsuliyyətin səviyyəsinə uyğun tədbirlərin həyata keçirilməsinin vacibliyi vurğulanır.*

Müasir dövrdə cəmiyyətin öyrənilməsi, onun idarə edilməsi ən vacib məsələlərdən biridir. İdarəetmə, cəmiyyətin mənafelərinin həyata keçirilməsi mexanizmi, qarşıya qoyulmuş məqsədə çatmaq üçün təsiretmə vasitəsidir [5, s.10]. Yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə gəldikdə isə onu qeyd etmək lazımdır ki, digər idarəetmə orqanlarından fərqlənən bir sıra özünəməxsus xüsusiyyətləri vardır. Bunlardan ən əsası yerli özünüidarəetmə orqanlarının inzibati ərazi vahidinin əhalisi tərəfindən ümumi, bərabər, birbaşa seçki hüququ əsasında formalaşmasıdır. Digər bir özəllik isə ondan ibarətdir ki, bu orqanlar yerli əhəmiyyətli məsələlərin həllində müstəqildirlər və bu sahədə mərkəzi dövlət hakimiyyəti orqanlarının onların fəaliyyətinə müdaxiləsi yolverilməzdir. Onların müstəqilliyi ilk növbədə yerli özünüidarəetmə orqanlarının xüsusi icra aparatının, bələdiyyə mülkiyyəti növünün maddi bazasının, yerli vergiləri müəyyən etmək və toplamaq, habelə normativ aktlar vermək hüquqlarının mövcudluğu, ikinci bir tərəfdən isə məhkəmə təminatları ilə şərtlənir. Eyni zamanda qeyd etmək lazımdır ki, onların müstəqilliyi mütləq mənada başa düşülməməlidir, onlar qanunvericiliklə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində müstəqildirlər [2, s.213].

Yerli özünüidarəetmə sisteminin formalaşdırılması mərhələsində Azərbaycan Respublikasının heç bir təcrübəsinin olmaması bələdiyyələrin yaradılması prosesində bir sıra çətinliklər yaratmışdır. Təbii ki, yerli özünüidarəetmə sisteminin formalaşdırılması demokratiyanın möhkəmləndirilməsinin, hüquqi dövlətin inkişaf etdirilməsinin, vətəndaş cəmiyyətinin bərqərar olması yolunda mühüm amillərdən biridir. Tarixə nəzər yetirdikdə görərik ki, yerli özünüidarəetmə sahəsində Azərbaycan Respublikası kifayət qədər tarixi ənənəyə malik deyildir, bu da insanlarda bizim cəmiyyət üçün yeni olan bu instituta münasibətdə biganəlik yaratmışdır. Lakin SSRİ dağıldıqdan sonra və Azərbaycan Respublikası müstəqilliyini bərpa etməsi nəticəsində ölkəmizdə demokratik dövlətin əsasını təşkil edən yerli özünüidarəetmə sisteminin qurulması sahəsində islahatlar həyata keçirilməyə başlanmışdır [4, s.60]. Bu həyata keçirilən islahatların ən başlıca aparıcı lokomativi olan Azərbaycan Respublikasının Konstitusiyasını və orada öz hüquqi təsbitini tapan 142-146-cı maddələrini göstərmək olar [1, s.58-59]. Bu maddələrdən 144-cü maddənin II hissəsinə uyğun olaraq yerli özünüidarəetmə orqanlarına dövlət işlərinin müəyyən hissəsini yerinə yetirmək imkanı verilir. Özünüidarəetmə məhdud ərazidə məskunlaşmış insanların hüquq və azadlıqlarının qorunması, eləcə də onların ictimai rəyini nəzərə almaqla yerli problemlərinin həllində fəal və mütəşəkkil qaydada iştirakını təmin edən demokratik prinsip olub, qeyd olunan məsələlərin bilavasitə əhali tərəfindən müstəqil həll olunmasıdır. Beləliklə, yerli özünüidarəetmə (bələdiyyələr) - bu və ya digər inzibati ərazi vahidində məskunlaşmış əhali tərəfindən və bu əhalini təşkil edən özünün inzibati idarəetmə aparatına (bələdiyyələr) malik olan, seçki əsasında formalaşdırılan orqan tərəfindən yerli əhəmiyyətli məsələlərin və işlərin həll edilməsidir. Yerli özünüidarə orqanları (bələdiyyələr) ölkənin idarəetmə sisteminin tərkibində yer almaqla mərkəzi idarəetmənin ierarxik nəzarəti altında deyildir. Qeyd etdiyimiz kimi, onlar öz fəaliyyətlərində hüquqi normalar daxilində demokratik prinsipləri rəhbər tutaraq yerli əhəmiyyətli məsələləri bütövlükdə mərkəzi idarəetmə orqanlarına görə daha səmərəli həll edirlər. Çünki xalq tə-

rəfindən seçilmiş rəhbərin təşəbbüskarlığı təyin olunmuş rəhbərə nisbətən xeyli yüksək olur ki, bu da onların etibar olunmuş ərazidə vəziyyəti dəyişmək, əhalinin ictimai rəyinə lazımi qiymətin verilməsi imkanını daha da yüksəldir. Bu isə təmsili demokratiyadansa, birbaşa demokratiya fikrinin bələdiyyələr vasitəsi ilə daha effektiv bir şəkildə həyata keçirilməsinin üstünlüyünü ortaya çıxarır.

Ümumilikdə, dünyada yerli özünüidarələrin əsas mövcudluğu siyasi, idari, ictimai və iqtisadi səbəblərlə əlaqədardır.

Bələdiyyə orqanlarının vəzifəli şəxslərinin ictimaiyyət qarşısındakı məsuliyyətinə ictimai rəyin siyasi səciyyəsinə (yəni bələdiyyə idarəetməsinin xüsusiyyətlərinə) nəzər yetirdikdə burada əsas diqqət siyasi səbəblərə istiqamətlənməlidir. Bu səbəblər arasında yerli özünüidarələrin fəaliyyətini həyata keçirən vəzifəli şəxslər, xalqın iştirakı və xalqın nəzarəti altında onlara həvalə edilmiş vəzifələri yerinə yetirirlər.

Bələdiyyə orqanlarının vəzifəli şəxslərinin ictimaiyyət qarşısındakı məsuliyyəti onların seçki orqanının fəaliyyətini kordinə edən kimi inzibati ərazi bölgüsü üzrə seçicilərin qarşısındakı öhdəliklərinin yerinə yetirilməsinin siyasi səciyyəsindən asılı olaraq ictimai rəydən çox asılıdır. İctimai rəy isə o müəyyən zamanda hansısa bir mübahisəli problemə münasibətdə bu problemlə məşğul olan şəxslər qrupuna və ya qruplarına hakim olan qənaətdir. Qənaətlərin sərbəst ifadə olunmasına şərait yaradan bələdiyyə idarəetmə orqanlarına rəhbərlik edən vəzifəli şəxslərin fəaliyyəti demokratik sayılır. Bu bələdiyyə idarəetmə orqanlarına ərazi üzrə vətəndaşların seçmək və seçilmək hüququ əməli surətdə təmin edilir, onların qənaətləri, bölgə üzrə ictimai rəyləri bələdiyyələrin idarə olunmasında cavabdeh olan vəzifəli şəxslər üçün vacib amilə çevrilir.

Bələdiyyə orqanlarının vəzifəli şəxslərinin ictimaiyyət qarşısındakı məsuliyyətinə ictimai rəyin düzgün formalaşması bələdiyyələrin fəaliyyətinə demokratiyanın “mütləq şərti” olaraq verilən razılıqdır.

Demokratiya razılığın ifadə olunmasını təmin edən azad seçkilərə əsaslanır. Bələdiyyələr bu zaman azad seçkilər vasitəsilə idarə edənləri, rəhbər şəxsləri müəyyənləşdirərək idarəetmə prosesində bilavasitə iştirak edir. Bu seçkilər isə ictimai-siyasi razılığın və konsensunun mövcudluğunu, hüquqi-siyasi məkanın dinamik dayanıqlılığını təsdiq edir. Bu zaman bələdiyyə orqanlarını seçənlərin ictimai rəyi göstərici kimi olan səsvermənin onları idarə edənlər haqqındakı qənaət və baxışları ifadə edir, bununla da bələdiyyə idarəetmə prosesinin iştirakçısına çevrilir.

Ümumiyyətlə, tarixi faktların göstərdiyi kimi demokratiya insan hüquqları, vətəndaş cəmiyyəti kimi fenomenlər qarşılıqlı əlaqədədir və bir-birini şərtləndirir. Bunu ondan görmək olar ki, əsas fərdi azadlıqlar məhz hüququn aliliyi olan demokratik vətəndaş cəmiyyəti şəraitində öz hüquqi mənasını tapır, ictimai sistemin, ictimai rəyin, siyasi səciyyəsinə müvafiq olaraq bələdiyyə orqanlarının təkmilləşməsində mühüm şərtlərindən biri kimi çıxış edir.

Azad fərdlərə onların könüllü formalaşan birliklərinə istinad edən bələdiyyələr insana sosial cəhətdən əhəmiyyətli olan sosial tələbatlarını və maraqlarını həyata keçirmək imkanı yaratmağa, müxtəlif xarakterli münasibətləri mütəşəkkil qaydada nizamlamağa səy göstərir. Çünki cəmiyyətdə, xalqın istehsal olunmasını istədiyi mal və xidmətlər məsələsində ümumi fikir birliyi əldə olunmuşdursa, bu fikrin birliyi bazar iqtisadiyyatında tələbin yerini tuta bilər. Çox fərqli xüsusiyyətləri olan insanlarda meydana gələn icmaların eyni cür malın istehsal edilməsini arzu etmələri mümkün deyildir. Bu vəziyyətdə istehsal olunacaq mal və xidmətlər mümkün olduğu qədər çox insanın tələblərinə uyğun olmalıdır, yoxsa alıcı tapmaq mümkün olmaz, ya da çətin olar. Burada yerli əhəmiyyətli mal və xidmətlərin istehsalında yerli xalqın arzularını və istəklərini öyrənib buna görə mal və xidmət istehsal etmək və nəticədə onsuz da tükənməkdə olan yeraltı və yerüstü resurslardan səmərəli istifadə edə biləcək quruluşların, yerli özünüidarələrin yaradılmasının zərurəti meydana çıxır. Bu isə o deməkdir ki, müəyyən ərazidə yaşayan yerli icmalar o yerə məxsus istək və arzuların özlərinin yaradacaqları yerli özünüidarələr (bələdiyyələr) asanlıqla və tez bir şəkildə çatdıra bilər. Bu eyni zamanda bələdiyyələrin vəzifəli şəxslərinin ictimaiyyət qarşısındakı məsuliyyətinə ictimai rəyin hansı səviyyədə olmasını əks etdirir. Bəzi ölkələrdə yerli özünüidarəetmə ənənəsinin olmaması və bu təcrübənin azlığı bir çox hallarda vətəndaşların yerli özünüidarələrə ciddi əhəmiyyət verməməsinə səbəb

olur. Halbuki dəqiq hakimiyyət bölgüsü olan əks mərkəzləşmənin həyata keçirildiyi bütün demokratik dövlətlərdə yerli hakimiyyətə məxsus olan səlahiyyətlər mərkəzi hakimiyyətdən alınaraq yerli özünüidarəetmə orqanlarına verilir. Bunun nəticəsidir ki, həmin ölkələrdə vətəndaşlar bələdiyyələri özlərinə ən yaxın idarəetmə qurumu hesab edirlər və onun işində aktiv iştirak edirlər. Qeyd etmək lazımdır ki,vətəndaşların yerli özünüidarələrin fəaliyyətində iştirakı da öz-özünə baş vermir. Bunun üçün təşviqedici və stimullaşdırıcı tədbirlərə ehtiyac var ki, bunlar sırasında:

- bələdiyyələrin fəaliyyəti, həyata keçirdikləri işlərlə seçici əhalini müntəzəm məlumatlandırmaq, onları tanış etmək;
- bələdiyyələrin göstərdikləri xidmətlərin keyfiyyəti haqqında vətəndaşlardan məlumat toplamaq bu məsələlərlə əlaqədar əhali ilə müzakirə aparıb onları bu işlərə cəlb etmək;
- yerli özünüidarə sahəsində qərarların çıxarılmasının və həyata keçirilməsinin məsuliyyətini seçicilərlə bölüşmək;
- əmələ gələn problemlərin həll olunmasına təşəbbüs göstərmələri üçün vətəndaşlara səlahiyyət vermək. İnzibati ərazi bölgüsü üzrə vətəndaşların yerli özünüidarəetmə - bələdiyyələrin fəaliyyətində iştiraka təşviq olunması – onların ictimai rəyinin qəbul edilməsi bir neçə cəhətdən faydalı və məsuliyyətlidir [6, s.84].

Belə iştirak formaları demokratiyanın əsas göstəricilərindən biri olmaqla effektiv idarəetmə üçün informasiya mübadiləsinin təmin edilməsinə, qərarların qəbul edilməsində cavabdehliyin və məsuliyyətin siyasi səciyyəsinin müəyyən olunmasına səbəb olur. Bu onu özündə belə əks etdirir ki, qanunverici tərəfindən müəyyənləşən bələdiyyələrin fəaliyyətinin idarəetmə sahəsində əsas vəzifəsi yerli əhəmiyyətli məsələlərin məhz əhali tərəfindən “müstəqil və öz məsuliyyəti altında” həyata keçirilməsidir. Əhali bu fəaliyyəti, əsasən, bələdiyyə orqanları vasitəsi ilə həyata keçirdiklərinə görə əhalinin ictimai rəyinin bələdiyyənin işinin təşkilinə və yerinə yetirilməsinə bələdiyyələrin vəzifəli şəxslərinin məsuliyyət hiss etmələrinə çox böyük təsiri vardır. Buna görə də bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin yerli özünüidarəetmənin əsas subyekti olan əhalidən, onun ictimai rəyindən asılılığı həyata keçirilərək təmin edilməlidir.

Bələdiyyə orqanlarının və vəzifəli şəxslərinin əhali qarşısındakı məsuliyyəti qanunvericilikdə də həyata keçirilməsi öz həllini tapır.

Bələdiyyə orqanlarının və vəzifəli şəxslərinin ictimaiyyət qarşısındakı məsuliyyətinə ictimai rəyin səciyyəsi ondan ibarətdir ki, onlar fəaliyyətlərini düzgün təşkil etmədikdə və onlara xas funksiya və ictimaiyyət qarşısındakı öhdəlikləri yerinə yetirmədikdə etimadın itirilməsi ilə nəticələnir. Etimadın olması və ya olmaması bələdiyyələrin nümayəndəli orqanının fəaliyyətinin legitimliyinin faktiki şərti olaraq, əhali seçdiyi nümayəndələrin fəaliyyətinin düzgünlüyünü şübhə altına alır. Digər ölkələrin təcrübəsi göstərir ki, yerli əhali bu inamsızlığı bələdiyyə orqanları və bələdiyyənin vəzifəli şəxslərinə yerli rəy sorğusu vasitəsi ilə göstərirlər ki, bu da həmin yerli əhalinin ictimai rəyinin hüquqi bir formasıdır [4, s.240-249].

Hazırda müvafiq idarəetmə institut və mexanizmlərin formalaşmasında çoxsaylı vəzifələrin həlli məsələsi cəmiyyət və dövlət qarşısında dayanır. Bu çoxşaxəli transformasiya hazırda da davam etməkdədir. Siyasi modernləşmə bu prosesin tərkib hissəsi olaraq demokratik konsolidasiyanın, milli həmrəyliyin bütövlüyünə, həm də insan hüquqlarının reallaşmasına etibarlı zəmin yaradır. Bu əsasa görə də Azərbaycan Respublikası siyasi modernləşmənin mühüm nəticəsi hesab edilən demokratik konsolidasiyanı strateji bir məqsəd kimi qarşıya qoymuşdur. Bu məqsədin reallaşması istiqamətində artıq xeyli işlər görülmüş və Azərbaycan cəmiyyəti müəyyən uğurlar əldə etmişdir.

Azərbaycan iqtisadi sahədə keçid dövrünü uğurla başa vurması insan hüquqlarının təmin və müdafiə olunması üçün daha geniş imkanlar yaratmışdır. Bu, özlüyündə iqtisadi resursların insan kapitalına çevrilməsində başlıca şərtlərdən biridir. Ona görə də ölkə prezidenti İlham Əliyev insan kapitalının formalaşmasında demokratikləşmənin əhəmiyyətini, onun daha da genişlənməsini və dərinləşməsini həmişə xüsusi qeyd etməkdədir. Belə ki, demokratiya və insan haqları bir-birini şərtləndirən, bir-birinə təminat verən fenomenlərdir. İctimai rəy isə bu təminatın reallaşmasında başlıca vasitələrdən biridir [3, s.86-87].

Qeyd etmək lazımdır ki, vətəndaşların yerli özünüidarələrin fəaliyyətində iştirakı da öz-özünə baş vermir. Bunun üçün təşviqedici və stimullaşdırıcı tədbirlərə ehtiyac var ki, bunlar da, əsasən:

- bələdiyyələrin fəaliyyəti, həyata keçirdikləri işlərlə seçici əhalini müntəzəm məlumatlandırır, onları tanış edir.
- bələdiyyələrin göstərdikləri xidmətlərin keyfiyyəti haqqında vətəndaşlardan məlumat toplamaq, bu məsələlərlə əlaqədar əhali ilə müzakirə aparıb onları bu işlərə cəlb eləmək;
- yerli özünüidarə sahəsində qərarların çıxarılmasının və həyata keçirilməsinin məsuliyyətini seçicilərlə bölüşmək;
- əmələ gələn problemlərin həll olunmasına təşəbbüs göstərmələri üçün vətəndaşlara səlahiyyət vermək.

İnzibati ərazi bölgüsü üzrə vətəndaşların yerli özünüidarəetmədə - bələdiyyələrin fəaliyyətində iştiraka təşviq olunması, onların ictimai rəyinin qəbul edilməsi bir neçə cəhətdən faydalı və məsuliyyətlidir. Belə iştirak formaları demokratiyanın əsas göstəricilərindən biri olmaqla effektiv idarəetmə üçün informasiya mübadiləsinin təmin edilməsinə, qərarların qəbul edilməsində cavabdehliyin və məsuliyyətin siyasi səciyyəsinin müəyyən olunmasına səbəb olur.

Müasir dövrdə özünüidarəetmənin məqsədi yerli icma ictimaiyyəti ilə konkret halda bələdiyyələrlə yerli vətəndaşlar arasında inam və etibarın güclənməsinə yardımçı olmaqdır. İctimai rəyin siyasi səciyyəsi isə özünü onda göstərir ki, bələdiyyə idarəetməsində əsas vəzifə bu idarəçiliyi həyata keçirən kadrların bu fəaliyyət üzrə nəzəri və təcrübi bilikləri artırılsın. Bu hal, həm də demokratik, dünyəvi, hüquqi dövlət quruculuğunun geniş vüsət aldığı indiki şəraitdə bələdiyyə idarəçiliyinin yeni dövrün tələblərinə uyğunlaşması baxımından vacibdir.

Bələdiyyə orqanlarının vəzifəli şəxslərinin ictimaiyyət qarşısındakı məsuliyyətinə olan tələblər dairəsinə bu orqanların idarəetmədə səmərəliliyə və məhsuldarlığın artmasına ictimai rəydə sağ (irtica-müxalifət) və sol (sosialist) düşüncələrin mübahisəsinə, bələdiyyə idarəçiliyinin modern və posmodern nəzəriyyələrinin qəbul edilməsinə və bələdiyyə idarəçiliyinin düzgün başa düşülməsi və nəhayət, bələdiyyə idarəetməsinin müasir tələblərə uyğunluğudur. İctimai rəyin öyrənilməsi bələdiyyə, həmçinin özəl təşkilatlar, QHT-nın da qarşısında duran vəzifələrdən biridir ki, burada da onların özlərinin yaxşı əhval-ruhiyyəsinin, yeni müsbət imicinin (nüfuzunun) yaradılmasıdır [5, s.50].

Bu onların qarşısında qoyduqları məqsədə çatmaqda, işlərin normal getməsində müstəsna rola malik olmaqla reklamın ən yaxşı növlərindən biridir. Bu isə bir çox problemlərin vaxtında və lazımi səviyyədə həlli, son nəticədə bələdiyyə kollektiv üzvlərinin, onların səmərəli fəaliyyətinin yüksəldilməsinə müsbət təsirini göstərir.

Bələdiyyə idarəetməsində ictimai rəyə olan tələbat və reaksiya yerli əhali arasında ictimai əlaqələrin bütün sahələr üzrə səmərəli fəaliyyətin onların bütün üzvlərinin uyğun mühitə alışması və informasiyaya malik olmasından ibarətdir. İctimaiyyətlə əlaqəli təşkilatın, cəmiyyətin hansı sahəyə aid olmasından asılı olmayaraq, onun əlaqələrinin texnologiyaları müxtəlif səpkili olur. Bu texnologiyalar sırasına KİV, televiziya, radio, qəzet, jurnal, əhali ilə iş-toplantıları, yığıncaqlar, rəy sorğuları cəmiyyətin yerli əhali üzvlərinin diqqətinə çatdırılması mühüm bir vasitədir.

Bələdiyyə qurumlarının bu texnoloji üsullardan istifadə edib tətbiq etməsi, yerli əhalinin, onun hər bir üzvünə ailəyə, kollektivə cəmiyyətdə özünü realizə etməyə, normal həyata, yaradıcılığa, öz tələbatını ödəməyə, rifahının artırılmasına, harmonik inkişafına imkan yaradır.

Bələdiyyə orqanlarının, onların vəzifəli şəxslərinin ictimaiyyət qarşısındakı məsuliyyətinə ictimai rəyini səciyyələndirənlərdən əsas, cəmiyyətdə (yerli əhalidə) sosial, mədəni, mənəvi və iqtisadi dəyərlərin bir nəsildən digərinə ötürülməsi sisteminin təşəkkül tapmasında həyata keçirdikləri texnologiyaların da böyük rolu vardır.

Məlum həqiqətdir ki, iqtisadiyyat siyasəti müəyyən edir və siyasətdən qabaq gəlir.

Sivilizasiya yaranandan üzü bəri bütün dövrlərdə iqtisadi amil həlledici olub siyasi dəyişikliklərin əsasını təşkil etmişdir. Bu baxımdan bələdiyyə idarəetməsində ictimai rəyə müsbət yanaşma ictimaiyyətlə əlaqələrin texnologiyalarının düzgün tətbiqi və həyata keçirilməsi bütün insanlara onların həyatı üçün münbit şəraitin yaranmasına imkan verir. Bu isə ona əsaslanır ki, ictimai institutlar, ideyalar, baxışlar, hərəkətlər möhkəm olur və iqtisadi aktivliyin səviyyəsi və dinamikasını lazımi səviyyədə təmin edir. İnsanların rifah halının təmin edilməsi isə cəmiyyətin mərhələli demokra-

tikləşməsinə, onun möhkəmlənməsinə və çağdaş dövr üçün konsolidasiya olunmuş məkana transformasiyanı yaratmış olur.

Çağdaş dövrdə istənilən idarəetmə fəaliyyətinə, eyni zamanda bələdiyyə orqanlarının idarəetmə fəaliyyətinə ictimai rəyin təsir vasitəsi kimi ən güclü qüvvəyə KİV malikdir [3, s.152-53].

Kütləvi informasiya vasitələri cəmiyyətin həyatının bütün sahələrinə güclü təsir göstərən bir təsisatdır. İctimai rəyin formalaşmasında, ictimai-siyasi proseslərin inkişaf istiqamətlərinin müəyyənləşməsində onun rolu və əhəmiyyəti son dərəcədə böyükdür. Təsadüfi deyil ki, ictimai rəyə təsir göstərmək imkanlarına görə KİV-ni məcazi mənada dördüncü hakimiyyət adlandırırlar.

KİV cəmiyyətin həyatında üç əsas funksiyanı yerinə yetirir: Onlardan birincisi, informasiya daşıyıcısı kimi, ikincisi, hadisələrin şərhi kimi və üçüncüsü, ictimaiyyətin reaksiyasını öyrənməkdir. Bu isə o deməkdir ki, kütləvi informasiya vasitələri ictimai rəyi yaratmaq, formalaşdırmaq gücünə malikdir.

Bildiyimiz kimi, istənilən cəmiyyətin ontoloji (cəmləşmə) vəziyyətini cəmiyyət üzvlərinin maddi tələbatlarının təmin edilməsi üçün müvafiq nemətlərin əldə etmələri təşkil edir. Ona görə də bilavasitə maddi nemətlər istehsalı və onun düzgün idarə edilib istifadəsi ən vacib məsələlərdəndir. İdarəetmənin xalq tərəfindən görüntüsü özünü tam surətdə o vaxt göstərir ki, idarəetmə orqanı fəaliyyətini tam qanunauyğun həyata keçirsin. Bu üsul prioritet problemləri dəqiq müəyyənləşdirməyə imkan yaratmaqla yerli özünüidarəetmələrlə vətəndaşlar arasında etimadı təmin edir, vətəndaşları inzibati ərazi sakinlərinin problemləri barədə məlumat əldə etməyə və onların həlli ilə əlaqədar yerli bələdiyyə rəsmiləri ilə əməkdaşlıq etməyə təşviq edir.

Əhalinin ehtiyaclarını daha səmərəli və tez müəyyən etməyə kömək edən, yerli özünüidarənin fəaliyyətinin şəffaf olmasına təminat verən, yerli əhalini siyasi cəhətdən dəstəkləyən məsuliyyətli qərarların qəbul edilməsinə şərait yaradan bu üsul yerli əhəmiyyətli məsələlər və problemləri ilə bağlı konsensusa gəlməyə kömək etməklə, ayrı-ayrı xidmətlər, habelə büdcə, iqtisadi və strateji planlaşdırmanın tərtibatı üzrə qərarların çıxarılması məsuliyyətini də bölüşür.

Məhz bu təşviqedici və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi insanlarda özünə hörmət və işgüzarlıq kimi keyfiyyətləri formalaşdırmaqla yanaşı, həm də yerli əhalinin normal yaşayışının təmin olunmasına imkan verən problemləri ictimailəşdirməyə şərait yaradır, vətəndaşları cəmiyyətin idarə olunmasında fəal iştirak etməyə, ictimai rəyin hansı istiqamətdə olmasına yönəldilir.

Nəticədə vətəndaşların hüquq və azadlıqlarının reallaşması üçün əlverişli olan demokratik cəmiyyət formalaşır.

İnkişaf etmiş ölkələrdə yerli özünüidarələr bir çox xidmət və işləri xalqa aktiv, effektiv bir şəkildə çatdırırlar. Buna görə də hər zaman yerli özünüidarələr tərəfindən xalqa çatdırılması nəzərdə tutulan ictimai xidmətlərin keyfiyyətinin yüksək olacağı fikri prioritet qazanmışdır. Birincisi, ona görə ki, bələdiyyələr yerli əhəmiyyətli məsələləri bütövlükdə dövlət strukturlarından daha səmərəli həll edir. Uzun illərin təcrübəsi sübut edib ki, seçilmiş rəhbərin təşəbbüskarlığı, təyin olunmuş rəhbərə nisbətən xeyli yüksək olur. İkincisi, bələdiyyələrdə konkret problemlərin həllinə cavabdehliyin, məsuliyyətin ünvanı konkret olur. Nəhayət, yerli özünüidarəetmə orqanları vətəndaşlara daha yaxından bələd olurlar, onların ictimai rəyinə dözümlü olurlar. Yerli özünüidarəetmələr olan bu etibar doğrultmaq üçün onlara geniş səlahiyyətlər verməli və lazımi miqdarda maliyyə vəsaiti ilə təchiz edilməlidir. Hazırda bütün ölkələrdə bu yanaşma əsas olaraq qəbul edilir və ictimai xidmətlərin xalqa çatdırılmasında yerli özünüidarələrin potensialından maksimum səviyyədə faydalanmalı və bu məqsədlə yerli özünüidarələrin maliyyə gücünün artırılması istiqamətində geniş tədbirlər görülür.

Bu qeyd olunanları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, yerli özünüidarəetmənin normal və effektiv fəaliyyət göstərməsi bir sıra mühüm şərtlərdən biridir ki, bunlar da əsasən:

- bələdiyyələrin funksiyalarının və səlahiyyətlərinin peşəkar və hazırlıqlı mütəxəssislərlə həyata keçirilməsi;
- dövlət hakimiyyəti orqanları ilə yerli özünüidarəetmə orqanları arasında səlahiyyət bölgüsünün qanuni olaraq müəyyən edilməsi;
- yerli özünüidarəetmə orqanlarının onlara həvalə olunmuş səlahiyyət yükünü daşımaq üçün zəruri həcmdə iqtisadi-maliyyə potensialının olması;

- ən mühüm məsələ vətəndaşlarda yerli əhəmiyyətli məsələləri müstəqil şəkildə və məsuliyyətlə həll etmək təşəbbüskarlığının və arzusunun olmasıdır.

Bələdiyyə orqanlarının vəzifəli şəxslərinin ictimaiyyət qarşısındakı məsuliyyətinə ictimai rəyin siyasi səciyyəsinin mahiyyəti – inzibati ərazidə yaşayan insanların haqlarının təmin olunmasında xeyli dərəcədə bələdiyyə üzvlərinin bütün fəaliyyət sferasında onların mədəni-mənəvi inkişaf səviyyəsindən, siyasi şüur yetkinliyindən, ictimai institutların inkişafından, nəhayət, ictimai rəyin formalaşmasından çox asılıdır. İctimai hadisə kimi proseslərə bilavasitə təsiri, ictimai rəyin siyasət elmi baxımından əsas önəmi onun siyasi qərar qəbuletmə mexanizmində özünü göstərir.

**Açar sözlər:** yerli özünüidarəetmə, bələdiyyə, ictimai rəy, cəmiyyət

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2016, 68 s.
2. Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları. Bakı: 2005, 215 s.
3. Abbasov Ə.F. İnsan haqları və ictimai rəy. Bakı: Təknur, 2013, 218 s.
4. Qurbanov H.S., Balakişiyeva. Y.N., Hacıyeva S.Q. Azərbaycanın Bələdiyyə hüququ. Bakı: Təknur, 2011, 360 s.
5. Mahmudov M.Ə., Şabanov Z.M., Ələkbərov F.Q. İdarəetmə nəzəriyyəsi. Bakı: Elm və təhsil, 2012, 344 s
6. Rəhimli R.Z. Azərbaycan Respublikasının idarəetmə sistemində yerli özünüidarələr. Bakı: Elm, 2009, 172 s.

**Камал Гаджиев**

## ПОЛИТИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ОБЩЕСТВЕННОГО МНЕНИЯ ОТВЕТСТВЕННОСТИ МУНИЦИПАЛЬНЫХ СЛУЖАЩИХ (ЧИНОВНИКОВ) ПЕРЕД ОБЩЕСТВОМ

**Резюме**

В статье анализируется политический характер общественного мнения в деятельности чиновников в управлении муниципалитетом. Подчеркивается необходимость рассмотрения должностными лицами общественного мнения, информирования общественности о проделанной работе, важность осуществления мер в соответствии с уровнем ответственности.

**Ключевые слова:** местное самоуправление, муниципалитет, общественное мнение, общество

**Kamal Hajiyev**

## POLITICAL CHARACTER OF PUBLIC OPINION IN THE RESPONSIBILITY OF MUNICIPAL OFFICIALS IN FRONT OF THE PUBLIC

**Summary**

The political character of public opinion in the activity of officials in the management of municipalities is analyzed in the article. The consideration of public opinion in the activity of municipal officials, public awareness about the done works, the importance of the implementation of measures according to the level of responsibility are emphasized in the article.

**Keywords:** local self-management, municipality, public opinion, society

**UOT – 165**

**Aydın Şirinov**
**AMEA Fəlsəfə İnstitutu, fəl.ü.f.d., professor**

# DƏRKETMƏ PROSESİ, ONUN STRUKTURU VƏ SƏVİYYƏLƏRİ

*Məqalədə fəlsəfənin aktual problemlərindən olan idrak prosesi, onun adi və nəzəri səviyyəsi, mürəkkəb strukturu öyrənilir. Burada psixika, şüur, neyronların quruluşundan asılı olaraq beynin imkanları, neyronlararası əlaqələrin müasir elmi mahiyyətinin açılmasına səy göstərilir. Bu zaman müasir dövr filosofları ilə yanaşı klassik və neoklassik dövrün filosoflarının yaradıcılığına da müraciət edilir, fərqli və yeni fikirlər irəli sürülür, müqayisələr aparılır. Həm fəlsəfənin, həm də psixologiyanın predmetinə daxil olan bəzi məsələlər yeni baxış bucağından təhlil edilir.*

İdrak və onun strukturu problemi həmişə, xüsusilə, İ.Kantın üç tənqidindən (“Xalis zəkanın tənqidi”, “Mühakimə qabiliyyətinin tənqidi” və “Praktik zəkanın tənqidi”) əsərlərindən sonra həmişə filosof və psixoloqların diqqət mərkəzində duran məsələlərdən biri olmuş və olaraq qalmaqdadır. Əslində, elə həm fəlsəfənin özündə, həm də digər elmlərdə baş verən yeniliklər dərketmədə, yanaşmalarda, baxışlarda baş verən dəyişikliklərdir ki, bunlar da yeni paradiqmaların, prinsiplərin, konsepsiyaların yaranmasına gətirib çıxarır. XX əsrdə həm təbiətşünaslıq, həm cəmiyyətşünaslıq elmlərində xeyli belə yeniliklər baş vermişdir. Cəmiyyətşünaslıq elmlərində, xüsusilə, sosial fəlsəfədə cəmiyyət həyatında baş verən proseslərlə bağlı olaraq xeyli sayda yeni konsepsiyalar, nəzəriyyələr yaranmışdır. XX əsrin ikinci yarısından başlayaraq yaranan “postindustrial cəmiyyət”, “bilik cəmiyyəti”, “rifah cəmiyyəti”, “informasiya cəmiyyəti” və s. kimi paradiqma və nəzəriyyələr buna misal ola bilər. Bu nəzəriyyələrin meydana gəlməsi ilk növbədə cəmiyyət həyatının bütün sferalarına elmi biliklərin daxil olması və hər bir fəaliyyət növünün elmə əsaslanması ilə bağlıdır. Çünki artıq elmə əsaslanmayan fəaliyyət növü və hətta həyat tərzi belə, arzu olunan, gözlənilən nəticəni verə bilmir. İndi hər hansı bir iradi qərarla hansısa bir məsələni həll etmək mümkün deyil. Yəni, iradənin özü də elmə, elmi araşdırmaya əsaslanmalı və bu iradə elmlə, biliklə birləşməlidir. Elə meritokratiya anlayışı da təxminən “bilik cəmiyyəti” anlayışı ilə eyni zaman hüdudunda, XX əsrin 50-ci illərində yaranmışdır.

Fəlsəfənin və ümumiyyətlə, elmin, düşüncənin mərkəzi problemi olan idrak nəzəriyyəsi Platon və Aristoteldən başlayaraq bu günə qədər üzərində işlənilən və həmişə aktual olan problemlərdən biridir [10, 12, 13]. Elmi təfəkkürün inkişafı tarixində idrak prosesinə aid müxtəlif nəzəriyyə və konsepsiyalar irəli sürülmüşdür. Bu nəzəriyyə və konsepsiyalar onların arasında olan ziddiyyətlərə, əks mövqelərə baxmayaraq, elmin, eyni zamanda təhsilin təşkilində və inkişafında mühüm rol oynamışlar. Bu yazıda rasionalizm və sensualizm bir-birinə əks olan nəzəriyyələr kimi deyil, bir-birini tamamlayan, vəhdətdə olan hadisələr kimi götürülür və rasionallığın elmi və fəlsəfi düşüncədə daha üstün rol oynaması əsaslandırılır. Bu isə qətiyyən o demək deyil ki, təcrübəyə, gündəlik həyata əsaslanan (empirik biliklər) düşüncə rasionallığın törəməsidir. Çünki insan düşüncə ilə yanaşı, həm də ona verilmiş təbii instinktlərlə də yaşayır. Bunlar başlanğıc etibarilə müxtəlif tipli idraki hadisələrdir. İdrak prosesində subyektin dərketmə imkanından asılı olaraq, həm hissi, həm də məntiqi idrak müxtəlif səviyyələrdə vəhdət halında birləşə də bilər, birləşməyə də. Belə hal daha çox hissi idraka aiddir. O daha güclü olduqda məntiqi, rasional düşüncə zəifləməyə başlayır və insan artıq özü-özünü idarə edə bilmir. Stress və digər vəziyyətlərə düşən adam buna misal ola bilər. Belə halda gündəlik həyatın gedişindən, onun təhlilindən, bu təhlilin ümumiləşdirilməsindən çıxış etməyən müxtəlif abstrakt və spekulyativ nəzəriyyələr nə mövcud reallığa münasibətdə, nə də onun dərk olunması üçün heç bir müsbət nəticə verə bilməz. Təsadüfi deyil ki, R.Dekartın rasionalizmi ilə C.Lokkun sensualizmi bu gün də idrak nəzəriyyəsi ilə məşğul olanların diqqət mərkəzindədir və onlar bu işi İ.Kantın transsendent və transsendentallıq, Hegelin panlogizmi, Popperin falsifikasiya

və verifikasiya konsepsiyalarına yenidən baxılması əsasında həyata keçirirlər. Bütün bunlar dərketmə prosesində rasional olanla empirik olanın vəhdətdə olduğunu sübut edir.

Con Lokkun məşhur ağ lövhə [11, s.128] (tabula rasa, yaxud boş otaq) nəzəriyyəsi, xüsusilə, humanitar elmlərlə məşğul olanların hamısı üçün məlumdur.

Məsələ burasındadır ki, bu müddəa, xüsusilə, keçmiş Sovet pedaqogikasında geniş istifadə olunurdu. Bu isə pedaqogikanın özündə xeyli dolaşıqlıq yaradırdı. Bu prinsipə görə şagirdin beyni ağ lövhədən, yaxud boş otaqdan ibarətdir. Bu lövhəyə onun yaşına (hazırlıq bazasına əsasən) nə yazsan, orada qalacaq, yaxud bu boş otağı nə ilə istəsən, doldura bilərsən. Nəzərə alınmırdı ki, birinci, insan beyninin işini hər hansı bir fiziki şeylə və həndəsi məkanla eyniləşdirmək olmaz. İkinci, insan beyninin qavrama və düşünmə (dərketmə, təfəkkür) əmsalları müxtəlifdir. Bu əmsalların müxtəlifliyi beynin işləmə potensialı, iradə, maraq, məqsəd və s. amillərlə bağlıdır. Beyin əmsalı, onun düşünə bilmək və nəticə çıxara bilmək məsələsi haqqında vahid bir fikir yoxdur. Lakin bu istiqamətdə dünya miqyasında həm fizioloqlar, həm də psixoloqlar tərəfindən ciddi tədqiqatlar aparılmaqdadır. Bu faktın özü sübut edir ki, belə bir fenomen mövcuddur. Lakin hələlik bu qəti halda öyrənilməmişdir. Bunu uşağın tənbəlliyi, məsuliyyətsizliyi, ailənin şagirdin üzərində nəzarətsizliyi və digər səbəblərlə əlaqələndirirlər. Lakin heç kim “ağ lövhə”nin mahiyyətinə varmır, bunu daha çox fiziki mənada başa düşür. Ağ lövhə nəzəriyyəsinin düzgünlüyü ondan ibarətdir ki, doğrudan da, anadan olan uşağın beyni ağ lövhədir, yəni orada hələ nə isə haqqında heç bir bilik, yaxud informasiya yoxdur. Lakin bu uşaqların beyin potensialı müxtəlif əmsallara malik olur. Bir qismi böyüdükdə belə əksər hallarda yüz dəfələrlə təkrar olunan sadə alqoritmlərdən başqa heç nəyi qəbul edə bilmir. Hər hansı bir nəzəri-abstrakt fikir onlar üçün anlaşılmaz olaraq qalır. Bunu orta məktəblərdə oxuyan şagirdlər üzərində aparılan müşahidələr təsdiq edir. Məsələn, ibtidai siniflərdə oxuyan şagirdlər keçilən materialı az-çox mənimsədiyi halda artıq 5-ci sinifdən başlayaraq riyaziyyat, sonrakı siniflərdə isə fizika, kimya kimi fənləri mənimsəməkdə, onlara aid məsələ və misalları həll etməkdə çətinlik çəkməyə başlayır və daha yuxarı siniflərdə artıq həmin fənlərdən heç nə başa düşmürlər. Buna görə də daha çox humanitar fənlərə üz tutmağa başlayırlar. Onlar başa düşə bilmirlər ki, humanitar fənlər sahəsində də abstrakt-nəzəri düşüncəyə malik olmaq vacibdir. Çünki müasir humanitar bilik sahəsi heç də müəyyən bir hadisəni nəql etməkdən, yaxud şəxsi müşahidə və şəxsi fikir əsasında nədən isə bəhs etmək, yaxud danışmaqdan ibarət deyil. Hər hansı bir hadisəni doğuran səbəbləri, onun struktur, sistem və yarımsistem əlaqələrini tapmaq lazım gəlir. Mövcud nəzəri baxışları öyrənmək və onları mövcud olan real faktlar əsasında araşdırmaq lazım gəlir.

Keçilən mövzunun öyrənilməsi müəllimdən daha çox (burada müəllim ideala uyğun götürülür) şagirdin öz bacarığından, düşünə bilmək qabiliyyətindən asılı olur.

Verilən, yaxud keçilən dərsi mənimsəmək üçün şagirdin marağı və hazırlıq bazası mühüm rol oynayır. Əlbəttə, bunlar da şagirdin beyin potensialının səviyyəsi ilə bağlıdır. Maraq və vərdişin, hazırlıq bazasının vacibliyini isə hələ eramızdan əvvəl IV əsrdə Aristotel göstərmişdir [2, s.97-98]. Təəssüf ki, “ağ lövhə” nəzəriyyəsini mütləqləşdirən sovet pedaqogikası məsələni bütövlükdə ideoloji aspektə yönəldərək yeni insanın, yaxud kommunizm qurucularının yetişdirilməsi kimi qondarma müstəviyə keçirmişdi.

Çoxlu tədqiqatların aparılmasına baxmayaraq, hələ də beynin necə işləməsi problem olaraq qalır. Hərçənd anatomik-fizioloji cəhətdən beyin xeyli öyrənilmişdir. Lakin bunun başa çatması fikrini söyləmək olmaz. Məsələn, keçən əsrin 70-ci illərində beyində 15-18 mln. neyronun olmasından söhbət gedirdisə, indi bu neyronların sayının yüz milyondan artıq olmasını göstərirlər. Gələcəkdə bu sayın nə qədər olacağı məlum deyil. Əgər Z.Freyd, Q.Yunq, E.Hüsserl, E.Kreyçmer, E.Fromm, P.Anoxin kimi dünyada tanınmış alimlərin konsepsiya və ideyalarına diqqət yetirsək, burada müxtəlif yanaşmalara, düşüncənin, təfəkkürün müxtəlif səbəblərə əsaslandığını və onun müxtəlif səviyyələrdə və müxtəlif istiqamətdə izah olunduğunu görə bilərik. Yeri gəlmişkən deyək ki, Azərbycan filosofu Ə.S.Abasov “Niyə mistika” əsərində [1, s.232-242] bu məsələdən də bəhs etmiş və çox dəyərli fikirlər söyləmişdir.

Şübhəsiz ki, beynin hansı səviyyədə və hansı istiqamətdə işləməsində, onun potensialının açılmasında insanın içərisində yaşadığı sosial-mədəni mühitin, yaxud cəmiyyət həyatının da əhəmiyyətli rolu var (bu mühitə bəzi hallarda sosial genetika da deyirlər). Bu sosial genetika hər bir millətin tarixi və bu tarix əsasında yaranmış mentaliteti ilə də bağlıdır. Buna görə də hər bir millətin qurduğu və içərisində yaşadığı cəmiyyət onun düşüncə və fəaliyyəti əsasında qurulan formalaşan cəmiyyətdir [4, s.9]. Göründüyü kimi, ayrı-ayrı fərdləri birləşdirərək onları cəmiyyət halına salan başlıca amil şüur və bu şüura əsaslanan fəaliyyətdir. Buna görə də təsadüfi deyil ki, bugünkü fəlsəfədə sosial epistemologiyaya xüsusi diqqət verilir [4, s.610]. Çünki insanlar öz sosial xüsusiyyətlərinə görə cəmiyyət daxilində yaşamağa məhkumdurlar. Buna görə də onların intellektual səviyyəsi xeyli dərəcədə yaşadıqları cəmiyyətin ümumi intellektual səviyyəsi ilə müəyyənləşir [6, s.48]. Bu səviyyə həm mədəni-əxlaqi, həm də ümumi ictimai atmosferi yaradır. Lakin bu atmosfer heç də sabit və mütləq olaraq qalmır və qala da bilməz. Sabitlik və mütləqlik, yaxud mütləq sabitlik, ümumiyyətlə, nə təbiətdə, nə cəmiyyətdə, nə də şüurda mövcud deyildir. Lakin onların hər birində dəyişkənlik periodu, yaxud zaman ölçüsü müxtəlif əmsallara malikdir. Əlbəttə, bunların sırasında ən tezlikli dəyişkənliyə malik olan insanın psixikası və şüurudur. İnsanın psixikası elədir ki, o, hər hansı bir təsirin nəticəsində bir anda dəyişə bilər. Müsbət enerji ilə istiqamətlənmiş duyğu axını, duyğu seli mənfi enerjiyə çevrilə bilər və ya əksinə. Körpə uşaqlarda bu, özünü daha qabarıq şəkildə göstərir. Yəqin ağlayan uşağın hər hansı bir xoş təsir nəticəsində göz yaşları içərisində güldüyünü müşahidə edənlər heç də az deyildir. Uşaq hər hansı bir daxili və xarici təsirə heç nə ilə müqavimət göstərə bilmədiyinə görə və istədiyini əldə edə bilməyəndə öz narazılığını yalnız ağlamaqla bildirir. Ağlamaq bir növ onun üçün həyat tərzinin bir hissəsinə çevrilir. Təsadüfi deyil ki, 3-4 yaşında olan uşaq səhərlər anası ilə gəzməyə çıxanda baxçadakı güllərin yarpaqları üzərində şeh damcılarını görərək anasından gülün nə üçün ağladığını soruşur. O, şeh damlalarını göz yaşının damlalarına oxşadır. Göründüyü kimi kiçik yaşlı uşaqlarda hələ analitik və məntiqi təfəkkür zəif olduğundan onlar daha çox hissi təfəkkürlə, duyğu və analoqlarla düşünür ki, bu da əslində təbii ekstrapolyasiyanı verir. Bu yaşda, yəni yeddi yaşına qədər olan uşaqlarda hələ gündəlik həyatda baş verən müxtəlif situasiyaları onlara uyğun olaraq qiymətləndirmək bacarığı çox azdır, yaxud heç yoxdur. Lakin psixoloqların son dövrlərdə apardıqları tədqiqatlara görə yeddi yaşından başlayaraq artıq bu xüsusiyyətlər əmələ gəlməyə başlayır. Buna görə də uşaqların altı yaşında məktəbə getməyə başlaması özlüyündə müəyyən şübhə doğurur. Çünki istər ən sadə mətnlərin və ən sadə riyazi əməliyyatların yadda saxlanılması artıq yeddi yaşından başlayır və əlbəttə bu, beyin neyronlarının işləmə potensialından asılıdır [9, s.39]. Bu potensialın işləməsi isə bir neçə şərtlə bağlıdır. Bunlar bioloji (genetik), sosial, pedaqoji, mədəni və digər faktorlarla bağlıdır [9, s.39]. Bu faktorlardan ən az öyrənilən və hələ də sirri az məlum olan beynin, bütövlükdə işləmə mexanizminin, yaxud neyronların hansı sürətlə əlaqəyə girməsidir. Düzdür, beyin anatomik cəhətdən, yaxud onun quruluşu baxımından və eyni zamanda fizioloji cəhətdən kifayət qədər öyrənilmişdir. Lakin artıq qeyd olunduğu kimi, neyronların əlaqəyə girməsi, bu əlaqələrin sürətliliyi baxımından az öyrənilmişdir. İndi onların sayı yüz milyondan artıq göstərilir, əlbəttə, bu rəqəm də təxminidir. Çünki heç kim onları bir-bir saymayıb. Lakin bu hər halda beynin çox mürəkkəb bir fenomen olmasından xəbər verir. Keçən əsrin ortalarında psixoloqlar belə düşünürdülər ki, beynin intellekt potensialı onun çəkisindən asılıdır. Hətta o zaman orta məktəb üçün yazılmış psixologiya dərsliyində Bayronun, Turgenevin və başqalarının istedadlı adamlar olmasının səbəbi kimi onların beyninin çəkisinin başqalarından (yəni, 1400-1500 qr.) artıq olmasında görürdülər. Lakin sonrakı tədqiqatlar belə fikirlərin yanlış olduğunu sübüt etdi. Məlum oldu ki, ədəbiyyat sahəsində Nobel mükafatı laureatı, məşhur yazıçı A.Fransın beyninin çəkisi 900 qr., məşhur fizika alimi və filosof, Nobel mükafatı laureatı A.Eynşteynin beyninin çəkisi isə 1230 qr olmuşdur. Deməli, söhbət heç də beynin çəkisindən deyil, yuxarıda göstərilən şərtlərdən, düşüncə zamanı beyin neyronları arasında yaranan əlaqə və bu əlaqələrin sürətindən gedə bilər. Bu əlaqələrin hansı səviyyədə yaranması onların sürəti məsələsi isə hələ öyrənilməmiş qalır və onların öyrənilməsi məsələsi ən çətin problemlərdən biridir. Alimlərin bir qismi bunu təbii genetika, digər qismi isə sosial genetika (tərbiyə, təhsil, mədəniyyət və s.) ilə izah etməyə çalışırlar. Sosial genetikaya üstünlük ve-

rənlər təbii genetikanın əhəmiyyətini azaldır və əksinə, təbii genetikaya üstünlük verənlər sosial genetikanın əhəmiyyətini azaltmağa çalışırlar və bunların hər ikisi öz fikirlərini elm və mədəniyyət tarixindən gətirilən faktlarla əsaslandırmağa çalışırlar. Başqa bir qisim isə hər bir beynin fərdi xarakter daşıdığını onun öz neyron quruluşuna malik olması ilə izah edirlər. Aparılan tədqiqatlar göstərir ki, bunların hər biri bu və ya digər dərəcədə düzgündür. Lakin bütövlükdə ümumi mənzərə sirli olaraq qalır.

Məlumdur ki, şüur çox nüanslı anlayışdır. Diqqət yetirsək, bu anlayış rus dilindən tərcümədə “soznaniye”, yəni, nəyi isə bilmək, dərk etmək və s. mənalarını verir. Bu anlayış fəlsəfə və psixologiyanın istifadə etdiyi ortaq anlayışdır. Psixologiya bu anlayışdan müxtəlif duyğu orqanlarının beyinə ötürdüyü informasiyanın insanda əmələ gətirdiyi psixi, ruhi dəyişikliklərə necə təsir etdiyindən bəhs edir. Fəlsəfə isə şüurun gerçəkliyə nə dərəcədə adekvat olub-olmamasından, şüurun yaranmasında və formalaşmasında intuisiyanın və transsendent düşüncənin (reallıqla birbaşa əlaqəsi olmayan) rolundan bəhs edir. Rasional, intuitiv və transsendent düşüncə şeylər, hadisələr arasında real gerçəklikdə görünməyən, hiss olunmayan əlaqələri aşkara çıxarır. Buna görə də bütün nəzəri biliklərin rasional və intuisiya nəticəsində yarandığını söyləyənlərə də rast gəlmək olur. Əlbəttə, intuisiyanın özü də nə isə göydəndüşmə bir şey deyildir. İntuisiya və rasionallıq uzun müddət beyinin hər hansı bir problem üzərində düşünməsi, həmin problem ətrafında mövcud olan fikirlərin təhlil edilməsi və ümumiləşdirilməsi əsasında beyində gedən assosiativ prosesdir. N.Kopernik “Fəza kürələrinin fırlanması” əsərinin girişində yazırdı ki, mən qədim yunan mütəfəkkirlərinin (xüsusilə, Ptolomeyin) əsərlərini diqqətlə öyrəndim, onların ideyalarını zərrə-zərrə yığdım və nəticədə bu əsərdə qoyulan nəzəriyyəyə gəlib çıxdım. Bu, əlbəttə, uzun zaman müddətində fikrin, düşüncənin bir fokusda toplanması və intensivliklə işləməsinin nəticəsi idi. Elm tarixindən belə misalları xeyli miqdarda gətirmək olar. Bununla da psixika çərçivəsindən çıxaraq hüdudu olmayan idrak nəzəriyyəsi sahəsinə keçmiş oluruq. Buna görə də fəlsəfə dərsliklərində bəzən şüurla idrak nəzəriyyəsinin ayrı-ayrı mövzulara bölünməsi şərti xarakter daşıyır və yalnız məsələnin öyrənilməsini, qismən, asanlaşdıran metodiki fənd kimi qiymətləndirilə bilər. Çünki əslində insan anadan olandan müəyyən şeyləri müşahidə etməyə, öyrənməyə başlayır və bunlar ona düşünməyi, yadda saxlamağı öyrədir. Hələ körpə vaxtından uşağın ətrafında baş verən hadisələr onun beynində iz buraxmağa başlayır. Ananın laylası buna misal ola bilər. Çox az adam tapılar ki, hələ danışmağa, gəzməyə başlamadığı dövrdə anasının ona oxuduğu laylanı yaddan çıxarmış olsun.

Dünyaya yeni gələn insan öz ömrü boyu (xüsusilə, uşaqlıq, yeniyetməlik və gənclik yaşlarında) bəşəriyyətin keçdiyi bütün yolu keçməli olur. Buna görə də ontogenez məsələsi özlüyündə mürəkkəb və çoxtərəfli məsələdir. Burada bir tərəfdən morfoloji inkişaf (bədən üzvlərinin və xüsusilə, başın böyüməsi), digər tərəfdən ətraf aləmin subyekt tərəfindən öyrənilməsi prosesi baş verir [9, s.39]. Görünür, kəllə sümüyünün böyüməsi ilə neyronların işləməsi üçün daha geniş meydan açılır. Əlbəttə bu, insanların həm özləri, həm də ətraf aləmə münasibəti baxımından müəyyən davranış normaları yaranması ilə müşaiyiət olunur. Bəzi müəlliflər hətta insan cəmiyyətinin yaranması və inkişafını davranış normalarının yaranması və inkişafı ilə əlaqələndirirlər.

Hələ də məlum deyil ki, insanda müxtəlif temperamentlərin meydana gəlməsi nə ilə əlaqədardır. Çünki istər xarici, istərsə də daxili qıcıqlandırıcılar, onların verdiyi informasiya eyni olduğu halda subyektin onlara verdiyi reaksiyalar müxtəlif olur. Məlum deyil ki, insanlarda başqalarına qarşı zorakılıq, əzmək, üstünlük etmək hissi haradandır. Bunları müxtəlif cür izah etmək mümkündür, lakin bu izahlar birmənalı cavab olacaqmı? Nə üçün biri müstəqil düşünə bilir, başqaları isə frustrasiyaya uğrayaraq öz müstəqilliyini itirir və yalnız başqalarının etdiklərini təqlid edir, onların dedikləri əsasında oturub-durur, fəaliyyət göstərir. Əslində, “obıvatel” şüuru da elə buradan əmələ gəlir. Çünki reallığı, hadisə və proseslərin gedişini, hazırkı situasiyanı müstəqil təhlil edə bilmir, danışılanlara qulaq asır və onları təkrar edirlər. Bununla da, lüzumsuz söhbətlər yaranır. Bunların içərisində çoxlu yalanlar ayaq açıb gəzir. Adamların yalan danışmasının müxtəlif səbəbləri ola bilər: bilməməzlik və öz bilməməzliyini gizlətmək meyli və bununla da “mən də varam” deyə özünü təs-

diqləmək istəyi. Neqativ məzmunlu işləri pozitiv, yaxşı iş kimi qələmə vermək meyli, gördüyü pis işi etiraf etməkdənsə, yalan danışmaqla üstünü basdırmaq və s. Hər cür yönsüz, axmaq işə ağıllı don geydirmək, onu əsaslandırmaq meyli və s. yalan, şər, qeybət yolu ilə başqasını ləkələmək, onun gördüyü işlərə lazımi qiymət verməmək, hörmətdən salmaq kimi meyillər də olur. Digər ictimai-humanitar elmlərdə olduğu kimi bütün laboratoriya təcrübələrinə və eksperimental-tətbiqi sahələrə - detektor, müxtəlif dərman pereparatları və s. olmasına baxmayaraq, psixologiya sahəsini hələ də dəqiq və mükəmməl adlandırmaq xeyli çətindir. Bu həm də şüur və dərketməyə aiddir. Təsadüfi deyil ki, şüurun və dərketmənin strukturunu təşkil edən vahid məntiqi kateqoriya və prinsiplər sistemi yoxdur. Plüralizm və postmodernizm də buradan irəli gəlir. İndi hər hansı monizm qəbuledilməzdir. Çünki hər cür monizm düşüncənin mütləq bir çərçivəyə salınması və bu çərçivədən kənara çıxa bilmədiyi üçün onun inkişafının qarşısının alınması və yerində sayaraq geri qalmasıdır. Hərçənd plüralizm və postmodernizmdə mərkəzdənqaçma və xaos yaratma qüvvəsi də vardır. Lakin sistemli yanaşma bu qüvvəni saxlaya bilər.

Şüurun, düşüncənin, təfəkkürün səviyyələrinin və tiplərinin müxtəlifliyinin səbəbləri beyində gedən proseslərlə bağlıdır və bu proseslərin məzmunu hələlik bütün dəqiqliyi ilə məlum deyil [8, s.132].

Əsrlərdən bəri mövcud olan müxtəlif istiqamətli (əsasən, baş verə biləcək hadisələr haqqında məlumat vermə, müalicə və s.) ekstrasens hadisələri rasional cəhətdən hələ də izah oluna bilmir və bu, şübhəsiz ki, duymanın və beynin xüsusi, müstəsna keyfiyyətlidir. Rasional cəhətdən izah oluna bilmədiyi üçün də bu sahədə müxtəlif spekulyasiyalar (fala baxma, dua yazma və s.) mövcuddur. Hələ qədim dövrlərdə mağlar, şamanlar (indi də mövcuddur) orakullar və s. olmuşdur. İnsanın psixologiyasının həddən artıq mürəkkəb olmasını müxtəlif ruhi xəstəliklərin olması da təsdiq edir. Şizofreniya, paranoya, qalyunasiya, yuxu görmə və s. kimi psixi proseslər müxtəlif izahlara baxmayaraq, hələ də birmənalı olaraq öz elmi izahını tapmayan psixi hadisələrdir.

Bütün bunlar ona görə qeyd edilir ki, rasional təfəkkürlə yanaşı, bunlar da şüura bu və ya digər tərəfdən təsir göstərən amillərdir. Bunların hamısı bu və ya digər dərəcədə insanın beynində gedən və onun yaşayış tərzinə və fəaliyyətinə təsir göstərən amillərdir. Artıq qeyd edildiyi kimi beyin və psixika ilə məşğul olan alimlərin əksəriyyəti beynin anadangəlmə xassələrinə daha çox diqqət yetirir, xüsusilə, təhsil və öyrənmə prosesində beyinin anadangəlmə cəhətinə xüsusi əhəmiyyət verirlər [3, s.51].

Göründüyü kimi, bütövlükdə psixika, şüur və idrak bir-birilə möhkəm bağlı olan anlayışlardır. Buna görə də təsadüfi deyil ki, XIX əsrin sonu və XX əsrin əvvəllərində filosoflarla psixoloqlar arasında psixologiyanın, yaxud fəlsəfənin hansının əsas və hansının törəmə olması haqqında ciddi mübahisələr gedirdi [5, s.59]. Belə ki, psixoloqlar fəlsəfəni psixologiyanın idrak nəzəriyyəsinə tətbiqini, filosoflar isə psixologiyanı idrak nəzəriyyəsinin duyğu orqanlarına tətbiq olunması kimi əsaslandırmağa çalışırdılar.

Z.Freyd, Q.Yunq, E.Fromm, E.Kreçmer və digərlərinin əsərlərində psixologiya müxtəlif istiqamətlərdə öz predmetini tapmışdır. Lakin artıq qeyd edildiyi kimi, müəyyən demarkasiya elementlərinin müəyyənləşməsinə baxmayaraq, bir daha qeyd etmək lazımdır ki, psixika, şüur, idrak və təfəkkür prosesləri bir-birilə əlaqəli hadisələrdir və bunları yalnız abstraksiyada ayrı-ayrı götürərək təhlil etmək olar.

Göründüyü kimi, intellektual fəaliyyət, dərketmə və təfəkkür prosesi müxtəlif komponentlərin vəhdəti ilə şərtlənir. Əlbəttə, burada təbiətşünaslıq və dəqiq elmlər sahəsində olan dərketmə ilə ictimai-humanitar elmlər sahəsində olan dərketmə və təfəkkürü bir-birindən fərqləndirmək lazımdır. Çünki təbiətşünaslıq və dəqiq elmlər sahəsində subyekt-obyekt münasibətlərində subyektin hansısa bir mövqeyi (siyasi, ideoloji, aksioloji və s.) heç bir rol oynamır. Subyekt yalnız öyrəndiyi, tədqiq etdiyi obyektə məxsus olan xüsusiyyətləri aşkara çıxarmaqla məşğuldur. Burada heç bir subyektiv

amil iştirak etmir. Bu halda hətta subyektin çıxardığı birtərəfli, yaxud səhv nəticə də subyektin mövqeyi ilə deyil, obyektin tam və hərtərəfli öyrənilməməsi ilə bağlıdır. Məsələn, işığın korpuskalyar nəzəriyyəsi ilə dalğa nəzəriyyəsinin tərəfdarları arasında uzun müddət mübahisə getmiş və nəhayət, XX əsrin əvvəllərində məlum olmuşdur ki, işıq həm korpuskulyar, həm də dalğa xarakterlidir. Elm tarixindən belə misalları xeyli sayda gətirmək olar.

İctimai-humanitar elmlər sahəsində tədqiqatçı siyasi-ideoloji, aksioloji və həm də subyektiv (öz anlamından irəli gələn) mövqedən çıxış edir. Buna misal olaraq Sovet dövründə dərc olunan Azərbaycan tarixi (xüsusən, XX əsr) ilə həmin dövrə aid son dövrlərdə yazılan əsərləri müqayisə etmək kifayətdir. Bu fikri ictimai humanitar elmlərin hamısına aid etmək olar.

Təfəkkür prosesi həmişə bir neçə istiqamətli olur. Onu da qeyd etmək lazımdır ki, təfəkkür prosesi dedikdə dərketmədə alınan biliklərin daha yüksək səviyyədə qarşılaşdırılması, təhlili nəzərdə tutulur. İdrakla, dərketmə ilə təfəkkürü bir-birindən fərqləndirən cəhət də elə budur. Başqa sözlə desək, təfəkkür dərk olunanların dərk olunmasıdır. Təfəkkür prosesi duyğu və qavrayışlarla bağlı olmayan, onların arxasında qalan, onların təhlili və ümumiləşdirilməsi yolu ilə yeni yanaşmanın, yeni biliyin alınması prosesidir. Bu biliklər daha çox kreativ-intuitiv yolla alınır və əlbəttə, əvvəlki biliklərin öyrənilməsinə əsaslanır. Hər hansı bir sahəyə aid mövcud olan bilikləri öyrənmədən nə isə yeni bir bilik əldə etmək mümkün deyil. Əgər biz M.F.Axundovun əsərlərinə, xüsusən, "Kəmalüddövlə məktublarına" diqqət yetirsək, Şərq və Qərb mənbələrinin real həyatın qarşıya qoyduğu problemlər baxımından necə bir dəqiqliklə araşdırıldığını görərik. Elə bunun nəticəsidir ki, o, islam Şərqində ilk olaraq mövcud problemlərə həm dünya, həm də Azərbaycan və Şərq miqyasında yanaşan böyük filosof və yazıçıdır. Yeni bir dünyagörüşünün və dünyaya baxışın yaradıcısıdır. Azərbaycanın bolşevik hakimiyyətinə qədər olan bütün sosial-fəlsəfi, bədii-estetik fikri M.F.Axundovun irsindən qidalanmışdır. Çünki ilk dəfə M.F.Axundov insan, onun həyatı, bu həyat haqqında düşüncəsi, bu düşüncənin məzmun və səviyyəsi haqqında "universal sintez" aparmışdır [7, s.14]. Belə universal sintezi isə ancaq yüksək fəlsəfi təfəkkür tərzinə malik olan adamlar apara bilərlər.

Təfəkkür tərzinin özünə gəldikdə isə sosial varlığa, yaxud sosial ontologiyaya [8, s.125-160] nisbətdə müxtəlif istiqamətli olur. Bunlardan ən çox nəzərə çarpanları tənqidi, doqmatik, konyuktur və skeptik düşüncə tipləridir. Bunların içərisində öz dövründə mövcud siyasi rejim tərəfindən məmnunluqla qarşılanan düşüncə tərzi konyukturadır. Ən çox zərbə alan isə tənqidi düşüncə tərzidir. Tənqid formalizmə, tənqidbazlığa deyil, kreativliyə əsaslanmalıdır. Belə tənqid yeni ideyaların irəli sürülməsinə əsaslanır və cəmiyyətin inkişafı da belə tənqiddən keçir. M.Ə.Sabir dini deyil, xurafatı, dini cəhalətə, nadanlığa çevirənləri tənqid edirdi. Xurafatçılar isə Sabiri dinsizlikdə təqsirləndirirdilər. Buna görə Sabir "Əşhədi billahi Əliyül əzim, sahibi imanam, a şirvanlılar, yox yeni bir dinə yəqinim mənim, köhnə müsəlmanam, a şirvanlılar" deyə özünün müsəlman olduğunu, əsl dinə (elmə, təhsilə, mədəniyyətə) xidmət etdiyini söyləyirdi. Doqmatizmə və skeptisizmə gəldikdə isə onlar daha çox adi şüur səviyyəsində olduğu üçün diqqəti o qədər də cəlb etmir. Çünki aksioloji dəyərlər daha çox subyektiv yanaşma ilə bağlı olur və subyektin intellekt və əxlaqi tərbiyəsi ilə müəyyənləşir.

**Açar sözlər:** insan, psixika, şüur, beyin potensialı, dərrakə, ağıl, ictimai şüur

**İstifadə edilmiş ədəbiyyat**

1. Абасов А.С. Проблемы истории, теории и методологии познания. Баку: 2001, с. 232-242
2. Аристотел. Сочинения. Т.1, М.: Мир, 1979, 512 с.
3. Бекхерм Д. Психика, мозг и образование // Вопросы философии, 2013, №11, с. 50-65.
4. Гуманитарные знания и социальные технологии. Материалы конференции круглого стола. // Вопросы философии, 2013, №9, с. 3-30.
5. Загудиллин Ж.К. Психология в оптиках философского анализа // Вопросы философии, 2013, №4, с.59-69.

6. Касавин И.Т. Знание и коммуникация: к современным дискуссиям в аналитичиской философии // Вопросы философии, 2013, №6, с.46-57.
7. Касавин И.Т. Философия познания и идея междистиплинарности // Гуманитарный научный журнал, 2013, №1, с.26-43.
8. Кимелев Ю.А. Проблематика социальной онтологии в современной философии // Реферативный журнал Философия, 2013, № 2, с. 125-160.
9. Легрос М. Компетентности малоподвижны // Реферативный журнал по философии, 2015, №2, с. 37-39.
10. Лекторский В.А. Возможны ли науки о человеке //Вопросы философии, 2015, №5, с.3-15.
11. Локк Дж. Опыт о человеческом разуме. Избранные философские произведения. Т.1., М.: Мысль, 1985, 153 с.
12. Философия сознания: итоги и перспективы // Проблема сознания в философии науки. М.: 2009, 237 с.
13. Шестаков О.А. Природа человека: новое понимание. М.: Спутник, 2014, 429 с.
14. Şirinov A. Təfəkkürün tipləri / Azərbaycan Dövlət Pedaqoji Universitetinin professor və müəllimlərinin 62-ci elmi konfransının materialları, III buraxılış. Bakı: 2002, s. 215-217.

**Айдын Ширинов**

## ПРОЦЕСС СОЗНАНИЯ, ЕГО СТРУКТУРА И УРОВНИ

### Резюме

Статья посвящена теории познания, которая всегда была и остается центральной и актуальной проблемой философии вообще и социальной философии в частности, особенно в отношении социальной эпистемологии. В статье предпринимается попытка выявления сути соотношения понятий: психика, сознание, потенциал мозга в зависимости от его нейронного устройства и так же от скорости межнейронных связей исходя из современных научных направлений.

**Ключевые слова:** человек, психика, сознание, потенциал мозга, рассудок, разум, социальное сознание

**Aydin Shirinov**

## PROCESS OF COMPREHENSION, ITS STRUCTURE AND LEVELS

### Summary

Article is devoted to the theory of knowledge, which has always been and remains as the central and actual problem of philosophy in general and social philosophy in particular, especially with regard to a social epistemology. The attempts of comprehension: mind, consciousness, brain potential depending on his neural device and also on the speed of interneuron communications are shown in the article.

**Keywords:** person, consciousness, brain potential, mind, reason, social consciousness, society

**УДК – 340**

**Шарафеддин Шарифов**
**Азербайджанкая Академия Труда и Социальных Отнощений**

# ПРЕДЕЛЫ ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ ОБЩЕСТВЕННЫХ ОТНОШЕНИЙ И ПРАВОВОЙ НИГИЛИЗМ КАК РАЗНОВИДНОСТЬ ДЕФОРМАЦИИ ПРАВОСОЗНАНИЯ

***Призрак бродит по планете, призрак нигилизма***
***А.Глюксман***

*В статье исследуются актуальные проблемы правового регулирования общественных отношений в контексте правового нигилизма, как разновидности деформации правосознания. Концентрируются мысли на возрастающей роли права в регулировании общественных отношений современности с учетом пределов и возможностей правового воздействия. Подчеркивается, что правовой нигилизм, являясь формой деформации правосознания и отрицая право как механизма регулирования общественных отношений, становится препятствием на пути общественного прогресса. Указываются пути и средства минимизации и устранения причин и последствий правового нигилизма.*

Проблема повышения эффективности регулирования общественных отношений и минимизации правового нигилизма отличается своей актуальностью. В регулировании общественных отношений право обладает весомым значением, так как основная масса общественных отношений регулируются с помощью социально-нормативного воздействия, хотя и существует множество иных средств воздействия. Правовое регулирование представляет собой осуществляемое государством при помощи специальных юридических средств целенаправленное воздействие на общественные отношения с целью их организации и стабилизации.

Существующие правовые доктрины пока не выработали существенных гипотез для объяснения причин возникновения коллизионных ситуаций, связанных с воздействием правовых средств на поведение участников общественных отношений и деформации правосознания с ее тяжелейшими негативными последствиями.

Усиление интереса к изучению проблемы деформации правосознания, в том числе правового нигилизма, как ее изощренной разновидности, началось в конце 80-х - начале 90-х годов минувшего столетия, когда вместе с крахом советской системы, их проявления приобрели тотальный, массовый характер.

В комплексном исследовании, вместе с философскими, культурными, нравственными, духовными и политическими аспектами нигилистического отрицания, особое место принадлежит правовому нигилизму, так как правовое регулирование выступает важным механизмом нормативного воздействия на поведение участников общественных отношений.

Правовые нормы, правоотношения, а так же акты реализации и применения права являются универсальными юридическими средствами правового регулирования и в целом именуются правовым механизмом.

Казимирчук В.П., характеризуя механизм социального воздействия права, выделяет четыре основных его элемента: а) доведение правовых норм до участников общественных отношений; б) постановка необходимых целей в законах и иных нормативных актах; в) поддержание полезного поведения участников общественных отношений; г) социально – правовой контроль [4, с.37].

Правовое регулирование, как вид нормативности и социального регулирования, призвано обеспечивать законность и правопорядок в обществе. Несовершенство государственно-

правовых механизмов реализации правовых норм является одним из источников правового нигилизма.

Ильин И.А. по этому поводу указывал, что «глубокие дефекты и пороки положительного права – как в самом порядке его установления, так и в его содержании и применении – составляют всегда наибольшее препятствие на пути к его духовному принятию» [3, с.47].

Нормативные правовые акты должны основываться на праве и справедливости (равное отношение к равным интересам).

На основе определения и анализа предмета правового регулирования необходимо установить степень воздействия государства на общественные отношения посредством норм права.

Исследованием устанавливается, что если общественные отношения объективно не нуждаются в правовом регулировании, но фактически регулируются, это означает, что государство излишне вмешивается на общественные отношения, не оставляя место другим социальным нормам воздействия. А если в процессе правотворчества не созданы нормы для регулирования общественных отношений, объективно в нем нуждающихся в силу своей природы, то налицо самоустранение государства из тех сфер жизнедеятельности, которые не могут существовать без опоры на силу государственного принуждения.

Определяя правовое регулирование через понятия правового воздействия, нужно учитывать, что последнее - широкое понятие, которое характеризует право в действии, все направления и формы влияния права на общественную жизнь, в том числе и функционирование права в качестве духовного фактора [1, с.210].

Такая ситуация еще раз подтверждает необходимость установления объекта правового воздействия при регулировании общественных отношений и отсюда возникает потребность четкого определения предмета правового регулирования.

Алексеев С.С. считает что, предметом правового регулирования являются разнообразные общественные отношения, которые объективно, по своей природе могут поддаваться нормативно-организационному воздействию и в существующих условиях требуют такого воздействия, осуществляемого при помощи юридических норм и всех иных юридических средств, образующих механизм правового регулирования [1, с.212].

Правоведение относит к правоотношениям лишь те общественные отношения, которые обладают указанными свойствами.

Правоотношения возникают, изменяются и прекращаются с целью достижения конкретного результата поведением субъектов, устанавливаемым нормами права. Поведение, как неотъемлемая часть человеческого бытия и основной внешний показатель содержания личности активно исследуются многими науками: философией, психологией, социологией, юриспруденцией, психиатрией, этикой и т.д. При этом каждая из них изучает отдельные специфические стороны и формы проявления поведения.

Являющиеся объектом исследования правоведения, правомерное поведение представляет собой достаточно сложную категорию, обусловленную многими факторами социального и субъективного характера.

Ведь между готовностью переступить через нормы морали и готовностью совершить преступление очень маленький барьер. Одно неминуемо тянет за собой другое. Когда нормы нравственности не в состоянии справиться с ситуацией, начинает работать право. И чем ниже в обществе нравственный порог, тем выше правовой нигилизм, тем больше беззакония, тем сложнее законоприменение. Право и мораль - сообщающиеся сосуды. Потому готовность к бесконечным моральным компромиссам - это та же эмоциональная и умственная ограниченность, некая тупость, которая очень часто становится предпосылкой жестоких насильственных преступлений [2].

Уровень социальной значимости правомерного поведения предопределяет система следующих факторов:

1. Характер сложившихся или складывающихся в обществе правовых отношений;
2. Состояние правосознания и правовой культуры граждан и должностных лиц;

3. Социально – демографические качества общества и личности;

4. Совпадения правового регулирования с интересами и потребностями личности и общества;

5. Политическая, экономическая и общенациональная обстановка в стране;

6. Деятельность государственных органов и должностных лиц по обеспечению реализации гражданами своих прав и обязанностей.

Из этих факторов, определяющих правомерное поведение субъектов правоотношений, наиболее весомым является состояние правосознания, на которое существенно влияет направленность интересов и потребностей. Правосознание - это совокупность взглядов, идей, выражающих отношение людей, социальных групп, классов к праву, законности, правосудию, их представление о том, что является правомерным или неправомерным. Оно есть отражение права в сознании общества, социальной группы, личности. Следует отметить, что правосознание - явление объективное, поскольку человек, рождаясь в обществе, впитывает в себя в процессе социализации те ценности, которые были созданы всеми предшествующими поколениями.

Функционирование права, его применение и соблюдение зависят от уровня правосознания.

Как одна из специфических форм общественного сознания, правосознание состоит из трех элементов:

а) правовой идеологии, т.е. систематизированного научного выражения правовых идей, взглядов, принципов, требований общества и населения;

б) правовой психологии - совокупности правовых чувств, ценностных отношений, настроений, желаний, переживаний, характерных для всего общества и населения;

в) поведенческих элементов (привычки, установки, готовность к деятельности).

Правосознание, как составная часть сознания, теснейшим образом взаимодействует с политическим сознанием, моралью, искусством, религией, философией и наукой, выполняя следующие функции:

1. Познавательная функция, которой соответствует определенная сумма юридических знаний.

2. Оценочная функция, суть которой заключается в определенном отношении личности к разным сторонам и явлениям правовой жизни на основе опыта и правовой практики. Это отношение к праву и законодательству, к правовому поведению окружающих, к правоохранительным органам, к своему правовому поведению.

3. Регулятивная функция. Эта функция осуществляется посредством правовых установок и ценностно-правовых ориентаций.

При формировании механизма правового воздействия на общественные отношения особое значение должно иметь адекватное решение проблемы деформации правового сознания. Изучение проблемы деформации правового сознания дает основание полагать, что не существует единого мнения о сущности и природы данного социально-правового явления. Исследование феномена деформации правового сознания должна базироваться на комплексном, системном анализе самого явления. При этом необходимо: а) рассмотреть подходы к пониманию сущности деформации правового сознания; б) определить понятие деформации правового сознания; в) выявить признаки данного социально-правового явления; г) рассмотреть наиболее эффективные пути и методы преодоления деформации правового сознания.

В своей сущности деформация правового сознания - это социальное явление, характеризующееся изменением его состояния, при котором у носителей формируются определенные идеи, представления, взгляды, знания, чувства и настроения, переживания и эмоции, которые искаженно отражают юридическую действительность и выражают отрицательное отношение к действующему праву, законности и правопорядку. И.А.Ильин, оценивая опасность правового нигилизма, писал: «Люди, не желающие признавать запреты, легко забывают всякие удержания и дисциплину или оказываются обреченными на правовую невменяемость» - то есть на юридический нигилизм [3, с.24].

Принимая во внимание то, что в отдельной социальной системе правосознание индивидов может соответствовать общественному бытию и в то же время находиться в противоречии с общечеловеческими ценностями, следует различать относительную и абсолютную деформацию правового сознания. Абсолютная деформация правосознания означает несоответствие структуры правосознания тем правовым координатам, которые выработаны человеческой цивилизацией. Относительная деформация правового сознания представляет собой несоответствие структуры правосознания реально существующей в данном обществе правовой действительности.

В юридической науке принято выделять несколько видов деформаций индивидуального правосознания: 1) правовой инфантилизм; 2) правовой негативизм; 3) правовой нигилизм; 4) правовой идеализм; 5) правовой эгоцентризм.

Данные виды деформации правового сознания относятся к отдельному индивиду, но это не исключает того, что они могут проявиться на общественном уровне. Внутренне отрицая необходимость подчиняться праву, индивид вступает с правом в открытую конфронтацию.

Правовой нигилизм, будучи наиболее существенным проявлением деформации правосознания, выражается в активном неприятии субъектом правовых предписаний. Такая деформация является условием формирования противоправной установки индивида, его готовности к совершению умышленных противоправных деяний.

Нигилизм (от лат. *nihil* - ничто) - мировоззренческая позиция, ставящая под сомнение (в крайней своей форме абсолютно отрицающая) общепринятые ценности, идеалы, нормы нравственность, культуру. В словарях определяется также как «отрицание», «абсолютное отрицание», «социально-нравственное явление», «умонастроение», то есть, очевидно, определение нигилизма и его проявление в разное время зависело от культурно-исторической эпохи.

Правовой нигилизм - разновидность социального нигилизма. Сущность его заключается в негативном и неуважительном отношении к праву, законам, нормативному порядку, а с точки зрения корней и причин, - в юридическом невежестве, косности, отсталости, правовой невоспитанности основной массы населения [6, с.125].

При этом субъект, как правило, мало осведомлен о характере юридических предписаний, регламентирующих его поведение, однако четко осознает противоправность своих намерений, предвидит общественно вредный результат своих действий и направляет свою волю на достижение намеченного результата.

Образ права в индивидуальном правосознании предстает в виде некоего государственно-общественного ограничителя, которому не следует подчиняться, а необходимо противостоять. Правовой нигилизм - продукт социальных отношений и обусловлен множеством причин и следствий. В частности, он формируется под воздействием таких реалий наших дней, как политиканство и циничный популизм лидеров всех рангов, борьба позиций и амбиций, самолюбий и тщеславий. Дают о себе знать эгоизм и властолюбие старой и новой бюрократии и некомпетентность чиновников. На индивидуальном, личностном уровне, по мнению Н.И.Матузова, правовой нигилизм выступает в двух качествах: “как состояние умов, чувств, настроений и как образ действий, линия поведения” [5, с.410]. Для познания сущности правового нигилизма, как формы деформации правосознания, необходимо определить характерные черты и других форм проявления деформации.

Правовой инфантилизм обусловлен недостаточностью правовых знаний, отсутствием четко определенных правовых установок. Она характеризуется отсутствием у субъекта права потребности в юридической осведомленности, а также готовности поступать в соответствии с четкими правовыми предписаниями.

Правовой негативизм представляет собой отрицание ценности права как социально-нормативного регулятора общественных отношений. При этом ошибочно считается, что в большинстве случаев без правового регулирования вполне можно обойтись, поскольку дру-

гие социальные регуляторы (нормы нравственности, обычаи, традиции, религиозные нормы, корпоративные кодексы поведения) являются более эффективными.

Правовой идеализм характеризуется тем, что субъект возлагает право в надежды, в качестве универсального регулятора общественных отношений, при этом руководствуясь возвышенной, несбыточной надеждой верит в его всесильность. Индивид наивно требует от права большего, чем оно объективно может ему дать.

Правовой эгоцентризм - это такая деформация правосознания, в результате которой личность начинает считать себя «центром» правовой системы. При этом получается, что все другие субъекты и институты правовой системы должны вращаться вокруг нее. Исследованием феномена деформации правосознания выявляется, что все существующие ее формы взаимосвязаны, проявляясь в различных комбинациях, способствуют яркому проявлению правового нигилизма и снижению эффективности и оптимальности правового регулирования**.** При этом также выявляется, что правовой нигилизм присутствует в обществе постоянно. Его объектом выступает как само право, так и его идеологическая ценность, пропагандируемая истинность, эффективность и необходимость права, как регулятора социальных отношений. Не остаются в стороне объективные правовые ценности - общепризнанные и апробированные национальной, либо международной практикой правовые эталоны и стандарты.

Можно выделить некоторые общие черты современного правового нигилизма:

- имеет подчеркнуто демонстративный, вызывающий и неуправляемый характер;
- является глобальным, массовым, широко распространенным не только среди граждан, социальных и профессиональных групп, слоев, но и в официальных государственных структурах, законодательных, исполнительных и правоохранительных эшелонах власти;
- обладает особой степенью разрушительности, оппозиционной или популистской направленностью;
- сливается с политическим, нравственным, духовным и экономическим нигилизмом, образующим вместе единый деструктивный процесс. Очевидно, что процесс развития общества находится в непрерывной динамике и способствует постоянному изменению общественных отношений, в том числе и необходимости изменения социальных норм, их регулирующих. Поэтому ставить задачу о полном искоренении или ликвидации причин правового нигилизма было бы абсурдным. Следовало бы в этой динамике и диалектике общественного развития поставить перед собой задачу не о ликвидации правового нигилизма, а стремиться к минимизации или устранению причин правового нигилизма, т.к. возникновение в той или иной форме любых причин зависит от динамики общественных отношений по мере изменения их характера.

Устранение причин, порождающих правовой нигилизм - это длительный процесс, затрагивающий изменение объективных условий жизни общества, целенаправленную идеологическую, организационную работу, осуществление комплекса специально-юридических мер. Для минимизации причин правового нигилизма можно выделить три основные группы мер:

1. Политические меры (устранение факторов, препятствующих правовому регулированию, эффективная целенаправленная правовая политика, упрочение законности, правопорядка и государственной дисциплины, совершенствование законодательства, повышение качества правотворчества, устранение возможных коллизий между нормативными актами; профилактика правонарушений и прежде всего преступлений, борьба с криминалом во всех его проявлениях и с коррупцией).

2. Социально - экономические меры (повышение уровня жизни, снижение бедности, безработицы, нищеты, люмпенизации, обеспечение должного прожиточного минимума, материальное стимулирование отдельных категорий граждан, сокращение разрыва между самыми богатыми и самыми бедными слоями населения и установление социальной справедливости).

3. Меры культурного, духовного, морального плана (повышение уровня юридической культуры органов власти и населения, их правового, нравственного сознания, последователь-

ное правовое воспитание и просвещение, введение повсеместного правового всеобуча, активная правовая пропаганда, подготовка высококвалифицированных кадров юристов).

Таким образом, для противодействия правовому нигилизму как одной из разновидности деформации правового сознания, должен быть применен комплекс мер, направленный на совершенствование правотворческой и правоприменительной деятельности на всех уровнях и повышение компетентности представительной и исполнительной власти.

**Ключевые слова:** правовое регулирование, правовой нигилизм, правосознание, правоотношение

**Использованная литература**

1. Алексеев С.С. Теория права. М: Издательство БЕК, 1995, 320 с.
2. Звягинцев А.В. Правосознание и духовность как основа государственности. Законность. – Иркутск: Издание Прокуратуры Иркутской области, 2008, № 2, с. 42-46
3. Ильин И.А. О сущности правосознания. М.: Рарог, 1993, 235 с.
4. Казимирчук В.П. Социальный механизм действия права // Советское государство и право 1970, № 10, с. 37-44.
5. Матузов Н.И. Правовой нигилизм и правовой идеализм. Общая теория государства и права. М.: Инфра-М, 1998, 326 с.
6. Теория государства и права: учебник (Н.И.Матузов, А.В.Малько) М: Юрист, 2004, 512 с.

**Şərafəddin Şərifov**

## İCTİMAİ MÜNASİBƏTLƏRİN HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN HÜDUDLARI VƏ HÜQUQİ NİHİLİZM ƏDALƏTİN TƏHRİFİNİN FORMALARINDAN BİRİ KİMİ

### Xülasə

Məqalədə ictimai münasibətlərin hüquqi tənzimlənməsinin aktual problemləri ədalətin təhrifi formalarından biri olan hüquqi nihilizm çərçivəsində tədqiq edilir. Əsas diqqət, müasir dövrdə ictimai münasibətlərin tənzimlənməsində hüququn təsir dərəcəsi və imkanları nəzərə alınaraq, onun rolunun artmasında cəmlənir. Vurğulanır ki, hüquqi nihilizm, ədalətin təhrifi forması olmaqla və ictimai münasibətlərin tənzimləmə mexanizmi kimi hüququ inkar etməklə, ictimai inkişaf yolunda əhəmiyyətli maneəyə çevrilir. Hüquqi nihilizmin səbəb və nəticələrinin minimuma endirilməsi və aradan qaldırılması yolları və vasitələri təklif olunur.

**Açar sözlər:** hüquqi tənzimləmə, hüquqi nihilizm, ədalət hissi, hüquq münasibətləri

**Sharafaddin Sharifov**

## LIMITS OF THE REGULATION OF SOCIAL RELATIONS AND LEGAL NIHILISM AS A FORM OF PERVERSION OF JUSTICE

### Summary

Actual problems of legal regulation of public relations in the context of legal nihilism as a form of perversion of justice are studied in the article. Taking into account the opportunities and the degree of influence in the regulation of social relations in the modern era the main attention is paid to increase its role. It is noted that being a form of perversion of justice and denying the right as a mechanism of the regulation of public relations legal nihilism is an important obstacle in the way of social development. The ways of minimizing the causes and consequences of legal nihilism are offered in the article.

**Keywords:** legal regulation, legal nihilism, sense of justice, legal relations

**UOT – 392.168**

**Sədaqət Məmmədova**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

# AZƏRBAYCANDA TƏHSİLİN GENDER PROBLEMLƏRİ

*Məqalədə Azərbaycan təhsil sisteminə xas olan səciyyəvi cəhətlərə nəzər salınır və bu kontekstdə təhsilin gender problemləri araşdırılır. Bildirilir ki, Azərbaycanda təhsil sistemində gender ayrıseçkiliyi aradan qaldırılıb və bütün vətəndaşlar bərabər hüquqla təhsil alırlar, ictimai həyat sahələrində fəaliyyət göstərirlər. Bəzi hallarda qızların təhsildən yayınmasının qarşısının alınması üçün zəruri tədbirlərin görüldüyü də qeyd olunur. Eyni zamanda, təhsildə milli-mənəvi dəyərlərin təbliğinin vacibliyi də diqqətə çatdırılır.*

Təhsil insanın mənəvi siması olub, mədəniyyət, təlim-tərbiyə və mənəvi dəyərlərin təsiri altında formalaşır. Burada bilik həcmi əsas deyil, ondan sərbəst olaraq istifadə etmək keyfiyyətləri əsas sayılır. Ən geniş anlamda təhsil həyatın sosial davamı üçün bir vasitədir [2, s.2]. Təhsil, maarif, savadlanma, oğlanlar, qızlar üçün vacib və zəruridir. Gender cəmiyyətdə kişi-qadın münasibətlərinə yeni baxış tərzidir. Bu baxış tərzində müsbət hallarla yanaşı çatışmayan cəhətlərin də mövcudluğu aşkar görünür. Tarixi mənbələr göstərir ki, Azərbaycanda ibtidai savad təlimi verən ilk məktəblərin yaranması yeni eranın əvvəllərinə təsadüf edir. VII əsrdə isə artıq təhsil sistemi formalaşmaqda idi.

Ümumi təhsil sahəsi Azərbaycan Respublikasının Konstitusiyası, Təhsil Qanunu, müvafiq fərman, qərar və sərəncamlar, Təhsil Nazirliyinin Əsasnaməsi və digər normativ sənədlərə uyğun olaraq fəaliyyət göstərir. Təhsilin idarə olunmasının demokratikləşdirilməsi, təhsil şöbələrinin (idarələrinin) və təlim-tərbiyə müəssisələrinin müstəqilliyinin, yaradıcılıq fəallığının, təşəbbüskarlığının və məsuliyyətinin yüksəldilməsi ümumi təhsilin əsas inkişaf prioritetlərini müəyyən edir. Eləcə də psixoloji xidmətin, sosial-pedaqoji himayənin təşkili, qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi və yayılması, istedadlı uşaqların, şagirdlərin aşkar olunması və inkişaf etdirilməsi, pedaqoji əməkdaşlıq ideyalarının, pedaqogika və psixologiya elmlərinin nailiyyətlərinin, yenilikçi müəllim, tərbiyəçilərin, təlim-tərbiyə müəssisələri rəhbərlərinin və təhsil orqanları işçilərinin qabaqcıl iş metodlarının tətbiqi, Nazirliyin müvafiq struktur bölmələri ilə birlikdə təlim-tərbiyə müəssisələrinin tədris-maddi bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Şagirdlərin təlim-tərbiyə səviyyəsini yüksəltmək, tədris planları və proqramlarının yerinə yetirilməsi, tədris-maddi bazadan məqsədyönlü istifadə edilməsi, məktəblərin, internat məktəb və uşaq evlərinin rəhbərlərinin, müəllimlərin, tərbiyəçilərin yaradıcılıq fəaliyyətinin təmin edilməsi, mövcud nöqsanların aradan qaldırılması orta ümumtəhsil sisteminin qarşısında duran ən mühüm vəzifələrdəndir [3, s.131].

Təhsil müəssisələri qadın və kişilərin qeyri-bərabər statusunu nümayiş etdirərək, bütövlükdə cəmiyyət və mədəniyyətə xas olan gender stratifikasiyasını əks etdirir: bir qayda olaraq, müəllim, katib, xidmətçi personal-qadınlar, məktəb direktoru və ya universitetin rektoru – kişilər olur. İbtidai və orta təhsil müəssisələrinin pedaqoji tərkibi 90% qadınlardan ibarətdir. Rəhbər işçiləri qadın olan təhsil müəssisələri, gender identifikasiyasının çox vacib mənbəyini təşkil edir. Azərbaycanda digər postsovet ölkələrində olduğu kimi, ali təhsil sistemində kişilər müəllimlərin ümumi sayının təxminən 3\2 hissəsini təşkil edir [8]. Rusiyada aparılan tədqiqatlar göstərmişdir ki, universitetlərdə kişinin orta əmək haqqı qadının aldığı əmək haqqından 35% yuxarıdır. Müvafiq rollar yalnız ailələrdə deyil, pedaqoji ali təhsil müəssisəsində də müəllimlər tərəfindən mənimsənilir.

Azərbaycanda əhalinin təhsil, sosial və professional istaqamətlərdə tərəqqisi məlum sosializm quruluşundan əvvəlki dövrdə inkişaf etsə də, SSRİ konstitusiyası cinsi ayrı-seçkiliyə fərq qoyma-

mış, qadınlar üçün icbari orta təhsil, qadınların kişilərlə bir yerdə təhsil almasını qanunla təsbit etmişdi. Təhsil sahəsində hüquq bərabərliyi haqqında qanun hal-hazırda öz qüvvəsindədir. 2013/14-cü ildə təhsil üçün göstəricilərə görə, 2014/15-ci ildə Azərbaycanda hər 100 təhsil alana 47 qadın və 53 kişi düşür [8]. Orta ixtisas təhsili müəssiələrində qadınların sayının çox olması onların pedaqoji və orta tibbi təhsilə üstünlük vermələri ilə əlaqədardır.

Tarixə ekskurs etsək görərik ki, Qərb, həm də Şərq mütərəqqi mədəniyyəti XIX-XX əsrlərdə Azərbaycana təsir etdi, Azərbaycan xalqının əsrlərlə formalaşmış, zəngin, milli mədəniyyəti müasirliklə, demokratizmlə birləşərək yeni mahiyyət kəsb etdi [1, s.295]. Azərbaycanın maarifçilik mədəniyyəti xalqın, o cümlədən qadınların maarifə, dünya elminə, mədəniyyətinə qovuşmasına çalışır, ölkənin, xalqın tərəqqisinin savadlı qadınlardan asılı olduğundan onların fiziki, əqli inkişafına şərait yaradırdı. Qadınların təhsilə cəlb edilməsində bu dövrdə inkişaf edən xalq maarifinin mühüm rolu oldu.

1897-ci ildə Azərbaycanda ümumi savadlılıq dərəcəsi 4,6% olmuşdur. Qadınların savadlılığı isə yox dərəcəsində idi. XIX əsrin sonu XX əsrlərdə Azərbaycanda Avropa təhsil sisteminin tətbiqi qadınların həyatında mühüm rol oynadı və cəmiyyətdə onlara münasibəti köklü surətdə dəyişdi. Azərbaycanda ilk dünyəvi qız məktəbləri 1848-ci ildə Şamaxıda (1859-cu ildə Bakıya köçürüldü) və 1885-ci ildə Gəncədə açılmış “Müqəddəs Nina” məktəbləri oldu [6, s.127].

“Füyuzat”da “Bakı müsəlman ünnas məktəbi” yazısında qadın təhsili problemləri şərh edilmişdir. H.Z.Tağıyevin yaratdığı Bakı müsəlman qızlar məktəbinin 5 illik yubileyi münasibətilə nəşr olunmuş redaksiya məqaləsində göstərilir ki, məktəbdə təhsil alan xanım qızların sayı 70-i keçib, Qafqaziyadan başqa Kazan şəhərində və bir çox kəndlərdən əvvəllər daha çox kasıb və orta təbəqənin, sonralar isə zəngin və dövlətlilərin övladları da burada təhsil aldı. 5 ildə məktəbə 152 nəfər qız qəbul olunduğu, 89 nəfərinin buranı bitirdiyi, onlardan bəzilərinin universitetlərə və məktəblərə qəbul olunduğunu, bəzilərinin rüşdiyyə və edadiyyə məktəblərinə, gimnaziya və progimnaziyaya köçdükləri, burada çalışan müəllimlərin “qeyrət və hümmətlə” çalışdıqları türk, rus dillərinin, hesab, şəriət və “əqaidi-elmi” dərslərinin tədris edildiyi diqqətə çatdırılır [1, s.327].

Yüz illər boyu ölkədəki islam dini əhalinin maariflənməsi formasını, tədris üslublarını müəyyən etmişdir. Dini dünyagörüşü, dini dəyərlər əsasında formalaşan mədrəsələr elmi biliklərin yeganə mənbəyi idi. Qeyri-rəsmi olaraq ev şəraitində tədrisə cəlb olunanlar da olmuşdur. İşin bu formada qurulması qızların təhsil almasına şərait yaradırdı. XI-XIX əsrlər bəzi savadlı və ictimai fəal qadınların adları hamıya məlumdur. Bunlardan Məhsəti, Nüşabə, Natəvan və başqalarının adlarını çəkmək olar.

XIX-XX əsrlərin qovşağında Azərbaycanda yeni bir təhsil sistemi tətbiq olunmağa başladı. Bu sistem Dekartın prinsiplərinə əsaslanaraq biliklərin müəyyən səpgidə öyrənilməsi və dərk edilməsi qaydaları ilə tənzimlənirdi. Bu sistemin tətbiqi yeni tipli tədris ocaqlarının meydana çıxmasına səbəb olmuşdur. Bunlar humanitar biliklərə meyilli “gimnaziya” və təbii elmlər əsasında formalaşan biliklərə meyilli “real məktəb” adlanan təhsil müəssisələri idi.

XX əsrdə bu məktəblər Azərbaycanın ziyalı təbəqəsini formalaşdırmış və tanınmış alim, filosof, həkim və müəllimləri yetişdirmişdir.

Məhz bu dövr Azərbaycanda neftin kəşfi və bununla bağlı neft sənayesinin inkişafı prosesinə təsadüf edir. Asanlıqla əldə olunan neft hər bir kəsin qısa müddətdə zənginləşməsinə səbəb olurdu. Müasir tərzdə düşünən milyonçular gəlirlərinin (kapitalın) bir hissəsini əhalinin təhsil almasına yönəldir və buna görə də ilk növbədə istedadlı gəncləri xaricə göndərmək və qızlar üçün məktəblərin açılmasına sərf edirdilər. Bu zaman bir neçə qadın məktəbləri və gimnaziyaları, sonradan Universitetdə bölmə təsis edilir [4, s.214].

Təhsil sisteminin ən intensiv inkişafı sovet dövrünə təsadüf olunur. Bu dövrdə demək olar ki, qlobal bir şəkildə əhalinin kütləvi savadsızlığı problemi həll olunmuşdur. Pulsuz dövlət məktəbləri

ölkənin bütün əhalisinin (cins fərqinə baxmayaraq) əvvəlcə 4 illik (sovet dövrünün ilk illəri) sonralar isə 6 illik pulsuz icbari təhsil ilə təmin edirdi. Xüsusi diqqət uşaqlarla məktəbəqədər illərdə aparılan işlərə yönəldilirdi. Məktəbəqədər işlər tərbiyə-təhsil fəaliyyətini əhatə edərək həm uşağın inkişafı və beləliklə, məktəbə hazırlığını, həm aparılan məşğulluğun təmin olunmasına böyük yardım idi [6, s.264].

Keçid dövründə dövlətin məktəbəqədər müəssisələr sistemi demək olar ki, tənəzzülə uğradı. Hazırda bu sahədə işlər çox az miqdarda dövlət və modernləşmə özəl uşaq bağçalarında davam etdirilir. Təhsil azərbaycanlıların etnik şüurunun əsas dəyərlərindən biridir. Bu müəllim və ya mirzə sözlərinin hörmət mənasında işlənməsində təsdiq olunur. Bu sözlər, bəzən “ağsaqqal” yəni müdrik böyük mənasına gəlir. Keçid dövrünün ən böyük paradoksu ondan ibarətdir ki, öz müstəqilliyini nəhəng imperiyanın dağıntıları üzərində quran digər ölkələrdə olduğu kimi Azərbaycanda da təhsil nəinki yoxsulluğu aradan qaldırmaq üçün şərt olmamış, əksinə yüksək təhsilli insanların yaşayış səviyyəsi çox aşağı düşmüşdür.

1995-96-cı və sonrakı tədris illərində qızlar icbari təhsil məktəblərində oxuyanların 50,8%, 1998-ci ildə 49%, 2003-cü ildə isə 48% təşkil edirdilər [8]. İbtidai və orta məktəblərdə təhsil alanların sayında gender assimetriyası son illərdə artmaqdadır. Bunu həm dövlət statistikası, həm də ekspert qiymətləndirmələrinin nəticələri təsdiq edir. Ekspertlərin rəyinə əsasən bu rəqəmin azalması əksər hallarda orta məktəb sinifləri hesabındadır.

Konstitusiyanın 42-ci maddəsində deyilir ki, hər bir vətəndaşın təhsil almaq hüququ var. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində cinsindən asılı olmayaraq vətəndaşların təhsil almaq hüququ göstərilmişdir. Bu da qadınla kişi arasında təhsil sahəsində hüquq bərabərliyinin əsas göstəricisidir. 1990-cı ildə keçirilən təhsil üzrə Ümumdünya Konfransı zamanı bütün ölkələr üzrə hamı və xüsusilə də qadınlar üçün icbari təhsilin vacibliyi qeyd edilmişdir.

Respublikamızın elmi-tədqiqat müəssisələrində kişilərlə bərabər qadınlar da böyük yaradıcılıq fəaliyyəti ilə məşğul olurlar. Azərbaycanda elm sahəsində çalışanların 43%-i qadınlardır, hazırda 2070 doktorantdan 1052 nəfəri qadındır. 3 ali təhsil müəssisəsinin rektoru, 7 orta ixtisas təhsili müəssisəsinin direktoru xanımlardır. Bundan başqa, orta ixtisas təhsili müəssisəsində 21-nin direktor müavini, 12 ilk peşə-ixtisas təhsili müəssisəsinin direktoru, 16 direktor müavini, 1202 (26,5 %) məktəb direktoru qadındır. 2016-2017-ci tədris ilində ümumtəhsil məktəblərində işə qəbul üçün müraciət edən 31779 nəfərdən 23 411-i qadın olub, onlardan 1905 nəfəri müsabiqədən keçərək, seçdikləri məktəbə ixtisasları üzrə müəllim təyin ediliblər [8].

Əvvəlki illə müqayisədə hökumətin təhsilə ayırdığı xərclər müəyyən qədər artmışdır, lakin bu sovet dövründə olduğundan aşağıdır. Qeyri-rəsmi məlumata əsasən, orta siniflərdə, xüsusilə kənd yerlərində qızların dərsdən yayınma halları qeydə alınır.

Təhsilin bütün digər pillələrindən fərqli olaraq orta təhsil məktəblərində qadınlar çoxluq təşkil edirlər. Bu xüsusilə Orta Peşə Təhsili Mərkəzlərində nəzərə çarpır. Ali təhsil müəssisələrində qəbul olunan qadınların sayı sabit qalmır, baxmayaraq ki, abituriyentlər arasında onların sayı durmadan artır, qəbul olunanlar arasında isə, fərq kişilərin xeyrinədir. Ali təhsil sistemindəki ixtisaslara gəldikdə isə demək olar ki, burada böyük assimetriyalar müşahidə olunur. Qadınların əksəriyyətinin humanitar fənlərə meyili aşkardır. Tərəqqisini sənayeyə bağlayan bir ölkədə belə vəziyyət gender baxımından təşviş doğurmaya bilməz və bu təhsil sistemində ilk növbədə peşəyönümü işinin yaxşılaşdırılmasını tələb edir. Azərbaycan Respublikasının “Təhsil Qanunu”, bütün vətəndaşlara, 6 yaşından başlayaraq, 11 illik icbari təhsil almaq üçün bərabər imkanlar verir. 2001-ci ildə “Sağlamlıq imkanları məhdud şəxslərin təhsil haqqında” qanun qəbul olunmuşdur. 2004-cü il 16 iyul tarixində “Təhsildə gender bərabərliyi” mövzusunda keçirilən konfransda ən başlıca məsələlərdən biri gender təhsili sahəsində səyləri birləşdirmək, məsələyə konseptual yanaşmanı reallaşdırmaq idi [5, s.285].

Gender təhsili haqqında YUNESKO-nun 9 oktyabr 1998-ci il tarixində, Fransada keçirilmiş “XXI əsr üçün ali təhsil haqqında Ümumdünya Bəyannaməsi: yanaşmalar və praktiki tədbirlər” tədris Konfransında da qeyd edilmişdir [5, s.285]. Ali təhsilin son məqsədi yeni cəmiyyətin yaradılması, bu cəmiyyətdə zorakılıq və ayrı-seçkiliyə yer olmaması məsələləri müzakirə obyekti olmuşdur. Göstərilmişdir ki, bu məqsədlərin həyata keçməsi üçün müasir metodların tətbiqi, yeni tədris proqramlarının yazılması lazımdır. Yeniləşmə metodik tədris proqramlarında cinslər arasında bərabərhüquqluluq məsələsi qabardılmalı və gender strategiyasının bütün fənlərdə diqqətə alınması nəzərə yetirilməlidir. Bu baxımdan da təhsildə olan belə yeniləşmə nəinki tədris proqramlarının, həmçinin istifadə ediləcək metodik vəsaitlərin də olması ehtiyacını yaradır [5, s.104]. Bu şifahi danışıq üsulu ilə birlikdə, qavrama dərəcəsi, anlama qabiliyyəti, praktika ilə nəzəriyyəni birləşdirə bilmək bacarığı, yeni mini anket sorğu, diskussiya, testləşdirmə, sorğu və s. kimi metodların da tədrisə inteqrasiyasıdır.

Bu nöqteyi-nəzərdən də XXI əsr Azərbaycanda da təhsil qarşısında, prinsipial olaraq yeni məqsədlərə çatmaq üçün, yeni tələblər qoyur. Artıq vacib olan cəhət kişi və qadınların təhsilinin inkişafları ilə bərabər, yeni metod və bacarıqlara, İnternet mədəniyyətinə, kompüterləşməyə, bir sözlə müasir informasiya və telekommunikasiya texnologiyalarına uyğunlaşan Yeni intellekt – yeni ziyalı modelinin, yeni təfəkkürlə düşünən yeni nəslin formalaşdırılması zərurəti, cinsi ayrı-seçkilik münasibətlərinin təhsilin bütün sahələrində aradan qaldırılmasıdır.

Cinsi ayrı-seçkilik anlayışı qadın və kişi rolunun müəyyənləşmiş cəmiyyətin müvafiq imtiyazlarından qadınların uzaqlaşdırılıb təcrid edilməsi, onların qüvvə və bacarığını idarə etmək, o cümlədən təhsil almaq kimi imkanlarının məhdudlaşdırılması və s. bu kimi halları ifadə edir. Məhz bu kimi səbəbdən də kişilərlə qadınlar arasındakı mövcud fərqlərdən xəbərdar olmaq üçün gender təhsilinə ehtiyac yaranır.

Cinslər arasındakı fərqlərin bioloji və sosiomədəni aspektlərinin dərki, hər cinsin öz stereotiplərinə və funksiyalarına həssaslıqla (bu gender həssaslığı adlanır) yanaşmaq gender təhsilinin və mədəniyyətinin əsas göstəricisidir. Kişi-qadın münasibətlərində olan disbalans barədə məlumatlılıq bazası isə hər iki cinsin bir-birinə, mövcud fərqlərə hörmət etməsinə və insani dəyərlərin, keyfiyyətlərin yeni davranışına, yeni dərkinə stimul yaradır. Bütün bu proseslər isə gender sosial institutlaşmasının məqsədidir. Bu məqsədə nail olmaq isə təhsilin, o cümlədən də gender təhsilinin prinsipial perspektividir.

Müasir dövrdə keçirilən sosioloji tədqiqatlar və əldə olunan statistik məlumatlar Azərbaycan qadınlarının təhsil səviyyəsinin qənaətbəxş olduğunu göstərir. Bu ümumi göstərici, şəhər və kənd üzrə sistemləşdirilir, qadınların kənd yerində maarifçilik baxımından daha passiv olduğunu ortaya qoyur. Sovetlər dövründə bu məsələlər müəyyən qədər öz həllini tapsada, müasir keçid dövründə urbanizasiya proseslərinin pozulması, sosial-iqtisadi çətinliklər öz təsirini Azərbaycan qadının maariflənməsinə göstərmişdir.

Sovetlər dövründə Azərbaycan əhalisinin, xüsusilə qadınların kütləvi şəraitdə təhsilə cəlb olunması bir faktdır. Eyni zamanda keçid dövründə sosial-iqtisadi və s. problemlərlə əlaqədar qadınların təhsildən ayrılması, xüsusilə kənd yerlərində qız uşaqlarının məktəbə getməsinin qarşısının alınması da danılmaz bir faktdır. İşsizliklə əlaqədar kişilərin, xüsusilə gənclərin qazanc dalınca Rusiya və digər ərazilərə getməsi, yerlərdə demoqrafiyanın pozulmasına şərait yaradır. Demoqrafik proseslərin pozulması qadınların həm maddi, həm də mənəvi rifahına mənfi təsir göstərir. Çünki öz ailəsini atıb gedən kişilər çox vaxt qürbətdə ailələrini unudur və onların təminatı məsələsiylə məşğul olmurlar. Bu isə uşaqlarla tənha qalan qadınların, uşaqların maddi-mənəvi baxımdan təmin etmək üçün hər cür ağır işlərdə işləməsinə şərait yaradır. Əsasən kənd yerlərində artıq qeyd etdiyimiz kimi savadsız olan qadınlar özlərinə iş tapmaq problemi ilə qarşılaşırlar. Hal-hazırda bütün sahələr-

də gedən kompüterləşmə prosesi və texnoloji inkişaf, onların müasir iş yerlərində özlərinə iş tapmaq problemini yaradır. Əlbəttə, yerlərdə sosial-iqtisadi problemlərin həlli çox zəruridir. Dövlət eyni zamanda qız uşaqlarının təhsildən yayınmasının qarşısını almaq üçün bəzi sosial təminat məsələlərinə də xüsusilə fikir verməlidir. Çünki, Azərbaycan dövlətinin əsas qurucuları olacaq yeniyetmə nəsil, məhz bu qadınların tərbiyəsi altında formalaşır. Ananın təhsil səviyyəsi yüksək olduqca, körpə və uşaq ölümü əmsalı aşağı düşür, belə ki, ailədə gəlir səviyyəsindən asılı olmayaraq, uşaqlara qulluğun, onların təlim-tərbiyəsinin və qidalanmasının keyfiyyəti yaxşılaşır. Acınacaqlı hallardan biri də odur ki, ailədə yeniyetmə qız və oğlan uşaqları valideynlərinin üzərinə düşən bütün bu yükləri aradan qaldırmaq üçün onların əməyinə şərik çıxırlar. Dövlət səviyyəsində keçirilən regional İnkişaf Proqramının həyata keçirilməsində qadınlar fəal iştirak etməli və xüsusilə bu məsələlərin həllinə diqqət yetirməlidirlər. Yeniyetmələrin təhsilə məcburi şəkildə cəlb olunması işinə dövlət nəzarəti gücləndirilməli və yeniyetmə qız və oğlan uşaqlarının təhsildən yayınaraq küçə alveri, məişət xidmətləri və s. sahələrdə işləməsinin qarşısı alınmalıdır. Bütün bu problemlərin həllinin birbaşa sosial-iqtisadi məsələlərinin həlliylə əlaqədar olduğunu nəzərə alaraq bu sahədə müəyyən tədbirlərin görülməsi zəruridir. Eyni zamanda kənd yerlərində infrastrukturun inkişafı, yerli biznes və fermer təsərrüfatının formalaşması bu məsələlərin həllinə müsbət təsir göstərir. Qadınların yerli sosial-iqtisadi problemlərin həllində yaxından iştirak etmək üçün, kənd yerlərində bizneslə və insan hüquqları ilə bağlı kurs, seminar, treninqlərin keçirilməsi vacibdir. Çünki bu bir tərəfdən onların cəmiyyətin sosial-iqtisadi həyatında aktivləşməsinə və ailəsinin düzgün istiqamətdə inkişafına təsir göstərir.

Xüsusilə kənd – rayon yerlərində gender problemləri ilə əlaqədar maarifləndirmə işinin artırılması zəruridir. Çünki burada öz hüquqlarını bilməyən qız və qadınların sayı çoxalıb. Qız uşaqlarının vaxtından əvvəl ərə verilməsi və kütləvi olaraq onların təhsildən uzaqlaşdırılması insan hüquqlarına ziddir. Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması və demokratiyanın inkişafı üçün qadın və qızların, ümumiyyətlə, insanların tədris müəssisələrində müvafiq təhsil almaları vacib bir məsələdir.

Azərbaycanda təhsil alan qadın və qızların böyük bir hissəsi əsasən tibb və pedaqogika sahələrinə meyil edirlər. Əvvəllər bu yaxşı göstərici idi. Lakin yeni biznes, menecment, informatika və s. bu kimi sahələrdə onların fəal təhsil almasına ehtiyac vardır. Bu fənlərlə əlaqədar mütəxəssislərin bu yerlərə təyin olunması və yerlərdə olan problemlərin həllində praktik baxımdan yararlı olması lazımdır. Yerlərdə qadınların güzəştli şərtlərlə biznes və fermer təsərrüfat işlərində fəallığını təmin edən tədbirlərin keçirilməsi və dövlət tərəfindən onlara güzəştli kreditlərin verilməsi, eyni zamanda yerlərdə formalaşan bu kadrların hesabına təhsil sahəsinin inkişaf etdirilməsi üçün dövlət proqramları hazırlanmalı və həyata keçirilməlidir [7, s.74-75].

Bir çoxları Azərbaycan qadınlarının təhsilə gəlməməsində milli-mənəvi faktorların olduğunu irəli sürürlər. Bunların heç bir əsası yoxdur. Çünki Azərbaycan Sovetlər dövründə artıq bu maneələri aradan qaldırmış və cəmiyyətdə ümumi elm və təhsilə qarşı yüksək bir fikir formalaşmışdır. XX əsrə qədər Azərbaycan qadınlarının təhsildən yayınma səbəbləri çox olmuşdur. Onlardan biri, təhsil sisteminin yalnız Qərb dünyası dəyərləri üzərində qurulması milli-mənəvi dəyərlərin inkar olunması ilə bağlı idi. Bu baxımdan bir çox ailələr öz qızlarını və oğlanlarını bu təhsildən yayındırıblar. Müasir dövrdə də buna bənzər problemlər ola bilər. Buna görə də təhsil sistemində milli-mənəvi dəyərlərin qorunmasına xüsusi diqqət verilməlidir. Çünki, Azərbaycan xalqının əsrlərlə formalaşan və İslam dəyərlərinə əsaslanan milli-mənəvi dəyərləri qızların elm və təhsil sahəsində aktivləşməsinə şərait yaradır.

**Açar sözlər:** təhsil, gender, savadlılıq, milli-mənəvi dəyərlər

**İstifadə edilmiş ədəbiyyat**

1. Gender elminə giriş / E.Ş.Hüseynovanın redaktəsi ilə. Bakı: Qərb Universiteti, I cild, 2005, 476 s.
2. John Dewey. Democracy and Education.Introduction to the Philosophy of Education. Free Press: N.Y.: 1997, 378 p.
3. Quluzadə Z. Gender Azərbaycanda. Bakı: UNFPA, BMT-nin Əhali Fondunun nəşri, 2003
4. Mirzəzadə R. Gender: cəmiyyət, insan hüququ, siyasət. Bakı: Adiloğlu, 2003, 420 s.
5. Salmanova N.Ə. Azərbaycanda ailə-nikah münasibətlərinin inkişafı. Bakı: Avropa, 2013, 191 s.
6. Səlimov M. Gender bərabərliyinin təminatı. Bakı: Avropa, 2015
7. Şabanov Z.M, Abdallı H.İ. Qadın: ailədə, siyasətdə, təhsildə, dində, ədəbiyyatda. Bakı, Avropa, 2013, 332 s.
8. www.stat.gov.az

**Садагят Мамедова**

**ГЕНДЕРНЫЕ ПРОБЛЕМЫ ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ**

**Резюме**

В статье рассматриваются характерные черты системы образования Азербайджана и в этом контексте исследуются гендерные проблемы образования. Отмечается, что устранена дискриминация по признаку пола в системе образования Азербайджана и все граждане на равных правах получают образование, работают в различных сферах общественной жизни. Отмечается, что в некоторых случаях были приняты необходимые меры по предотвращению уклонения девочек от образования. В то же время, отмечается важность пропаганды национально-моральных ценностей в образовании.

**Ключевые слова:** образование, гендер, грамотность**,** национально-нравственные ценности

**Sadagat Mammadova**

**GENDER PROBLEMS OF IN EDUCATION IN AZERBAIJAN**

**Summary**

The characteristic features of education system in Azerbaijan are analyzed, the gender problems of education in this context are investigated. It is noted that gender discrimination in the education system has been eliminated, all citizens have equal rights to study and they can work in the different areas of social life. It is also noted that the necessary measures are carried out to prevent the girls` evasion from education. The importance of national-moral values in education is emphasized in the article.

**Keywords:** education, gender, literacy, national-moral values

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

**UOT – 614.2**

**Şövqi Quliyev**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d.**
**Azər İbrahimov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

# TİBBİ SIĞORTANIN HƏYATA KEÇİRİLMƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏ

*Məqalədə tibbi sığortanın əhalinin sağlamlığının qorunması və sosial müdafiəsi sistemində rolu təhlil edilmiş, Almaniya, Yaponiya, Türkiyə və Rusiya kimi ölkələrdə icbari tibbi sığortanın müasir vəziyyəti öyrənilmiş, Azərbaycanda icbari tibbi sığortanın tətbiqi ilə bağlı məsələlər araşdırılmışdır.*

Əhalinin sosial müdafiəsinə əlavə təminatların yaradılması məqsədilə, baş vermiş bədbəxt hadisə, qəza nəticəsində vətəndaşların səhhətinə vurulan zərərlərin ödənilməsinin təmin edilməsi üçün sığortaya mütləq qaydada cəlb edilməsi inkişaf etmiş ölkələrdə artıq ənənə halına çevrilmişdir. Bu baxımdan tibbi sığorta əhalinin sağlamlığının qorunması, vətəndaşların tibbi yardım alması və profilaktik tədbirlərin maliyyələşdirməsi sahəsində sosial müdafiə sistemidir. Tibbi sığorta həyat və şəxsi sığortanın növlərindən biri hesab edilir. Tibbi sığorta ölkədə həyata keçirilən sosial siyasətin əsas tərkib hissələrindən biridir. Aparılan tədqiqatlar göstərir ki, bəzi ölkələrdə tibbi sığorta hətta XIX əsrdən məlum olmasına baxmayaraq onun kütləvi tətbiqi XX əsrin sonlarına təsadüf edir. Məsələn, Almaniya qanunvericiliyinə tibbi sığorta anlayışı XIX əsrdən məlumdur. Hələ XIX əsrin 80-ci illərində Bismark hökuməti tərəfindən bir çox sosial qanunlar qəbul edilmiş və bu qanunlarla birgə qəbul edilmiş “Xəstəlik halı üçün sığorta haqqında” qanun böyük əhəmiyyətə malikdir. Almaniya dövlətinin sosial fəaliyyətində bu qanun çox mühüm yer tutur.

Ölkəmizdə tibbi sığortanın tətbiqinin təkmilləşdirilməsi üçün təbii ki, beynəlxalq təcrübənin, xüsusilə, Almaniya, ABŞ, Kanada, Böyük Britaniya, Türkiyənin təcrübəsinin öyrənilməsi faydalıdır. Hesab edirik ki, Azərbaycanda tibbi müayinəsi və müalicəsi aparılmayan xəstəliklərin beynəlxalq sığorta şirkətlərinin xətti ilə həmin ölkələrdə müalicəsinin təşkili əhəmiyyətli olar. Təcrübə göstərir ki, sığorta sistemi ən inkişaf etmiş ölkələrdən biri də Almaniyadır. Almaniyada sığorta ilə münasibətdə alman vətəndaşı ilə, yaşamaq izni olan xarici vətəndaş arasında heç bir fərq yoxdur. Bütün fiziki şəxslər sığortalanmalıdır. Əgər işləyirsə, iş yerində, işləmirsə, dövlətin hesabına, daha dəqiqi sosial müdafiə qurumlarının hesabına sığortalanır. Ümumiyyətlə, Almaniyada yaşayan vətəndaşların, demək olar, hamısı ilk növbədə tibbi sığorta, ikincisi, pensiya sığortası (yəni sosial sığorta), üçüncüsü, mülki məsuliyyətin sığortası ilə sığortalanırlar.

Tibbi sığorta haqqı əmək haqqının məbləğinə uyğun olaraq, onun 15,5%-ni təşkil edir. Bu məbləğ hər ay ödənilir və ailədə işləyənlərin hamısı tibbi sığorta haqqını ödəməlidirlər. Ailədə adambaşına düşən orta aylıq gəlir 3950 avrodan yüksək olduqda, tibbi xidmətlərin bir hissəsi özəl tibbi sığorta vasitəsilə əldə edilir. Özəl tibbi sığorta bir qədər fərqlənir. Məsələn, dövlətin tibbi sığortası ilə sığortalananlar xəstəxanaya gələndə hamı kimi növbəyə dayanmalı - növbəsi çatanda müayinəyə, müalicəyə və ya əməliyyata keçməlidirlər. Dövlət sığortasından istifadə edənlərin həkimləri seçmək hüququ da yoxdur - növbələrinə hansı həkim çıxarsa, müalicəni və ya müayinəni,

eləcə də əməliyyatı o aparacaq. Özəl tibbi sığortada isə vəziyyət başqadır. Bu sığortanın istifadəçiləri həkimi seçə bilərlər və növbədə dayanmırlar [8].

Özəl tibbi sığortada bir nəfərin aylıq sığorta haqqı 600-700 avro təşkil edir. Yəni dövlətdən iki dəfə baha başa gəlir. Əgər bura dişlərin pulsuz müalicəsi xidmətini də əlavə etsək, ayda 1000 avro tibbi sığorta haqqı ödəmək lazımdır, amma buna hər şey, bütün xidmətlər daxildir. Almaniyada xəstəyə qulluq sığortası da var. Məsələn, kimsə əlil və ya xəstə olursa, ona kənardan qulluq tələb olunursa, bundan da sığortalanmaq olar. Yəni belə hal baş verəndə sığorta şirkəti bu xidməti təşkil edir. Belə xidmət əməliyyatdan sonrakı dövrdə də lazım ola bilər - bu sığorta vasitəsilə həmin vaxtlarda da qulluq əldə etmək olar. Bu sığorta üçün tarif əmək haqqının 0,25%-i qədərdir. Bunun da yarısını işə götürən, qalanını işçi özü ödəyir. Amma bir şərt var - uşaqsız ailələrdə bu tarif əmək haqqının 25%-nə qədər qalxa bilər. Çünki uşağı yoxdursa, deməli, gələcəkdə ona baxan yaxın adam olmayacaq. Özü də adamı bu sığorta ilə sığortalayanda tam tibbi müayinədən keçirirlər ki, onun xəstələnmək ehtimalını dəqiq bilsinlər.

Böyük Britaniyada isə tibbi sığorta sistemi keçmiş SSRİ-nin təcrübəsindən yararlanaraq formalaşdırılıb. Burada tibbi sığortanın əsasını dövlət büdcəsindən daxil olan gəlirlər təşkil edir. Böyük Britaniyanın sığorta bazarı uzun illər boyu inkişaf etmiş və hazırda öz böyüklüyünə görə dünyada ilk sıralarda yerləşir. 2016-cı ilin məlumatlarına əsasən, Böyük Britaniya ərazisində 800-dən artıq sığorta şirkəti sığorta fəaliyyəti həyata keçirmək üçün lisenziya alıb [8].

Yaponiyada tibbi sığortanın özünəxas xüsusiyyətləri vardır. Burada iki tibbi təhlükəsizlik sistemi mövcuddur: kompaniya və ofisdə işləyənlər üçün “Sosial sığorta sistemi” və qalan əhali üçün “Milli tibbi sığorta sistemi”. Qaydaya görə, sığorta olunan özü 20%, xəstəxanaya qəbul edilən ailə üzvləri 20%, xəstəxanaya kənar xəstə kimi müraciət edən ailə üzvləri isə 30% əlavə ödəniş edir. Lakin Yaponiyanın müvafiq qanunvericiliyinə əsasən, xəstəxana tərəfindən təqdim edilən qidaların xərcləri ayrıca hesablanır və tibbi sığorta məbləğinə daxil edilmir. Həmçinin xəstə olduğu xəstəxanada dərmanların tərkibindən və kəmiyyətindən asılı olaraq əlavə xərcləri ödəməli olur [3, s.9].

Milli tibbi sığorta üçün xarici (əcnəbi) vətəndaş kimi qeydiyyata alınan şəxs müraciət edə bilər. Lakin bunun üçün həmin xarici şəxs Yaponiyanın ən azı 12 aylıq rezidenti olmalı və ya rezidenti kimi qəbul edilməlidir. Şəxs öz yaşadığı sahədə şəhər və ya şəhərin hər hansı rayonunun ofisinə müraciət edə bilər. Qaydaya görə həmin şəxs rezident olmağını sübut edən rəsmi sənədə malik olmalıdır. Sığorta müavinəti bir illik hesablanır və əvvəlki illərdə Yaponiyadakı pul gəlirlərindən və ailə üzvlərinin sayından asılı olaraq cari ilin aprelindən, gələn ilin martına qədər olan dövrü əhatə edir. Məbləğ müxtəlif şəhər, rayon və kəndlərdə fərqlənir. Qeyd edək ki, müavinət şəxsin sığortanı neçə dəfə istifadə etməyindən asılı olmayaraq dəyişmir.

Türkiyənin də tibbi sığorta sistemi özünəxas xüsusiyyətə malikdir. Türkiyədə 1 yanvar 2012-ci il tarixdən bütün vətəndaşlar İcbari Tibbi Sığortaya (İTS) cəlb olunub. Bu sistem daxilində bütün vətəndaşlar dövlətin təmin etdiyi tibbi yardımlardan faydalana bilərlər. Göstərilən tibbi xidmətlərin siyahısı olduqca genişdir. Belə ki, icbari tibbi sığorta vasitəsilə dövlət xəstəxanalarında göstərilən bütün xidmətlərdən pulsuz istifadə etmək olar.

18 yaşdan yuxarı şəxslər təhsil müddətində (25 yaşına qədər) ana-atasının tibbi sığortasından faydalanır və ondan hər hansı bir ödəniş tələb olunmur.

Ailənin aylıq gəlir məbləği minimum məvacibin üçdə birindən az olması halında “yaşıl kartlı” sayılır və ödəniş etməkdən azad olunur. Bundan başqa 18 yaşına çatmayan şəxslər, başqasının köməyinə möhtac olan şəxslər, yol qəzası hallarında əlil olanlar, iş qəzası ilə peşə xəstəliyinə və təhlükəli yoluxucu xəstəliklərə tutulanlar da icbari sığorta haqqını ödəməkdən azaddır.

Türkiyədə İcbari Tibbi Sığorta ödənişi belə müəyyən edilir: ailənin ümumi gəliri ailə üzvlərinin sayına bölünür, adambaşına düşən gəlir müəyyən edilir.

Rusiyanın tibbi sığorta üzrə təcrübəsi də maraqlıdır. Rusiyada müasir sosial sığorta sisteminin formalaşmasını Pensiya Fondu, Rusiya Federasiyası Sosial Sığorta Fondu, məcburi tibbi sığorta fondları (federal və ərazi) və Rusiya Federasiyasının Dövlət Məşğulluq Fonduna daxil olan büdcə vəsaiti təmin edir. Rusiyanın icbari sığorta ilə bağlı 2011-2014-cü illər üçün təsdiqlədiyi proqrama əsasən, Federasiyanın vətəndaşları istənilən ərazidə bu sığortadan yararlana bilirlər. Sığorta şirkətinin, eləcə də klinikanın və həkimin seçilməsi vətəndaşın özünün öhdəliyinə buraxılıb. Eyni zamanda işləyən vətəndaşlar üçün icbari tibbi sığortanın iş yeri ilə bağlılığı aradan qaldırılıb. Belə ki, işdən azad edildikdə və ya iş yerini dəyişdikdə yeni proqrama əsasən sığortanı dəyişməyə ehtiyac qalmır. Yeni proqram sığorta şirkətləri qarşısında maliyyə fəaliyyətlərinə, sığorta proseslərinə dair məlumatları internet saytlarında yerləşdirmək istiqamətində tələb qoyur. Burada icbari tibbi sığorta Rusiyanın bütün vətəndaşlarını əhatə edir.

Rusiyada icbari tibbi sığorta ilə bağlı dövlət siyasətinin həyata keçirilməsi üçün məcburi tibbi sığortaya dair federal və ərazi fondları yaradılıb. Tibbi sığortanın subyektləri kimi vətəndaş, sığortaçı, tibbi sığorta təşkilatı, tibb müəssisələri çıxış edir. Rusiyada icbari tibbi sığortaya aşağıdakı təxirəsalınmaz tibbi xidmətlər daxildir:

- travmatik vəziyyət, doğum, kəskin zəhərlənmə;
- xroniki xəstəlikləri olan xəstələrin ambulator müalicəsi;
- müstəqil hərəkət edə bilməyən xəstələrə ev şəraitində tibbi yardım;
- əlillər üçün profilaktik xidmətlərin kompleks təminatı, hamilə qadınlar, uşaqlar, əlillər, onkoloji xəstələr, ruhi problemi olan xəstələr, insanların reabilitasiyası, infarkt [8].

Rusiyada ilk dəfə olaraq, 2016-cı ildə ölkənin Tümen vilayətində tibb işçilərinin mülki məsuliyyətinin sığortalanması üçün qarşılıqlı sığorta cəmiyyəti fəaliyyətə başlayıb. Cəmiyyətin yaradılmasında məqsəd həkim səhvi nəticəsində pasientlərə dəymiş ziyana görə kompensasiyanın ödənilməsidir. Arzuolunmaz vəziyyətlərdən özünü sığortalamaq istəyən həkimlər cəmiyyətin fonduna ildə 3 min rubl ödəyəcəklər. Bu cəmiyyətin fəaliyyətinin vilayətin 14 tibb müəssisəsində çalışan təxminən 1000 həkimi əhatə edəcəyi gözlənilir. Bununla da, pasientlərə ödənilə biləcək ümumi kompensasiyanın illik məbləği 3 mln. rubl təşkil edəcək. Heç bir həkim sözügedən fonda pul ödəməyə məcbur edilmir. Yəni, mülki məsuliyyətin sığortalanması könüllü olacaq. Hazırda Rusiya qanunvericiliyi də həkimlərin mülki məsuliyyətinin icbari sığortalanmasına imkan vermir. Amma artıq ölkədə tibb işçilərinin akkreditasiyası başlayıb və 2021-ci ilə qədər bu növ sığorta icbari olacaq. Digər tərəfdən isə son vaxtlar Tümendə həkimlərə qarşı xəstələrin və onların yaxınlarının tibb müəssisələrinə qarşı iddiaları artıb. Ümumilikdə, 2012-2014-cü illərdə tibb müəssisələrinə qarşı irəli sürülmüş iddialara görə 12 mln. rubla yaxın kompensasiya ödənilib.

Rusiyadan fəqli olaraq inkişaf etmiş ölkələrdə hər bir həkim mülki məsuliyyətini sığortalamaq imkanına malikdir və iddialardan qorxmadan işləyir. Rusiyada isə həkimlərin cəmi 5-10%-nin özünü sığortalamaq imkanı var. Çünki bu növ sığorta baha başa gəlir.

Təcrübə göstərir ki, tibbi sığorta əhalinin sağlamlığının qorunmasında istifadə olunan sosial müdafiə formasıdır. Başqa sözlə desək, tibbi sığorta müəyyən səbəblər üzündən sağlamlığın itirilməsi hallarında əhalinin sosial müdafiəsidir. Bu elə bir müdafiə formasıdır ki, sığorta hadisəsi baş verdikdə, əhalinin tibbi və dərman yardımı almasına təminat verir. Tibbi sığorta vətəndaşların tibbi xərclərinin kompensasiya edilməsilə əlaqədardır ki, bu da tibbi yardımın alınması formasında həyata keçirilir. Bu sığorta növü həmçinin sağlamlığın qorunması ilə əlaqədar olan digər xərclərlə də bağlıdır. Həmin xərclər sığorta obyektlərinin xüsusiyyətləri ilə bağlıdır və sığorta olunan şəxslərin müayinə zamanı aşağıdakı işlərə xərclənir:

- xəstələrin müayinəsi və ambulator şəraitdə lazımı müalicələrin aparılması;
- tibbi ləvazimatların əldə edilməsi;

- profilaktika tədbirlərinin həyata keçirilməsi və s.

Tibbi sığorta bir tərəfdən dövlətin tibbi xərclər üzrə yükünü azaldırsa, digər tərəfdən də tibbi xərclərin çox baha olduğu şəraitdə əhaliyə yüksək tibbi xidmət göstərilməsini təşkil edir. Məsələn, İnkişaf etmiş ölkələrdə stasionar müalicənin bir günü təxminən 1000 ABŞ dollarına başa gəlir. Bu isə müasir dövr üçün çox böyük məbləğdir. Bu vəsaiti sığorta olmadan ödəmək çox çətindir.

Azərbaycan Respublikasında 28 okyabr 1999-cu il “Tibbi sığorta haqqında” qanun qəbul edilmişdir. Bu qanunun qəbul edilməsinin məqsədi əhalinin aztəminatlı təbəqələrinin məcburi tibbi sığortası üçün şərait yaratmaqdır. Bundan başqa bu qanun büdcə təşkilatlarının və şəxsi şirkətlərin nümayəndələri üçün tibbi sığorta həyata keçirilməsinə şərait yaradır. Bu qanun tibbi sığortanın subyektləri arasındakı münasibətləri tənzimləməkdə xüsusi rola malikdir [2].

Azərbaycan Respublikasının səhiyyə sisteminin idarə olunmasını təkmiləşdirmək, əhaliyə tibbi yardım göstərilməsi mexanizmini müasir tələblərə uyğunlaşdırmaqla səhiyyə xidmətinin keyfiyyətini daha da yaxşılaşdırmaq, icbari tibbi sığorta sisteminin tətbiqinə başlamaq məqsədilə 27 dekabr 2007-ci il Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılmışdır.

Agentliyin vəzifələri aşağıdakılardır:

- icbari tibbi sığorta sahəsi üzrə dövlət proqramlarının, strategiyaların və inkişaf konsepsiyalarının həyata kecirilməsində iştirak etmək;
- icbari tibbi sığorta proqramı çərçivəsində əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər görmək;
- icbari tibbi sığorta olunanlara icbari tibbi sığorta proqramına uyğun tibbi yardım göstərilməsi üçün tibb müəssisələri ilə müqavilələr bağlamaq;
- icbari tibbi sığorta üzrə riskləri sığorta etdirmək üçün müraciət edən və sığorta marağı olan şəxslə icbari tibbi sığorta müqaviləsi bağlamaq;
- sığorta olunanlara baza zərfi çərçivəsində göstərilən profilaktika, müalicə və reabilitasiya yardımının, həcminin müddətinin, keyfiyyətinin və qiymətinin tərəflərlə bağlanılmış müqavilənin şərtlərinə uyğun olmasına nəzarət etmək;
- icbari tibbi sığorta müqaviləsinin qüvvəyə mindiyi andan sığortaolunana icbari tibbi sığorta şəhadətnaməsi vermək [5].

“Tibbi sığorta haqqında” qanuna əsasən tibbi sığorta iki formada həyata keçirilə bilər:

1. İcbari tibbi sığorta;
2. Könüllü tibbi sığorta.

İcbari formada tibbi sığortanın həyata keçirilməsi dövlət qanunvericiliyinə əsaslanan sosial sığortanın əlamətlərini özündə əks etdirir. İcbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla sosial təminat hüququnun tənzimləmə sferasına şamil edilir. İcbari tibbi sığortanın aparılması ölkəmizdə çox aşağı səviyyədədir. İcbari tibbi sığorta üçün sığortalananlar tərəfindən müəyyən olunmuş həcmdə və müəyyən olunmuş müddətdə sığorta ayırmaların ödənilməsi və sığorta təminatının bütün sığortalılar üçün eyni olması xarakterikdir [2].

İcbari qaydada tibbi sığortanın aparılması üçün dövlət tərəfindən müvafiq qərar qəbul edilməlidir. Lakin bu qərar mövcud olmadığı üçün Azərbaycan Respublikasında tibbi sığorta hələlik yalnız könüllü qaydada həyata keçirilir.

Dünyanın əksər ölkələrində səhiyyə xidmətlərinin maliyyələşdirilməsi icbari tibbi sığorta vasitəsilə həyata keçirilir. Bəzi ölkələrdə sovet dövründə mövcud olan model fəaliyyət göstərir. Səhiyyə xidmətləri tam pulsuz olur və bütün xərclər tam olaraq dövlət tərəfindən ödənilir (Məsələn, Norveç, İngiltərə). Ancaq bəzi ölkələrdə dövlət və bələdiyyə səhiyyə sistemi pulsuz, özəl səhiyyə isə tam pulludur.

Azərbaycanda icbari tibbi sığortanın tətbiq edilə bilməsi üçün lazımı şərait var. Bu gün Azərbaycanda icbari tibbi sığortanın tətbiqi üçün qanunvericilik baxımından da heç bir problem yoxdur və bu sahədə qanunvericilik bazası kifayət qədər mükəmməldir. Ölkədə bu sistemin tətbiq edilməməsi üçün iki obyektiv səbəb ola bilər ki, onların da hər ikisi artıq aradan qalxıb. Bunlar səhiyyə müəssisələrinin maddi-texniki bazasının zəif olması, ölkənin hər yerində kifayət qədər keyfiyyətli xidmət göstərə biləcək səhiyyə müəssisələrinin olmaması idi. Ancaq artıq son illər ərzində bu sahədə çox ciddi islahatlar aparılıb. Demək olar ki, ölkənin bütün regionlarında müasir tələblərə cavab verən Müalicə-Diaqnostika mərkəzləri, klinikalar var. Yeni tikilən və əsaslı təmir olunan tibb müəssisələrinin də müasir avadanlıqlarla təminatı yüksək səviyyədədir. Eyni zamanda, ölkədə kifayət qədər kadr potensialı var. Bu baxımdan icbari tibbi sığortanın tətbiqi üçün olan maneələr artıq aradan qaldırılıb. Ancaq başqa maneə sığorta şirkətlərinin şəbəkəsinin zəif olmasıdır. Bu halı da aradan qaldırmaq üçün kifayət qədər işlər görülür.

İcbari tibbi sığorta səhiyyə sisteminin maliyyələşməsinin ən mükəmməl formasıdır. İşəgötürən müəssisə icbari tibbi sığorta ayırmalarının sərfəli xərclənməsində, işçinin çox xəstələnməməsində, işçi xəstələndikdə də onun çox qısa vaxt ərzində müalicə olunması və işə geri qayıtmasında maraqlı olacaq. İcbari tibbi sığorta agentliyi xəstə olan şəxsin əlavə müayinələrə cəlb olunmamasına, onun reseptində əlavə dərmanların yazılmamasına, müalicə müddətinin həddindən artıq uzadılmamasına, bir sözlə, əlavə vəsaitlərin xərclənməməsinə çalışacaq. Səhiyyə müəssisəsinin marağı isə yaxşı, keyfiyyətli tibbi xidmət göstərə bilmək olacaq. O çalışacaq ki, icbari tibbi sığorta şirkəti yaxşı xidmət göstərən tibb müəssisəsi kimi onunla yenidən müqavilə bağlasın, seçim zamanı başqa tibb müəssisələrinə üstünlük verməsin. Nəticədə isə bu sistemin tətbiqindən tərəflərin hər biri fayda götürəcək. Bu sistemin tətbiqi dövlətin də bu işdən uduşlu çıxmasına səbəb olacaq. Çünki ölkədə göstərilən keyfiyyətli tibbi xidmətlərin sayı artacaq, dövlətin səhiyyə sektoruna ayırdığı xərclər ilbəil azalacaq. Səhiyyə xərclərinin maliyyələşdirilməsinin böyük bir hissəsi işəgötürənlərin hesabına icbari tibbi sığorta şirkətləri tərəfindən həyata keçiriləcək.

İcbari tibbi sığortanın tətbiqinin digər əhəmiyyəti də ondan ibarətdir ki, Azərbaycanın sığorta bazarının həcmi böyüyəcək, sığorta şirkətlərinin bu sahədəki peşəkarlığı artacaq, yeni işçi qüvvəsi yaradılacaq. İcbari tibbi sığortanın tətbiqi sığorta şirkətlərinin gəlirlərini artıracaq, onların inkişafına səbəb olacaq. Eyni zamanda, səhiyyə sektorunda canlanmaya gətirib çıxaracaq.

Könüllü tibbi sığorta mülki hüququn nizamsalma sferasına və predmetinə daxildir. Bu sığorta zamanı ödənişlər vətəndaşlar tərəfindən verildiyinə görə daha yüksək səviyyədə tibbi yardım göstərilməsi təmin edilir. Könüllü tibbi sığorta müştərinin arzu və istəklərindən asılı olaraq həyata keçirilir. Yəni, sığortalanan şəxs istədiyi sığorta şirkətini seçə bilər, istədiyi tibbi sığorta proqramına uyğun olaraq sığortalana bilər.

Tibbi sığorta sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə Azərbaycan Respublikası əhalisinin tibbi və dərman yardımı almasına təminat verir. Azərbaycan Respublikasında daimi yaşayan, vətəndaşlığı olmayan şəxslər tibbi sığorta sistemində Azərbaycan Respublikasının vətəndaşları ilə eyni hüquq və vəzifələrə malikdirlər.

Azərbaycan Respublikasında könüllü tibbi sığortanın həyata keçirilməsində “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının qanunu xüsusi əhəmiyyətə malikdir. Belə ki, ölkəmizdə tibbi sığortanın tətbiqinin məşğulluqla bağlı siyasətin dəqiq aparılmasını və işləyənlərin iş yerlərini və düzgün əmək haqlarını göstərməsinə səbəb olacaqdır. Belə hal isə vergi ödənişlərinin də düzgün ödənilməsinə də səbəb olacaqdır. Nəzərə almaq lazımdır ki, tibbi sığortanın kütləvi tətbiqi, ümumən, səhiyyə sisteminin də inkişafına səbəb olacaqdır. Deməli, tibbi sığortanın tətbiqi ümumi iqtisadi inkişaf üçün faydalı olacaqdır. Qeyd edək ki, ölkəmizdə də 2017-ci ildən Mingəçevir şəhəri və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2016-cı il Fərmanı da olmuş-

dur. Bu baxımdan hal-hazırda ölkəmizdə 26 tibbi sığorta fəaliyyət göstərir ki, onlardan 24-ü milli sığorta, 2-i isə birgə sığortadır.

Könüllü tibbi sığorta müqaviləsinin bağlanmasında vətəndaş və ya onun xeyrinə üçüncü şəxs (fiziki və ya hüquqi şəxs) iştirak edə bilər. Bu növ sığorta üzrə obyekti-sığorta hadisəsi baş verdikdə tibbi xidmətin göstərilməsinə çəkilən xərclərlə əlaqəli olan sığorta riskləridir [4, s.58].

Azərbaycan Respublikasında tibbi sığorta şirkətləri bu gün tibbi sığortanın digər növü ilə məşgul olur. Yəni, hal-hazırda Azərbaycan Respublikasında tibbi sığorta könüllü qaydada aparılır. Bu da müvafiq qaydalarla və həmin qaydalara uyğun olaraq tibbi sığorta proqramları ilə həyata keçirilir. Tibbi sığorta proqramlarında hansı tibbi xidmətlərin göstərilməsi, sığorta məbləğlərinin və sığorta haqlarının müəyyənləşdirilməsi məsələsi öz əksini tapır.

Araşdırmalar göstərir ki, sığorta sisteminin inkişafında ən önəmli məsələlərdən biri də sığortaçıların məcmu kapitalı ilə bağlıdır. Belə ki, sığortaçının maliyyə sabitliyinin əsasını onun nizamnamə kapitalı, xüsusi təminatı, ödəmə qabiliyyətini təmin edən normativlər, sığorta ehtiyatları, habelə təkrarsığorta sistemi təşkil edir. Bu baxımdan Maliyyə Nazirliyinin Kollegiyasının qərarı ilə 2013-cü il 01 yanvardan sığortaçılar üçün tələb olunan kapitalın minimum məbləği 5 (beş) milyon manat, təkrarsığortaçılar üçün tələb olunan kapitalın minimum məbləği 10 (on) milyon manat səviyyəsində müəyyənləşmişdir. Xatırlatmaq yerinə düşər ki, nizamnamə kapitalının minimum məbləği istər xarici ölkələrdə, istərsə də ölkəmizdə qanunvericiliklə müəyyən edilir.

**Sığortaçıların məcmu kapitalı (faizlə)**

**Cədvəl 1 [5]**

| İllər | 2010 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| Cəmi-kapital | 100 | 100 | 100 | 100 | 100 |
| Ödənilmiş nominal nizamnamə kapitalı | 94,0 | 85,6 | 81,9 | 83,2 | 73,0 |
| Yenidən qiymətləndirmə üzrə ehtiyat kapitalı | 4,6 | 2,5 | 2,4 | 2,1 | 1,7 |
| Digər kapital | 1,4 | 11,9 | 15,7 | 14,7 | 25,3 |

***Mənbə: http://www.stat.gov.az/***

Araşdırmalar göstərir ki, 2015-ci ildə sığortaçıların məcmu kapitalında 2014-ci ilə nisbətən 17,3% artım baş vermişdir. Ödənilmiş nominal nizamnamə kapitalı məbləğcə artsa da, faiz baxımından azalmışdır. Təhlillər göstərir ki, kapitalın digər növü üzrə gəlirlər artmışdır. Bu baxımdan könüllü tibbi sığorta üzrə sığorta haqları və sığorta ödənişləri müvafiq olaraq artmışdır. (cədvəl 2)

**Könüllü tibbi sığorta üzrə sığorta haqları və sığorta ödənişləri (mln. manatla)**

**Cədvəl 2 [5]**

| İllər | Sığorta haqları | Sığorta ödənişləri |
|---|---|---|
| 2011 | 28,41 | 19,27 |
| 2012 | 59,85 | 40,88 |
| 2013 | 65,43 | 46,16 |
| 2014 | 71,28 | 48,14 |
| 2015 | 72, 87 | 51, 27 |
| 09.2016 | 64,02 | 44, 92 |

***Mənbə:http://www.sigorta.maliyye.gov.az/***

Cədvəlin göstəricilərinə əsasən 2015-cı ildə tibbi sığorta üzrə sığorta haqları 2011-ci ilə nisbətən 61,01%, sığorta ödənişləri 62,41% artmışdır. Azərbaycanda könüllü tibbi sığorta bazarı böyüməkdə davam edir. Belə ki, 2016-cı 9 aylıq göstəricilərinə görə, tibbi sığorta üzrə yığımlar 64,02 milyon manat təşkil edib. Tibbi sığortada yığımlarla yanaşı, ödənişlər yanvar-sentyabr aylarında kö-

nüllü tibbi sığorta müraciətləri üzrə ödəniş xərcləri 44,92 milyon manat təşkil etmişdir. Könüllü tibbi sığortanın aparılması üçün Maliyyə Bazarlarına Nəzarət Palatasından xüsusi lisenziya alınır. Bu orqan sığorta fəaliyyətinin tənzimlənməsi üçün müəyyən göstərişlər verir və onların bütün fəaliyyətinə nəzarəti həyata keçirir.

Sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi nəzərdə tutulan icbari sığortanın aparılması, büdcə vəsaitlərindən səmərəli və təyinatı üzrə istifadənin təmin edilməsi məqsədilə qanunla dövlət sığorta orqanına həvalə edilir. Qeyd etmək yerinə düşərdi ki, respublikada icbari formada həyata keçirilən səkkiz sığorta növündən beşi Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinə həvalə edilmişdir.

Tibbi sığortanın həyata keçirilmə qaydasına gəldikdə isə onu demək lazımdır ki, bu onun subyektləri arasında bağlanmış müqavilələr formasında həyata keçirilir. Yəni tibbi sığorta müqaviləsi qanunvericilikdə müəyyən olunmuş qaydada sığorta edənlə tibbi sığorta təşkilatları arasında bağlanan və sığorta olunana tibbi sığorta proqramına uyğun olaraq göstərilən tibbi yardımın maliyyələşdirilməsini və təşkilini müəyyən edən, sığorta olunanın digər mənafelərini müdafiə edən yazılı saziş kimi göstərilir. Tibbi sığorta şirkətləri ilə tibb müəssisələri arasında bağlanmış qarşılıqlı müqavilələr əsasında və onların qiymət preyskurantlarına əsasən hər bir sığortalanmış şəxs həmin tibb müəssisəsinə müraciət edə bilər. Onlar müfaviq sığorta şəhadətnaməsi və yaxud müvafıq plastik kart təqdim etməklə həmin tibbi sığorta proqramında nəzərdə tutulmuş xidmətlərindən istifadə edə bilərlər. Bütün bu işlərin hamısı bağlanmış qarşılıqlı müqavilələr əsasında tənzimlənir. Digər tərəfdən tibbi sığortanın təşkili üçün xüsusi bir obyekt var. Bu sığortalanmış şəxslərin səhhətində yaranan problemlərlə əlaqədər onların dərman təminatının təchiz edilməsi üçün apteklərlə əlaqələrin yaradılmasıdır. Təbii ki, bu gün Azərbaycanda çoxlu sayda apteklər var. Bundan başqa dərman təminatı ilə məşğul olan topdansatış fırmaları da fəaliyyət göstərir. Tibb müəssisələri bu firmalarla və apteklərlə müqavilə bağlayırlar. Bu müqaviləyə əsasən tibb müəssisəsi tərəfindən dərmanlar qeyd edilmiş tibbi sığorta şirkətinin resepti həmin fırmalara və yaxud apteklərə verilir və bu zaman sığortalananların dərman təminatı həyata keçirilir.

Beləliklə, əhalinin sağlamlıq səviyyəsini yaxşılaşdırmaq məqsədilə icbari tibbi sığorta ölkəmizdə həm sığorta işinin, həm də tibbi sığortanın inkişafı üçün bunlar vacibdir:

- icbari tibbi sığorta mexanizminin real tətbiqinə başlanılmalı;
- müvafiq hökumət strukturları arasında birgə işçi qrupu yaradılmalı;
- icbari ödənişlərin səviyyəsini müəyyən etmək üçün ölkə üzrə gözlənilən əmək haqqı fondunun səviyyəsi ilə ümumi səhiyyə xərcləri səviyyəsi dərindən təhlil olunmalı;
- icbari tibbi sığorta sisteminin bütün subyektləri tərəfindən resursların məqsədli, səmərəli istifadə ilə bağlı effektiv mexanizmlə təmin edilməli;
- tibbi sığortanın təşkilini inkişaf etdirmək üçün hər-hansı kütləvi informasiya vəsitəsində tibbi sığorta mövzusu ilə əlaqədar proqram hazırlanmalıdır. Həmin proqramda Respublikamızm əhalisinə tibbi sığorta, onun mahiyyəti, vacibliyi, insanlara verəcəyi fayda və s. haqqında geniş məlumat verilməlidir. Bu yolla insanların tibbi sığortaya olan marağını artırmaq və onları bu sistemə cəlb etmək daha rahat olar;
- sığorta işinin təşkilini yüksəltmək üçün həm də sığorta ilə məşğul olan əməkdaşların, əsasən də sığorta agentlərinin nəzəri və təcrübi sığorta biliklərini yüksəltmək, onların maksimum savadlandırılmasını təmin etmək lazımdır;
- dövlət tərəfındən sıgorta işinə maksimum dəstək verilməsini və sığorta şirkətlərinin fəaliyyətinə tam şərait yaradılmasını təmin etmək və s.

**Açar sözlər:** sığorta sistemi, tibbi sığorta, könüllü sığorta, icbari sığorta, sığorta müqaviləsi

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının “Sığorta fəaliyyəti haqqında” Qanunu. Bakı şəhəri, 25 dekabr 2007-ci il, № 519-IIIQ.
2. Azərbaycan Respublikasının “Tibbi sığorta haqqında” Qanunu. Bakı şəhəri, 28 oktyabr 1999-cu il № 725-IQ.
3. Ağayev A.Q. Azərbaycanda səhiyyə sığortasının cari inkişafı. Tədqiqat işi. Qrantın nömrəsi: C05-0105, Bakı: 2006, 55 s.
4. Məhərrəmov M.Y. Sığorta işi haqqında qısa məlumat və terminlər lügəti. Bakı: Vektor, 2003, 261 s.
5. http://www.sıgorta.maliyye.gov.az/
6. http://www.stat.gov.az/
7. http://www.fimsa.az/
8. http://siteresources.worldbank.org// Медицинское страхование: международный опыт.

**Шовги Кулиев**
**Азер Ибрагимов**

## МИРОВОЙ ОПЫТ ПРИМЕНЕНИЯ МЕДИЦИНСКОГО СТРАХОВАНИЯ

### Резюме

В статье анализируется роль медицинского страхования в системе социальной защиты и охраны здоровья населения. Рассматривается современное состояние обязательного медицинского страхования в таких странах, как Германия, Япония, Турция и Россия, а также проблемы, связанные с внедрением обязательного медицинского страхования в Азербайджане.

**Ключевые слова:** медицинское страхование, добровольное страхование, обязательное страхование, страховой договор

**Shovqi Quliyev**
**Azer İbrahimov**

## INTERNATIONAL EXPERIENCE IN THE IMLEMENTATION OF MEDICAL INSURANCE

### Summary

The role of medical insurance in the system of protection of public health and social protection was analyzed. Modern condition of compulsory medical insurance in German, Japan, Turkey and Russia was studied, the problems in this field and the issues related to the implementation of compulsory medical insurance in Azerbaijan were investigated in the article.

**Keywords:** medical insurance, voluntary insurance, compulsory insurance, insurance contract

**UOT – 336.02**

**Kifayət Xudaverdiyeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti, i.ü.f.d., dosent**
**e-mail: kifayat60@mail.ru**

# AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFINDA VERGİ DAXİLOLMALARI, VERGİ UÇOTU VƏ VERGİ SİYASƏTİNİN ROLU

*Azərbaycan iqtisadiyyatının inkişafında ölkədə həyata keçirilən vergi siyasətinin rolu danılmazdır. Məqalədə Azərbaycan Respublikasının büdcə gəlirlərində vergi daxilolmalarının payı müəyyən edilərək qiymətləndirilmiş, vergi uçotunun aparılmasının müxtəlif üsulları nəzərdən keçirilmiş, respublikamızda həyata keçirilən vergi islahatlarının nəticələri təhlil edilmişdir. Məqalədə nəticə olaraq qeyd edilir ki, vergi qanunvericiliyində aparılan əsaslı dəyişikliklər, dövlətimizin həyata keçirdiyi vergi siyasətini makroiqtisadi inkişafı stimullaşdıran səmərəli iqtisadi alətə çevirmiş, sahibkarlarla vergi xidməti əməkdaşları arasında münasibətlərin qarşılıqlı anlaşma əsasında qurulmasına səbəb olmuşdur.*

Azərbaycan Respublikasının vergi sistemində həyata keçirilən məqsədyönlü dəyişikliklər onun elastikliyinin kəmiyyət qiymətləndirilməsini qeyri-mümkün etmişdir. Bunun da əsas səbəbi vergi dərəcələrinin və vergitutma bazalarının dəyişməsini nəzərə alan düzəliş əmsallarının tətbiqi zərurətindən irəli gəlir. Əsas vergi növləri üzrə vergitutma şərtlərinin daim və tez-tez dəyişməsi şəraitində düzəliş əmsallarının müəyyən edilməsi praktiki olaraq qeyri-mümkündür. Belə ki, bir vergi növü üzrə verginin dərəcəsinin və vergitutma bazasının dəyişməsi digər vergilərin vergitutma bazasına öz əhəmiyyətli təsirini göstərir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasında vergiyə cəlb etmənin müasir konsepsiyasının elmi əsaslandırılması, vergi siyasətinin həyata keçirilməsi mexanizminin və vergitutma sisteminin təkmilləşdirilməsinin nəzəri-metodoloji prinsiplərinin yaradılması kimi bir sıra problemlər mövcuddur. Bu problemlərə - vergi sisteminin konseptual modelinin və onun həyata keçirilməsi mexanizminin formalaşdırılması; səmərəli vergi siyasətinin qurulması prinsiplərinin, onun taktika və strategiyasının müəyyən edilməsi; vergi tənzimlənməsi ilə dövlətin iqtisadi proseslərə büdcə, pul-kredit, valyuta-maliyyə vasitəsilə təsiri arasındakı qarşılıqlı əlaqələrin formalarının müəyyən edilməsi və s. aiddir.

Son illər ölkəmizin vergi qanunvericiliyində aparılan əsaslı dəyişikliklər, dövlətimizin yürütdüyü vergi siyasətini makroiqtisadi inkişafı stimullaşdıran səmərəli iqtisadi alətə çevirmiş, sahibkarlarla vergi xidməti əməkdaşları arasında münasibətlərin qarşılıqlı anlaşma əsasında qurulmasına səbəb olmuş, habelə vergi nəzarətinin təkmilləşdirilməsi vasitəsilə vergilərin vaxtında və tam həcmdə büdcəyə alınmasının təmin olunması məqsədilə vergi orqanlarının inzibati strukturunda adekvat islahatların hayata keçirilməsini zəruri etmişdir. Bütün ölkələrdə olduğu kimi, respublikamızın da vergi sistemi özünəməxsus çalarlara malikdir. Ümumiyyətlə, müxtəlif ölkələrin vergi sistemi müəyyən xüsusiyyətlərinə - vergilərin strukturuna, növlərinə, onların tutulma qaydasına, vergi dərəcələrinə, yerinə yetirdiyi fiskal funksiyanın səlahiyyət dairəsinə, vergi bazasına, vergi güzəştlərinə və s. görə bir-birindən fərqlənir. Əlbəttə ki, bu qanunauyğun haldır, çünki formalaşan hər bir vergi sistemi müxtəlif iqtisadi, siyasi və sosial şəraitə uyğunlaşaraq həmin ölkənin vergi rejimini tənzimləyən qanunverici qüvvədir. Lakin beynəlxalq vergi sistemləri müəyyən prinsipial fərqlərə malik olsalar da, onlar arasında oxşar cəhətlər də mövcuddur.

Hazırda ölkəmizdə beynəlxalq standartlara uyğun sivil vergi sistemi qurulsa da, dünya ölkələrinin bu sahədəki təcrübələrinin təhlili və öyrənilməsi, mövcud vergi sistemlərinin müqayisəsi,

respublikamızda aparılan islahatları, görülən işləri daha dəqiq qiymətləndirməyə əsas verir [9, s.85-126].

Dövlətin vergi siyasəti vergitutma sahəsində konkret məqsədə çatmaq üçün vergilər vasitəsilə manipulyasiyanı (istehsal həcminin artırılması və məşğulluğun təmin olunması və ya inflyasiya səviyyəsinin azaldılması və s.) nəzərdə tutur. Dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən olan fiskal siyasətin tərkib hissəsi olmaqla vergi siyasəti vergi sisteminin formalaşması və dəyişməsini nəzərdə tutan vergilərin növlərini, həmçinin hər bir verginin dövlət büdcəsinin formalaşmasındakı rolunu, vergilərin dərəcələrini və diferensiasiyasını, vergi güzəşt, imtiyaz və kreditlərini, vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsi mexanizmini müəyyən edir.

Formalaşma və həyata keçirilmə xüsusiyyətlərindən asılı olaraq, təcrübədə vergi siyasətinin iki istiqaməti fərqləndirilir: diskriminasiya xarakterli vergi siyasəti və qeyri-diskriminasiya xarakterli vergi siyasəti. İdeal cəmiyyət olmadığı kimi, diskriminasiyasız vergi sistemi, o cümlədən vergi siyasəti də mümkün deyil. İqtisadi inkişafın səviyyəsindən və mərhələlərindən (keçid iqtisadiyyatı, fövqəladə vəziyyət və s. ) asılı olaraq diskriminasiya xarakterli vergi siyasəti aparıla bilər.

İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da aparılan islahatların və vergi sisteminin təkmilləşdirilməsinin əsas prinsipi vergi yığımının sivil üsullarla aparılmasıdır. Deməli, vergi islahatının keçirilməsi prinsiplərinin seçilməsi yalnız vergiqoymanın optimallaşdırılması məqsədindən deyil, həm də ölkədə islahatların sosial və iqtisadi imkanlarından çıxış etməlidir. Ümumiyyətlə, vergi islahatı son nəticədə iqtisadiyyatın səmərəliliyinin artırılmasını və ölkənin ümumi iqtisadi inkişafını təmin etməlidir [6, s.103-111].

Hazırda ölkəmiz daha yüksək sosial-iqtisadi dirçəliş mərhələsinə qədəm qoymaqdadır. Bu gun qarşıya innovativ və yeni çağırışlara cavab verən müasir iqtisadi sistemi formalaşdırmaq məqsədi qoyulmuşdur. Sözügedən sistemi qurmaq üçün 19 noyabr 2011-ci ildə prezident İlham Əliyev tərəfindən “Azərbaycan 2020: gələcəyə baxış” Konsepsiyasının hazırlanması ilə bağlı sərəncəm imzalanmışdır. Konsepsiyada ilk növbədə, ümumi daxili məhsulun artımını qeyri-neft-qaz sektorunun inkişafı hesabına təmin etmək, iqtisadiyyatın diversifikasiya prosesini sürətləndirmək, ümumi daxili məhsulun tərkibində və dövlət büdcəsinin formalaşmasında təbii ehtiyatlar amilinin azaldılması, qeyri-neft amilinin regionların hesabına üstünlüyünun təmin edilməsi, ixracın təşviq edilməsi və yerli müəssisələrin xarici bazarlara çıxışına nail olmaq əsas məqsədlərdir.

Həyata kecirilən transformasiyanın mühüm tərkib hissələrindən biri “Azarbaycan Respublikasında vergi inzibatcılığının təkmilləşdirilməsi dövlət proqramı”nın reallaşdırılması olmuşdur. Ölkə Prezidentinin 2005-ci il 12 sentyabr tarixli sərəncamı ilə təsdiq olunmuş dövlət proqramının həyata keçirilməsi nəticəsində vergi orqanlarında idarəetmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, vergilərin könüllü ödənilməsi sisteminin, vergi ödəyicilərinin hüquqlarının qorunması, vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi, vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması istiqamətində mühüm işlər gorülmüşdür. Vergi orqanlarının ən mühüm strateji məqsədlərini müəyyən edən dövlət proqramının icrası çərçivəsində 5 əsas strateji istiqaməti əhatə edən tədbirlər kompleksi həyata kecirilmişdir. ABŞ Xəzinədarlıq Departamentinin, Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının ekspertləri vergi inzibatcılığının təkmilləşdirilməsi üzrə dövlət proqramını inkişaf edən ölkələr və MDB dövlətləri ücün nümunəvi strateji proqram kimi qiymətləndirmişlər. 2006-cı ildə vergi menecmentinin elektron qaydada qurulmasına imkan verən Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) tətbiqinə nail olunmuşdur. Vergilər Nazirliyi digər dövlət strukturları və qurumlarla elektron məlumat mübadiləsi qurmuşdur. Vergilər Nazirliyi ilə Mərkəzi Bank və banklar arasında elektron sənəd mübadiləsi haqqında kollektiv saziş imzalanmışdır [11, s.105-112].

Vergi dərəcələrinin azaldılması real sektorda büdcə gəlirinin bir hissəsinin saxlanılması məqsədilə qəbul edilmişdir. Başqa sözlə, bu tədbirlər iqtisadi fəallığın stimullaşdırılmasına yönəlmiş və

onun sayəsində müəssisələrin gəlir və mənfəəti artmış, nəticədə vergitutma bazasının genişlənməsi hesabına dövlət büdcəsinə daxilolmalar artmışdır. Vergilər Nazirliyinin 2010-cu ildə tətbiq etməyə başladığı innovativ texnologiyalardan biri də "onlayn karguzarlıq" sistemidir. Bu sistem vasitəsilə hökumət quruculuğunun əsas tərkib hissələri olan "vətəndaş-dövlət", "biznes-dövlət" və "biznes-biznes" münasibətləri müasir beynəlxalq standartlar səviyyəsində təşkil edilmişdir. 2010-cu ildən etibarən nəğd hesablaşmaların aparılması üzərində nəzarət tədbirlərinin gücləndirilməsi məqsədilə vergi ödəyicilərinin nəzarət-kassa aparatlarının yaddaşındakı məlumatların GPRS şəbəkəsi vasitəsilə vergi orqanlarının məlumat bazasına oturulmasına başlanılmışdır. 2011-ci il yanvar ayının 1-də 2011-2015-ci illəri əhatə edən "Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin İnkişafı Konsepsiyası" təsdiq olunmuş, vergilərin könüllü ödənilməsi sisteminin təkmilləşdirilməsi və daha əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə vergi ödəyicilərinə xidmət terminalları yaradılmışdır [13, s.4-7].

Dövlət büdcəsinə vergi daxilolmaları. Cədvəl məlumatlarından göründüyü kimi 2015-ci ildə dövlət büdcəsinə 17498,0 mln. manat vəsait daxil olmuşdur ki, bunun da 7118,2 mln. manatı vergi daxilolmalarının payına düşür. Bu da əvvəlki illərlə müqayisədə vergi daxilolmalarının artması deməkdir.

**2011-2015-ci illərdə Dövlət büdcəsinə vergi və digər ödənişlər üzrə daxilolmalar (mln. manatla)**

**cədvəl 1**

| **Vergi və digər ödənişlər** | **Daxilolmalar (mln. AZN)** | | | | |
|---|---|---|---|---|---|
| | **2011** | **2012** | **2013** | **2014** | **2015** |
| **Gəlirlər - cəmi** | **15700.7** | **17281.5** | **19496.3** | **18400.6** | **17498.0** |
| Əlavə dəyər vergisi | 2222.7 | 2366.9 | 2710.0 | 3119.6 | 3454.7 |
| Aksiz vergisi | 480.2 | 531.5 | 593.3 | 797.3 | 647.8 |
| Mənfəət vergisi | 2134.0 | 2252.0 | 2374.8 | 2302.7 | 2211.1 |
| Torpaq vergisi | 35.3 | 30,6 | 33.1 | 35.4 | 48.7 |
| Fiziki şəxslərdən gəlir vergisi | 715.7 | 813.0 | 859.7 | 980.3 | 982.5 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 433.1 | 592.5 | 675.2 | 684.7 | 934.5 |
| Mədən vergisi | 129.8 | 125.8 | 121.5 | 116.2 | 116.1 |
| Əmlak vergisi | 103.9 | 105.1 | 125.1 | 141.3 | 148.2 |
| Sair gəlirlər | 140.6 | 157.6 | 161.5 | 192.7 | 247.7 |
| Digər gəlirlər | 9305.4 | 10306.5 | 11842.1 | 10030.4 | 8706.7 |

***Mənbə: http://www.taxes.gov.az/modul.php?name=statistika***

**2011-2015-ci illər üzrə ÜDM, büdcə gəlirləri və vergi daxilolmaları (mln. manatla)**

**Cədvəl 2.**

| **Göstəricilər** | **2011** | **2012** | **2013** | **2014** | **2015** |
|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul | 52082.0 | 54743.7 | 58182.0 | 59014.1 | 54352.1 |
| Büdcə gəlirləri | 15700.7 | 17281.5 | 19496.3 | 18400.6 | 17498.0 |
| Vergi daxilolmaları | 5 475,1 | 6 025,2 | 6 663,6 | 7 113,6 | 7 118,2 |
| Vergi daxilolmalarının ÜDM-də xüsusi çəkisi, % | 10,5 | 11,0 | 11,5 | 12,1 | 13,1 |
| Vergi daxilolmalarının büdcə gəlirlərində xüsusi çəkisi, % | 34,9 | 34,9 | 34,2 | 39,7 | 40,7 |

***Mənbə: http://www.taxes.gov.az/modul.php?name=statistika***

Dünya Bankının “Doing Business 2012” və PWC şirkətinin “Paying Taxes 2012” hesabatlarına əsasən, vergi qanunvericiliyinin normalarına riayət edilməsinin sadəliyi subindikatorları üzrə Azərbaycanın göstəriciləri istər regional, istərsə də orta dünya göstəricilərindən yüksəkdir. Ölkəmiz “Paying Taxes 2012” hesabatında 2011-ci ildə vergi ödəmələrinin sadəliyi reytinqində 26 pillə irəliləmişdir.

Respublikamızda iqtisadiyyatın, o cümlədən büdcə sisteminin tənzimlənməsi üçün vergi sistemi qarşısında duran əsas məqsədləri, əsasən, aşağıdakı kimi qruplaşdırmaq olar:

- ilk növbədə vergi sistemi maksimal dərəcədə sadələşdirilməlidir, çünki vergi sisteminin mürəkkəbliyi inzibati xərclərin artmasına səbəb olur ki, bu vergi ödəyicilərinin ayrı-ayrı qrupları arasında vergi yükünün qeyri-bərabər bölüşdürüldüyü fikrinə inam yaradır;
- vergi sisteminin stimullaşdırıcı rolu artırılmalıdır.

Respublikada aparılan vergi siyasəti vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsinə, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılmasına, hüquqi şəxslərlə fərdi sahibkarlar arasında, rezident və qeyri-rezident vergi ödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsinə, biznes fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına, mövcud iqtisadi potensialın artırılmasına və əhalinin maddi rifahının yüksəldilməsinə yönəldilmişdir.

Azərbaycan Respublikasında iqtisadi siyasətin tərkib hissəsi olan vergi islahatları aşağıdakı başlıca prinsiplərə əsaslanır:

-ümumi məqsədyönlülük, yəni vergi sisteminin qurulmasında və səmərəliliyinin yüksəldilməsində, onun iqtisadi inkişafa məcmu təsirindən çıxış edilməsi;

- sədəlik, yəni vergilərin müəyyən edilməsi və onların yığılması sahəsində hər cür bürokratik mənеələrin aradan qaldırılması, tətbiq olunan çoxsaylı hesabat formalarının sayının minimuma endiriməsi və müəssisələrin mühasibat bölmələrinin işindəki gərginliyin azaldılması;
- fiskal səmərəlilik, yəni dövlətin və vergi ödəyicilərinin vergilərin yığılması ilə bağlı xərclərinin vergi daxilolmalarından dəfələrlə az olması;
- vergiləri ödəməkdən yayınma meyillərinə sədd çəkilməsi, yəni bu və ya digər verginin tətbiqi və onun yığılması qaydalarının müəyyən edilməsi zamanı onun ödənilməsindən yayınmanın qarşısının alınması üçün müvafiq normativ-hüquqi bazanın yaradılması və onun tətbiqi;
- universallıq, yəni vergi dərəcələrinin və gəlirlərinin bölüşdürülmə normativlərinin maksimum universallığının təmin edilməsi, müxtəlif kateqoriyalı vergi ödayicilərinə, sahələrə və fəaliyyət növlərinə vergitutma məqsədi ilə yanaşma müxtəlifliyinin təmin edilməsi;
- ictimai faydalı fəaliyyət növlərinin inikşafının stimullaşdırılması və zərərli fəaliyyət növlərinin qarşısının alınması, yəni, səmərəli vergi sistemi qurmaqla istehsal təyinatlı investisiya fəaliyyətinin və iqtisadi fəallığın artırılması hesabına cəmiyyət qarşısında duran problemlərin həll edilməsinin, ekoloji proqramların həyata keçirilməsinin, ətraf mühit və insanın sağlamlığı və fəaliyyəti üçün təhlükə törədən fəaliyyət növlərinin qarşısının yüksək vergilər müəyyən etməklə alınmasının təmin edilməsi;
- büdcənin və vergi ödəyicilərinin gəlirlərinin inflyasiyadan müdafiəsi, yəni büdcənin maraqları çərçivəsində inflyasiya amilinin nəzərə alınması, vergi ödəyicilərinin müflisləşməsinin və vergiyə cəlb olunan bazanın azalmasının qarşısının alınması, vergi ödəyicilərinin hüquqlarının qorunmasının maksimum təmin edilməsi.

Vergi uçotunun təşkili və əsas prinsipləri. Vergitutma üçün mühasibat uçotunun əsas əhəmiyyəti ondan ibarətdir ki, onun materialları müəssisələrin dövriyyəsi, mənfəəti və digər göstəriciləri barədə geniş məlumat əldə etməyə imkan verir. Vergi uçotu sistemi vergi ödəyicisi tərəfindən müstəqil surətdə təşkil edilir və aşağıdakı əsas prinsiplərə uyğun gəlməlidir:

- ardıcıllıq, yəni, vergi uçotunun norma və qaydaları bir vergi dövründən digərinə ardıcıl olaraq tətbiq edilməlidir;
- fasiləsizlik, yəni, vergitutma məqsədləri üçün uçot obyektləri xronoloji qaydada fasiləsiz olaraq əks etdirilməlidir;
- tamlıq, yəni, məlumatların analitik uçotu vergitutma bazasının formalaşması qaydasını tam açmalıdır.

Vergi uçotunun məlumatları vergi ödəyicisinin sənədlərində əks olunan uçot obyektini müəyyən edən göstəricilərin kəmiyyəti və digər xarakteristikaları barədə informasiyadır. Vergi uçotunun məlumatları aşağıdakıları əks etdirməlidir:

- gəlir və xərclərin məbləğinin formalaşması qaydası;
- cari vergi dövründə vergitutma məqsədləri üçün nəzərə alınan xərclərin xüsusi çəkisinin müəyyən edilməsi qaydası;
- növbəti vergi dövrünün xərclərinin tərkibinə daxil ediləcək xərclərin qalıq məbləği;
- yaradılan ehtiyatların məbləğinin formalaşması qaydası;
- mənfəət vergisi üzrə büdcə ilə hesablaşmalarda borcun məbləği.

Vergi uçotu məlumatlarının düzgünlüyünü təsdiq edən sənədlər aşağıdakılardır:

- ilkin uçot sənədləri;
- vergi uçotunun analitik registrləri;
- vergitutma bazasının hesablanması.

İlkin uçot sənədləri iqtisadi subyektin apardığı bütün təsərrüfat əməliyyatlarının rəsmiləşdirildiyini təsdiq edən sənədlərdir. Vergi uçotunun analitik registrləri yalnız vergitutma məqsədləri üçün tətbiq olunan xüsusi sənədlərdir. Vergitutma bazasının hesablanması vergi uçotu məlumatlarının ümumiləşdirilmiş nəticəsidir. Vergi uçotunun qarşısında duran vəzifələri həll etmək üçün onun aşağıdakı üsullarını qeyd etmək olar:

- vergi uçotu göstəricilərinin müəyyən edilməsi;
- “vergi maya dəyərinin” hesablanması;
- vergitutma bazasının formalaşması üsulunun müəyyən edilməsi;
- vergi diskontunun təyin edilməsi;
- vergi dövrünün müəyyən edilməsi;
- xüsusi vergi sənədlərinin aparılması [12, s.101-105].

Vergi uçotu göstəricilərinin müəyyən edilməsi mühasibat uçotunun məlumatlarına əsaslanır, yalnız vergitutma məqsədləri üçün istifadə olunur. Qeyd etməliyik ki, vergi uçotu göstəricisi olan mənfəət göstəricisi mühasibat uçotu göstəricisi olan balans mənfəəti göstəricisi ilə sıx bağlıdır, lakin onunla üst-üstə düşmür. “Vergi maya dəyəri” uçot-vergi göstəricisinin mühasibat uçotu metodikasından fərqli qaydada təyin edilməsini əks etdirir. Yəni, müəssisənin çəkdiyi xərclər vergitutma məqsədləri üçün müəyyən edilmiş limit, norma və normativlər nəzərə alınmaqla müəyyən edilir. Vergitutma bazasının formalaşması üsulunun müəyyən edilməsi vergi öhdəliyinin yarandığı anı düzgün təyin etmək üçün zəruridir. İki əsas üsul mövcuddur: kassa üsulu və hesablaşma üsulu. Vergi Məcəlləsinin 130.4-cü maddəsinə əsasən vergi ödəyicisi vergi ili ərzində eyni metodu tətbiq etmək şərti ilə vergilərin uçotunu kassa metodu və ya hesablaşmalar metodu ilə apara bilər. Birinci üsul vəsaitlərin alındığı və ödənişlərin həyata keçirildiyi anı nəzərə alır. Yəni, Vergi Məcəlləsinin 132.1-ci maddəsinə əsasən vergi ödəyicisinin nağd pul vəsaitlərini aldığı, nağdsız ödəmədə isə pul vəsaitinin bankda onun hesabına və ya sərəncamçısı ola biləcəyi hesaba, yaxud göstərilən vəsaiti almaq hüququna malik olacağı hesaba daxil olduğu vaxt gəlirin əldə edildiyi vaxt sayılır. İkinci üsuldan istifadə edildikdə isə mülkiyyət hüququnun və öhdəliklərin yarandığı an nəzərə alınır. Deməli,

gəlir əldə edilməsinin faktiki vaxtından asılı olmayaraq gəlir almaq hüququnun yarandığı vaxt gəlirin əldə edildiyi vaxt sayılır. Vergi Məcəlləsinin 135.1-cü maddəsinə əsasən müvafiq məbləğ vergi ödəyicisinə qeyd-şərtsiz ödənilməlidirsə, yaxud vergi ödəyicisi əqd və ya müqavilə üzrə bütün öhdəliklərini yerinə yetirmişdirsə, bu vaxt gəliri almaq hüququ əldə edilmiş sayılır [1, s.189-192].

Vergi güzəştləri vergi siyasətinin həyata keçirilməsinin səmərəli alətlərindən biridir. Vergi ödəyicilərinə bu və yə digər vergi güzəştlərini verməklə dövlət müxtəlif iqtisadi proseslərə vergi tənzimlənməsinin təsirini fəallaşdırır. Bununla yanaşı olaraq qeyd etmək lazımdır ki, vergi güzəştləri verilərkən müəyyən bir nisbəti gözləmək lazımdır. Birincisi, vergi güzəştlərinin çoxluğu vergitutma bazasının azalmasına səbəb olur. İkincisi isə, güzəştlərlə tənzimləmə vergi ödəyicilərinin bərabərliyi prinsipini pozur.

Vergi yükünün bütün vergi ödəyiciləri arasında bərabər və ədalətli bölüşdürülməsi məsələsi prinsipial əhəmiyyət kəsb edir. Dünya təcrübəsi göstərir ki, büdcə gəlirlərinin sadəcə olaraq vergi dərəcələrinin yüksəldilməsi hesabına artırılması uzun müddət davam edə bilməz. Bununla əlaqədar olaraq əsas xüsusiyyətləri aşağıdakılardan ibarət olan yeni vergi sisteminin yaradılması zərurəti meydana çıxır:

- dövlət öz ehtiyaclarını ödəmək üçün sabit, zəruri məbləğdə və tələb olunan müddətdə gəlir əldə etməlidir. Dövlət gəlirlərinin daxilolması (vergilərin yığılması) arzuolunmaz kənarlaşmalardan qorunmalıdır;
- vergi sistemi vergi yükünün bütün ödəyicilər arasında ədalətli və proporsional bölüşdürülməsini təmin etməlidir;
- vergilər təsərrüfat fəaliyyətinin iqtisadi səmərəliliyinin təmin olunması üçün şərait yaratmalı və maliyyə resurslarının bölüşdürülməsinə təhrif olunmuş təsir göstərməməlidir;
- dövlət gəlirləri sistemi yığımı və investisiyaların inkişafını stimullaşdırmalı, iqtisadi artımı həvəsləndirməli, beynəlxalq bazarda Azərbaycan mallarının rəqabət qabiliyyətini təmin etmək üçün zəmin yaratmalıdır;
- vergi siyasəti və vergi sistemi ayrı-ayrı vergi ödəyicilərinin problemlərinin həllinə deyil, dövlət büdcəsinin gəlirlərinin təmin edilməsinə yönəldilməlidir;
- vergitutmanın qanunvericilik bazası aydın, anlaşıqlı və daxilən ziddiyyətsiz olmalıdır;
- vergi ödəyiciləri vergi qanunları və onlara edilmiş düzəlişlərlə tanış olmaq, həmçinin normativ-hüquqi sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək imkanına malik olmalıdırlar;
- vergilərin yığılmasına dövlətin çəkdiyi xərclər əlverişli səviyyədə saxlanılmaqla, vergitutma sistemi tətbiq olunarkən mürəkkəbliyə və dolaşıqlığa səbəb olmamalıdır [4, s.46-51].

Vergi sisteminin elastikliyini xarakterizə edən əmsallar müəyyən dövr ərzində vergi daxilolmalarının həcminin nisbi dəyişməsini Ümumi Daxili Məhsulun (ÜDM) həcminin nisbi dəyişməsi ilə müqayisə etməklə təyin olunur. Bu əmsallar ÜDM-un həcmi 1% dəyişdikdə vergi daxilolmalarının həcminin nə qədər dəyişdiyini xarakterizə edir. Vergi sisteminin elastiklik əmsalının dayanıqlıq əmsalından prinsipial fərqi ondadır ki, bu əmsallardan birincisi sabit vergi sistemi şəraitində (vergi dərəcələri sabit qalır və vergitutma bazaları dəyişmir), ikincisi isə mövcud vergilərdə dəyişiklikləri və yeni vergilərin daxil edilməsini nəzərdə tutur. Elastiklik əmsalının kəmiyyətinin aşağı olması və yaxud, əksinə, vahiddən əhəmiyyətli dərəcədə yüksək olması milli vergi sistemində ciddi dəyişikliklərin aparılmasını zəruri edir. Elastiklik və dayanıqlıq əmsallarını bütövlükdə ölkənin vergi sistemi üzrə, həmçinin ayrı-ayrı vergi növləri üzrə də hesablamaq mümkündür [8, s.208-232].

Vergi sisteminin mürəkkəbliyi isə inzibati idarəetmə xərclərinin artmasına, ayrı-ayrı vergi ödəyiciləri arasında olan vergi yükünün qeyri-bərabərliyi haqqındakı fikrin daha geniş yayılmasına səbəb olur. Deməli, vergitutma islahatının əsas xüsusiyyəti onun ölkənin mövcud iqtisadi imkanından və əhalinin hüquqi şüurundan asılı olaraq həyata keçirilməsidir. Hüquqi məsuliyyət səviyyəsi

aşağı olan vergi ödəyicilərinin gəlirlərini vergiyə tam cəlb etmək və onlar üzərində nəzarətin səmərəliliyini təmin etmək məqsədilə hökumət vergi ödəyicilərindən öz gəlirləri və ödənilən dividentləri barədə rəsmi məlumat verilməsini tələb edir [7, s.37-62].

Hal-hazırda ölkənin vergi sistemi investisiya qoyuluşu sahəsində daxili mənbələrin prioritetliyinin təmin edilməsinə imkan yaradır. Bunun üçün üç prinsipial mövqe nəzərə alınır. Birincisi, Azərbaycanın sosial-siyasi inkişafının spesifik xüsusiyyəti, onun iqtisadiyyatının bazar prinsipləri əsasında təşəkkülünün başlanğıc mərhələsində olması, maliyyə resurslarının dövlət büdcəsində həddindən artıq mərkəzləşməsi və s. İkincisi, mülkiyyətə olan münasibətin dəqiq müəyyənləşdirilməsi zəruriliyi. Buna nail olmadan müəyyən ölkənin iqtisadi inkişafının sabit strategiyasını müəyyən etmək, bütün istehsal sferalarında, xüsusilə, vergi sistemində islahatlar aparmaq olmaz. Üçüncüsü, bazar münasibətlərinə keçid şəraitində dövlət xərclərinin səmərəliliyi məsələsinə ciddi fikir vermək lazımdır.

Hər hansı dövlətin vergi sistemi adətən, 3 amillə müəyyən olunur:

- cəmiyyətin iqtisadi quruluşu;
- dövlətin sosial siyasəti;
- dövlətin inkişaf strategiyasının konkret məqsədləri.

Vergitutmanın beynəlxalq təcrübəsinə əsasən dolayı və birbaşa vergilər arasında nisbət konkret tarixi zamanda konkret ölkədə iqtisadi, milli və dövlətin ərazi xüsusiyyətlərindən asılıdır.

Bazar iqtisadiyyatına malik ölkələrin təcrübəsi göstərir ki, dolayı və birbaşa vergilər arasında nisbət 2 həlledici amildən asılıdır: ölkə əhalisinin əsas kütləsinin yaşayış səviyyəsindən və bu və ya digər vergilərə qarşı yaranmış stereotipdən.

Əgər vergi sistemində dolayı və əmlak vergisi xüsusi vurğulanırsa, deməli, həmin ölkə çox ehtimalla, sənayecə zəif inkişaf etmiş ölkədir. Əgər vergilərin strukturunda birbaşa vergilər (əsasən vətəndaşların gəlirləri) üstünlük təşkil edirsə, burada söhbət yüksək inkişaf etmiş iqtisadiyyata malik ölkədən gedir [10, s.202-205].

Ölkədə həyata keçirilən sosial-iqtisadi dəyişikliklər bazar iqtisadiyyatının tələblərinə uyğun adekvat vergi tənzimlənməsi sisteminin formalaşdırılmasını obyektiv zərurətə çevirir.

**Açar sözlər:** vergi daxilolmaları, vergi uçotu, vergi siyasəti, vergi islahatları

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı: Hüquq Yayın Evi, 2016, 359 s.
2. Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı (2005-2007-ci illər) http://www.taxes.gov.az/modul.php?name=qanun&news=431
3. “Azərbaycan 2020: gələcəyə baxış” Konsepsiyası. 19 noyabr 2011-ci il. http://www.president.az/files/future_az.pdf
4. Azərbaycanın vergi sistemi. Bakı: 2015, 168 s.
5. Dövlət büdcəsinə vergi və sair daxilolmalar haqqında məlumat. http://www.taxes.gov.az/modul.php?name=statistika
6. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri, Bakı: Təfəkkür NPM, 2005, 468 s.
7. Kəlbiyev Y.A. Vergi nəzarətinin təşkilinin nəzəri və praktiki aspektləri // Azərbaycanın vergi jurnalı, 2011, №2, s.37-62.
8. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. Vergilər və vergitutma (dərslik), Bakı: CBS PP, 2010, 508 s.
9. Мусаев А.Ф., Садыгов М.М., Магеррамов Р.Б., Салаев Р.А. Налоги и налогообложение в

Азербайджане. Баку: Элм, 2005, 529 с.
10. Попонова Н.А., Нестеров Г.Г., Терзиди А.В. Организация налогового учета и налогового контроля. М.: Эксто, 2006, 624 с.
11. Rzayev Z.H. Vergi menecmenti. Bakı: CBS PP, 2007, 324 s.
12. Rzayev P.Q. Vergi və mühasibat uçotu məqsədləri üçün iqtisadi subyektin uçot siyasətinin formalaşması xüsusiyyətləri // Azərbaycanın vergi jurnalı, 2014, №4 (118), s.101-105
13. Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı Konsepsiyası (2011-2015), Bakı: 2011, 24 s.

**Кифаят Худавердиева**

## РОЛЬ НАЛОГОВЫХ ПОСТУПЛЕНИЙ, НАЛОГОВОГО УЧЕТА И НАЛОГОВОЙ ПОЛИТИКИ В РАЗВИТИЕ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА

### Резюме

Значительную роль в развитии экономики играет налоговая политика. В статье дана оценка налоговых наступлений в бюджет, рассмотрены различные методы налогового учета, анализированы результаты налоговых реформ в стране. Отмечается что проводимые изменения в налоговом законодательстве, стали причиной превращения налоговой политики в эффективное экономическое средство, стимулирующие макроэкономическое развитие, привело к созданию отношений между предпринимателями и должностными лицами налоговых органов на основе взаимопонимания.

**Ключевые слова:** налоговые поступления, налоговый учет, налоговая политика, налоговые реформы

**Kifayat Khudaverdiyeva**

## THE ROLE OF TAX POLICY, TAX ACCOUNTING AND TAX REVENUES IN THE DEVELOPMENT OF AZERBAIJAN ECONOMY

### Summary

The tax policy plays an important role in the development of economy. The share of tax revenues in the budget is given, different methods of tax accounting are reviewed, the results of tax reforms in the country are analyzed in the article. The major changes in the tax legislation turns the tax policy into the effective economic tool stimulating macroeconomic growth, they lead to the establishment of relations between entrepreneurs and tax officials.

**Keywords:** tax revenues, tax accounting, tax policy, tax reforms

**UOT – 342**

**Kutais Sarıyev**
**Bakı Dövlət Universiteti, i.ü.f.d., dosent**

# AZƏRBAYCANDA SAHİBKARLIĞIN İNKİŞAFININ PRİORİTET İSTİQAMƏTLƏRİ

*Məqalədə Azərbaycanda sahibkarlıq strategiyasının əsas istiqamətləri və müasir təzahür formaları, innovativ sahibkarlığın formalaşmasının əsas inkişaf meyilləri şərh olunur. Sənaye sahələrinin inkişafının prioritet istiqamətləri, regional sahibkarlığın tarazlı inkişafına təsir edən amillər və onların fərqləndirici xüsusiyyətləri araşdırılır.*

Müasir dövrdə Azərbaycanda sahibkarlıq strategiyası dövlətin iqtisadi siyasətinin ana xəttini təşkil edir. Ölkədə sahibkarlıq strategiyasının əsası ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş və məqsədyönlü siyasət nəticəsində ölkədə bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan milli iqtisadiyyatın formalaşmasına yol açılmışdır. Ardıcıl surətdə həyata keçirilən iqtisadi islahatlar ölkədə sahibkarlığın davamlı inkişafına əlverişli zəmin yaratmışdır. Belə ki, bu islahatlar nəticəsində ölkədə sahibkarlıq fəaliyyətinin, o cümlədən sahibkarlığın inkişafına dövlət himayəsinin gücləndirilməsi, sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması, dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi, lisenziya verilən fəaliyyət növlərinin sayının optimallaşdırılması və bu kimi digər vacib məsələlərin tənzimlənməsi ilə əlaqədar mütərəqqi hüquqi-normativ baza, institusional və iqtisadi mexanizmlər yaradılmışdır. Ölkədə həyata keçirilmiş geniş miqyaslı iqtisadi islahatlar nəticəsində Azərbaycanda sahibkarlar təbəqəsi formalaşmışdır. Hazırda özəl sektorun ümumi daxili məhsulda payı 81,9%, vergi daxilolmalarında 70,4%, məşğulluqda 73,4% təşkil edir [5, s.1].

Ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsulların istehsal edilməsi Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir.

Bu sahədə həyata keçirilən dövlət siyasəti növbəti mərhələdə də biznes və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, dövlət himayəsinin təkmilləşdirilməsinə, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsinə, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təsisatların yaradılmasına və onların səmərəli fəaliyyətinin təmin edilməsinə yönəldiləcəkdir.

Gələcək dövr üçün sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin aşağıdakı prioritet istiqamətlər üzrə həyata keçirilməsi nəzərdə tutulur:

- Sahibkarlıq fəaliyyəti sahəsində dövlət tənzimlənməsinin səmərəliliyinin artırılması;
- Lisenziyalar və icazələr sisteminin daha da təkmilləşdirilməsi;
- Sahibkarlığın, xüsusilə regional sahibkarlığın maliyyə təminatının təkmilləşdirilməsi və alternativ maliyyə mənbələrinin aşkar olunması;
- Kiçik və orta sahibkarların maliyyələşmə imkanlarının daha da genişləndirilməsi;
- Yeni fəaliyyətə başlayan sahibkarlara dəstək göstərilməsi;
- Aparıcı sahələrdə sahibkarlığın inkişafına yönəldilmiş təşkilati-iqtisadi tədbirlərin əhatə dairəsinin genişləndirilməsi;
- Ölkənin ixrac potensialının artırılması məqsədilə rəqabətqabiliyyətli məhsulların istehsalına daha çox diqqət yetirilməsi və xarici bazarlarda onların mövqelərinin möhkəmləndirilməsi;
- Ölkədə innovativ sahibkarlığın inkişafının daha da genişləndirilməsi və bu sferaya dövlət tərəfindən maliyyə dəstəyi edilməsi;
- Sənaye istehsalı sahəsində sahibkarlıq fəaliyyətinin inkişafına daha çox diqqət yetirilməsi;

- İstehsal sahibkarlığının dəstəklənməsi məqsədilə dünya praktikasında tanınmış modellərdən istifadə olunması, xüsusilə, sənaye parkları, sənaye məhəllələri, biznes-inkubatorlar və s. yaradılması işlərinin davam etdirilməsi;
- Kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədilə təsərrüfat subyektləri arasında əlaqələrin genişləndirilməsi;
- Sahibkarlıq subyektlərinə əlverişli biznes mühitinin yaradılması və həmin imkanlardan istifadə olunması;
- Dövlət-sahibkar münasibətlərinin ardıcıl olaraq təkmilləşdirilməsi;
- Kiçik və orta sahibkarların ixrac imkanlarının genişləndirilməsi məqsədilə mütəmadi olaraq tədbirlərin keçirilməsinə diqqət yetirilməsi;
- Ölkədə sahibkarlığın məsləhət, informasiya təminatı və kadr hazırlığı sisteminin təkmilləşdirilməsi;
- Sahibkarlığın istehsal, bazar və sosial infrastruktur sisteminin yaxşılaşdırılması, o cümlədən, müasir bazar infrastrukturunun (maliyyə, bank və sığorta sisteminin, lizinq, françayzinq kimi xidmətlərin) imkanlarından istifadə olunması [2, s.8-10].

Yaxın perspektivdə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən sahibkarlığın inkişafına dövlət dəstəyi sahəsində həyata keçiriləcək prioritetlər aşağıdakılardan ibarətdir:

- Qeyri-neft sektorunun şaxələndirilməsi və onun potensialından səmərəli istifadə olunması;
- İqtisadiyyatın prioritet sahələrində sahibkarlığın inkişafına daha çox üstünlük verilməsi;
- Qeyri-neft ixracın şaxələndirilməsi və artırılması ilə bağlı tədbirlərə maliyyə dəstəyinin göstərilməsi;
- Respublikanın dağ və dağətəyi rayonlarında, sərhəd və cəbhə bölgələrində, məcburi köçkün qəsəbələrində fermerlərin güzəştli kreditlərə olan ehtiyacına daha çox diqqət yetirilməsi;
- Sahibkarlığın inkişafının stimullaşdırılması tədbirlərinin davam etdirilməsi.

Azərbaycanın uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin olunmasında iqtisadiyyata yönəldilmiş investisiyaların xüsusi rolu vardır. Bu məqsədlə investisiya mühitinin yaxşılaşdırılması aşağıda qeyd olunan vəzifələrdən daha çox asılıdır:

- Mülkiyyətin formasından asılı olmayaraq bütün investorlar üçün daha əlverişli rəqabət mühitinin yaradılmasına:
- Azərbaycanda xarici investisiyaların cəlbediciliyinin artırılması;
- Xüsusi mülkiyyətə əsaslanan təsərrüfat subyektlərinin dövlət tərəfindən müdafiə olunması;
- İnvestisiya obyektlərinin seçimi və təhlili məqsədi ilə onların məlumatlandırılması sisteminin təkmilləşdirilməsi;
- İnvestisiyaların əsasən qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsi;
- Dövlətin regional investisiya siyasətinin təkmilləşdirilməsi;
- Ölkədə dövlətin investisiya siyasətinin sosial istiqamətinin daha da gücləndirilməsi;
- Ölkənin iqtisadi təhlükəsizliyinin milli iqtisadi mənafelərə uyğunlaşdırılması;
- Texnologiyaların və nanotexnologiyaların inkişafına investisiyaların cəlb olunması;
- Elm tutumlu investisiyalarının genişləndirilməsi;
- Ölkədə yaradıcılacaq sənaye parklarına yönəldilən investisiyaların həcminin artırılması.

Qeyri-neft sektorunun inkişaf etdirilməsi Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafının təmin olunması istiqamətində dövlət siyasətinin əsas prioritetidir. Qeyri-neft sənayesi sahəsində həyata keçirilən şaxələndirmə tədbirləri, investisiya mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişafı, bu sahə üzrə rəqabətqabiliyyətli yeni sahələrin müəyyənləşdirilməsi, eləcə də xarici ticarətin strukturunun təkmilləşdirilməsi strateji istiqamətlərdən biridir. Aparılan təhlillər göstərir ki, son illərdə ölkə iqtisadiyyatında həyata keçirilən islahatlar və düşünülmüş iqtisadi siyasət nəticəsində qeyri-neft sənayesinin inkişafı və onun ixracının genişləndirilməsi sahəsində ciddi nailiyyətlər əldə edilmişdir. Bu inkişafın davamlılığının təmin edilməsi, dünya iqtisadiyyatına inteqrasiya prosesində ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artırılması və ölkənin uzunmüddətli inkişaf strategiyasına uyğun olaraq qeyri-neft sahələrinin daha da inkişaf etdirilməsi məqsədilə müvafiq tədbirlər

sistemi davam etdirilir. Ölkənin qeyri-neft sənayesi üzrə dünya bazarında rəqabətqabiliyyətli yeni sahələrin inkişafı, həmçinin müqayisəli üstünlüklərə malik olan qeyri-neft sənayesi məhsullarının istehsalının stimullaşdırılması istiqamətində dövlət dəstəyi daha da gücləndirilir. Özəl sektorun iştirakı ilə son məhsul istehsalına qədər texnoloji zəncir qurulmalı və qeyri-neft sənayesinin ixrac potensialı gücləndirilməlidir.

“Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”na uyğun olaraq sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi və yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması xüsusi rola malikdir.

Sənaye siyasətinin əsas istiqamətləri kimi sənayenin rəqabət qabiliyyətinin artırılması və potensialının gücləndirilməsi, sənaye müəssisələrinin fəaliyyətinin dəstəklənməsi, sənaye zonaları və klasterlərinin qurulması və sənayenin kadr potensialının və elmi təminatının gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Sənayedə strateji struktur siyasətinin aparılması istehsalın texniki cəhətdən modernləşdirilməsinə, regionlararası təsərrüfat əlaqələrinin təkmilləşdirilməsinə və yeni sənaye komplekslərinin və sənaye klasterlərinin yaradılmasının stimullaşdırılmasına yönəldiləcəkdir. Eləcə də, struktur siyasəti çərçivəsində daxili bazarın tələbatını ödəyən və ixracı mümkün olan innovasiya əsaslı məhsul və texnologiyaların yaradılmasına üstünlük verilməlidir.

Gələcək dövrdə prioritet, dayanıqlı artım potensialına malik olan sahələrin inkişafının dövlət dəstəklənməsinə xüsusi diqqət yetirilməlidir. Onlara aşağıdakıları aid etmək olar:

- sənaye sahəsində qəbul edilən bütün proqram və konsepsiyalarda yüksək texnoloji və elmtutumlu istehsal sahələrinin inkişafının dəstəklənməsi;
- müəssisələrin texniki-texnoloji cəhətdən yenidən qurulması, müasir idarəetmə metodlarının tətbiqi ilə bağlı işlərin davam etdirilməsi;
- idxalı əvəz edəcək və ixrac yönümlü məhsulların istehsalının stimullaşdırılması;
- müqayisəli üstünlüyə malik olan və rəqabətədavamlı sənaye məhsulları istehsalının genişləndirilməsi;
- sənaye sahələrində fəaliyyət göstərən müəssisələrdə beynəlxalq standartların tətbiqinə nail olunması;
- sənaye klasterlərinin və müasir tipli sənaye komplekslərinin, sənaye parklarının yaradılması, hərtərəfli dəstəklənməsi;
- iqtisadi rayonlar üzrə sənaye infrastrukturunun genişləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi;
- investisiya-innovasiya proseslərinin yeni texnologiyalara tətbiqinin stimullaşdırılması;
- investisiya mənbələrinin müəyyənləşdirilməsi və səmərəliliyinin artırılması istiqamətində işlərin davam etdirilməsi;
- sənayenin inkişaf tempinin və əmək məhsuldarlığının yüksəldilməsinin prioritetliyinin təmin edilməsi.

Ölkə iqtisadiyyatının qeyri-neft sənayesinin əsas sahələrindən biri olan kimya sənayesinin inkişaf etdirilməsi və ortamüddətli dövrdə onun potensialından səmərəli istifadə olunması prioritet üstünlüyə malikdir. Bu baxımdan qarşıda duran vəzifələrə aşağıdakıları aid etmək olar:

- kimya sənayesinin sahə və ərazi strukturunun təkmilləşdirilməsi;
- Sumqayıt Kimya Sənaye Parkının fəaliyyətinin genişləndirilməsi istiqamətində işlərin davam etdirilməsi;
- istehsal olunan məhsulların çeşidinin təkmilləşdirilməsi;
- məhsul istehsalının həcminin artırılması, həmçinin fəaliyyətdə olan müəssisələrin yenidən qurulması;
- kimya sənayesi müəssisələrində enerji istehlakının azaldılması;

Bunlarla yanaşı, maşınqayırma sənayesinin inkişafının sürətləndirilməsi, istehsal olunan məhsulların xarici bazarlara çıxarılmasının və rəqabətədavamlılığının təmin edilməsi məqsədilə aşağıdakı kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- maşınqayırma sənayesinin müasir texnologiyalarla təmin edilməsi;
- bu sahəyə müasir sertifikatlaşdırma və standartlaşdırma qaydalarının tətbiq olunması;
- maşınqayırma sənayesinin ekoloji standartlaşma sisteminin tətbiq edilməsi;
- elmi-texniki potensialdan səmərəli istifadənin təkmilləşdirilməsi [3, s.8-12].

**Açar sözlər:** sahibkarlıq, innovativ sahibkarlıq, regional sahibkarlıq

**İstifadə edilmiş ədəbiyyat**

1. “Azərbaycan 2020: gələcəyə baxış, inkişaf konsepsiyası” Azərbaycan qəzeti, 5 dekabr 2012-ci il.
2. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı: 27 fevral 2014-cü il
3. Azərbaycan Respublikasında Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramının layihəsi. Bakı: 1 mart 2014-cü il
4. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının birinci ilinin yekunlarına həsr olunmuş konfransda prezident İ.H.Əliyevin nitqi. 27 yanvar 2015-ci il
5. Nazirlər Kabinetinin 2013-cü ilinin sosial-iqtisadi inkişafının yekunları və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda prezident İ.H.Əliyevin nitqi. Bakı: 15 yanvar 2014-cü il

**Кутаис Сарыев**

**ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ**

В статье рассматриваются основные направления и современные формы проявления стратегии предпринимательства в Азербайджане, в частности тенденции развития инновационного предпринимательства. В статье исследуются приоритетные направления развития отраслей промышленности, анализируются факторы, влияющие на балансированное развитие регионального предпринимательства и их отличительные особенности.

**Ключевые слова:** предпринимательство, промышленность, инновативное предпринимательство, региональное предпринимательство

**Kutais Sariyev**

**PRIORITY DIRECTIONS OF DEVELOPMENT OF ENTREPRENEURSHIP IN AZERBAIJAN**

**Summary**

The main directions and modern forms of entrepreneurial strategy in Azerbaijan, the main development trends in the formation of innovative entrepreneurship are analyzed in the article. The priority directions of development of the industry, the factors influencing on the balanced development of regional entrepreneurship and their distinctive features are investigated in the article.

**Keywords:** entrepreneurship, industry, innovative entrepreneurship, regional entrepreneurship

**UOT – 338.45**

**Nurəngiz Mikayılova**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d.**

# KARBOHİDROGEN İXRACININ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA TƏSİRİ

*Məqalədə əsas karbohidrogen məhsulu olan neftin dünya bazarına çıxarılması, ölkəyə valyuta axınının daxil olması kimi məsələlər araşdırılmış, Dövlət Neft Fondunun yaradılması məqsədləri göstərilmişdir. Eyni zamanda Dövlət Neft Fondu tərəfindən maliyyələşən layihələr tədqiq edilmiş, vəsaitlərin ölkənin sosial- iqtisadi inkişafina təsiri müəyyən edilmişdir.*

Neft Azərbaycanın ən qiymətli sərvətidir. Hasilatına başlanıldığı tarixdən bu günə qədər iqtisadiyyatımızda mühüm rol oynayan neft hal-hazırda da ölkənin əsas gəlir mənbəyi və ixrac mallarının əsas qaynağı sayılır. Müstəqillik qazandıqdan sonra ölkə inkişafının orta və uzunmüddətli perspektivləri birbaşa neft sektorunun güclənməsindən asılı olmuşdur. Neft satışından əldə edilən gəlirlər bəzi sosial və iqtisadi problemlərin həllində açar rolunu  bu gün də oynamaqdadır.

Azərbaycan enerji ehtiyatlarının kəşfi və inkişafı baxımından imzalanan neft müqavilələri ölkəyə xarici kapital axınını sürətləndirmiş, buna paralel olaraq da xarici yardımlar və beynəlxalq maliyyə təşkilatlarının verdiyi kreditlər artmışdır.

Xəzər regionu (Azərbaycan, Türkmənistan, Qazaxıstan, Rusiya və İran) 10 mlrd. barel təsdiqlənmiş neft ehtiyatına sahibdir. Təxmini neft ehtiyatlarının həcmi 233 mlrd. bareldir. Xəzər regionunun təsdiqlənən təbii qaz ehtiyatları isə, təxminən 170 Tcf-dir (trln. cobic feet). Özbəkistan da daxil olmaqla regionun təxmini təbii qaz ehtiyatları 293 Tcf-dir. Azərbaycanın imzaladığı müqavilələri əhatə edən zonalarda 6-8 mlrd. barel (1 mlrd. ton) neft ehtiyatı vardır. Sadəcə Azəri-Çıraq-Günəşli yataqlarının neft ehtiyatı 730 mln. tondur. Dünya neft ehtiyatlarının 0,7%-nə sahib olan Azərbaycanın fəaliyyətdə olan yataqlarında 200 mlrd. $m^3$ təbii qaz ehtiyatı vardır [9]. Dünyanın mühüm kondensat yatağı olan Şahdəniz yatağının kəşfi ilə birlikdə, aparılan 2 fərqli hesablamaya görə yatağın təbii qaz ehtiyatının 1 trln. $m^3$ olduğu təsbit edilmişdir. Azərbaycanın təsdiqlənən ümumi təbii qaz ehtiyatları isə 1,37 trln. $m^3$-dir. Təsdiqlənən təbii qaz ehtiyatlarına görə Azərbaycan dünyanın 0,8%-nə bərabər olan təbii qaz ehtiyatına sahibdir.

Aparılan hesablamalara görə, risk amili də diqqətə alınaraq, Azərbaycanda geoloji qaz ehtiyatlarının ümumi həcmi 8-10,7 trln. $m^3$-dir. Bu ehtiyatlarla Azərbaycan gələcək 10-15 il ərzində neftlə bərabər qaz da ixrac edən ölkələr arasına daxil olacaq.

Azərbaycan böyük neft şirkətləri ilə imzaladığı müqavilələrlə neft ehtiyyatlarını ölkə iqtisadiyyatına cəlb etməyi hədəf olaraq seçmişdir. Bu hədəf istiqamətində, qurudakı yataqlar da daxil olmaqla 20 sentyabr 1994-cü ildən etibarən Azərbaycanda dünyanın 19 ölkəsindən 33 şirkətin iştirakı ilə 23 beynəlxalq neft müqaviləsi imzalanmışdır. Hasilatın Bölgüsü Müqavilələri 25-30 illik dövrü əhatə edir. Qərarlaşdırılan sərmayənin ümumi həcmi 60 mlrd. dollardan çoxdur. Neft layihələrinin həyata keçirilməsində 72-si yerli olmaqla 400 şirkət iştirak edir. Şirkətlərin fəaliyyətləri inşaatdan ekoloji xidmətlərə qədər uzanır. Yerli və xarici şirkətlər arasında müttəfiqlik, müasir texnologiyaların, materialların, idarəetmə texnikalarının istifadəsinə imkan yaradır və beləliklə, mərkəzi idarəetmə tipindən bazar iqtisadiyyatına keçiddə böyük rol oynayır.

1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında dəyəri 7,4 mlrd. dollar olan “məhsulun pay bölgüsü” tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adlanmış, təxminən 400 səhifə həcmində və 4

dildə öz əksini tapmışdır. “Əsrin müqaviləsi”ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, Lukoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak etmişdir. Bu müqavilədə Böyük Britaniyanın “Britiş Petroleym” (qoyulacaq investisiyanın 17,12%-i) və “Remko” (2,08%), ABŞ-ın “Amako” (17,01%), “Yunikal” (11,2%), “Penzoyl” (9,81%), “MakDermott” (2,45%), Rusiyanın “Lukoyl” (10,0%), Norveçin “Statoyl” (8,56%), Türkiyənin “Türk petrolları şirkəti”nin (1,75%) və Azərbaycan Neft Şirkətinin isə 20% [6] payı var idi. Bununla da “Yeni neft strategiyası” və doktrinası uğurla həyata keçirilməyə başlandı. Müqavilə çərçivəsində ilk hasilat 1997-ci ildə mümkün oldu.

Azərbaycan Respublikası Dövlət Neft Fondu 29 dekabr 1999-cu ildə yaranmışdı. Neft Fondunun yaradılması prezident Heydər Əliyev tərəfindən əsası qoyulmuş uğurlu Milli Neft Strategiyasının ayrılmaz hissəsidir. “Dövlət Neft Fondu” haqqında Əsasnaməyə uyğun olaraq Neft Fondunun əsas vəzifəsi Azərbaycan Respublikası vətəndaşlarının bugünkü və gələcək nəsillərinin mənafeyi naminə neft və qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsi sahəsində bağlanmış sazişlərin həyata keçirilməsindən və Fondun öz fəaliyyətindən əldə olunan vəsaitlərin yığılmasını və səmərəli idarə olunmasını təmin etməkdir [5, s.143] ki, bu da aşağıdakı vəzifələri özündə birləşdirir:

1. Böyük həcmdə xarici valyutanın daxil olması şəraitində ölkədə makroiqtisadi sabitliyin qorunması və fiskal intizamın təmin edilməsi, eyni zamanda, neft gəlirlərindən asılılığın azaldılması;
2. Neft və qazın bərpa edilməyən təbii ehtiyat olduğunu nəzərə alaraq, onlardan əldə edilən gəlirin nəsillər arasında bərabər bölüşdürülməsi və gələcək nəsillər üçün ehtiyat vəsaitin toplanması;
3. Ölkənin sosial-iqtisadi tərəqqisi naminə mühüm ümummilli layihələrin maliyyələşdirilməsi [2].

Neft Fondu aşağıdakı ümummilli əhəmiyyətə malik layihələrin maliyyələşdirilməsini həyata keçirir:

1. Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi (tamamlanıb);
2. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz doğma yurdlarından didərgin düşmüş qaçqın və məcburi köçkün ailələrinin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və məskunlaşdırılması problemlərinin həlli layihəsi;
3. “Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi” layihəsi (tamamlanıb);
4. “Samur-Abşeron kanalının rekonstruksiya edilməsi” layihəsi;
5. Dövlət İnvestisiya Şirkətinin Nizamnamə kapitalının maliyyələşdirilməsi (tamamlanıb);
6. Bakı-Tbilisi-Qars layihəsinin maliyyələşdirilməsi;
7. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın maliyyələşdirilməsi [4, s.129].

Bundan başqa 2013-cü ildən etibarən Neft Fondu tərəfindən aşağıdakı layihələrin maliyyələşdirilməsinə başlanılıb:

- Azərbaycan Respublikasının bütün yaşayış məntəqələrinə çıxış imkanı yaradan yüksək sürətli fiber-optik şəbəkənin qurulması layihəsinin maliyyələşdirilməsi;
- Neft-qaz və Neft-kimya Kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi;
- Türkiyə Respublikasında “Star” neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi;
- TANAP layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi;
- Xəzər dənizində yeni müasir üzən qazma qurğusunun tikinti layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi.




**Şəkil 1. 2001-2015-ci illərdə ARDNF-nin xərcləri**

***Qeyd: Şəkil “Azərbaycanın statistik göstəriciləri 2015” materialları əsasında müəllif tərəfindən emal olunmuşdur**[3].*

2015-ci ildə dünya bazarında xam neftin qiymətlərindəki kəskin azalma ilə əlaqədar ARDNF-nin karbohidrogenlərin satışından əldə edilmiş gəlirlərində azalma müşahidə edilmişdir. Bununla yanaşı, ARDNF-nin investisiya portfelinə daxil olan valyutaların manata qarşı məzənnəsinin bahalaşması ilə əlaqədar olaraq, ötən ilin sonuna ARDNF-nin vəsaitlərində manat ifadəsində artım baş vermişdir. Hesabat ilində ARDNF-nin gəlirlərinin formalaşma mənbələrini Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilmiş gəlirlər, bonus ödənişləri, akrhesabı ödənişlər, neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər (tranzit haqqı) və ARDNF-nin vəsaitlərinin idarə edilməsindən əldə edilən gəlirlər təşkil etmişdir.

Ümumilikdə qeyd olunan gəlir maddələri üzrə ötən ildə ARDNF-nin gəlirlərində 2014-cü il ilə müqayisədə dollar ifadəsində 53%-ə qədər azalma baş vermiş, ARDNF-nin daxilolmaları 7 721,1 milyon manat (7 670,2 mln. ABŞ dolları) təşkil etmişdir.

Hazır məhsulun satış mərkəzindən məntəqələr *n* arasında paylanması məsələsini nəzərdən keçirək. Məntəqələr arasında məsafələrin matrisi $\{L_{ij}\}$ ümumi şəkildə aşağıdakı kimi verilir.

Həlqəvi marşrutların planlaşdırılması zamanı xüsusi ədəbiyyatda istifadə edilən “Tacir məsələsi” xarakterikdir [3].

Məsələnin mürəkkəbliyinə əmin olmaq və vəziyyəti aydınlaşdırmaq üçün altı məntəqəyə məhsulun paylanmasında məntəqələri keçmə ardıcıllığının mümkün 720 variantı olmasını qeyd etməliyik.

Məntəqələr arasında ən qısa marşrutu seçən zaman, məsafələrin matrisi tərtib edilərkən qraflar nəzəriyyəsinə görə yükün daşındığı məntəqələri qrafın təpələri (*m, V*) kimi təsvir etmək olar. Burada *m* - yükü daşıyan zaman nəqliyyat vasitəsinin getdiyi məntəqələrin çoxluğudur. *V* - aralarında avtomobil yolları ilə birləşdirilmiş məntəqələrin çoxluğudur. Məntəqələr arasındakı qövsləri *l`(i, j)* işarə edib, mövcud olan $(m_j, m_i)$ qövslərindən mütləq $(m_j, m_i)$ qövslərinin mövcuduğu yaranır.

Hazır məhsulun satış mərkəzindən *n* məntəqə arasında paylanması məsələsini nəzərdən keçirək. Məntəqələr arasında məsafələrin matrisi $\{L_{ij}\}$ ümumi şəkildə aşağıdakı kimi verilir.

Nəqliyyat aqreqatının ən qısa həlqəvi marşrutunun təyin edilməsi tam sonlu qrafda ən az uzunluğa malik hamilton yolunun tapılması deməkdir [5]:

$$L'(t) = \sum_{i,j=0}^{m} l'(i,j) \rightarrow min \qquad (7)$$

Burada *l`(i, j)* – *i*-ci məntəqədən *j*-ci məntəqəyə keçid məsafəsidir, km;
*i, j = 0, 1, 2, ... , m* – matrisin sütunları və sətirləri üzrə məntəqələrin nömrəsidir;
*m* - kənd təsərrüfatı yükünü paylayan zaman gedilən məntəqələrin sayıdır;
Məsafələrin nümunəvi matrisi cədvəl 1-də verilmişdir.

**Nəqliyyat aqreqatının məntəqələr arasında gediş məsafələrinin matrisi**

**Cədvəl 1.**

| Məntəqələrin nömrəsi | 0 | 1 | 2 | 3 | … … | $j$-1 | $j$ |
|---|---|---|---|---|---|---|---|
| 0 | ∞ | $l'(0,1)$ | $l'(0,2)$ | $l'(0,3)$ | … | $l'(0,j-1)$ | $l'(0,j)$ |
| 1 | $l'(1,0)$ | ∞ | $l'(1,2)$ | $l'(1,3)$ | … | $l'(1,j-1)$ | $l'(1,j)$ |
| 2 | $l'(2,0)$ | $l'(2,1)$ | ∞ | $l'(2,3)$ | … | $l'(2,j-1)$ | $l'(2,j)$ |
| 3 | $l'(3,0)$ | $l'(3,1)$ | $l'(3,2)$ | ∞ | | $l'(3,j-1)$ | $l'(3,j)$ |
| … | … | … | … | … | … | … | … |
| $i$-1 | $l'(i-1,0)$ | $l'(i-1,1)$ | $l'(i-1,2)$ | $l'(i-1,3)$ | … | ∞ | $l'(i-1,j)$ |
| $i$ | $l'(i,0)$ | $l'(i,1)$ | $l'(i,2)$ | $l'(i,3)$ | … | $l'(i,j-1)$ | ∞ |

0 – hərəkətin başlanğıc məntəqəsidir.

Aşağıda nəqliyyat vasitəsinin həlqəvi marşrut üzrə hərəkəti zamanı onun getdiyi yolun ən qısa məsafəsinin müəyyən edilməsinin sxemi verilmişdir.

Məsələnin alqoritmi:

1. Binar dəyişənlərin daxil edilməsi:

$$X_{ij} = \begin{cases} 1, & \text{nəqliyyat vasitəsi } P_i \text{ dən } P_j\text{-yə keçir,} \\ 0, & \text{keçməyəndə.} \end{cases}$$

2. Daşıma zamanı nəqliyyat vasitəsinin bütün məntəqələrdə olmaqla hərəkət yolunun uzunluğunun minimallığını təmin edən məqsəd funksiyası:

$$\sum_{i=1}^{n}\sum_{j=1}^{n} L_{ij}X_{ij} \to min \qquad (8)$$




**Şəkil 2. Həlqəvi marşrutda nəqliyyat vasitəsinin ən qısa yolunun müəyyən edilməsi**

3. Məhdudiyyətlər:

3.1. Nəqliyyat vasitəsi hər məntəqədən ancaq bir dəfə çıxa bilər:

$$\sum_{j=1}^{n} X_{ij} = 1, i = \overline{1,n}, \qquad (9)$$

3.2. Nəqliyyat vasitəsi hər məntəqəyə ancaq bir dəfə daxil ola bilər:

$$\sum_{i=1}^{n} X_{ij} = 1, j = \overline{1,n}, \qquad (10)$$

3.3. Qapalı dövrənin qurulmasını tələb edən məhdudiyyət şərti:

$$U_i - U_j + n\,X_{ij} \le n-1\,,\ i,j = \overline{2,n}, i \ne j. \qquad (11)$$

$U_i$, $U_j$ - $X_{ij}$ kimi ixtiyari tam ədədlərdir və təyin edilməlidir.

“Milla” süd məhsulları istehsal edən zavodun anbarından süd məhsullarının Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən $n = 6$ satış məntəqəsinə daşınması məsələsində ən qısa məsafənin MS Excel proqramında təyin edilməsini nəzərdən keçirək.

İstənilən halda məhdudiyyətlərin – bərabərsizliklərin ümumi sayı aşağıdakı ifadədən təyin edilir:

$$m = (n - 1)(n - 2)$$

Baxılan halda $m = 20$ alınır.

Satış məntəqələri arasındakı məsafələrin matrisi $L_{ij}$ aşağıdakı kimidir:

**Satış məntəqələri arasındakı məsafələrin matrisi**

**Cədvəl 2.**

| Satış məntəqələri | 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|---|
| 1 | ∞ | 21 | 37 | 20 | 14 | 42 |
| 2 | 15 | ∞ | 12 | 3 | 25 | 9 |
| 3 | 22 | 12 | ∞ | 31 | 7 | 28 |
| 4 | 19 | 6 | 24 | ∞ | 17 | 13 |
| 5 | 8 | 41 | 23 | 15 | ∞ | 6 |
| 6 | 16 | 4 | 8 | 11 | 5 | ∞ |

Matrisdə məntəqələr arasındakı məsafələrin gedişdə və gəlişdə fərqli olması şəhər daxili küçələrdə hərəkət istiqamətindən asılıdır, odur ki, $L_{ij} \neq L_{ji}$ olur.

$X_{ij}$ dəyişənlərin qiymətlər çoxluğu aşağıdakı kimidir:

**$X_{ij}$ dəyişənlərin qiymətlər çoxluğu**

**Cədvəl 3.**

| $X_{ij}$ | $X_{1i}$ | $X_{2i}$ | $X_{3i}$ | $X_{4i}$ | $X_{5i}$ | $X_{6i}$ | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| $X_{1j}$ | 0 | 0 | 0 | 1 | 0 | 0 | 1 |
| $X_{2j}$ | 0 | 0 | 0 | 0 | 0 | 1 | 1 |
| $X_{3j}$ | 0 | 0 | 0 | 0 | 1 | 0 | 1 |
| $X_{4j}$ | 0 | 1 | 0 | 0 | 0 | 0 | 1 |
| $X_{5j}$ | 1 | 0 | 0 | 0 | 0 | 0 | 1 |
| $X_{6j}$ | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 |
| Cəmi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |

Qapalı dövrənin qurulmasını tələb edən məhdudiyyət şərtinə (11) əsasən bütün məntəqələr üçün məhdudiyyət şərtləri təyin edilir.

Ümumi halda keçilən $n – 1= 5$ məntəqə üçün 20 məhdudiyyət şərti hesablanmalıdır. Hər məntəqə üçün 4 məhdudiyyət şərtindən nümunə kimi birini (11) məhdudiyyət şərtinə görə hesablasaq:

$U_2 - U_3 + 6\,X_{2,3} \leq -3$, (2-ci məntəqədən 3-cü məntəqəyə);

$U_3 - U_4 + 6\,X_{3,4} \leq -4$, (3-cü məntəqədən 4-cü məntəqəyə);

$U_4 - U_5 + 6\,X_{4,5} \leq -5$, (4-cü məntəqədən 5-ci məntəqəyə);

$U_5 - U_2 + 6\,X_{5,2} \leq 4$, (5-ci məntəqədən 2-ci məntəqəyə);

$U_6 - U_3 + 7\,X_{6,3} \leq 5$, (6-cı məntəqədən 3-cü məntəqəyə).

Beləliklə, bütün keçilən məntəqələr üçün məhdudiyyət şərtlərini MS Exceldə hesablayırıq:

**6 daşıma məntəqəsi (*n – 1= 5)* halı üçün (11) məhdudiyyət şərtlərinin qiymətləri**

**Cədvəl 4.**

| $U_i - U_j + n\,X_{ij}$ | $j = 1$ | $j = 2$ | $j = 3$ | $j = 4$ | $j = 5$ | $j = 6$ |
|---|---|---|---|---|---|---|
| $U_2 - U_j + 6\,X_{2j}$ | | 0 | - 3 | 1 | - 4 | 4 |
| $U_3 - U_j + 6\,X_{3j}$ | | 3 | 0 | 4 | 5 | 1 |
| $U_4 - U_j + 6\,X_{4j}$ | | 5 | - 4 | 0 | - 5 | - 3 |
| $U_5 - U_j + 6\,X_{5j}$ | | 4 | 1 | 5 | 0 | 2 |
| $U_6 - U_j + 7\,X_{7j}$ | | 2 | 5 | 3 | - 2 | 0 |

Beləliklə, nəqliyyat vasitəsinin ən qısa hərəkət marşrutu, 1 … → 5 … → 3 … → 6 … → 2 … → 4 … → 1 məntəqələrindən keşən marşrut olacaqdır, yəni nəqliyyat vasitəsinin məntəqələrdə olma ardıcıllığı aşağıdakı kimi olacaqdır:

$$l_1 \to l_5 \to l_3 \to l_6 \to l_2 \to l_4 \to l_1$$

Bu halda marşrutun ümumi uzunluğunun $\sum L_{ij} = 58\ km$ olduğu müəyyən edilir.

**Açar sözlər:** yük daşıma, marşrut, nəqliyyat, kənd təsərrüfatı

**İstifadə edilmiş ədəbiyyat**

1. Дыбская В. В. Логистика складирования (учебник). М.: ИНФРА-М, 2012, 559 с.
2. Исмайлов В.И. Выявление резервов увеличения производство селъско-хозяйственной продукции с исполъзованием математических методов / XX Международная научно-практическая конференция на тему «Россия и регионы: социалъные ориентиры политического и экономического развития». Челябинск: 2003, с. 293-301.
3. Мудров В.И. Задача о коммивояжере, М.: Знание, 1969, 66 с.
4. Мур Дж., Уэдерфорд Л. Экономическое моделирование в Microsoft Excel. М.: Вильямс, 2004, 1024 с.
5. Оре О. Теория графов. М.: 1980, 336 с.
6. http://gendocs.ru/v12241/?cc=4

**Вилаят Исмайлов**

## СЕТЕВАЯ МОДЕЛЬ ДЛЯ ОПРЕДЕЛЕНИЯ КОРОТКОГО ПУТИ ТРАНСПОРТНОГО АГРЕГАТА ПРИ ПЕРЕВОЗКЕ

### Резюме

Распределение сельскохозяйственных грузов между складом и центр торговли при определении оптимального маршрута в статье рассмотрена задача как сетевая. На основе условий ограничение перевозки с построением замкнутой цепи дано модель обеспечивающий самый короткий путь этого маршрута. Применение таких типа моделей дает возможность при решении транспортных задач выбрать оптимального варианта перевозки с минимальными расходами и расстояниями.

**Ключевые слова:** перевозка грузов, маршрут, транспорт, сельское хозяйство

**Vilayat Ismayilov**

## NETWORK MODEL IN THE DETERMINATION OF THE SHORTEST ROUTE OF TRANSPORT AGGREGATE IN THE TRANSPORTATION

### Summary

The distribution of agriculture goods between the warehouse and sales points in the determination of optimal route is considered as a network issue. A closed circle on the basis of restricted conditions is established and economic-mathematical model providing the shortest route of transport vehicle is created. The application of such types of models makes it possible while solving transport issues to choose the optimal variant of transportation with minimal costs and distance.

**Keywords:** cargo transportation, route, transport, agriculture

**UOT – 331.5**

**Mobil Məcidov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d., dosent**

# TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ SƏRİŞTƏYƏ VƏ FƏALİYYƏTİN NƏTİCƏLƏRİNƏ ƏSASLANAN ƏMƏYİN ÖDƏNİŞİ SİSTEMİNİN MEXANİZMİNİN QURULMASI

*Məqalədə təhsil müəssisələrində səriştəyə və fəaliyyətin nəticələrinə əsaslanan əməyin ödənişi sisteminin mexanizminin qurulmasına cəhd göstərilib. Bu məqsədlə mükafatlandırma və maddi həvəsləndirmə formaları nəzərdən keçirilərək, qiymətləndirmənin iki istiqamətdə aparılması məqsədəuyğun hesab edilib. Şərti olaraq birinci istiqamət “tədris fəaliyyəti”, ikinci istiqamət “elmi fəaliyyət” adlandırılıb. Təklif olunan mexanizmdə müəllimlərin fəaliyyətinin bütün istiqamətləri nəzərə alınıb.*

Təhsil müəssisələrində çalışan müəllimlərin həyat səviyyəsi onların əsas gəlir mənbəyi olan əməyinin ödənilməsi sisteminin həcmindən asılıdır. Əməyin ödənilməsi - əməyin nəticələrinə görə ödənilən haqdır ki, o müəllimləri öz vəzifə öhdəliklərini məsuliyyət və keyfiyyətlə yerinə yetirmələrinə motivasiya etməlidir. Bu baxımdan təhsil müəssisələrində səriştəyə və fəaliyyətin nəticələrinə əsaslanan əməyin ödənişi sisteminin mexanizminin qurulması, təhsilin müasirləşdirilməsi prioritet sayıldığı bir zamanda yalnız müəllimləri deyil, işəgötürənləri və ümumilikdə bütün cəmiyyəti maraqlandırmalı olan aktual məsələdir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 158-ci maddəsinin birinci bəndində qeyd olunur ki: “Əməyin ödənilməsi növləri, sistemləri, tarif (vəzifə) maaşları, ona edilmiş əlavələr, mükafatlar, digər həvəsləndirici ödənclərin miqdarı kollektiv müqavilələrlə, əmək müqavilələri ilə müəyyən edilir, kollektiv müqavilənin bağlanmadığı hallarda əmək müqaviləsi ilə və ya işəgötürənlə həmkarlar ittifaqları təşkilatı arasında razılaşmalarla müəyyən edilir”. Həmin Məcəllənin 157-ci maddəsinin ikinci bəndində göstərilir ki: “Əmək müqaviləsi üzrə öhdəliklərin yerinə yetirilməsində, istehsalın səmərəliliyinin və işin keyfiyyətinin artırılmasında işçilərin maddi marağını gücləndirmək məqsədi ilə mükafatlandırma, o cümlədən il ərzində işin yekunlarına görə mükafat və maddi həvəsləndirmənin digər formaları tətbiq edilə bilər [1, s.149]. Deməli, hər bir təşkilatın qanunvericiliyə uyğun olaraq müstəqil surətdə fəaliyyətin nəticələrinə əsaslanan mükafatlandırma və maddi həvəsləndirmə formaları tətbiq etmək imkanları vardır. Bu məqsədlə təşkilatlar stimullaşdırma alətlərindən istifadə etməlidirlər.

Təşkilatda heyətin idarə edilməsi prosesinin vacib şərtlərindən biri işçinin motivasiyası və stimullaşdırılması hesab olunur. Fred Lyutens göstərir ki, ayrı-ayrı müəlliflərin əsərlərində motivasiya - zərurət, motiv, məqsəd, arzu, ehtiras, tələbat, sövqetmə, mükafatlandırma, məram kimi ifadə olunur. Motivasiya nəzəriyyələrini qısaca olaraq A.Maslounun tələbatın iyerarxiyası nəzəriyyəsi, K.Alderferin tələbat nəzəriyyəsi, D.Mak-Klelladın motivasiyalı tələbat nəzəriyyəsi, F.Xertsberqin iki amili nəzəriyyəsi, D.Atkinsonun əməyin motivləşdirilməsi nəzəriyyəsi, S.Adamsın ədalətlilik nəzəriyyəsi, B.Skinnerin motivləşdirmənin gücləndirilməsi nəzəriyyəsi, V.Vrumun motivləşdirmə nəzəriyyəsi və Porter-Loulera motivləşdirmə nəzəriyyəsi kimi təsnifləşdirmək olar. Əgər M.Maslou insanın eyni zamanda müxtəlif səviyyəli tələbatının olduğunu müəyyən etmişsə, F.Hesrsberq adamların fəaliyyətinin iki qrup amillərdən (gigienik və motivləşdirici), V.Vrumom insan gözləməsinə təsir edən üç amildən asılı (səy, nəticə, mükafatlandırma) olduğunu göstərmişdir. D.Mak-Kllellandu müvəffəqiyyət, hakimiyyət arasındakı əlaqəni, Porter-Loulera motivasiyanın kompleks nəzəriyyəsi-

ni (mükafatlandırma, məmnun qalma, səy, gözləmənin səmərəsi, ədalətin qiymətləndirilməsi, işin nəticəsi, qabiliyyət və s.) irəli sürmüşdür [6, s.421-424].

Motivasiya insan münasibətlərinə istiqamət verən ən önəmli faktorlardan biridir. Formasından asılı olmayaraq bütün müəssisələr, qurum və təşkilatların ortaq hədəfi insanların fəaliyyətlərini öz məqsədlərini gerçəkləşdirməyə yönəltməkdir. Əmək fəaliyyətinin növündən asılı olmayaraq nəticə etibarı ilə istənilən məqsəd işin həyata keçirilməsidir. Bu işin görülməsi isə insanın istəyinin olması, işi mənimsəməsi və yetərincə səy göstərməsindən asılıdır. Bu istəyi yaradan fərdin motivasiya səviyyəsidir [11].

Motivasiya – özünü və başqalarını özünün şəxsi və ya ictimai məqsədlərə nail olunması üçün fəaliyyətə vadar etmə prosesidir [4, s.233]. Motivasiya – insanı fəaliyyətə sövq edən daxili emosional vəziyyətdir [12]. Motivasiya – insanı fəaliyyətə həvəsləndirən, onun fəaliyyətinin sərhəd və formalarını müəyyən edən, fəaliyyətinə istiqamət verən, məqsədlərinin reallaşdırılmasını istiqamətləndirən daxili və xarici stimullaşdırıcı qüvvələrin məcmusudur [9, s.338]. Motivasiya – insanı fəaliyyətə sövq etdirən və ya onu fəallaşdıran daxili və xarici hərəkətverici qüvvə və amillərin məcmusudur [3, s.61]. Motivasiya – təşkilatın məqsədinə yönəldilən ayrı-ayrı fərdlər və ya insanların stimullaşdırılması prosesidir. Bu proses işlərin səmərəli yerinə yetirilməsi və qərar qəbulunun tətbiqi üçün zəruridir [7, s.360]. Motivasiya – işçilərin tələbatlarının və təşkilatın məqsədinə nail olmaq baxımından heyətin və onun hər bir üzvünün fəal iştirakının canlandırılması prosesidir [8, s.143]. Motivasiya – insanları fəaliyyətə cəlb edən, daxili və xarici amillərin məcmusudur. Bu da fəaliyyətin sərhədlərini, formasını və müəyyən məqsədlərə nail olmaq üçün fəaliyyətin istiqamətini müəyyən edir [10, s.133]. Motivasiya – menecmentin funksiyası olmaqla, firma və ya şəxsin məqsədlərinə nail olmaq baxımından özünün və digərlərinin fəaliyyətinin canlandırılması prosesidir [5, s.182].

Hər bir təşkilat rəhbəri uğur əldə etmək üçün ilk növbədə öz işçilərinə diqqət yetirməli, onları maddi və ya qeyri-maddi formada rəğbətləndirməlidir. Artıq “şərəf lövhəsi” kimi köhnəlmiş motivasiya elementləri işləmir. Müasir iş həyatı yeni elementlər tələb edir. Dərin fantaziyaya malik rəhbərlər əməyi motivasiya etmək və stimullaşdırmaq üçün yeni metodlar axtarıb tapırlar. Hətta işinin vurğunu olan işçinin belə təriflənməyə, təşəkkür eşitməyə ehtiyacı vardır.

İnsanlar niyə tez-tez iş yerlərini dəyişir? İşçiləri bir işi digərinə dəyişməyə nə vadar edir? Niyə işçilər eyni stimula fərqli reaksiyalar verir? Niyə bəzi işçilər verilən tapşırıqları məsuliyyətlə yerinə yetirir, bəziləri isə sadəcə vaxtlarını keçirir? Bunlar rəhbərlərin daim özlərinə verdiyi suallardandır. Bu sualları ümumiləşdirək: insanları nə motivasiya edir, necə etməli ki, işçilər var gücləri ilə işləsinlər və görülən işin nəticəsində maraqlı olsunlar. Fikrimizcə bu sualların bir cavabı var: motivasiya. Motivasiya – insanın fəaliyyətini stimullaşdırmalı, intensivləşdirməli, onu qarşıya qoyulmuş məqsədə çatmağa istiqamətləndirməlidir. Yüksək motivasiya təşkilatın uğurunun əsas şərtidir.

Hazırda motivasiyanın iki növündən geniş istifadə olunur: maddi motivasiya və qeyri-maddi motivasiya. Maddi motivasiya pul və qeyri-pul kimi təsnifləşdirilir. Motivasiyanın pul formasına - əmək haqqı, əlavə ödənişlər, müavinətlər, kompensasiyalar, güzəştli kreditlər, ssudalar; qeyri-pul formasına - sosial (tibbi xidmət, sığorta, istirahət göndərişləri, qidalanma. nəqliyyat xərcləri) və funksional (əmək şəraitinin və şərtlərinin yaxşılaşdırılması) xidmətlər aid edilir. Qeyri-maddi motivasiya Sosial-psixoloji (peşə prestiji, inkişaf imkanı, təşkilatın ictimai imici); Mənəvi (rəhbərlik tərəfindən rəğbətlənmə, mükafatlar (məs.: şərəf nişanı)); Yaradıcı (özünüinkişaf imkanı; özünürealizə; təsnifat dərəcəsinin yüksəldilməsi) və Asudə vaxt (əlavə məzuniyyət; sərbəst iş qrafiki) kimi təsnifləşdirilir [13].

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda qeyd olunur ki, “Təhsilin maliyyələşdirilməsi mexanizmi təkmilləşdirilməli və təhsil sistemində rəqabət mühitinin inkişafını dəstəkləməlidir. Bunun üçün təhsilin bütün pillələrində adambaşına maliyyələş-

dirmə prinsipinin tətbiqi, səriştəyə və fəaliyyətin nəticələrinə əsaslanan əməyin ödənişi sisteminin yaradılması, maliyyələşdirmənin tədrisin keyfiyyət nəticələrinə görə müəyyən edilməsi məqsədəuyğundur" [2]. Bu baxımdan Azərbaycan Respublikasının təhsil sistemində səriştəyə və fəaliyyətin nəticələrinə əsaslanan əməyin ödənişi sisteminin mexanizminin yaradılması mühüm əhəmiyyət kəsb edir.

Hazırda ölkəmizin ayrı-ayrı təhsil müəssisələrində səriştəyə və fəaliyyətin nəticələrinə əsaslanan əməyin ödənişi sisteminin qurulmasına cəhd göstərilir. Həmin təhsil müəssisələrinin bir qismi əməkdaşların elmi fəaliyyətinin əlavə qiymətləndirilməsini nümunəvi mexanizm hesab edir. Düzdür belə qiymətləndirmənin stimullaşdırıcı cəhətləri vardır. Yəni, əlavə əmək haqqına görə bəzi əməkdaşların elmi fəaliyyətinin xeyli yüksəldiyi müşahidə olunur. Lakin mexanizm neqativ halların yaranmasına yol açır və əməkdaşlar müxtəlif yollarla elmi əsərlər əldə etməyə başlayırlar. Təhsil müəssisələrinin son illərdəki elmi fəaliyyətlərinin nəticələrinin təhlili göstərir ki, çoxmüəllifli dərsliklərin, dərs vəsaitlərinin, monoqrafiyaların, məqalələrin və s... sayı xeyli artmışdır.

Nümunə ola biləcək sistem Azərbaycan Dövlət İqtisad Universitetində tətbiq olunur. Hazırda universitetdə pedaqoji heyətin motivasiyasının təmini və müəllimlər arasında rəqabət mühitini gücləndirmək məqsədi ilə əmək haqlarına differensial əlavələrin edilməsi həyata keçirilir. Universitet Elmi Şurasının qərarı ilə təsdiq olunan "Azərbaycan Dövlət İqtisad Universitetində professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan differensial əmək haqqı sisteminin tətbiqi haqqında Qaydaları"na əsasən heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsi onların universitetdəki elm, tədris və özünüinkişaf fəaliyyət istiqamətləri üzrə həyata keçirilir. Mütəmadi olaraq hər ay üzrə differensial əmək haqqı sistemi əsasında müəllimlərin, kafedra və fakültələrin reytinq siyahısı universitetin rəsmi saytında yerləşdirilir. Əmək haqlarına əlavələr mövcud əmək haqqının 1,2-2 misli qədər nəzərdə tutulub. İlk onluğa daxil olan müəllimlərin maaşı iki dəfə, 11-30 onluğuna daxil olan müəllimlərin maaşı 1,7 dəfə, 31-60 onluğuna daxil olan müəllimlərin maaşı 1,5 dəfə, sonuncu 61-100 onluğuna daxil olan müəllimlərin maaşı isə 1,3 dəfə artırılacaq [14]. Hesab edirik ki, hazırladığımız mexanizmdə Azərbaycan Dövlət İqtisad Universitetinin təcrübəsindən istifadə etmək məqsədəuyğundur.

Ali təhsil müəssisəsində qiymətləndirmənin iki istiqamətdə aparılmasını məqsədəuyğun hesab edirik. Şərti olaraq birinci istiqaməti "tədris fəaliyyəti", ikinci istiqaməti "elmi fəaliyyət" adlandırmışıq. Tədris fəaliyyətinin qiymətləndirilməsi dərs ilinin sentyabr-dekabr və fevral-iyun aylarını əhatə edir. Hesablanmış əlavə əmək haqqı (stimullaşdırıcı əmək haqqı) tədris ilinin sonunda, yəni iyun ayında ödənilir. Elmi fəaliyyətin qiymətləndirilməsi təqvim ilini (yanvar-dekabr aylarını) əhatə edir. Hesablanmış əlavə əmək haqqı (stimullaşdırıcı əmək haqqı) təqvim ilinin sonunda, yəni dekabr ayında ödənilir.

İlk öncə "tədris fəaliyyəti"nə nəzər yetirək. Təklif edirik ki, tədris fəaliyyətinin qiymətləndirilməsi üç mərhələdə aparılsın: birinci mərhələdə mühazirə dərslərinin, ikinci mərhələdə isə məşğələ dərslərinin qiymətləndirilməsi həyata keçirilsin. Yekun mərhələdə isə qiymətləndirilmə tələbələr arasında keçirilən sorğunun nəticələrinə görə müəyyənləşdirilsin. Burada sual yarana bilər ki, müəllimlərin tədris fəaliyyəti necə müşahidə olunacaq? Təklif edirik ki, dərslər yalnız video-müşahidə vasitəsilə izlənilsin. Çünki, istənilən digər müşahidə metodu istər-istəməz dərs prosesinin pozulmasına səbəb ola bilər.

Mühazirə dərslərinin qiymətləndirilməsi üçün aşağıdakı mexanizmin tətbiqinin daha səmərəli olacağını düşünürük:

*- 41-50 bal – müəllim mühazirəni yazdırmadan onu tələbələrə izah edir; hər mühazirədən sonra mühazirənin geniş variantını elektron daşıyıcıda (kağız daşıyıcıda) tələbələrə təqdim edir və*

*ya onların e-mail ünvanına göndərir; mühazirələrdəki cədvəl, sxem, qrafik, diaqram və şəkilləri proyektor vasitəsilə nümayiş etdirir və dərsi onların üzərində qurur.*

*- 31-40 bal – müəllim mühazirə zamanı hər bir fikri (və ya sualın cavabını) yazdırdıqdan öncə və ya sonra onu tələbələrə izah edir; hər mühazirədən sonra mühazirənin geniş variantını elektron daşıyıcıda (kağız daşıyıcıda) tələbələrə təqdim edir və ya onların e-mail ünvanına göndərir; mühazirələrdəki cədvəl, sxem, qrafik, diaqram və şəkilləri proyektor vasitəsilə nümayiş etdirir və dərsi onların üzərində qurur.*

*- 21-30 bal – müəllim mühazirə zamanı hər bir fikri (və ya sualın cavabını) yazdırdıqdan öncə və ya sonra onu tələbələrə izah edir; hər mühazirədən sonra mühazirənin geniş variantını elektron daşıyıcıda (kağız daşıyıcıda) tələbələrə təqdim edir və ya onların e-mail ünvanına göndərir.*

*- 11-20 bal – müəllim mühazirə zamanı hər bir fikri (və ya sualın cavabını) yazdırdıqdan öncə və ya sonra onu tələbələrə izah edir; mühazirələrdəki cədvəl, sxem, qrafik, diaqram və şəkilləri proyektor vasitəsilə nümayiş etdirir və dərsi onların üzərində qurur.*

*- 6-10 bal – müəllim mühazirə zamanı hər bir fikri (və ya sualın cavabını) yazdırdıqdan öncə və ya sonra onu tələbələrə izah edir.*

*- 1-5 bal – müəllim mühazirəni izah etmədən yazdırır, mühazirələrdəki cədvəl, sxem, qrafik, diaqram və şəkilləri proyektor vasitəsilə nümayiş etdirir və dərsi onların üzərində qurur.*

Məşğələ dərslərinin əlavə qiymətləndirilməsində fəal (interaktiv) təlim metodlarının tətbiqi və müasir texnologiyalardan istifadə aparıcı rol oynayır. Fikrimizcə qiymətləndirmə zamanı “müzakirə” (diskussiya), “debat”, “qruplarla iş”, “beyin həmləsi” (əqli hücum), “təqdimat”, “tədqiqat” (layihənin hazırlanması), “klaster” (şaxələndirmə), “sorğu vərəqi”, “söz assosiasiyaları” metodlarından istifadə olunması daha məqsədəuyğundur. Bu metodların seçilməsi təsadüfi deyil. Müəllim məhz həmin metodlardan istifadə etməklə təhsilalanların fəallığının artırılmasına nail ola bilər. Həmin metodların məzmununa diqqət yetirək. Misal üçün: Müzakirə (diskussiya) metodu mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir və onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkanlar yaratmaqdır. Müzakirə (diskussiya) tələbədə təqdim etmək, dinləmək, sual vermək mədəniyyətini formalaşdırır, onun məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir [15]. Debat metodu özündə mübahisə, müzakirə və ziddiyəti birləşdirən çəkişmə fəaliyyətidir. Debat interaktiv və müxtəlif əks tərəflərin təmsilçilərindən ibarət müzakirə metodu olub, tələbədə danışıq qabiliyyətini inkişaf etdirir. Tələbə jest və mimikadan düzgün istifadə edir, auditoriya qarşısında sərbəst çıxış edir, onda düzgün faktlarla inandırmaq, rəqibə hörmətlə yanaşmaq qabiliyyəti formalaşır [16]. Qrup şəklində iş metodu 3-6 nəfərdən təşkil edilmiş kiçik qrupda tələbənin hansısa problemin həllinə yönəldilmiş birgə, uzlaşdırılmış fəaliyyətidir. Qrup işinin gedişində tələbələrin birgə fəaliyyəti nəinki əməkdaşlıq və müxtəlif problemləri bir yerdə həll etməyi öyrədir, həm də: hər bir tələbənin idrak prosesinə qoşula bilməsini təmin edir; təhsilalana öz fikrini söyləmək və başqalarını dinləmək imkanı verir; tələbələrin problemin həllində müxtəlif baxışların, yanaşma və üsulların mövcudluğunu, öz imkanlarını və qrupun digər üzvlərinin imkanlarını dərk etməsi üçün əlverişli şərait yaradır [17]. Beyin həmləsi (əqli hücum) metodu dərsdə 5-10 dəqiqə ərzində tələbələrin öyrənilən mövzu, problemin həlli yolları üzrə müxtəlif ideyaları irəli sürməsi vasitəsi kimi istifadə olunur. Beyin həmləsi (əqli hücum) tələbələrin yeni mövzu üzrə biliklərini sürətlə üzə çıxarmağa, onlarda müzakirə olunan məsələyə maraq oyatmağa imkan verir. Bu metodun tətbiqi tələbələri fəallaşdırır, verilən suala tez və düzgün cavab tapmağa, müxtəlif ideyalar irəli sürməyə həvəs yaradır [18]. Təqdimat metodu tələbənin tədqiqat fəaliyyətinin göstəricisi sayılır. Bu metod tələbələrə imkan verir ki, o, tədqiqatın nəticəsini müxtəlif yollarla təqdim edə bilsin, öz fikirlərini dəqiq ifadə etmək, mükəmməl nəticə çıxarmaq bacarığına yiyələnsin. Təqdimata hazırlaşan tələbə qrup halında işləyəndə ünsiyyət mədəniyyətinə yiyələnir, fikir bölüşməyi bacarır [19]. Tədqiqat (Layihələrin hazırlanması) metodu müxtəlif mövzuların müstə-

qil şəkildə tədqiq edilməsidir. Tələbələr öz layihələrini təqdim etmədən öncə uzun müddət onun üzərində işləyirlər. Layihələr tələbələrin tədqiqat vərdişlərinin, biliklərə müstəqil yiyələnmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır, onlara müstəqil şəkildə öz fəaliyyət proqramlarını qurmağa, habelə öz vaxtını və işini qrafik üzrə planlaşdırmağa kömək edir. Bu üsul həmçinin tələbələrin bir-biri ilə, eləcə də ali təhsil müəssisəsindən kənarda müxtəlif adamlarla qarşılıqlı əlaqəsi üçün şərait yaradır, hadisələrin hər hansı bir aspektini daha dərindən anlamağa imkan verir, əlavə ədəbiyyatdan istifadə etməyə istiqamətləndirir [19]. Hesab edirik ki, qeyd etdiyimiz bu metodları məşğələlərdə tətbiq edən müəllimin əməyi qiymətləndirilməyə layiqdir.

Məşğələ dərslərinin qiymətləndirilməsi üçün aşağıdakı mexanizmin tətbiqinin daha səmərəli olacağını düşünürük:

*- 41-50 bal – müəllim məşğələ zamanı “təqdimat”, “tədqiqat” (layihənin hazırlanması) kimi fəal (interaktiv) təlim metodlarından istifadə edir; məşğələdəki cədvəl, sxem, qrafik, diaqram və şəkilləri proyektor vasitəsilə nümayiş etdirir və onların üzərində dərsi qurur.* Burada layihələr fərdi, birgə (cütlərlə) və qrup şəklində hazırlanaraq təqdim oluna bilər.

*- 31-40 bal – müəllim məşğələ zamanı “debat”, “qruplarla iş” kimi fəal (interaktiv) təlim metodlarından istifadə edir; məşğələdəki cədvəl, sxem, qrafik, diaqram və şəkilləri proyektor vasitəsilə nümayiş etdirir və onların üzərində dərsi qurur.* Burada debat metodunun tətbiq olunacağı tələbələrə öncədən məlumat verilməlidir. Debat metodundan istifadə edərkən qrupların formalaşdırılması püşkatma yolu ilə müəyyənləşdirilir. Qruplarla iş metodundan istifadə edərkən qrupları formalaşdırdıqda hər qrupa eyni səviyyəli tələbələri daxil etmək daha məqsədəuyğundur. Çünki, qrupda müxtəlif səviyyəli tələbələr olduqda savadlı tələbələrin hesabına zəif oxuyan tələbələr də qiymət alır və ədalətlilik prinsipi pozulur. Düzdür qiymətləndirmə zamanı qrup öz daxilində ədaləti bərpa edə bilər. Lakin, təcrübə göstərir ki, əksər hallarda buna nail olmaq mümkün olmur.

*- 21-30 bal – müəllim məşğələ zamanı “müzakirə” (diskussiya), “beyin həmləsi” (əqli hücum) kimi fəal (interaktiv) təlim metodlarından istifadə edir; məşğələdəki cədvəl, sxem, qrafik, diaqram və şəkilləri proyektor vasitəsilə nümayiş etdirir və onların üzərində dərsi qurur.* Burada “müzakirə” (diskussiya) metodunun tətbiqinin müxtəlif mərhələlərində “beyin həmləsi” (əqli hücum) həyata keçirilə bilər.

*- 11-20 bal – müəllim məşğələ zamanı fəal (interaktiv) təlim metodlarından istifadə edir; məşğələdəki cədvəl, sxem, qrafik, diaqram və şəkilləri proyektor vasitəsilə nümayiş etdirir və dərsi işgüzar oyunların üzərində qurur.*

*- 1-10 bal – müəllim məşğələ zamanı fəal (interaktiv) təlim metodlarından ən azı 1-dən istifadə edir; məşğələdəki cədvəl, sxem, qrafik, diaqram və şəkilləri proyektor vasitəsilə nümayiş etdirir və onların üzərində dərsi qurur.* Burada dərs ənənəvi olaraq eyni bir metodun üzərində qurulur və digər metodlardan istifadə olunmur.

Məşğələ dərslərinin təşkilində müəllimin mövzunun xarakterinə uyğun hər məşğələdə müxtəlif fəal (interaktiv) təlim metodlarından istifadə etməsi də müşahidə oluna bilər. Bu halda ballar hesablanarkən daha çox hansı metodlardan istifadə olunduğu əsas götürülür. Misal üçün müəllim semestr ərzində 2 dəfə “təqdimat” və “tədqiqat” (layihənin hazırlanması), 6 dəfə “müzakirə” (diskussiya) və “beyin həmləsi” (əqli hücum), 3 dəfə “debat” və “qruplarla iş”, 4 dəfə “klaster” (şaxələndirmə), “sorğu vərəqi” və “söz assosiasiyaları” metodlarını tətbiq edərsə, “müzakirə” (diskussiya) və “beyin həmləsi” (əqli hücum) metodlarının tətbiqi əsas götürülür.

Qiymətləndirmə şkalasında qoyulan intervalların (41-50 bal və ya 31-40 bal) yuxarı və aşağı hədlərinin müəyyyənləşdirilməsi üçün tələbələr arasında keçirilən sorğunun nəticələri əsas götürülür. Məhz bu nəticələrə əsasən müəllim maksimum nəticə əldə edə bilər. Qeyd edək ki, təklif etdiyimiz mexanizmdə hər müəllim ayrı-ayrılıqda qiymətləndirilir. Sorğunun aşağıdakı formada aparılmasını təklif edirik:

**Müəllimin dərsinin məzmunu və təşkili baxımından qiymətləndirməsi**

**Cədvəl 1.**

| **Meyarlar** | **tam razıyam** | **razıyam** | **qismən razıyam** | **razı deyiləm** | **qiymətləndirə bilmirəm** |
|---|---|---|---|---|---|
| | **4** | **3** | **2** | **1** | **0** |
| 1. Müəllimin mühazirəsi informativdir, lazımsız məlumatlar verilmir | | | | | |
| 2. Müəllim mövzu üzrə tələbələrin verdiyi sualları sərbəst cavablandırır | | | | | |
| 3. Müəllim mühazirə zamanı peşəkar fəaliyyətin real təcrübəsindən nümunələr gətirir | | | | | |
| 4. Müəllim mövzu üzrə maraqlı diskussiya (müzakirə) təşkil edə bilir | | | | | |
| 5. Müəllim adətən tələbələrin çətinlik çəkdiyi məsələlərlə maraqlanır | | | | | |
| 6. Müəllim materialı hamıya anlaşılan formada təqdim edir | | | | | |
| 7. Müəllim dərsin məqsədini və mövzunun planını dəqiq nüəyyən edir | | | | | |
| 8. Müəllimin müəyyən etdiyi sərbəst iş tapşırıqları fənnin sərhədlərini aşmır | | | | | |
| 9. Mühazirənin məzmunu ilə imtahan sualları üst-üstə düşür | | | | | |
| 10. Müəllim semestr ərzində kollokviumlardan əlavə yoxlama imtahanları keçirir | | | | | |
| 11. Müəllim semestr ərzində keçirdiyi kollokviumların və yoxlama imtahanlarının nəticələrini tələbələrlə müzakirə edir | | | | | |
| 12. Müəllim dərs qrafikinə ciddi riayət edir | | | | | |
| 13. Müəllim dərslərin daha yaxşı təşkili baxımından tələbələrin təkliflərini nəzərə alır | | | | | |
| 14. Müəllim dərsin mövzusuna maraq yaratmağı bacarır | | | | | |
| 15. Müəllimin özünün dərsə dair tələb meyarları var və ona ciddi riayət edir | | | | | |
| 16. Müəllim tədris etdiyi fənn ilə gələcək peşəmiz arasında əlaqə yarada bilir | | | | | |
| 17. Müəllimin verdiyi informasiyalar ixtisasın müasir tələblərinə uyğundur | | | | | |
| 18. Müəllim auditoriyanı sərbəst idarə edə bilir | | | | | |
| 19. Müəllim tədris prosesində işgüzar oyunlardan istifadə edir | | | | | |
| 20. Müəllim fəal (interaktiv) təlim metodlarından istifadə edir | | | | | |
| 21. Müəllim biliyin qiymətləndirilməsində ədalətliliyi qoruyur | | | | | |
| 22. Müəllim mühazirəni yazdırmadan onu tələbələrə izah edir | | | | | |
| 23. Müəllim hər mühazirədən sonra mühazirənin geniş variantını elektron daşıyıcıda (kağız daşıyıcıda) tələbələrə təqdim edir və ya onların e-mail ünvanına göndərir | | | | | |
| 24. Müəllim mühazirələrdəki cədvəl, sxem, qrafik, diaqram və şəkilləri proyektor vasitəsilə nümayiş etdirir və dərsi onların üzərində qurur | | | | | |
| 25. Müəllim mühazirə zamanı hər bir fikri (və ya sualın cavabını) yazdırdıqdan öncə və ya sonra onu tələbələrə izah edir | | | | | |
| | **4** | **3** | **2** | **1** | **0** |
| 1. Müəllim mühazirəni izah etmədən yazdırır | | | | | |
| 2. Müəllim tələbələri mühazirəni yazmağa məcbur edir | | | | | |
| 3. Müəllimin mühazirəsi dərslikdəki mətnlə məhdudlaşır | | | | | |
| 4. Müəllim mühazirə zamanı səhvlər edir, dəqiq olmayan məlumatlar verir | | | | | |
| 5. Müəllim biliyin qiymətləndirilməsində ədalətliliyi qorumur | | | | | |
| 6. Müəllim tələbələrə səsini yüksəldir və onlara hörmətsizlik edir | | | | | |
| 7. Müəllim tələbələrin tapşırıqları yerinə yetirməməsinə səbəb olan həyat şəraitini nəzərə almır | | | | | |
| 8. Müəllim sərbəst işləri məşğələ dərslərində qəbul edir | | | | | |
| 9. Müəllim tələbələrə auditoriyadankənar vaxt ayırmır | | | | | |
| 10. Müəllim auditoriyanı idarə edə bilmir | | | | | |
| **Yekun bal** | | | | | |

İlk növbədə qeyd etməliyik ki, obyektivliyi təmin etmək üçün sorğu yaxşı oxuyan tələbələr arasında keçirilməlidir. Bu Sorğuya təklif etdiyimiz meyarlara əsasən 100 bal toplamaq mümkündür ki, burada da ilk 20 bala görə 1 bal, ondan yuxarı toplanan ballara görə isə hər 10 bala 1 bal əlavə oluna bilər. Misal üçün əgər sorğunun nəticələrinə əsasən müəllim tələbələrdən ortalama 70 bal almışdırsa, deməli onun həm mühazirə, həm də məşğələ dərslərinə görə topladığı balın üzərinə 6 bal (20 bala görə 1 bal + 50 bala görə 5 bal) əlavə olunacaqdır (yəni 41+6 və ya 31+6). Müvafiq olaraq əgər müəllim tələbələrdən ortalama 61-64 bal almışdırsa 5, 65-69 bal almışdırsa 6 bal əlavə olunacaqdır. Mexanizmə görə meyarlardan beşi mənfi qiymətləndirilir ki, qiymətləndirmədə mənfi bal da toplamaq mümkündür ki, belə olan hallarda müəllimin həm mühazirə, həm də məşğələ dərslərinə görə topladığı baldan mənfi bal çıxılacaqdır. Əgər video-müşahidə ilə sorğunun nəticələri arasında uyğunsuzluq aşkarlanarsa, bu halda video-müşahidənin nəticələri əsas götürülür.

Təklif olunan bu mexanizm mühazirə və məşğələ dərslərində müəllimin 100 bala qədər toplamasına imkan verir. 1 bal 20 manat prinsipi ilə qiymətləndirmə aparılarsa, onda müəllim tədris fəaliyyətinə görə il ərzində əmək haqqından əlavə 2000 manatadək vəsait əldə edə bilər. Bu mexanizmə alternativ olaraq semestrin və ya tədris ilinin nəticələrinə görə, növbəti semestr və ya tədris ili üçün əmək haqqı da müəyyənləşdirilə bilər. Bu halda qarşıya belə bir sual çıxır: nəticələrinə görə yüksək əmək haqqı alan müəllim, növbəti semestr və tədris ilində də belə məhsuldar işləyəcəkmi?

Təklif etdiyimiz mexanizm fakültə və kafedra əməkdaşlarının (fakültə dekanı, kafedra müdiri, dekan müavini, tyutor, laborant) da stimullaşdırılmasını nəzərdə tutur. Mexanizm müəllimlərin tədris fəaliyyətinə görə göstəricilərinin orta balına əsasən fakültə və kafedraların reytinq cədvəlinin formalaşmasını nəzərdə tutur. İlin sonunda ən yüksək nəticə göstərən fakültə və kafedraların əməkdaşları məhz reytinq cədvəlinə əsasən əlavə əmək haqqı alacaqlar. Reytinqin formalaşmasında hər bir müəllimin rolu var. Bir müəllimin aşağı nəticə göstərməsi həm kafedranın, həm də fakültənin göstəricisinə təsir göstərəcək. Əgər müəllim bir neçə kafedrada dərs aparарsa, onun nəticələrinin uçotu hər kafedra üzrə ayrı-ayrılıqda aparılacaq. Fakültə və kafedraların reytinq cədvəlinin formalaşmasını aşağıdakı formada nəzərdə tuturuq.

**Fakültə və kafedraların reytinq cədvəlinin formalaşması**

**Cədvəl 2.**

| **Maliyyə fakültəsi – 65.5** | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **№** | **Maliyyə kafedrası** | | **Bank işi kafedrası** | | **Sığorta işi kafedrası** | | **Statistika kafedrası** | |
| 1 | Abbasov İ.N. | 45 | Kamalov H.K. | 56 | Nuriyeva H.U. | 79 | Kamilov H.H. | 78 |
| 2 | Məmmədov H.K. | 51 | Əliyev D.D. | 45 | Zamanov K.H. | 66 | İsmayılov F.D. | 67 |
| 3 | Mahmudova S.S. | 67 | Səmədov Y.U. | 86 | Abışev S.L. | 53 | Məmmədova K.Y. | 54 |
| 4 | Fərəcova T.D. | 58 | Abbasova Q.T. | 64 | Əliyeva Y.E. | 67 | Məlikova T.U. | 92 |
| 5 | Əliyev C.D. | 57 | **Əliyeva F.D.** | **21** | Mərdanov M.M. | 60 | Vəliyeva P.O. | 76 |
| 6 | Vəliyeva D.F. | 87 | Mahmudov R.T. | 89 | Dəmirova G.R. | 89 | Səmədova T.R. | 59 |
| 7 | Axundov T.R. | 54 | Fərəcov T.R. | 76 | Səlimova A.S. | 75 | Əliyeva Q.T. | 61 |
| 8 | **İsmayılov L.K.** | **28** | Sultanov A.S. | 54 | Bayramov B.G. | 45 | | |
| 9 | Səmədova A.S. | 98 | | | Ziyadov S.R. | 83 | | |
| 10 | Cahanov D.L. | 78 | | | | | | |
| | **orta bal** | **62.3** | **orta bal** | **61.4** | **orta bal** | **68.6** | **orta bal** | **69.6** |

Bu nümunədə bir fakültənin və onun tərkibində fəaliyyət göstərən dörd kafedranın nəticələrini təqdim etmişik. Məlumatlardan göründüyü kimi kafedrada çalışan müəllimlərin sayının yekun göstəriciyə təsiri yoxdur. Zəif nəticə göstərən müəllimlər isə iki kafedranın göstəricisini aşağı salıb. Burada kafedra əməkdaşlarının ictimai qınağı zəif nəticə göstərən müəllimlərə təsir vasitəsi ola bilər və onlar da öz işlərində dönüş yaradarlar.

Elmi fəaliyyətin qiymətləndirilməsi mexanizmi daha geniş olmasına baxmayaraq tədris fəaliyyətinin qiymətləndirilməsi mexanizmindən nisbətən sadədir. Təklif etdiyimiz mexanizmdə elmi fəaliyyət bir neçə istiqamətdə qiymətləndirilə bilər. Qiymətləndirilmədə müəllimin çap və redaktə fəaliyyəti, işlərə rəy verməsi, dissertasiya müdafiə etməsi, elmi ad alması, müdafiə olunmuş dissertasiya işinə rəhbərlik və ya rəsmi opponentlik etməsi, elmi konfranslar, elmi seminarlar, təqdimatlar və debatlar təşkil etməsi, elmi tədqiqat işi aparması, orden, medal, fəxri ad və ya digər mükafat alması, qrant layihələrində iştirakı əsas kimi götürülür.

Müəllimin çap fəaliyyətində dərslik, monoqrafiya, dərs vəsaiti, metodik vəsait və tərcümə olunmuş əsərlər hər çap vərəqinə görə, proqram, məqalə və tezis isə sayına görə qiymətləndirilir. Təklif edirik ki, dərsliyin hər çap vərəqinə görə 10 bal, monoqrafiyanın hər çap vərəqinə görə 8 bal, dərs vəsaitinin hər çap vərəqinə görə 7 bal, metodik vəsaitin hər çap vərəqinə görə 5 bal və tərcümə olunmuş əsərin hər çap vərəqinə görə 4 bal, proqramın hər vahidinə görə 10 bal, xaricdə çap olunan məqalənin hər vahidinə görə 40 bal, respublikada çap olunan məqalənin hər vahidinə görə 20 bal (burada məqalədə olan istinadların sayı qədər bal əlavə olunur), xaricdə çap olunan tezisin hər vahidinə görə 30 bal, respublikada çap olunan tezisin hər vahidinə görə 15 bal müəyyənləşdirilsin. Çap olunmuş əsərin bir neçə müəllifi olduqda müəyyənləşmiş bal onların sayına bölünür. Burada təsdiq üçün dərslik, dərs vəsaiti, monoqrafiya, metodik vəsait, proqramın bir nüsxəsi, məqalə və tezis üçün: jurnalın və ya toplunun titul səhifəsi; mündəricat; məqalənin və ya tezisin birinci və sonuncu səhifəsinin surətləri təqdim olunur. Burada stimullaşdırmanı artırmaq üçün “Ən məhsuldar müəllim” nominasiyası üzrə əlavə mükafat da təsis edilməsi, il ərzində ən çox elmi və metodiki işi çapdan çıxmış müəllimə əlavə olaraq müvafiq adda diplom verilməsi və bu fəaliyyət üçün 100 bal müəyyənləşdirilməsi nəzərdə tutulur. Burada təsdiq üçün ali təhsil müəssisəsinin elm və innovasiyalar üzrə prorektorunun rəyi əsas götürülür.

Müəllimin redaktə fəaliyyəti “elmi redaktor” və ya “redaktor” olması ilə fərqləndirilərək qiymətləndirilir. Təklif edirik ki, kitabın (burada kitab dedikdə dərslik, dərs vəsaiti, monoqrafiya, konfrans materialları nəzərdə tutulur) elmi redaktoru kimi 80 bal, redaktoru kimi 40 bal, kitabçanın (burada kitabça dedikdə metodik vəsait və ya metodik göstəriş nəzərdə tutulur) elmi redaktoru kimi 40 bal, redaktoru kimi 20 bal müəyyənləşdirilsin. Burada təsdiq üçün redaktə olunmuş dərslik, dərs vəsaiti, monoqrafiya, konfrans materialları, metodik vəsait və ya metodik göstərişin bir nüsxəsi təqdim olunur.

Ali təhsil müəssisələrində müəllimlərin diqqətdən kənarda qalan, lakin böyük əmək sərf etdikləri elmi fəaliyyətlərindən biri onların kitaba, kitabçaya, məqaləyə, avtoreferata və s... rəy verməsi ilə əlaqədardır. Müəllimlərin rəy fəaliyyətinə əlavə olaraq aparıcı təşkilat adından verilən rəyi və kitaba yazılan ön sözləri də daxil edilməlidir. Təklif edirik ki, kitaba (burada kitab dedikdə dərslik, dərs vəsaiti, monoqrafiya nəzərdə tutulur) verilən rəyə görə 15 bal, kitabçaya (burada kitabça dedikdə metodik vəsait, fənn proqramı nəzərdə tutulur) verilən rəyə görə 6 bal, məqaləyə verilən rəyə görə 5 bal, dissertasiyaya verilən rəyə görə 30 bal, avtoreferata verilən rəyə görə 10 bal, aparıcı təşkilat adından verilən rəyə görə 20 bal, kitaba yazılan ön sözə görə 15 bal müəyyənləşdirilsin. Burada

rəylər üçün: rəyin “əsli ilə düzdür” formasında təsdiq olunmuş surəti, ön söz yazılmış dərslik, dərs vəsaiti, monoqrafiya, konfrans materialları, metodik vəsaitin bir nüsxəsi təqdim olunur.

Müəllimlərin elmi fəaliyyətlərinin ən yüksək nöqtəsində elmi işlər dayanır. Müəllimin elmi fəaliyyəti kimi onların dissertasiya müdafiə edərək elmi dərəcə alması, elmi ad alması, fəlsəfə doktoru səviyyəsinə rəhbərlik etməsi, elmlər doktoru səviyyəsinə elmi məsləhətçi olması, dissertasiya müdafiəsində rəsmi opponent olması fərqləndirilərək qiymətləndirilir. Təklif edirik ki, elmlər doktoru elmi dərəcəsi aldığına görə 150 bal, fəlsəfə doktoru elmi dərəcəsi aldığına görə 100 bal, professor elmi adı aldığına görə 80 bal, dosent elmi adı aldığına görə 60 bal, elmlər doktoru səviyyəsinə elmi məsləhətçi olduğuna görə 60 bal, fəlsəfə doktoru səviyyəsinə rəhbərlik etdiyinə görə 40 bal, dissertasiya müdafiəsində rəsmi opponent olduğuna görə elmlər doktoru səviyyəsində 30 bal, fəlsəfə doktoru səviyyəsində 20 bal müəyyənləşdirilsin. Burada təsdiq üçün diplomun (elmlər doktoru, fəlsəfə doktoru, professor, dosent) “əsli ilə düzdür” formasında təsdiq olunmuş surəti; müdafiə olunmuş dissertasiya işinə rəhbərlik üçün: şəxsin elmi məsləhətçi və ya elmi rəhbər təyin olunması haqqında əmrin “əsli ilə düzdür” formasında təsdiq olunmuş surəti və müdafiə etmiş şəxsin müdafiə etməsini sübut edən sənədin “əsli ilə düzdür” formasında təsdiq olunmuş surəti təqdim olunur. Rəsmi opponent olmuş şəxslər üçün: avtoreferatın birinci və ikinci səhifəsinin “əsli ilə düzdür” formasında təsdiq olunmuş surəti təqdim olunur.

Ali təhsil müəssisələrində beynəlxalq və respublika səviyyəli elmi tədbirlərin, xüsusilə, konfrans, simpozium, elmi seminar, təqdimat və debatların təşkil olunması kimi tədbirlərin təşkilatçılarının və bu tip kənar tədbirlərin iştirakçılarının qiymətləndirilməsini də zəruri hesab edirik. Tədbirlərin təşkilatçılarını şərti olaraq rəhbər və təşkilatçı kimi fərqləndirmişik. Təklif edirik ki, beynəlxalq və respublika səviyyəli konfrans və simpoziumları təşkil edən rəhbərlərə (konfransın rəhbəri) 100 bal, təşkilatçılara (konfransın rəhbərinə təşkilati işlərdə kömək edənlər) 30 bal, elmi seminar, təqdimat və debatları təşkil edən rəhbərlərə 50 bal, təşkilatçılara 20 bal müəyyənləşdirilsin. Burada təsdiq üçün konfransların, simpoziumların, elmi seminarların, təqdimatların və debatların rəhbəri və təşkilatçıları haqqında ali təhsil müəssisəsinin elm və innovasiyalar üzrə prorektorunun bu tədbirlərlə bağlı rəyi əsas götürülür. Kənarda keçirilən beynəlxalq və respublika səviyyəli konfrans və simpoziumlarda iştirak edən əməkdaşlar üçün isə 20 bal müəyyənləşdirilməsini məqsədəuyğun hesab etmişik. Burada təsdiq üçün konfrans və simpoziumları təşkil edən təşkilatın elmi işlər üzrə məsul şəxsinin rəyi əsas götürülür.

Ali təhsil müəssisəsinin elmi fəaliyyətinin əsas istiqamətlərindən biri də fundamental elmi-tədqiqat işlərinin yerinə yetirilməsi hesab olunur. Təklif edirik ki, elmi-tədqiqat işləri qiymətləndirilməzdən öncə müəssisədə yerinə yetirilən işlərin ümumi qiymətləndirilməsi aparılsın və ən yaxşı yerinə yetirilən 3 iş müəyyənləşdirilsin. Yaxşı olar ki, I, II və III yerlər əlavə olaraq Elmi şurada diplomlarla təltif olunsunlar və “Ən yaxşı elmi tədqiqat işi” nominasiyası üzrə I diploma layiq görülmüş iş üçün 100 bal, II diploma layiq görülmüş iş üçün 80 bal, III diploma layiq görülmüş iş üçün 60 bal müəyyənləşdirilsin. Elmi-tədqiqat fəaliyyətinin digər istiqamətini tələbə elmi tədqiqat işlərinə (TETİ) və tələbə elmi cəmiyyəti (TEC) xətti ilə tələbələrə rəhbərlik tutur. Təklif edirik ki, tələbə elmi tədqiqat işlərinə rəhbərlik üçün 50 bal, tələbə elmi cəmiyyəti xətti ilə tələbələrə rəhbərlik üçün 20 bal müəyyənlədirilsin. Bir şərtlə ki, müəllimin rəhbərliyi altında yerinə yetirilən elmi-tədqiqat işi tamamlanmış olsun, tələbə elmi cəmiyyəti xətti ilə müəllimin rəhbərliyi altında elmi işi yerinə yetirən tələbə istənilən təhsil müəssisəsinin tələbə elmi cəmiyyətinin təşkil etdiyi konfrans-

larda yer tutsun. Burada ali təhsil müəssisəsinin elm və innovasiyalar üzrə prorektorunun rəyi əsas götürülür.

Hazırlanmış layihədə ordenlər, medallar, fəxri adlar, mükafatlar qrant layihələri üçün də stimullaşdırıcı tədbirlər nəzərdə tutulub. Təklif edirik ki, ordenlər üçün 100 bal, medallar üçün 75 bal, fəxri adlar üçün 50 bal, digər mükafatlar üçün 25 bal, qrant layihələrinin rəhbəri üçün 100, koordinatoru üçün 75 bal, ekspertlər üçün 50 bal müəyyənləşdirilsin. Burada təsdiq üçün mükafatların əsli göstərilməklə, onların verilməsini təsdiqləyən sənədin surəti və ya rəsmi qəzetlərdə çıxmış elan təqdim olunur. Qrant layihələri üçün qrant layihəsinin qazanılmasını təsdiq edən sənədin əsli göstərilməklə surəti təqdim olunur.

Təklif olunan bu mexanizmdə 1 bal 2 manat prinsipi ilə qiymətləndirmə aparılarsa, onda müəllim elmi fəaliyyətinə görə il ərzində əmək haqqından əlavə 5000 manatadək vəsait əldə edə bilər.

Kafedraların və müəllimlərin fəaliyyətini stimullaşdıran digər vasitə müəllimlərin elmi fəaliyyətindəki uğurları ilə bağlıdır. Təklif edirik ki, ildə bir dəfə elmi və tədris-metodiki əsərlər üzrə "Ən məhsuldar müəllim" və "Ən məhsuldar kafedra" nominasiyaları üzrə qiymətləndirmə aparılsın. Hesab edirik ki, belə qiymətləndirmə həm müəllimlərin, həm də bütövlükdə təhsil müəssisəsinin elmi fəaliyyətinin inkişafına təkan verər.

Yekun olaraq belə qənaətə gəlirik ki, təhsil müəssisəsində çalışan əməkdaşların tədris və elmi fəaliyyətinin səriştəyə və nəticələrə əsasən qiymətləndirilməsi, son nəticədə onların sosial-iqtisadi rifah halını yaxşılaşdırmaqla bərabər, peşəkarlıq səviyyəsinin yüksəlməsinə və elmin inkişafına səbəb olacaqdır.

**Açar sözlər:** differensial əmək haqqı, əməyin ödənişi sistemi, təhsil müəssisəsi, tədris fəaliyyəti, elmi fəaliyyət

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı: Qanun nəşriyyatı, 2014, 296 s.
2. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Bakı: 24 oktyabr 2013-cü il.
3. Abbasov İ.M., Sadıqov R.F. Menecment (Dərs vəsaiti). Bakı: BBU nəşriyyatı, 2013, 205 s.
4. Ələkbərov Ə.H., Vəliyev M.Ə., Pürhani S.H. Menecment (Dərslik). Bakı: Çaşıoğlu nəşriyyatı, 2013, 600 s.
5. Фатхутдинов Р.А.. Инновационный менеджмент (Учебник). М.: ЗАО Бизнес-школа Интел-Синтез, 1998, 600 с.
6. Quliyev T.Ə. Menecmentin əsasları. Bakı: Qərənfil nəşriyyatı, 2006, 591 s.
7. Мексон М., Альберт М., Хедоури Ф. Основы менеджмента. 3-е издание. Пер. с. анг. М.: ООО И.Д. Вильямс, 2007, 672 с.
8. Менеджмент. Под ред. М.М.Максимцова, А.В.Игнатьевой. М.: ЮНИТИ, 1998, 343 с.
9. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment (Dərslik). Bakı: Təhsil EİM, 2005, 1000 s.
10. Виханский О.С., Наумов А.И. Менеджмент. М.: Гардарики, 1999, 528 с.
11. https://az.wikipedia.org/wiki/Motivasiya
12. http://dnevnyk-uspeha.com/psihologiya/motivatsiya-kak-motivirovat-sebya.html

13.http://studme.org/48987/menedzhment/motivatsiya_stimulirovanie_rabotnikov_protsesse_ispolzovaniya_personala. Мотивация и стимулирование работников в процессе использования персонала.
14.http://azertag.az/xeber/UNEC_de_differensial_emekhaqqi_sisteminin_neticeleri_achiqlanib_VIDEO-992889 (16.09.2016) UNEC-də differensial əməkhaqqı sisteminin nəticələri açıqlanıb.
15.http://www.kurikulum.az/images/mektebeqeder/TLM%20STRATEGYALARI5.pdf
16. https://az.wikipedia.org/wiki/Debat (15.11.2015) Debat.
17. http://www.kurikulum.az/images/tedqiqat2012/TPIhesabat6.pdf. Dərsin kiçik qruplarla, cütlərlə, fərdlərlə təşkili texnologiyalarının təhlili.
18.http://www.kurikulum.az/images/kurikulumTam/edebiyyat2014.pdf.Əqlihücum
19. http://inteqrasiya.az/interaktiv-dərslərdə-istifadə-edilən-metod-və-texnikalar/(16.12.2013) İnteraktiv dərslədə istifadə edilən metod və texnikalar.

**Мобиль Меджидов**

## СОЗДАНИЕ МЕХАНИЗМА ОПЛАТЫ ТРУДА НА ОСНОВЕ КОМПЕТЕНТНОСТИ И ПРОИЗВОДИТЕЛЬНОСТИ В ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

### Резюме

В статье сделана попытка установить механизм системы оплаты труда в образовательных учреждениях на основе компетентности и производительности труда преподавателей. В этих целях рассмотрены формы материального стимулирования. Считается, что оценку целесообразно дать в двух направлениях. В предложенном механизме были учтены все направления деятельности преподавателей.

**Ключевые слова:** дифференциальная заработная плата, система оплаты труда, учебное заведение, «учебная» деятельность, «научная» деятельность

**Mobil Majidov**

## ESTABLISHMENT OF THE MECHANISM OF LABOUR PAYMENT SYSTEM BASED ON THE RESULTS OF THE COMPETENCE AND ACTION IN EDUCATION INSTITUTIONS

### Summary

The establishment of the mechanism of labour payment system in education institutions based on the results of the competence and action was explored in the article. The forms of material stimulation were looked though. It is advisable to carry out the assessment in two directions. All directions of the activity of teachers were taken into account in the presented mechanism.

**Keywords**: differential wages, labour payment system, education institution, teaching activity, scientific activity

# “ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR”

## Elmi-praktiki jurnal

## № 2 (06), 2016

**Redaktorlar:**

***Gülnarə Hacıyeva, Lətifə Məcidova, Qızılgül Əlimirzəyeva***

**Kompüter tərtibatı:**

***Pərvanə Məcidova***

**Dizayn:**

***Mail Xəlilov***

Yığılmağa verilib: 28.11.2016
Çapa imzalanıb: 27.12.2016
Format: 70x100 16/[1]
7.62 ş.ç.v
Tiraj: 200

***Azərbaycan Əmək və Sosial Münasibətlər***
***Akademiyasının mətbəəsi***